***Rəhimov İlham Məmmədhəsən oğlu***

*14 yanvar 1951-ci ildə Azərbaycan Respublikasında anadan olmuşdur. 1970-ci ildə Leninqrad Dövlət Universitetinin hüquq fakültəsinə, 1975-ci ildə Leninqrad Dövlət Universitetinin cinayət hüququ kafedrası üzrə aspitanturanın əyani şöbəsinə daxil olmuş, 1978-ci ildə isə hüquq elmləri namizədi elmi dərəcəsini almışdır.*

*1982-1992-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik idarəsinin müdiri vəzifəsində işləmiş, Kollegiyanın üzvü olmuşdur. Bu müddət ərzində İ.Rəhimov tərəfindən çoxlu sayda normativ aktlar, eləcə də qanunvericilik aktları üzrə nəticələr hazırlanmışdır.*

*1988-ci ildə Leninqrad Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. Bununla da o, postsovet məkanında cinayət hüququ sahəsində ən gənc elmlər doktoru olmuş, 1996-cı ildə isə professor elmi adını almışdır.*

*1992-1996-cı illərdə Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri Elmi-tədqiqat İnstitutunun direktoru vəzifəsində işləmişdir.*

*1996-2000-ci illərdə müxtəlif elmi müəssisələrdə hüquq elmindən dərs demiş, eləcə də Ali Diplomatiya Kollecində elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir.*

*Cinayət və cəza-icra hüququ üzrə yüzə yaxın elmi məqalənin, məhkəmə hakimiyyəti və qanunvericiliyin fundamental problemlərinə həsr olunmuş bir neçə monoqrafiyanın müəllifidir. Onların arasında: İslah-əmək təsirinin nəzəri və praktiki problemləri (Bakı, 1981); Məhkəmə proqnozlaşdırılmasının nəzəriyyəsi (Bakı, 1987); Cəzanın fəlsəfəsi və onun vəzifəsi problemləri (Bakı, 1998); Cinayətkarlıq və cəza (Moskva, 2012). İ. Rəhimov 1992-93-cü illərdə hazırlanmış məhkəmə sistemində islahatlar Konsepsiyasının ilk müəllifi olmuşdur. 1994-cü ildə isə cinayətkarlıqla mübarizə üzrə dövlət proqramını hazırlamışdır.*

*O, 18 aprel 2004-cü ildə Rusiya Təhlükəsizlik, Müdafiə, Qanunun Aliliyi Akademiyasının akademiki seçilmişdir. İlham Rəhimov bu akademiyanın akademiki adına layiq görülmüş ikinci azərbaycanlıdır.*

*2005-ci ildə Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi sahəsində gördüyü işlərə görə 2-ci dərəcəli Böyük Pyotr ordeni ilə təltif olunmuşdur. O, birinci azərbaycanlıdır ki, bu ordenə layiq görülmüşdür.*

*27 avqust 2009-cu ildə Beynalxalq Qara dəniz və Xəzər dənizi Əməkdaşlıq və Tərəfdaşlıq üzrə Beynəlxalq Fondunun Direktorlar Şurasının Fəxri üzvü seçilmişdir. Xalqlar və dinlərin bir-birinə yaxınlaşması, eləcə də cəmiyyətin inkişafında xidmətlərinə görə Beynəlxalq Fondun diplom və medalları ilə təltif edilmişdir. Fondun ilk diplomu Azərbaycan Respublikasının təmsilçisinə verilmişdir.*

*2011-ci ildə İ. Rəhimova Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar Hüquqşünası" fəxri adı verilmişdir. 2011-ci ildə Fransanın "Beynalxalq İnsan hüquqları müdafiə komitəsinin" I dərəcəli (ali) "Aypara və ulduz" ordeni ilə təltif edilmiş və ona beynəlxalq "Aypara və ulduz" ordeninin kavaleri fəxri adı verilmişdir.*

*O, həmçinin 2014-cü ilin fevral ayında mərkəzi ofisi Nyu-Yorkda yerləşən Albert Enişteyn adına Beynəlxalq Fondun laureatı adına layiq görülmüşdür.*

*Professor İ. Rəhimov 9 mart 2014-cü ildə İstanbul şəhərində "Qara Dəniz-Xəzər Dənizi Əməkdaşlıq və Tərəfdaşlıq üzrə Beynəlxalq Fondunun fəaliyyətinin inkişafına verdiyi xüsusi töhfəyə görə" mükafata layiq görülmüşdür.*

**İ.M. Rəhimov**

# CİNAYƏT VƏ CƏZANIN FƏLSƏFƏSİ

**Bakı – 2014**

**Hüquq Mərkəzi Assosiasiyası**

**Rəyçilər:**

***S. Y. Hüseynov***, fəlsəfə elmləri doktoru, RF Avrasiya İnzibati Elmlər Akademiyasının müxbir üzvü

***Ə. H.Rzayev,*** hüquq elmləri doktoru

***F. M.Cavadov***, hüquq elmləri doktoru, professor

***A. V.Salnikov***, RF prokurorluğunun fəxri əməkdaşı

***R.C.Əzimova***, fəlsəfə elmləri doktoru, əməkdar elm xadimi

***M.Ə. Cəfərquliyev,*** hüquq elmləri doktoru, professor

***X.C.Ələkbərov,*** hüquq elmləri doktoru, professor

**Rəhimov İ.M.**

**Cinayət və cəzanın fəlsəfəsi** – Bakı, "Şərq-Qərb" nəşriyyatı. Səh.

Monoqrafiyada cinayət hüququnun, cinayət və cəzanın fəlsəfəsi ilə bağlı başlıca problemləri tədqiq edilmişdir. Müəllif həmçinin cinayətin mənbəyi, cəzanın mahiyyəti, cinayətkarlığın və cəzalandırmanın gələcək məsələləri haqqında öz fəlsəfi düşüncələrini bölüşmüşdür.

Kitab hüquq üzrə ali məktəblərin tələbələri, magistr və doktorantları, müəllimləri, hüquq mühafizə orqanlarının əməkdaşları , cinayət hüququ sahəsində ixtisaslaşan nəzəriyyəçilər və praktiki fəaliyyətlə məşğul olan mütəxəssislər, eləcə də filosoflar, sosioloqlar, psixoloqlar və cinayətkarlıqla mübarizə problemi ilə maraqlanın oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**MÜNDƏRİCAT**

**GİRİŞ**

**I FƏSİL. CİNAYƏT**

***Anlayışı və mahiyyəti. Səbəb və mənbələri. Cinayətkarın şəxsiyyəti. Cinayətkarlığın gələcəyi.***

1.1. Cinayətin anlayışı və mahiyyəti
1.2. Cinayətkar davranışın səbəb və mənbələri
1.3. Cinayətkarın şəxsiyyəti
1.4. Cinayətkarlığın gələcəyi

**II FƏSIL. CƏZA**

***Anlayışı və mahiyyəti. Məzmun və xüsusiyyəti. Cəzalandırma hüququ. Cəzanın gələcəyi.***

2.1. Anlayışı və mahiyyəti.
2.2. Məzmun və xüsusiyyəti.
2.3. Cəzalandırma hüququ.
2.4. Cəzanın gələcəyi

**NƏTİCƏ**

**ƏLAVƏLƏR**

Qanun haqqında aforizmlər
Cinayət haqqında aforizmlər
Cəza haqqında aforizmlər

## Giriş

**I.** Cəza problemi üzərində uzun müddətli işləməymlə başa düşdüm ki, hər hansı bir elm sahəsi haqqında heç bir bilik tam əhatəli ola bilməz. İnsan sosial-təbii, maddi və mənəvi aləmin heç bir reallığını sona qədər öyrənə bilmək iqtidarında deyildir. Ancaq o, həmişə həqiqəti dərk etməyə cəhd edir. Bu isə məlum olduğu kimi, bu və ya digər problemin dərin və uzun müddətli tədqiqatı nəticəsində mümkündür.

Mən cəza probleminin mahiyyətinə dərindən nüfuz etdikcə, bu mürəkkəb fenomenin dərk edilməsində ancaq hüquqi yanaşmanın məhdud olduğu qənaətinə gəldim, bu isə araşdırma prosesində cinayət hüququ və kriminoloji çərçivədən kənara çıxmağın zəruriliyini ortaya çıxardı.

Eyni zamanda, başa düşdüm ki, cinayəti və onun səbəblərini fəlsəfi cəhətdən dərk etmədən, cəzanı və onun mahiyyətini anlamaq mümkün deyildir. Çünki yalnız cinayətin nə olduğunu bilməklə, insan davranışları və bundan doğan reaksiyanı cəza adlandırmaq mümkün ola bilər.

Bu prinsipial müddəalardan çıxış edərək, cəza anlayışını cinayət və onun səbəbləri ilə birlikdə nəzərdən keçirməyə çalışdım. Bu istiqamətdə problemə yalnız hüquqi deyil, həm də fəlsəfi mövqedən yanaşdım. Nəticədə, qeyd edilən problemə dair daha əvvəl söylədiyim bəzi fikirlərimdən daşınmalı oldum. Lakin özümə amerikalı filosof, şair və publisist Ceyms Rassel Lovelin: "*Yalnız axmaqlar və ölülər öz fikirlərini heç vaxt dəyişmirlər*" - sözləri ilə təsəlli tapdım.

Mən cinayət və cəza problemləri ilə bağlı həqiqəti tapacağıma tam əmin deyildim, çünki bu sahədə elmi mübahisələr, əvvəlki kimi, hələ də səngimək bilmir. Mən yalnız öz əqidəmi yeni arqumentlərlə yoxlamağa cəhd etməyi qarşıma qoydum. Görəsən, mən bunu bacara biləcəyəmmi? Hegelə görə: "*Həqiqət axtarışında cəsarət və ağılın gücünə inam, fəlsəfə ilə*

*məşğul olmanın ilk şərtlərindəndir. İnsan özü özünə hörmət etməli və ozünü ən üstün, ən dəyərli şeylərə layiq bilməlidir. Ruhun gücü və sirri haqqında nə qədər yüksək fikirdə olsaq belə, yenə də bunlar kifayət etmir. Kainatın gizli mahiyyətində elə bir güc yoxdur ki, idraka müqavimət göstərə bilsin. Kainat insanın qarşısında öz təbiətinin dərinliklərini və sərvətlərini açmalı və ona bunlardan həzz almağa imkan verməlidir*"[1].

İlk əvvəl mövcud tədqiqatın predmeti olan cinayət və cəzanın fəlsəfəsi mənə tamamilə anlaşılmaz görünürdü. Bu isə kifayət qədər fəlsəfi tərif və anlayışlara müraciət etməyimə səbəb oldu. Bu anlayışların çoxluğu və mürəkkəbliyi, bəzən məni qorxudaraq, tədqiqat işindən yayınmağa gətirib çıxarırdı. Buna baxmayaraq mən idrakın biliksizlikdən–biliyə, dərk edilməməzlikdən–dərk edilməyə və sirrdən–həqiqətə doğru irəliləyən bir proses olduğunu bilirdim. Vaxtilə Leninqrad Dövlət Universitetində (indiki Sankt-Peterburq Dövlət Universiteti) müəllimimiz olmuş, akademik C.A.Kərimovun söylədiyi: "*İdrak da – dünya, həyat, varlıq, o cümlədən hüququn varlığı kimi sonsuzdur*"[2] – müdrik fikirləri məni həmişə düşündürmüşdür.

Eyni zamanda, mənə tam aydın olmuşdur ki, seçdiyim idrak yolunda çoxlu çətinlik və maneələri aşmalı olacağam. Əvvəlcədən qeyd edim ki, bizim sələflərimizin gərgin və şərəfli əməyi olmasaydı, biz öz gücümüzlə qabağa irəliləyə bilməzdik. Bunu da yada salmaq lazımdır ki, Q.Leybnitsin "*İdrak keçmişin oğlu, gələcəyin atasıdır*" – fikri dünyanın təkamül qanununun bir ifadəsidir.

Qeyd edək ki, dünyada və bizim həyatımızda elə bir şey yoxdur ki, əvvəllər bu haqda deyilməmiş olsun. Hansı ki, hər bir yeniliyin keçmişə aid olduğunu qeyd edirlər. Heç bir şərh və nəql

---

[1] *Гегель Г.В.Ф.* Энциклопедия философских наук. М., 1974. Т. 1. С.83.

[2] *Керимов Д.А.* Методология права. Предмет, функции, проблемы философии права. М., 2011. С. 7.

edilmiş əsər keçmişdə yaşayan mütəfəkkirlərin əsərləri ilə birbaşa tanışlıqdan alınan təəssüratın yerini verə bilməz və bir zamanlar ifadə edilmiş ideyaların həqiqi mənalarını aça bilməz. Mən fəlsəfə, din, hüquq tarixi, hətta cinayət və cəza mövzusu ilə əlaqəli digər elmlərlə tanış olduqdan sonra bu qənaətə gəldim.

**II.** Cinayət hüququnda hər zaman belə bir sual qoyulmuşdur: Cinayət və cəzanı yalnız hüquqi çərçivədə öyrənməklə kifayətlənə bilərikmi? Bu zaman qarşımıza qoyulan məqsədlərə çata bilərikmi? Cinayət hüququnun əhatəsinin genişlənməsini tələb edən ilk alimlərdən biri olmuş professor M.V.Duxovskiyə etiraz edən A.F.Kistyakovski qeyd etmişdir: "*Müəllif cinayət hüququna yalnız cinayəti araşdıran bir elm sahəsi kimi baxmağı doğru saymırsa, onu ayrıca hadisə kimi qəbul edib səbəblərini araşdırmırsa, onda belə bir sual vermək olar: elmimizdə nə edilə bilər ki, ictimai həyatın normalarına görə biz yalnız cinayəti və onun törədilməsinə uyğun olan cəzanı öyrənməyə məcbur olaq*"[3].

Şübhəsiz, cinayət və cəzanın hüquqi baxımdan öyrənilməsi nəinki, zəruridir, həm də vacibdir. M.P.Çubinskinin qeyd etdiyinə görə, "*bunu birdəfəlik yadda saxlamaq lazımdır ki, hər bir islahatçı təklif, qəbul və icra edilməlidir*"[4].

Ancaq bizə bu istiqamətdə cinayət və cəza anlayışlarının təməlində duran psixi və fiziki amillər, hətta cinayət törətmiş şəxsin əxlaqı, vərdişləri, cinayətə meyilliliyi və cinayət əməllərinin üsulları haqqında məlumat lazımdır. Bundan başqa, cinayətkarın özünü etik və hüquqi normalara uyğun aparması və bu istiqamətdə törədilən cinayətə görə cəzanın hüquqi tənzimlənməsi fəlsəfi yöndən əsaslandırılmalıdır. Çünki cinayət hüququ bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən zəruri

---

[3] Sitat bu kitabdan gətirilmişdir: *Сергиевский Н.Д.* Философские приемы и наука уголовного права // *Сергиевский Н.Д.* Избр. труды. М., 2008. С. 208.
[4] *Чубинский М.П.* Очерки уголовной политики. М., 2010. С. 24.

məlumatlar və biliklər vermir. Buna görə də biz insanın cinayətkar davranışını izah edib, cinayət və cəzanın mahiyyətini dərk etmək istəyiriksə, digər elmlərin nailiyyətlərindən də istifadə etməliyik. Burada söhbət cinayət hüququ problemlərinin öyrənilməsi və şərh olunması məqsədilə qeyri-hüquqi elmlərin metod və vasitələrindən istifadə edilməsindən gedir. Onların bu elmə daxil edilməsi haqqında heç nə iddia edilmir. E.Ferrinin "*Gələcəyin bütün ədliyyə sistemi cinayətkara sosial mühitdə hərəkət edən bir biokimyəvi şəxsiyyət kimi baxacaqdır*" fikri bütün bunlara əsas verir. Bu səbəbdən heç bir kompromis cəhdlərə yer verilmir. Elmin tərəqqisi üçün zəruri olan yeni üsullar, *"Cinayətin – mücərrəd hüquqi mahiyyət kimi – öyrənilməsini imkansız edir"*[5] – iddiaları həqiqəti əks etdirməyən ifadələr kimi dəyərləndirilə bilər.

Bununla belə, müasir ədliyyə sistemi cinayətkarın şəxsiyyətinin təyin edilməsində psixologiya, psixiatriya, genetika və tibb kimi elm sahələrinin nəticələrindən istifadə etməklə, cinayəti hüquqi və fəlsəfi mahiyyətdə dəyərləndirir. Daha doğrusu, hazırda cinayətin törədilməsi və cəza ilə əlaqəli problemlər təkcə kriminoloji və cinayət hüququ elmlərinin deyil, həm də fəlsəfə, sosiologiya, psixologiya və ilahiyyat sahələrində ən çox diqqəti cəlb edən problemlərdən hesab edilir.

Bəzən bu və digər anlayışın gündəlik təcrübədə geniş istifadə olunmasına baxmayaraq, ona tərif vermək çox çətin və hətta mümkün olmur. Buna görə də adi insanlar cinayət, ümumiyyətlə, cinayətkarlıq haqqında söhbət zamanı bu anlayışların mahiyyətinə və məzmununa varmırlar. Onlar üçün bu qəbildən olan anlayış və ifadələr anlaşılan və sadədir. Bu isə onlara bir-birlərini çox yaxşı başa düşmək imkanı yaradır. Müqəddəs Avqustin yazırdı: "*Məndən bu və digər anlayışların mənaları haqqında soruşmasalar belə, mən söhbətin nə haqqında getdiyini bilirəm. Məndən onların mənalarını başqa insanlara*

[5] *Ферри Э.* Sociol crimin. 1893. P. 14, 580, 584.

*anlatmağı xahiş edəndə isə, bunu edə bilmirəm".*

Cinayət və cəza anlayışlarının mürəkkəbliyi və çətin başa düşülməsi onların fəlsəfi mahiyyəti ilə izah olunur. Bu işin mürəkkəb olmasına baxmayaraq bu fenomenlərə yanaşmada onların fəlsəfi mahiyyətlərinin açılması üçün hər şeydən əvvəl, inteqrativ və bununla birlikdə dərin fəlsəfi yanaşmalara ehtiyac hiss edilir.

Y.V.Qolik qeyd etmişdir: *"Hüquqşünaslığın fəlsəfi problemlərinin təfərruatlarına varmaq istəyən insanlar çox maraqlı, eyni zamanda "təhlükəli" yola qədəm qoyacaqdır. Məsələ burasındadır ki, fəlsəfə hər hansı bir problem haqqında fikir birliyinə malik olmayan elmlər sırasına daxildir. Çox vaxt burada fikirlər o qədər bir-birindən fərqlənir ki, bəzən burada hər hansı bir istinad nöqtəsi tapmaq olmur. Burada mübahisələr onilliklər, yüzilliklər deyil, hətta minilliklər boyu davam edə bilər"*[6].

Rus alimi V.İ.Vernadskinin: "*Başa düşürəm ki, yanlış və aldadıcı yolla irəliləmək məni dərinliklərə aparacaq. Lakin mən o yollarla getməyə bilmərəm. Çünki düşüncəmin hər bir buxovu məndə nifrət doğurur. Mən düşüncəmi əvvəlcədən cızılmış yolla getməyə məcbur edə bilmərəm. Bu yol məni maraqlandıran sualların qoyuluşundan yayındırmamalıdır. Məhz bu kimi axtarışlar və yönəlmələr hər bir elmi fəaliyyətin əsasını təşkil edir*" bu fikirlərini tamamilə ədalətli hesab edib, tədqiqatçılara elmi fəaliyyətin əsası kimi tövsiyə edirəm.

Mütəfəkkir insanlar elm və təcrübənin birmənalı cavab tapa bilmədiyi bir çox problemlərə aydınlıq gətirməyə çalışmışlar. Fəlsəfənin vəzifəsi isə bu sualları araşdıraraq, imkan daxilində onları cavablandırmaq olmuşdur. Bu dünyanın quruluşu necədir? O inkişaf edirmi? Bu inkişaf qanunlarını kim və nə təyin edir? İnsan ölümə məhkumdurmu? İnsan həyatdakı vəzifəsini dərk edə

---

[6] *Голик Ю.В.* Философия уголовного права. СПб., 2004. С. 7.

bilirmi? İnsanın idrak imkanları necədir?

Yəni bunu birbaşa deməyə haqqımız çatır ki, bəşəriyyətin bütün nailiyyətlərində fəlsəfənin dolayı olsa da, əhəmiyyətli rolu olmuşdur. Fəlsəfə ümumi və çoxşaxəli olduğundan, insan öz həyatının hər hansı bir sahəsində onsuz keçinə bilmir. Belə ki, "*Elmin istənilən sahəsi bizi əhatə edən məkanda qeyri-müəyyənliklə əhatələnir. İnsan bu sahəyə daxil olduqda, elmi məkanı tərk edib abstrakt düşüncəyə qapanır. Bu abstrakt düşüncələr də fəlsəfənin bir hissəsidir. Hətta bütün bunları fəlsəfə hesab etmək mümkündür*" (B.Rassel).

Məlum olduğu kimi, fəlsəfə özündə bir çox sahələri əhatə edir. Bunların arasında qanunvericilik prinsiplərinin nəticələrini araşdıran hüququn fəlsəfəsi də vardır. Unutmamaq lazımdır ki, xeyir və şər məsələləri, ədalət anlayışı fəlsəfənin bir sahəsi olan etikaya aiddir, daha doğrusu, ədalət hüquqi deyil, etik kateqoriyadır. Deməli, bunlar hüquqi deyil, etik kateqoriyalardır. Eyni zamanda "cinayət" və "cəza" anlayışları fəlsəfi kateqoriyalara aid edilməlidir. Çünki hüquq və onunla əlaqədar olan elmlər, xüsusən, cinayət hüququ və kriminologiya bizi maraqlandıran suallara cavab vermək iqtidarında deyildir.

Fəlsəfə bütün elmlərin, o cümlədən hüquqi elmlər və problemlərin araşdırılması üçün əsas elmi baza rolunu oynayır. Məsələn, qisas, cəzalandırma, əzab vermə və s. anlayışları ancaq fəlsəfi prizmadan dəyərləndirmək mümkündür.

Tanınmış hüquqşünas və sosial fəlsəfənin bilicilərindən biri ola E.V.Spektorskinin aşağıdakı fikirləri diqqəti çəkir: *"Hüquqşünaslıq elmi fəlsəfənin üç sahəsi – etika, metafizika və qnoseologiya ilə sıx əlaqəlidir. Dantenin əsərində şeytanın bəyan etdiyi kimi: "Tu non pensavi ch' io leice fossi" – Sən şübhələnmədin ki, mən məntiqşünasam! Bu baxımdan hüquq elmi də bəyan edə bilər: "Sən şübhələnmədin ki, mən filosofam!". Bu ifadənin başa düşülməsi onu yüksəltməli, tez-tez səslənən qınaqlardan qurtarmalıdır. Çünki deyirlər ki, fəlsəfə yalnız*

*ümidsizlik aşılayan bir sahədir. Bunu anlamaq həm də məsuliyyəti artırır. Belə olanda gərək hüquq elmi fəlsəfəyə və onun problemlərinə böyük diqqətlə yanaşmalıdır. Vaxtı ilə Platon qeyd edirdi ki, "fəlsəfəyə marağın olmaması əslində həqiqi biliyin deyil, özündən razı olan nadanın yanaşmasıdır, hüquqşünasda bunun olmaması isə artıq onun öz peşə işinə etinasız münasibət bəslədiyinin əlamətidir. Bu etinasızlıq ona görə bağışlanmazdır ki, onun nəticəsində hüquq elmi başqa xarici təlimlərin müdaxiləsi nəticəsində məhv ola bilər*"[7].

Bizim qənaətimizə görə yuxarıda deyilən fikirlər hüquq elminin əhəmiyyətini iddia edən pozitivistlərin ünvanına istiqamətlənmiş ən tutarlı cavabdır. Onlar hesab edirlər ki, fəlsəfəni, etikanı və bu qəbildən olan digər elmləri hüquq elminə aid anlayışların mahiyyətini açmaq üçün istifadə etmək olmaz. Hegel haqqlı olaraq qeyd etmişdir: "*Hüquq elmi fəlsəfənin bir hissəsidir*"[8].

Doğrudan da, məgər hüquq elmi anlayışların mahiyyətinin açılmasını və ya çoxsaylı hüquqi problemlərin dərk olunmasını fəlsəfəsiz təmin edə bilərmi? Ayrıca, konkret elmlərin həll edə bilmədiyi bütün nəzəri məsələlərə fəlsəfənin cavab verməyə cəhd etdiyini düşünsək, o zaman bunun cavabı mənfi olacaqdır. Ancaq bütün bu elmlərin ümumi əsası və məqsədi vardır. Bu da təbiətin öyrənilməsi və onun dərk edilməsi üçün vacibdir. Ancaq burada Arthamastranın (Qədim Hindistan, b.e.ə. IV əsr) sözlərini unutmamaq lazımdır: "*Fəlsəfə, həmişə bütün elmlər üçün bir çıraq, hər bir işin reallaşması üçün, bir vasitə və bütün qaydalar üçün dayaq nöqtəsi hesab edilir*". Tarix şahiddir ki, bütün zamanlarda məhz filosoflar insanı düşündürən suallar qoymuş və bu suallara hüquqdan əvvəl cavab verməyə səy göstərmişlər. Bu da təbiidir, çünki fəlsəfənin mahiyyəti "*kainat-insan*"

---

[7] Философия и юриспруденция // Юридический вестник. Кн. II. М., 13.

[8] *Гегель Г. В. Ф.* Философия права. М., 1990. С. 17-18.

müstəvisində olan problemlərdən təşkil olunmuşdur. Bu səbəbdən cəzanın obyekti, həm də cinayətin subyekti kimi çıxış edən insandırsa, onda etiraf edilməlidir ki, fəlsəfəsiz "*cinayət-insan-cəza*" sisteminin məzmun və mahiyyətini izah etmək mümkün deyil. Belə hallarda bəzən hüquq elmləri, xüsusən də, cinayət hüququ və kriminologiya nisbətən gücsüz görünür.

Kant qeyd edirdi ki, *"fəlsəfə əslində insan haqqında təcrübi bilikdən başqa bir şey deyildir"*[9]. Bu istiqamətdə fəlsəfə cinayət və cəzaya, onların mahiyyəti, ümumsosial mexanizmində olan yeri və rolu, etik normalar baxımından onların hüquqi təbiətinə bəraət qazandırmalı, mənəvi və əxlaqi dəyərlər nöqteyi-nəzərindən baxılmalıdır[10]. Buna görə də cinayət və cəza haqqında təlimin metodoloji cəhətdən düzgün tərtibi və cəmiyyətə maksimum təsir etməsi üçün o yalnız hüquq elmlərinə deyil, həm də ilk növbədə fəlsəfəyə, o cümlədən elmi idrakın məqsədyönlü sistemində birləşmiş bütün humanitar elmlər məcmusuna istiqamətlənməlidir.

Bəzən bir-birlərini başa düşməyən filosoflarla hüquqşünaslar qarşılıqlı ittihamlarla çıxış edirlər. Filosoflar hesab edirlər ki, hüquqşünaslar müstəqil və azad fikir irəli sürə bilməzlər, çünki onlar formal qanunların tələblərinə tabedirlər. Hüquqşünaslar isə filosofları formaca gözəl, ancaq praktiki faydalanmadan uzaq ifadələr səsləndirdiklərini qeyd edirlər.

Ədalət naminə qeyd edilməlidir ki, fəlsəfə bəzən bir çox hadisələri hüquqşünaslar tərəfindən birmənalı qarşılanmayan, həddən artıq çətin başa düşülən anlayışlar və kateqoriyalarla ifadə edir. Bu isə onların təcrübədə tətbiqini çətinləşdirir. Əslində çətinlik fəlsəfənin özündə deyil, onu ifadə edən filosofların ifadə tərzlərindən irəli gəlir. Paradoks həm də ondadır ki, fəlsəfi fikir nə

---

[9] *Кант И.* Из рукописного наследия. М.: Прогресс, 2000. С. 78.

[10] *Bax: Сыч К. А.* Уголовное наказание и его классификации: опыт теоретического моделирования. СПб., 2002. С. 72.

qədər çətin, anlaşılmayan və dolaşıqlı ifadə edilərsə, o zaman filosof bir o qədər dahi hesab edilir.

Mən əminəm ki, cinayət və cəza kimi çətin və mürəkkəb problemin tədqiq edilməsini öhdəsinə götürməyə cəsarət edən bir şəxs, yalnız bütün tanınmış hüquqşünasların deyil, həm də cinayət hüququ institutlarına aid olan dahi filosof, psixoloq, sosioloq, hətta yazıçıların araşdırmaları ilə diqqətlə və yaxından tanış olmalıdır. Əlbəttə, burada unutmaq olmaz ki, hüquq elmləri sistemində fəlsəfə fundamental elmdir, hansı ki, onunla müqayisədə digər sahələrə aid olan elmlər əsasən daha çox tətbiqi əhəmiyyət kəsb edir. Bunların uğurlu inkişafı həm fəlsəfə, həm də hüququn birliyi və qarşılıqlı təsirindən aslıdır.

A.Veberə görə, "*Fəlsəfə elə bir bir gün yaranmışdır ki, həmin vaxt düşüncə əfsanələşmiş fantastik varlıqlar vasitəsi ilə dünyanı izah etməkdən imtina etmişdir. Bunun əvəzinə o, bütün substansiyaları, əbədi qüvvə və şüurla, ya da onun öz dili ilə desək əsas başlanğıc və səbəblərlə birləşdirir*"[11]. Bu səbəbdən hər bir şeyin fəlsəfəsi o hadisənin yaranma səbəbinin, hətta varlığının və uğradığı dəyişkənliyin analizindən ibarətdir. Buna görə cinayətlə cəzanın fəlsəfəsi o zaman formalaşmışdır ki, insan öz davranışı haqqında düşünməyə başlamışdır. O davranış haqqında ki, həmin davranışlar digər insanlara, cəmiyyətə müəyyən zərər verir və həm də o hadisələrin qarşısını almaq zəruridir.

Antik dövr filosoflarının qeyd etdikləri kimi, yalnız fəlsəfi kateqoriyaların vasitəsi ilə biz cinayət və cəzanın mahiyyəti haqqında həqiqətləri əldə edə bilərik. Məhz bu kateqoriyalar cəmiyyətin dərk edilməsi istiqamətində universal metodoloji vasitələrdən ibarətdir.

Bu müddəalardan çıxış edərək fəlsəfi mahiyyət daşıyan aşağıdakı suallara cavab verməyə cəhd edəcəyəm: Qanundan kənarda törədilən cinayət nədir? İnsanın (həm də cinatyətkarın)

---

[11] *Вебер А*. История европейской философии. Киев, 1882 . С.10.

davranışının səbəblərini və mənbəyini nə təşkil edir? Cəzanın mahiyyəti, mənbəyi nədir? Cinayətkarı necə və nəyə görə cəzalandırmaq olar? Cəza vermə hüququ kimə məxsusdur və bu hüququ kim vermişdir? Ümumiyyətlə, cəmiyyətə cəza lazımdırmı və bunun gələcəyi necə olacaqdır?

# I F Ə S İ L
# CİNAYƏT

***Anlayışı və mahiyyəti. Səbəb və mənbələri. Cinayətkarın şəxsiyyəti. Cinayətkarlığın gələcəyi***

## §1. CİNAYƏTİN ANLAYIŞI VƏ MAHİYYƏTİ

**I.** "Cinayət" anlayışının elmi baxımdan dərk edilməsi üçün bu sözün ifadə etdiyi mənaları təyin etmək lazımdır. Başqa sözlə ifadə etsək, biz "cinayət" sözünü işlədərək təsəvvür etdiyimizi dərk etməyə çalışırıq. Bunun üçün cinayətin yalnız hüquqi kateqoriya kimi öyrənilib təsvir edilməsi kifayət deyildir. Buna görə cinayəti bir hadisə kimi fəlsəfi baxımdan izah etmək lazımdır.

Cinayət anlayışının köhnəlmiş, formal və ənənəvi mənası, bizə onun həqiqi məzmun və mahiyyətini, həm də cəzanın əsl mənasını və onun sosial vəzifəsini dərk etməyə imkan vermir. Fikrimizcə, verilən təriflərin əsas çatışmazlığı ondan ibarətdir ki, reallıqda baş verən hadisələrlə əlaqəli olan həqiqi münasibətlərin təhlili əvəzinə, cinayət hüququnun ehkamçılığı Cinayət Məcəlləsində qeyd edilən cinayət əməllərinin təhlili ilə məşğul olur. Bunu edərkən Məcəllədən kənarda qalan analoji hadisələrə diqqət yetirilmir.

E.B.Kurquzkina tamamilə doğru qeyd etmişdir: "*Cinayət anlayışının həqiqi mənasının dərk edilməsi yalnız hüquq elmlərindən asılı deyil, onun əsl mənası onun hüdudlarından kənarda axtarılmalıdır*"[12]. Bu iddia hardasa Hegelin sözləri ilə yaxından səsləşir. O qeyd edirdi ki, hüquq cinayətin mənası ilə deyil, hər hansı bir yerdə və zamanda qanun kimi təsbit olunanla

[12] *Кургузкина Е. Б.* Понимание преступного  Философские науки. 2008. № 5. С. 84.

(pozitivləşənlə) məşğul olur. Yəni cinayət hüququ cinayətin nə olması məsələsində ağıldan deyil, nüfuz və gücün təsbit olunmasından çıxış edir[13].

Praktiki baxımdan belə bir sual vermək mümkündür: Hansı əməl cinayət hesab edilir? Cavab isə çox sadədir. Cinayət cəzanı doğuran əməl hesab edilir. Cinayət hüququ elmi cinayətin törədilməsini məhz belə başa düşür. Daha konkret desək, cinayət hüququnun ehkamları cinayət anlayışına bu tərifi verir: "*Hüquq qaydalarının pozulması cinayət hesab edilir*".

Bir vaxtlar Həvari Pavel demişdir: "*Qanun olmayan yerdə cinayət də yoxdur*" (Rom. 4: 15). XX əsrdə L.Hulsman bu fikri başqa tərzdə ifadə etmişdir: "*Qanun cinayəti təsbit edir və "cinayəti*" yaradır[14]. Ancaq "cinayət" anlayışının hüquqi, formal tərifi aşağıdakı nəzəri suallara cavab vermir: müxtəlif zamanlarda fərqli millətlər arasında "cinayətkar" adlanaraq cəzalandırılan insanların ümumi xüsusiyyətləri hansılardır? Hansı əməllər öz təbiətinə görə cinayət hesab edilə bilər? Bütün məcəllələrdə hər hansı bir əməlin eyni qəbildən cinayət kimi dəyərləndirilməsi mümkündürmü? Müxtəlif sosial təbəqələrdə cinayətin bütün növləri üçün ümumi olan xüsusiyyətləri göstərmək mümkündürmü?

E.F.Pozdnyakovun cinayətə və onun təyin olunmasına hüquqi yanaşmanın formal olduğu haqqındakı iddiası tamamilə doğrudur. O, bu ideyanı davam etdirərək azacıq olsa da, bu fenomenin mahiyyətinə varmaq, onun əsasını və səbəblərini açmaq istəyənin təmin edilməməsini vurğulayır[15]. Axı "cinayət" anlayışının formal xarakteri hakimiyyətə müxtəlif səbəblər, o cümlədən siyasi səbəblər üzündən bu anlayışı tələb edən sistemlər yaratmağa imkan yaradır.

---

[13] *Вах: Гегель Г. В. Ф.* Философия права. М., 2007. С. 283.
[14] *Хулсман Л.* Picnes Perdue. Paris, 1982. P. 68.
[15] *Поздняков Э.* Философия преступления. М., 2001 С. 58.

Cinayət hüququnda kriminallaşma və dekriminallaşma anlayışlarını yüksək dərəcədə obyektivliyə istiqamətləndirmək istəklərinə baxmayaraq, onlar birbaşa qanun yaradıcılığı ilə məşğul olanların volyuntarist yanaşmalarından azad ola bilməmişdir. Ümumiyyətlə, ictimai baxımdan təhlükəli olmayan, yalnız müəyyən hakim zümrələrin ictimai maraqların pozulmasının qarşısını almaq bəhanəsilə təhlükəli hesab edilən əməllərin qəsdən kriminallaşdırılması cəhdlərini də istisna etmək olmaz[16]. Xüsusən də, bu kimi hallar avtoritar, qeyri-demokratik rejimli ölkələr üçün spesifikdir. Yəni, Y.V.Qoliklə o məsələdə razılaşmaq mümkündür ki, hüquqşünasların cinayət anlayışına tərif verməsi üçün uzun müddətli və hesabata alına bilinməyən cəhdləri bu günə qədər heç bir nəticə verməmişdir[17].

Cinayətin hüquqi tərifi ilə kifayətlənməyən bəzi mütəfəkkirlər bu anlayışı cinayət qanunlarından asılı olmayaraq ortaya çıxarmaq fikrinə gəlmişdirlər. Belə ki, E.Dürkeym öz sələfi R.Qarofalodan sonra cinayətə hüquqi tərifdən fərqlənən sosioloji tərif vermək istəmişdi. Doğrusu, hələ qədim filosoflar cinayətin sosial əhəmiyyətini dərk etmişlər. Fransız sosioloji məktəbinin nümayəndələrindən Q.Tard hesab edirdi ki, cinayət hər şeydən əvvəl sosial, onun yaranması isə tarixi hadisədir [18].

Hegelə görə, cinayətin mahiyyəti mütləq dəyər olan hüququn sarsılmazlığı baxımından əhəmiyyətsizdir. Filosofun aşağıdakı ifadəsi bu nəticəyə gəlməyə imkan verir: "*Cinayətin baş vermə səbəbi dəyişir və onun özü sözü gedən dəyişiklikdə mövcuddur. Ancaq bu dəyişiklikdən doğan varlıq özü-özünün əksidir, məhz buna görə də o əhəmiyyət kəsb etmir. Məhz hüquq bir mütləq kimi aradan qaldırıla bilməz, buna görə də cinayət*

---

[16] *Кургузкина Е. Б.* Указ. соч. С. 84.

[17] *Вах: Голик Ю.В.* Философия уголовного права: современная постановка проблемы // Философия уголовного права. СПб., 2004. С. 24.

[18] *Тард Г.Д.* Преступник и преступление. Сравнительная преступность. Преступность толпы / Сост. и предисл. В.С. Овчинского. М., 2004. С. 7.

*hadisəsi özlüyündə əhəmiyyətsizdir. Bu əhəmiyyətsizlik də əslində cinayət əməlinin mahiyyətidir*"[19].

P.A.Sorokin hesab edirdi ki, cinayət psixoloji vəziyyətin təzahürüdür. O, qeyd edirdi, "*Cinayət əməlləri vardır ki, onlar ancaq özü-özlüyündə deyil, psixi vəziyyətdə cinayət kimi dəyərləndirilə bilər*"[20]. P.A.Sorokin bunu qeyd edərkən cinayəti cəmiyyətdə mövcud olan davranış modellərinin ixtilafı kimi qəbul edir[21].

Bir sıra müəlliflər cinayətə yalnız bioloji baxımdan yanaşmış və ona fərdin qomeofagiyadan (hannibalizmdən, həyata qəsddən) imtina edə bilməməsinin ifadəsi kimi baxmışlar. Bu baxımdan cinayət instinkt və streslərimizdən irəli gələn davranış kimi dəyərləndilir. Əslində isə insanın tələbatı müxtəlif yollarla təmin edilməlidir[22].

Utilitarizmin nümayəndələri qeyd edirlər ki, cinayət konkret sosial qruplara aid fərdlər tərəfindən törədilən əməldir. Həmin qrupun digər üzvləri isə belə əməli bu qrup üçün zərərli hesab edərək əməli yerinə yetirənin antisosial əhvalını yüksək dərəcədə dəyərləndirirlər. Bu istiqamətdə birincilər öz rifahlarını qorumaq məqsədi ilə ona açıq və kollektiv reaksiya verirlər.

Bundan çıxış edərək onlar belə bir nəticəyə gəlirlər ki, cinayət dövlət hadisəsindən çox, ictimai bir hadisədir. E.Ferri cinayətin bir hadisə kimi yalnız sosial xarakter daşıdığını iddia edən L.P.Manuvriye[23] ilə razılaşmayaraq onu "*Təbii və sosial hadisə*" adlandırır. Çünki cinayət sosial hadisə kimi eyni zamanda

---

[19] *Гегель Г.В.Ф.* Философия права. М., 1990. С. 145.
[20] *Сорокин П.А*. Преступление и кара. Подвиг и награда. СПб., 1914. С. 85.
[21] Orada. C. 128–130.
[22] *Bahar*. Une nouvelle definition du crime basse sur la science biologique //Revue pénitentiare. 1895. P. 739.
[23] *Manovrier*. Les aptitudes et les acts // Bull. de la soc. d´anthr. Paris, 1890; Elle
*nouvelle, oct. 1893*.

fərdlərin bioloji tərəflərinin təzahürüdür[24].

Gördüyümüz kimi, yuxarıda qeyd edilən, eləcə də digər təriflərin yetərsiz olması onunla əlaqəlidir ki, cinayətin hüquqi tərifi aşağıdakı suala cavab vermir. Cinayət haqqında anlayışın cəmiyyətdə işləməsi üçün qanunla qadağan olunmuş əməl əlaməti kifayət edərmi?

Qeyd etmək lazımdır ki, son zamanlar "cinayət" anlayışının hüquqi tərifi ilə yanaşı, kriminoloji mənada "cinayət" termini də elmi dövriyyəyə daxil edilmişdir.[25] D.A.Şestakov qeyd etmişdir ki, cinayəti cəzanın qorxusu altında qadağan edilən əsaslandırılmış əməl kimi də ayırmaq olar.

Hansı əməlləri cinayət hesab etmək olar, hansını etmək olmaz? Bu suala birmənalı cavab vermək mümkün deyildir. Afina şəhər qanunlarına görə, Sokrat da cani hesab edilirdi. Ancaq biz belə hesab edirik ki, onun "cinayət əməli" yalnız vətəni üçün deyil, həm də bütün bəşəriyyət üçün xeyir gətirmişdir. Spartada qüsurlarla doğulmuş körpələr hərbi qulluğa və dövlət xidmətinə yararsız olduqlarına görə öldürülürdülər. Ərəblərdə isə Quran nazil olmamışdan əvvəl, anadan olan qızların diri-diri torpağa basdırılması cinayət kimi dəyərləndirilməmiş və bu barədə cəmiyyətdə heç bir ictimai qınaq olmamışdır. Çünki o dövrdə qadınlar dəyərsiz məxluq kimi qiymətləndirilirdi. Bu adət həm də döyüşlərdə iştirak etmək üçün kişilərin çatışmazlığı ilə izah edilə bilər. Təqsiri olmayan vicdanlı Aristid Afinadan ona görə qovulmuşdur ki, onun Femistoklla olan rəqabəti müxtəlif tərəflərin birliyinə mane olaraq farslarla mübarizədə əngəllər yaradırdı. Zərdüştün davamçıları üçün ən ağır cinayət ölmüş insanın torpağa basdırılması idi. Bunun əvəzinə ölmüş insanlar itlərə və yırtıcı quşlara yem kimi verilirdi. Yunanlarda isə ən ağır

---

[24] *Ферри Э.* Уголовная социология. М., 2005. С. 102.

[25] *См.: Шестаков Д.А.* Криминология: преступность как свойство общества. Краткий курс. СПб., 2001.

cinayətlərdən biri ölmüş insanı kəfənsiz dəfn etmək olmuşdur.

Hər bir xalqın tarixindən belə misalları göstərmək mümkündür. Q.V.Maltsev doğru qeyd etmişdir: "*Qədim və ya müasir olmasından asılı olmayaraq hər bir cəmiyyət fərdlərin elə əməllərini cinayət kateqoriyasına daxil edir ki, onlar ümumi iş üçün təhlükəli hesab edilir. Hansı ki, onlar cəmiyyətə və onun ayrı-ayrı üzvlərinə zərər verir, sosial təşkilatın dağılması təhlükəsini yaradırlar. Bütün bunlar günümüzdə cinayət əməlinin ictimai təhlükəsi kimi xülasə edilə bilər*[26].

Bütün bunlardan belə bir nəticəyə gəlmək mümkündür ki, "cinayət" yalnız müəyyən sosial vəziyyətlərdə ortaya çıxan anlayışdır. Məzmunca eyni olan bir əməl müxtəlif tarixi mərhələlərdə, fərqli cəmiyyətlərdə və sosial kontekstdə cəmiyyət qaydalarına qarşı olan, sosial cəhətdən tərəfsiz və ya cəmiyyət tərəfindən qəbul edilən anlayışlar kimi qiymətləndirilə bilər. Belə ki, Ərəb Xilafəti dövründə xəlifə Ömər aclıq ilində "*Şübhə cəzanı yüngülləşdirir*" fikrini əsas tutaraq, oğurluğa görə cəzanı ləğv etmişdir. T.Tard qeyd etmişdir: "*Fəzilət cinayət sistemi kimi tarixin gedişatı ilə dəyişir*"[27]. Tarixdə elə etnoslar olmuşdur ki, onların arasında qarət və quldurluq cinayət deyil, ərdəm hesab edilirdi.

Hər bir cəmiyyət onun strukturunu və ümumi vəziyyətini əks etdirən, özünün cinayət kimi dəyərləndirdiyi müəyyən əməlləri törədir. Cinayət anlayışı bu və ya digər cəmiyyətdə yayılan ideyalarla yaxından əlaqəlidir. Hətta bunlar hansının cinayət əməli hesab edilərək cəzalandırılmalı, hansının isə cəzalandırılmamalı olduğu haqqındakı təsəvüürlərlə sıx əlaqəlidir.

Bir çox əməllərin cinayət xarakterli, digərlərinin isə inzibati və mülki hesab edilməsinin əsl səbəbləri bu və ya digər xalqın inkişafı haqqında biliklərinin əldə edilməsindən sonra aydın olur.

---

[26] *Мальцев Г.В.* Месть и возмездие в древнем праве. М., 2012. С. 420.

[27] *Тард Г.Д.* Сравнительная преступность. М., 1907. С. 33.

Hər hansı bir əməl müəyyən zaman və məkanda cəmiyyət tərəfindən qəbul edilməyə, ancaq digər vaxtlarda isə məna dəyişdirərək cəmiyyətdə təqdir edilə bilər. Bu davranışlardan hansının bəyənilən, hansının isə bəyənilməyən olmasını təyin etmək çox çətindir. Cinayətin zaman və məkan xaricində araşdırılması, onun varlığını doğuran sosial məkanı nəzərə almamaq mümkün deyildir. Buna görə də kimin cinayətkar olub-olmadığını tarix göstərir.

Bununla əlaqədar P.A.Sorokin vurğulamışdır: "*Konkret davranışları müqayisə edərək bilmək mümkündür ki, müəyyən cinayət tərkibli əməllər cəmiyyətin müxtəlif üzvləri tərəfindən birmənalı qarşılanmır. Hətta qətl kimi cinayətlər belə həmişə cinayət hesab olunmur*"[28].

Belə bir vəziyyət yarana bilər ki, cəmiyyətdə qəbul olunmuş dəyərlər və davranış normaları nədənsə öz vacib əhəmiyyətini itirir, əhalinin çoxu onların məqsədəuyğunluğunu və ədalətliliyini şübhə altına qoyur. Məsələn, qanunsuz parakəndə ticarət və müştərilərin aldadılması Sovetlərdə cinayət hesab edilirdi. Ancaq ölkə əhalisi bu əməllərə görə kiminsə cəzalandırılmasını mənasız və ədalətə uyğun olmayan davranış kimi qiymətləndirirdi.

Tarixdən məlum olduğu kimi, bir çox xalqların spirtli içkilərdən istifadəsi ənənəsinin qədim kökləri vardır. Hətta bəziləri üçün bu ənənə milli xüsusiyyət kimi dəyərləndirilir. Bu səbəbdən cinayətlərin müəyyən hissəsi məhz sərxoş vəziyyətdə törədilir. Eyni zamanda məlumdur ki, spirtli içkilərin həddən çox istifadəsi nəticəsində hər il dünya üzrə yüz minlərlə insan həyatını itirir. Məgər bütün bunlar insan və cəmiyyət üçün xoşagəlməyən hadisə deyilmi? Onda nə üçün narkotik maddələrin istifadə olunması cəmiyyət üçün təhlükəli hesab edilərək cinayət kimi

---

[28] *Сорокин П.А. Преступление и кара. Подвиг и награда: социологическийэтюд об основных формах общественного поведения и морали / Сост., вступ.ст. и предисл. В.В. Сапова. М., 2006. С. 128–130.*

qiymətləndirilir, spirtli içkilərin istifadəsi isə yox?

Bir zamanlar sovet cinayət qanunvericiliyində sərxoş halda törədilən cinayət yüngülləşdirici hal kimi dəyərləndirilirdi. Düzdür, sonra bundan imtina edildi. Bu baxımdan gələcəkdə də ola bilsin ki, sərxoşluq və spirtli içkilərin isdifadəsi cinayət kimi qiymətləndirilsin. Ümumiyyətlə, getdikcə cinayət kimi dəyərləndirilə bilən əməllərin sayı artmaqdadır.

Belə ki, qanunvericiliyə əsasən fahişəliklə məşğul olan qadınların durmadan sayının artmasının qarşısını almaq məqsədi ilə onların məsuliyyətə cəlb olunması mümkündür. Bu davranış hələ qədim dövrlərdən bizə məlumdur. O zaman fahişələr daşqalaq edilərək ictimai qınağa məruz qalırdılar.

Keçmişdə Qafqaz xalqlarında (o cümlədən, çoxlu digər xalqlarda) qız qaçırma adəti olmuşdur. O dövrdə bu, cinayət kimi qiymətləndirilmirdi. Çünki qız qaçıran insan bu əməli qıza və onun qohumlarına zərər vurmaq niyyəti ilə etmirdi. Digər tərəfdən, qız bununla ərə getmək və ailə qurmaq imkanı qazanırdı. Əxlaqi baxımdan bu adət qüsurlu hesab edilə bilər. Çünki qız sevgisiz ərə getmək məcburiyyətində qalırdı. O dövrlər qafqazlıların həyat tərzlərlərindən çıxış edərək deyə bilərik ki, qızların böyük əksəriyəti kiminlə ailə quracaqlarını bilmirdilər. Yəni adət və ənənələr belə əməlləri cinayət kimi qəbul etmirdi. Bu o zamanlar normal hadisə kimi dəyərləndirilirdi. Ancaq Sovet hökuməti qurulduqdan sonra qızların qaçırılması oğurluq kimi qiymətləndirilmişdir. Bu əməl keçmişin qalığı və cinayət əməli hesab edilmişdir. Beləliklə, dünyada elə bir əməl yoxdur ki, o bütün xalqlarda və hər zaman cinayət kimi qiymətləndirilsin.

Bütün qanunlar kimi cinayət qanunu da yaxşı adətləri təqdir, zərərli olanları isə qadağan edir. Eyni zamanda, bir çox hallar vardır ki, qanunvericilik və cəmiyyət bəzi adət və ənənələri zərərli və təhlükəli hesab edir, əslində isə onlar müsbət mahiyyət daşıyırlar. Bu tendensiya əksinə də ola bilər. Belə ki, qədim İranda qanun oğulun ana ilə cinsi əlaqəyə girməsini qadağan etmirdi.

Ancaq başqa dindən qadınla cinsi əlaqədə olmaq təhlükəli hesab edilir və cinayət əməli kimi qiymətləndirilirdi. Bu baxımdan adətlər qanunlar üçün mənbə və başlanğıc nöqtəsi hesab edilir.

Adət sözünün etimologiyasına əsaslanaraq deyə bilərik ki, o, cəmiyyətdə təkrarlanan və özünə yer etmiş hadisənin nəticəsi kimi təzahür edir[29]. D.A.Dril hesab edirdi ki, "*adət gələcək nəsillər üçün ümumi və əvvəlcədən təsbit olunmuş qayda deyil, yalnız məsələnin həllidir. Ancaq tez-tez təkrar olunduğuna görə, bu nəticə ümumiləşdirilir. Bununla belə, yeni hallar və xüsusiyyətlər ortaya çıxdıqda isə adətlər müəyyən dəyişikliklərə məruz qalır*"[30].

Hüquq ənənəsinin industrial cəmiyyət quruculuğundan əvvəlki dövrlərə aid arxaik bir şey olduğu haqqındakı fikirlər doğru deyildir. Hər bir adət, o cümlədən cəmiyyət tərəfindən qəbul edilmiş hüquqi qaydalar müasir ictimai həyatın sosial tənzimlənməsinin inkişafda olan elementidir[31].

Qan intiqamı adətinin çoxdan qadağan edilməsinə baxmayaraq, bu adət günümüzə qədər bir çox xalqların məişətində mövcudluğunu qoruyub saxlamışdır. Burada təəccüblü bir şey yoxdur, çünki Qafqazdan olmayan hər hansı bir şəxs qan qisasını keçmişin qalığı və amansız qisasın vəhşi qanunu hesab edirlər. Bəlkə də, bu cür düşünən insanlar haqlıdırlar. Bu baxımdan qan qisası Avropa qanunlarının çoxundan daha mürəkkəb və hərtərəflidir. Bu adətlər boş yerdən yaranmır və ani aradan çıxmır. Hər bir qafqazlı uşaqlıq dövründən qan qisasının bütün qaydalarını bilir və öz düşüncəsində oun qoruyub saxlayır. Prinsipcə, digər tərəfdən, qan qisası müxtəlif tayfa və qəbilə qırğınlarının və kütləvi qətllərin qarşısını alan əsas amildir. Məhz bu adətə görə, Qafqazda uzun müddət hamının qəbul etdiyi qayda-

---

[29] *Bax: Даль В.* Толковый словарь живого великорусского языка. СПб.; *М., 1881. Т. 2. С. 637–638.*

[30] *Дриль Д.А.* Преступность и преступники. Учение о преступности и мерах борьбы с нею. М., 2010. С. 224.

[31] *Bax: Лапаева В.В.* Социология права. М., 2011. С. 177.

qanun hökm sürmüşdür. Qisasdan qorxu hissi və onun qaydaları insanların, qəbilələrin münasibətlərini tənzimləyirdi. Düşməni ölənə qədər təqib etmək qafqazlının müqəddəs borcu hesab edilirdi.

Qan intiqamı nədir? Bu müqəddəs borc olsa da, nəzəri cəhətdən sonsuz qətllərə səbəb olan bir adətdir. Çünki hər bir qisas yeni qətllərə səbəb olur. *"Yalnız qan qisası deyil, əslində ibtidaidən mükəmmələ doğru bütün cəza formalarını qisas adlandıra bilərik*"[32].

Əslində isə qisas nəslin, tayfanın, fərdin, onun ailəsinin və digər insanların ədalətsiz öldürülməsinə və ya şikəst edilməsinə cavab olaraq verilən əks reaksiyadır. Qisas prosesində hücumdan müdafiə yoxdur, çünki qarşıdan gələn təhlükədən əks tərəfin xəbəri olmur. Beləliklə, cinayət əməlin yerinə yetirilməsindən sonra ortaya çıxır. Qan qisası yalnız zərər vurana qarşı deyil, həm də qrupun digər üzvlərinə qarşı yönələ bilər. E.Fromma görə inamını itirən insan özü ədalət məhkəməsini qurmağa məcbur olur. "*Qisası arzulayan insan heç bir avtoritetə ehtiyac görmür. O, özünü "ali hakim" hesab edərək qisasını alır. Bu anda o, özünü həm mələk, həm də tanrı hesab edir. Bu onun qələbə anıdır*"[33].

Bununla əlaqədar XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın Lənkəran rayonunda baş verən bir hadisəni xatırlatmaq yerinə düşərdi. Belə ki, o zaman yetkinlik yaşına çatmayan bir oğlan məhkəmə zalında insanların gözü qabağında öz atasının qatilini odlu silahdan açdığı atəşlə öldürmüşdür. Bu hadisə keçmişdə deyil, bizim zamanımızda baş vermişdir. Bəs o zaman qisas nə üçün bu qədər kök salmış bir adətdir?

Bəlkə, ədalət hissi yalnız insana məxsusdur? Bizim yuxarıda göstərdiyimiz misalda o oğlan əmin idi ki, məhkəmə onun atasının

---

[32] *Menninger K.A.* The Crime of Punishment. New York, 1968.

[33] *Фромм Э.* Анатомия человеческой деструктивности. М., 2004. С. 380.

qatilinə qarşı ədalətsiz hökm çıxaracaqdır. Buna görə də, o belə bir qərara gəlmişdir ki, "*ədalət məhkəməsini*" özü qursun.

Psixoloqlar iddia edirlər ki, qisas, şəxsiyyətin dərinliklərində yatan duyğu kimi millətindən və dinindən asılı olmayaraq bütün insanlara məxsusdur. Məhz bu səbəbdən, E.Frommun Xristian və Buddist ideallarına çatan insanın qisas duyğusunun yox olması fikiri ilə razılaşmaq çətindir. Çünki istər Xristianlıqda, istərsə də İslamda qisasın dayaq nöqtəsi vardır. Həm İncildə, həm də Qurani-Kərimdə qisas haqqında ifadələr yer almaqdadır.

E.Fromma görə, insanlığın dini cəhətdən inkişafı qisasa son qoyacaqdır. Ancaq indiki dövrdə, dini-mənəvi yöndə yüksələn insanları tapmaq çox çətindir. Əskinə, günümüzdə dini zəmində qətllərin sayı artmış, yüksək nöqtəyə çatmışdır.

Qeyd edilməlidir ki, vaxtı ilə qan qisası cəmiyyətin stabil yaşamasını təmin etmə yolunda müəyyən rol oynamışdır. O, cəmiyyətlərdə ağır cinayətlərin qarşısının alınması üçün çox güclü vasitə olmuşdur.

Məkkədə İslamın yayılmasından əvvəl nə məhkəmə, nə həbsxana, nə də cəza olmuşdur. Qəbilələr asayişi adətlərlə qoruyurdular. Xüsusilə, qızlar sayca çox doğulanda bədəvilər onların sayının azalması üçün ən sadə üsula müraciət edirdilər. Səhranın amansız qanunları onlara icazə verirdi ki, insanlar doğulan qızları qəbilələrinə yük olmamaları və ana südünü içərək oğlanların payına qəsb etməmələri üçün diri-diri yerə basdırsınlar. Bir dəfə Kəbədə Məhəmməd peyğəmbərin yanından bir qız keçirmiş. O, uşağı yanına çağıraraq onun başını sığallamış və onun üçün uşaq nəğmələri oxumuşdur. Orada oturan Qureyşlər bunu görmüş və bu hərəkəti bəyənməmişdilər, çünki o dövrdə qızlar dəyərsiz məxluq hesab edilirdi. Onlardan biri buna dözməyərək, Məhəmməd peyğəmbərin yanına yaxınlaşıb: "*Nə üçün uşağı sığallayırsan? Məgər bilmirsən ki, qızları öldürmək lazımdır?*" dedi. Onda peyğəmbər ayağa durub yeni nazil olan Quran ayəsini bəyan etdi: "*Ata-anaya yaxşılıq edin; kasıblıq*

*üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk.*" (Quran surə 6: 152-ci ayə). Beləliklə, əsrlər boyu səhrada mövcud olan qız uşaqlarının qətl edilməsi adətinə son qoyan İslamın özünün xüsusi mövqeyi formalaşmışdır.

Bəzən adət və ənənələr insanların düşüncə və həyat tərzində o qədər dərin kök salır ki, onların ləğv və ya qadağan edilməsi birdən deyil, tədricən həyata keçirilir. Misal üçün, spirtli içkilərin qadağan edilməsi günlərin birində bir neçə müsəlmanın sərxoş vəziyyətdə namaza gəlməsi ilə bağlıdır. Buna görə Quranda belə bir ayə vardır: "*(Ya Rəsulum!) Səndən içki və qumar (meysir) haqqında sual verənlərə söylə: "Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət (dünya mənfəəti) vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür*"!» (Quran, 2: 219).

Bu arada onu da qeyd etmək lazımdır ki, Q.Oppenheymerin Quranı bilməməsi üzündən İslamda spirtli içkilərin qadağan edilməsinin səbəbini düzgün təsvir etməmişdir. O yazır: "*Misal üçün biz əmin ola bilərik ki, İslam, Çin və Meksika hüququnda sərxoşluğun cəzalandırılması səbəbi cadugərliyə inancda axtarılmalıdır. Orada alkoqolun, başqa zəhərlər kimi, öz xüsusi təsirinə görə fövqəltəbii xüsusiyyətə malik olması zənn edilirdi*"[34].

Gördüyümüz kimi, Quranın bu ayəsində spirtli içkilərin içilməsi, hətta qumar qəti qadağan edilməmişdir. Çünki bu əməllər məsuliyyət doğurmur, əksinə, burada o əməllərin bəzi faydalarından bəhs edilir.

Məsələ burasındadır ki, İslamdan əvvəlki dövrlərdə ərəblər minilliklər boyu öz adət-ənənələrini və öz mənəvi keyfiyyətlərini formalaşdırmışlar. Xüsusən də, onlar şərabın içilməsi ilə öyünürdülər. Bunu ona görə etmirdilər ki, bu əməl öyünmə obyekti olmuşdur. Bunun səbəbi ondan ibarətdir ki, onlar bunu səxavətin, daha doğrusu ruhun bədxərcliyinin göstəricisi kimi

---

[34] *Оппенгеймер Г.* Исторические исследования о происхождении наказания. М., 2012. С. 77.

dəyərləndirirdilər. İslamdan əvvəlki şeir nümunələrinə diqqət yetirsək, orada biz şərabı tərif edən bir çox ifadələrə rast gələ bilərik.

Bütün bunları qumar haqqında da demək mümkündür. Çünki o dövrdə qumar oynamaq səxavətin göstərcisi hesab edilirdi. Udulan pulların böyük bir hissəsi yoxsullar üçün xərclənirdi. Bu istiqamətdə yuxarıdakı Quran ayəsi məcburiyyət deyil, anlatma xarakteri daşıyır. Daha sonra isə Allahdan daha bir ayə nazil olmuşdur: "*Ey iman edənlər! Sərxoşkən nə dediyinizi anlamayana qədər və cunub (murdar) olduğunuz zaman (səfərdə olanlar xaric) qüsl edənədək, namaza (namaz qılınan yerə) yaxınlaşmayın*" (Quran 4: 43). Göründüyü kimi, Quranın spirtli içkilərə münasibəti bu ayədə daha da sərtdir. Ancaq onlar günah və ya hüquqi dildə desək cinayət hesab edilmir.

Spirtli içkilər və qumar mövzusunda sonrakı Quran ayələri onları tam qadağan edib və onlar üçün cəza tətbiq etmişdir: "*Ey iman edənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız!"* (Quran, 5: 90). *"Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?*" (Quran, 5: 91). Quranın bu kimi hökmlərinə görə bəzi müsəlman ölkələri spirtli içkilərin içilməsini və qumarı cinayət hesab edərək, onlar üçün cəza tətbiq edirlər.

Tədqiq edilən problemlə əlaqəli qeyd edilməlidir ki, Quranda və müsəlman hüququnun başqa mənbələrində cinayət hüququnun müxtəlif institutlarına aid olan məsələlərə, o cümlədən cinayət institutuna ətraflı baxılır.

Müsəlman hüququna görə, davranış qaydaları dini, hüquqi, əxlaqi normalarla hətta adətlərlə, nəzakət və etiket qaydaları ilə tərtib edilir. Qurana görə, insanın həyatı davamlı olaraq Allahın nəzarəti altındadır. O da hər kəsin davranışını dini qaydalara uyğun olub-olmaması baxımından dəyərləndirir. Quranda

dəfələrlə qeyd edilir ki, insanların elədiklərini Allah görür və "*Onun nəzərindən yerdə və göydə heç nəyi gizlətmək mümkün deyildir*".

Buna görə də, hər bir cinayətkar davranış təkcə hüquqi normaları pozma fəaliyyəti deyil, hansı ki, bu dünyada o cəzalandırılır, bu həm də dini günahdır, hansı ki o biri dünyada onu böyük cəza və əzab gözləyir. Bu isə Qurana görə o mənaya gəlir ki, cinayətkar davranışlar həm hüquqi normalardan yayınma, həm də dini günahdır.

Cinayət və cəzaya aid olan məsələlər Quranın 4-cü surəsinin 33, 34, 94, 95 ayələrində yer alır. Ancaq o ayələrin dini-hüquqi xarakter daşımasına baxmayaraq, Quranı müasir dövrdə hüquqi məcəllə adlandırmaq mümkün deyildir.

Cinayət anlayışının araşdırılmasında müsəlman hüquqşünasları iki əsas mənbədən çıxış edirdilər. Hər şeydən əvvəl, onlar insanların bütün davranışlarının və hətta düşüncələrinin bu və ya digər dərəcədə Allahın iradəsi ilə təyin olunmasını zənn edirdilər. Ancaq Quranın təsbit etdiyi kimi həyat boyu baş verən hadisələrdə insanın özü üçün davranış qaydalarını tətbiq etməsi mümkün deyildir. Buna görə də Quran beş əsas dəyərin – dinin, həyatın, zehnin, mülkiyyətin və nəsl artımının – qorunması üçün prinsip və normalar ortaya qoyur.

Müsəlman hüququnun parlaq nümayəndələrinə görə cinayətkar davranışlar formal və hüquqi mənada Allah tərəfindən qadağan olunmuş hərəkətlərdir.

Hazırda müsəlman ölkələrinin çoxunda Qurani-Kərim hüquqi vasitə kimi istifadə olunmasa da, əhəmiyyəti mənəvi müstəvidə dəyərləndirilir və cinayətlərin qarşısının alınmasında hələ də öz təsirini itirməmişdir. Bu baxımdan dünyəvi qanunvericiliklə dini ehkamların arasında ziddiyətlər yaranır. Bu da təbiidir, çünki müqəddəs kitab nə qədər dərin, əhatəli, universal və konkret olsa belə, Onun bir sıra müddəaları və göstərişləri müasir müsəlman ölkələrinin cinayət və hüquqi

qanunvericiliklərində hərfi mənada və birbaşa əks olunub istifadə edilə bilməz.

Beləliklə, cinayətin mahiyyətini idraki, statistik, psixoloji və sosioloji vasitələrə müraciət etmədən, yalnız hüquqi xarakterli nəzəri və tətbiqi kriminoloji tədqiqatların vasitəsi ilə bilmək mümkün deyildir. Kriminologiya cinayət haqqında hərtərəfli hüquqi, iqtisadi, sosioloji və psixoloji tövsiyyələr vermir; cəmiyyətə yalnız cinayətin vəziyyəti haqqında məlumat verib, bu hadisəyə qarşı lazım olan mübarizə vasitələri təklif edir. Cinayət əməlində hər zaman dərin kriminoloji təhlilə sığmayan müəmmalı və gizli xüsusiyyətlər də olur. Bunun nəticəsi olaraq kriminologiya və digər elmlərdə olan təhlil vasitələrinin çatışmazlığı problemi ortaya çıxır.

Obyektiv göstəricilərə əsasən deyə bilərik ki, cinayət konkret insanın cəmiyyətdə kollektivlər, insanlar və şəxsiyyətlər arasında yaranmış qaydalara qəsddir. Bu, cinayəti sosiallaşdırır, çünki bu və ya digər vahidlərin münasibəti sosial hadisənin mahiyyətini təşkil edir. Müxtəlif cinayətləri törədən insan cəmiyyətin digər üzvləri, eləcə də bütün sosial qrupları və bütöv cəmiyyətlə qarşılıqlı münasibətə girir. Ancaq bu qarşılıqlı münasibət bir mənalı olaraq dərk edilməz. Çünki bu münasibətlər yalnız insanlar arasında mövcuddur. Cinayətə ona görə sosial hadisə kimi baxılmalıdır ki, bu və ya digər davranışlar psixi həyəcanla müşayiət edilir.

Ümumiyyətlə, insanlar öz aralarındakı qarşılıqlı psixi təsir formalarına görə sosial hadisələrə daxil deyildir. Bizə məlumdur ki, cinayətkar davranış psixi həyəcanlarla müşayiət olunur. P.Sorokin qeyd etmişdir: "*Psixi xarakterli hər bir qarşılıqlı münasibət, kimin arasında olursa olsun, sosial hadisə hesab edilir*"[35].

Qarşılıqlı psixi münasibətlərdə olan fərdlərin birliyi sosial

---

[35] *Сорокин П.* Преступление и кара. Подвиг и награда. СПб., 1914. С. 19.

qrupu və ya sosial mexanizmi təşkil edir. Buna görə cinayət insanların düzgün qarşılıqlı psixi münasibətlərinin mümkünlüyü üçün zəruri şəraitin olmamasının nəticəsidir. Bunun nəticəsi olaraq cəmiyyətin müxtəlif üzvləri arasında psixi həyəcanlar eyni olmur. Yəni, cəmiyyətdəki sosial mühit insanlar üçün barabər olmayan şərait yaradır ki, bu da onların arasında düzgün olmayan qarşılıqlı psixi münasibətə, yəni ixtilafa gətirib çıxarır.

Ancaq məsələ yalnız xarici sosial mühitlə əlaqədə deyildir. Cəmiyyətin və ya qrupun üzvləri insan təbiətinin individuallığı səbəbi ilə, yaşadığı cəmiyyətin bu və ya digər şəraitini eyni formada dərk etmir və eyni qəbul etmirlər. Bunun nəticəsində isə cəmiyyətlə fərdin maraqları kəsişir, bu isə bəzən cinayətə səbəb olur. Nəticədə, biz cəmiyyətdən ayrılmış xüsusi ictimai qruplara sahib oluruq, bu qruplar kütləvilik və özünə məxsusluqla xarakterizə edilir.

Beləliklə, cinayət sosiologiyasının predmeti, son nəticədə insan davranışında, xüsusi olaraq isə cinayətkar davranışda ortaya çıxır. Buna görə də, cinayəti prinsipcə sosial-psixoloji hadisə kimi dəyərləndirmək mümkündür. Ancaq cinayətin mahiyyətini dərk etmək üçün bu kifayət deyildir. Bunun üçün bu fenomen fəlsəfi baxımdan dərk edilməlidir.

Qeyd etmək lazımdır ki, son zamanlar fəlsəfi ədəbiyyatda cinayət və cinayətkarlıqla əlaqəli problemlərə kifayət qədər ciddi diqqət yetirilir. Misal üçün, E.A.Pozdnyakovun "*Cinayətin fəlsəfəsi*" monoqrafiyası dərc olunmuşdur. Fəlsəfə elmləri namizədi elmi adı almaq üçün D.S.Babiçevin "*Cinayət fəlsəfəsinin siyasi-hüquqi tədqiqi*" adlı dissertasiyasını göstərə bilərik. A.P.Dubnov və V.A.Dubrovtsevin "*Cinayətkarlığın fəlsəfəsi və Rusiya cəmiyyətinin kriminallaşması*" (1999) adlı kitabı bu istiqamətdə işlənilmiş digər bir əsərdir. Nəhayət, bu yaxınlarda mövzu ilə əlaqədar A.İ.Aleksandrovun "*Şərin və cinayətkarlığın fəlsəfəsi*" adlı monoqrafiyası işıq üzü görmüşdür (2013).

Eyni zamanda qeyd etmək lazımdır ki, bu müəlliflər

“*cinayətin fəlsəfəsi*” və “*cinayətkarlığın fəlsəfəsi*” anlayışlarını bir-birindən fərqləndirmirlər. Bununla əlaqədar D.S.Babiçev qeyd edirdi: “*Cinayətin fəlsəfəsini tədqiq edərkən cinayət fenomeninə qaçılmaz reallıq kimi nəzər salmaq lazımdır ki, onun arası kəsilməyən mövcudluğunu və inkişafını müşahidə edəsən*”[36]. Başqa yerdə müəllif cinayət fəlsəfəsinin araşdırılmasında fəlsəfədən, hüquq fəlsəfəsindən, sosiologiyadan və digər elmlərdən alınmış biliklərə söykənməyi təklif edir[37].

Bu başdan qeyd edilməlidir ki, müəllif “*cinayətkarlığın fəlsəfəsi*” anlayışı ilə bərabər “*cinayətin fəlsəfəsi*” anlayışını da dilə gətirir. Ona görə cinayətkarlığın fəlsəfəsinin araşdırılırması, hüquq pozuntusu fenomeninin fəlsəfi cəhətdən dərk edilməsi və onun mahiyyətinə insan təbiətindən irəli gələn “şər” nöqteyi-nəzərindən baxılmasıdır. Məhz insan təbiətində olan, onun mahiyyətini təşkil və davranışını idarə edən “şər” bir hadisə kimi onda cinayəti ortaya çıxarır. Bununla razılaşmaq mümkün deyildir. Çünki D.S.Babiçev tamamilə doğru güman edirdi ki, cinayətkar davranışın səbəblərini insanın özündə axtarmaq lazımdır. Beləliklə, müəllif *“Nə üçün insan cinayət törədir?”* fəlsəfi sualına cavab verir. Bununla da o, “*cinayətkarlığın fəlsəfəsi*” deyil, “*cinayətin fəlsəfəsi*” anlayışının işlənməsinin doğruluğunu təsdiq edir.

A.İ.Aleksandrovun “*cinayətkarlığın fəlsəfəsi*” anlayışının işlədilməsinə dair dəlilləri ilə də razılaşmaq mümkün deyildir. Müəllif bu anlayışı işlədərək əslində “*cinayətin fəlsəfəsi*” anlayışı haqqında məlumat verir. Belə ki, öz monoqrafiyasının 65-ci səhifəsində o qeyd edir: “*Cinayətkarlığın fəlsəfəsi gərək hüquq pozuntusu fenomeninin fəlsəfi-nəzəri mənasını və mahiyyətini, sərhədlərini və hüquqa uyğun davranış səviyyəsinin nisbətini dərk*

---

[36] *Бабичев Д.С.* Политико-правовое исследование философии преступности: Дис. … канд. юрид. наук. Уфа, 2004. С. 40.
[37] Göstərilən kitabda. C. 22

*etməli; cinayətkar davranışın yaranmasının və davamlılığının saxlanmasının əsas səbəblərini aşkar etməli; eyni zamanda onu ləğv etməsə də, heç olmasa azalmasının metodoloji zəminini yaratmalıdır”* [38]. Bütün bunlar onun elmi araşdırmasının müstəqil və perspektivli istiqaməti kimi tədqiqat vəzifələrindən irəli gəlir.

Birincisi, hüquq pozuntusu fenomeninin mənası və mahiyyəti, o cümlədən cinayətlər, cinayətkar davranışın mənşəyi, səbəbi və digər məsələlər cinayətin fəlsəfəsinin araşdırma obyektidir. Çünki cinayətin əslində nə olduğu, mənbəyi və nə ilə bağlı olması sualına cinayətkarlığın deyil, cinayətin fəlsəfəsi cavab verir.

69-cu səhifədə müəllif yenə də bu məsələyə qayıdaraq qeyd edir: “*Cinayət fəlsəfi prizmadan araşdırıldıqda bir neçə suala cavab verməyə çalışılır: nə üçün insan cinayəti törədir; cinayət kimi qiymətləndirilən əməlləri törətməyə onu nə vadar edir*?”.

Əgər bu suallar cinayətkarlığın fəlsəfəsinə aid edilirsə, o zaman soruşulur ki, cinayətin fəlsəfəsi hansı suallara cavar verməlidir? Bunun prinsipial əhəmiyyətə malik olmaması müddəasından çıxış edərək deyə bilərik ki, “*cinayət*” və “*cinayətkarlıq*” anlayışları arasında heç bir fərq yoxdur. Halbuki A.İ.Aleksandrov bu hadisələrə tək və cəmin, keyfiyyət və kəmiyyətin əlaqəsi kimi baxır (s. 85).

İkincisi, bizim fikrimizcə müəllifin “*cinayətkarlığın fəlsəfəsi*” anlayışı cinayətlərin törədilməsinə son qoymanın metodoloji zəmini yaratmasa belə, heç olmasa bunu onun azaldılması istiqamətində irəli sürdüyü iddiası yanlışdır. Faktiki olaraq burada söhbət cinayətkarlıqla mübarizə siyasətindən gedir. Bu isə fəlsəfənin deyil, kriminologiyanın və cinayət hüququnun araşdırma sahəsidir.

Lakin “*cinayətin fəlsəfəsi*” və “*cinayətkarlığın fəlsəfəsi*”

---

[38] *Александров А.И.* Философия зла и философия преступности. СПб., 2013.

anlayışlarının düzgün işlədilməsi üçün, fikrimizcə, "*cinayət*" və "*cinayətkarlıq*" anlayışlarının nisbiliyini, qarşılıqlı əlaqələrini və müstəqilliyini nəzərdən keçirtmək lazımdır.

Bu anlayışların bir-birindən fərqləndirilməsinin zəruriliyi ondadır ki, cinayət və cinayətkarlığın səbəblərinin araşdırılmasının metodoloji yanaşmaları onların qarşılıqlı münasibətlərinin necə başa düşülməsindən asılıdır. Yəni cinayətkarlıq cinayətdən keyfiyyətinə görə ayrılır və tək nizamlılıq ortaya qoyursa, cinayətkarlığın tədqiqi aydın və perspektivsiz hesab edilir.

**II.** "*Cinayətkarlıq*" və "*cinayət*" anlayışlarını tam və hissənin münasibətləri kimi qiymətləndirmək mümkündür. Buna görə də bu problemlərin düzgün dərk edilməsi üçün fəlsəfi kateqoriyalardan hesab edilən ümumi və xüsusi anlayışlarından istifadə edilməlidir.

Aristoteldən başlayaraq keçmişin mütəfəkkirləri bu anlayışların təyin olunması məsələlərində çətinliklərlə qarşılaşmışlar. Bu çətinlikləri ortadan qaldırmaq istəyən Hegel bu istiqamətdə çox dərin araşdırmalar aparmışdır. Biz hüquqşünaslara isə öz tədqiqatlarımızda artıq hamı tərəfindən qəbul edilən bu anlayışları istifadə etmək qalır.

Hegel qeyd edirdi: "...*hər bir əşyanın olduğu kimi olması onların kəmiyyət nisbəti, onların "özünün" sadəcə toplusudur. O, başqa maddənin müəyyən miqdarından və başqa şeylərdən ibarətdir. Əşya yalnız hər hansı bir əlaqənin olmamasından ibarət olan əlaqəni təşkil edir*"[39].

Cinayətkarlığın əşya kimi dərk edilməsi A.Lepsini aşağıdakı nəticəyə gətirmişdir: "*Cinayətkarlıq bir əşya kimi müxtəlif cinayətlərdən ibarətdir, hansı ki , onlar da müxtəlif cinayətlər və ya onların qrupları, "sadəcə onların toplusu" və ya "cinayətlərin özlərinin" arasında hansısa bir kəmiyyət nisbətinə malikdirlər.*

[39] *Гегель Г.В.Ф.* Наука логики. СПб., 2002. С. 448.

*Hətta biz vurğulaya bilərik ki, müxtəlif cinayətlərin toplusu olan cinayətkarlığın digər cinayətlərlə əlaqəsi yoxdur”* [40].

Daha sonra müəllif nəzəriyədən praktiki müstəviyə keçərək iddia edir ki, “*müasir kriminologiya hər hansı bir ərazidə törədilmiş bütün cinayətləri toplayır və bunun nəticəsi olaraq yeni hadisə olan cinayətkarlıq ortaya çıxır. Bu prosesə dinamik baxılır, strukturu öyrənilir və əhalinin sayı ilə müqayisə edilir. Əlbəttə, hüquq mühafizə orqanlarına aid olan qurumların işində belə “arayışların” müəyyən operativ əhəmiyyəti vardır. Belə “arayışlar” elmi dəyərlər verməyə cəhd etsədə, onlar elmdən xeyli uzaqdırlar”* [41].

Beləliklə A.Leps hesab edir ki, cinayətkarlıq yeni bir hadisə kimi müəyyən ərazidə ayrı-ayrı cinayətlərin nəticəsidir. Bununla da müəllif “*cinayətkarlıq*” anlayışının statistik xarakterini göstərməyə çalışır. Buna qarşı heç bir etiraz yoxdur. Eyni zamanda, A.Leps qeyd edir ki, “*cinayətkarlıq*” mahiyyət etibarilə hadisədir. Onun strukturu, dinamikası, yönəlməsi, xarakteri və s. tərəfləri vardır. Onda belə bir sual ortaya çıxır: cinayətkarlıq yuxarıda sadalanan xüsusiyyətləri əks etdirən hadisə kimi, keyfiyyətə aid olan xüsusiyyətləri olmadan yalnız kəmiyyət göstəriciləri ilə səciyyələnə bilərmi? Bununla bağlı yalnız nəzəri deyil, həm də praktiki əhəmiyyətli çoxlu digər prinsipial suallar ortaya çıxır. Ayrı-ayrı cinayətlər cinayətkarlığın içində tamı təşkil edən hissələr, müstəqil və ya ondan ayrılmaz hissələr kimi mövcuddurmu? Ayrı-ayrı cinayətlər cinayətkarlıq halına təbii, yoxsa süni yolla gəlir? Cinayətlər cinayətkarlıq halına kəmiyyət, yoxsa keyfiyyət xüsusiyyətləri ilə çevrilir? Cinayətkarlıqda ayrı-ayrı cinayətlərin münasibətləri onun yeni (onların hissələrinə xas olmayan) xüsusiyyətlərinin yaranmasına gətirib çıxarır, ya yox?

[40] *Лепс А.* Философия Гегеля и преступность как явление сущности // Юридические науки и образование. 2012. № 35. С. 167.
[41] Göstərilən kitabda. C. 468-470.

Daha əvvəl nə yaranır: tamın hissəsi olan cinayət və ya tam anlayışlı cinayət?

Günümüzdə cinayətkarlıq bir tərəfdən mənfi sosial-hüquqi hadisə kimi dəyərləndirilir, digər tərəfdən bu həm sosial, həm də sosial mexanizmin vəziyyətini xarakterizə edən cəmiyyət parametrlərindən biri kimi, onun tərkib hissələrinin uyuşmamasını təmin edən fəlsəfi-hüquqi hadisədir[42].

A.İ.Aleksandrov cinayət anlayışına çox orjinal tərif vermişdir: "*Cinayət insanların qanunları pozaraq öz problemlərini kütləvi surətdə həll etməsi prosesidir*"[43]. Bu tərifdən hansı nəticəyə gəlmək mümkündür? İnsanların kütləvi surətdə öz problemlərini həll etməsi cinayətin kortəbii deyil, təşkil edilmiş, düşünülmüş, məqsədyönlü xarakter daşımasına dəlalət edir. Başqa sözlə desək, müəyyən insanlar qrupu, daha doğrusu müəyyən kütlə, öz problemlərini həll etmək üçün yığışır, əvvəlcədən sövdələşir və müəyyən ərazidə, müəyyən vaxt kəsimində, cinayətlərin törədilməsi haqqında qanuni qadağanı pozmaq barədə vahid kütləvi qərara gəlirlər. Burada cinayətlərin xarakteri əhəmiyyət kəsb etmir. Belə bir kütləvi gərara gəlmək mümkündürmü?

Yalnız postsovet məkanında deyil, xarici ölkələrin kriminologiyasında başqa bir yanaşma da vardır: cinayətkarlıq mövcud regionda və ya cəmiyyətdə müəyyən vaxt ərzində törədilmiş bütün konkret cinayətlərin cəmidir.[44]

---

[42] См.: Криминология. Учебник / Под ред. *В.Н. Кудрявцева, В.Е. Эминова.* М., 1997; Криминология для юридических вузов / Под ред. *А.И. Долговой.* М., 1997; *Спиридонов Л.И.* Социология преступности. М., 1978 и др.

[43] *Александров А.И.* Göstərilən kitabda. С. 71.

[44] См.: Криминология / Под ред. И.И. Карпеца, В.Н. Кудрявцева, Н.Ф. Кузне цовой, А.Б. Сахарова. М., 1976; Криминология / Под ред. В.Г. Звир буля, Н.Ф. Кузнецовой, Г.М. Миньковского. М., 1979; *Вермет М.* Ос новные проблемы криминологии / Пер. с венг. М.: Прогресс, 1978; *Холыст Б.* Криминология. Основные проблемы / Пер. с польск. М., 1980 и др.

Bəzi müəlliflər hesab edir ki, bu tərif formal xarakter daşıyır. Çünki cinayətkarlığın yalnız normativ tərəfini təyin edir və bu sosial hadisənin mahiyyətini aça bilmir[45].

Məlum olduğu kimi, hər bir ictimai hadisə sosial sistemin elementi kimi çıxış edir. Bu sistem çərçivəsində bütün qarşılıqlı münasibətlərdə olan proseslər və sosial hadisələr təhlil edilir. Bu hadisələrdən biri də cinayətkarlıqdır. İdrakın statistik metodundan istifadə edərək sosiologiya cinayətin kəmiyyət və keyfiyyət dəyişiklikləri haqqında məlumati təqdim edir. Bunların əsasında kriminologiya cinayətin vəziyyətini, dinamikasını, strukturunu və digər məsələlərini öyrənir. O, insanların cəmiyyətdə törətdiyi və cəmiyyətin maraqlarına zidd olan əməllərin cəmindən ibarətdir.

Cinayətin xüsusiyyəti ondan ibarətdir ki, hər bir ayrıca törədilmiş cinayət insanın düşünülmüş fəaliyyətinin nəticəsidir. O ki qaldı cinayət üzrə rəqəmlərə, onlar xaotik toplanır. Yəni cinayətlər üzrə aparılan statistika reallığa uyğun olmaya da bilər. Əlbəttə, burada cinayətin sosial və tarixi yaranma prosesini nəzərə almadan, yalnız statistik təhlili ilə məhdudlaşmaq olmaz. Cinayət eyni zamanda kütləvi, tarixi baxımdan dəyişkən, sosial və hüquqi xarakterə malik hadisədir.

Lakin cinayətin sosial xarakteri onun ictimai əsaslarını və səbəblərinin olması ilə deyil, onun sosial mahiyyəti ilə əlaqəlidir. Burada nə nəzərdə tutulur?

Məsələ burasındadır ki, insanların davranışı elə bir təzahürdür ki, o da sosial kateqoriyaya aiddir, cinayət isə məlum olduğu kimi davranışın bir növüdür. Buna görə də cinayətkarın davranışını sosial kateqoriyaya aid olan bir hadisə kimi öyrənməkdənsə, sosial davranışın tərifi verilməlidir. L.Qumploviçə görə: "*Sosial hadisə deyəndə, biz insan qruplarının*

---

[45] См.: *Шапиев С.* Преступность и общество (Криминологическое теорети ко-прикладное исследование): Дис. … докт. юрид. наук. СПб., 2000.С. 31–32.

*və onların ünsiyyətlərinin qarşılıqlı təsirlərindən doğan münasibətləri anlayırıq*”[46]. Q. Zimmelə görə “*Sosial hadisə və ya cəmiyyət bir neçə fərdin qarşılıqlı münasibətlərinin olduğu yerdə mövcud olur*”[47].

Gördüyümüz kimi, Q.Zimmellə L.Qumploviçin baxışları arasındakı fərq ondan ibarətdir ki, Qumploviç qarşılıqlı münasibətin elementi kimi fərdi deyil, qrupu götürür. Onu da qeyd etmək lazımdır ki, bunun prinsipial fərqi yoxdur. Çünki “bir neçə insanı” də qrup kimi qəbul etmək mümkündür.

Sosioloji baxımdan sosial hadisə, sosiologiyanın subyekti kimi, hər şeydən əvvəl bu və ya digər mərkəzlərin qarşılıqlı münasibətləri ya da özünəməxsus xüsusiyyətlərə malik qarşılıqlı münasibətlərdir. Lakin ünsiyyətdə olan insanların qarşılıqlı münasibətləri müəyyən daxili proseslərlə müşayiət olunur. Başqa cür desək, fərd və qrupların müxtəlif davranışlarını, onların sosial təzahürlərini, davranışlarının psixoloji tərəflərini analiz edərək öyrənə bilirik.

Buna görə də məhz psixi həyəcanların təhlili insanın hər hansı bir cinayətkar davranışlarının izah edilməsinə imkan yaradacaqdır. Bu isə sosial hadisələrdə psixoloji kateqoriyaların və anlayışların işlədilməsi zamanı ortaya çıxa bilər. Bu istiqamətdə hər bir qarşılıqlı münasibəti sosial hadisə kimi deyil, yalnız psixi təbiətə malik olanı qəbul etmək mümkündür. Bütün bunların kimin arasında və nəyin vasitəsi ilə ortaya çıxdığının fərqi yoxdur. Bəs o zaman psixi qarşılıqlı münasibətlər nədən ibarətdir?

Psixoloji (daxili) baxımdan bu qarşılıqlı təsirlənmə psixoloji mübadiləyə, istəklərə səbəb olur, hansı ki, bütün bunlar psixoloji durumundan irəli gəlir. Burada bu qarşılıqlı təsirlənmənin davamlı

---

[46] *Гумплович Л.* Основы социологии. СПб., 1899. С. 113, 105, 106, 116, 265 и др.

[47] *Зиммель Г.* Sociologie. Leipzig, 1908. С. 5–7, 31–39.

xarakter daşıması vacib deyildir. Psixoloji həyəcan üçün kifayətdir ki, qarşılıqlı təsirlənmə uzun müddətli və təsadüfi olsun. Buna misal kimi hazırlıqsız və əvvəlcədən düşünülməmiş cinayətin törədilməsini göstərmək mümkündür.

Bu baxımdan cinayətin ictimailəşməsi ayrı-ayrı cinayətkar əməllərinin törədilməsi ilə həyata keçirilən qarşılıqlı münasibətlərdən irəli gəlir. Nə vaxt cinayət ortadan qalxarsa, o zaman "*Cinayətkarlıq sosial hadisədir*" anlayışının da işlədilməsində ehtiyac olmayacaqdır.

Beləliklə, əgər biz cinayətkarlığa statistik rəqəm göstərcisi kimi baxsaq (məsələn, Azərbaycanda 2011-ci ildə 24000 cinayət törədilib), onda çətin ki cinayətin sosial xarakterli olması qənaətinə gələrik. Çünki bu hadisə insanların qarşılıqlı münasibətlərinin məhsulu deyildir. Bu səbəbdən cins, yaş, boy, saç rəngi və digər göstəricilər sosial hadisə hesab edilir. Cinayətkarlığa cinayətlərin toplusu kimi baxılırsa, o zaman onun təkrarlanması, kütləviliyi, ictimai təhlükəsi, əlamətləri və xüsusiyyətləri aşkar edilməməlidir. Bu baxımdan cinayətkarlıq sosial hadisə kimi kriminoloji və sosioloji araşdırmada istinad nöqtəsinə çevirilir.

Yenə də Hegelin fikirlərinə qayıdaq. O demişdir: "*Tam hissələrdən ibarətdir. Onsuz onlar heç bir məna kəsb etmir... Buna görə də, tam və hissələr bir-birini tamamlayır... Onların hər biri özlüyündə müstəqildir və onlar iki müstəqil varlıq kimi bir-birinə qarşı biganədirlər... Tam hissələrə və hissələr tama bərabərdir*"[48].

Tamın hissə ilə münasibətlərinin məntiqinə əsaslanaraq birbaşa onun bilavasitə cinayət və cinayətkarlıq hadisələrindəki təzahürlərinin təhlilinə keçək. Hissə deyəndə biz belə bir ayrıca hadisəni və ya konkret cinayəti nəzərdə tuturuq ki, onun xarakterinin, keyfiyyətlərinin, əlamətlərinin toplusu onun

---

[48] *Ленс А.* Göstərilən kitabda. C. 173.

spesifikasını və xüsusiyyətini təyin edir. Bununla da onu başqa hissələrdən - cinayətlərdən - ayırır. Məsələn, qətl zorlamadan fərqlidir. Baxmayaraq ki, onların ikisi də hissə kimi bir tamın daxilindədirlər. Hətta ayrı-ayrı cinayət hadisələrinin çoxluğuna baxmayaraq, onların heç olmasa ikisinin belə tam bənzərliyi mümkünsüzdür. Çünki tam olaraq eyni cinayətlər olmur. Eləcə də onları törədən insanlar da bir-birinə bənzər deyillər. Bununla belə, elə bir cinayət yoxdur ki, başqa cinayət hadisələrindən təcrid və əlaqəsiz olsun. Soyğunçuluğu bir cinayət kimi quldurluğun məzmununu dərk etmədən anlamaq mümkün deyildir. Əks təqddirdə biz onları düzgün qiymətləndirə bilmərik.

Ümumiyyətlə, heç bir cinayət siyasi, hüquqi, sosial, mənəvi və əxlaqi həyatın digər hadisələr ilə əlaqəsi olmadan yarana və ya yox ola bilməz. Əgər ayrı-ayrı cinayətlər (onların hissələri) öz aralarında qarşılıqlı münasibətdədirlərsə, nəticədə onlar ümumi cəhətləri ortaya qoyur və o cəhətlər onları bir başlıq altında birləşdirir.

İstisnasız olaraq, bu ümumilik bütün cinayətlərə məxsus olmaqla onun mahiyyətini təşkil edir. Bizə görə şər bir fəlsəfi kateqoriya kimi cinayətin mərkəzində yerləşir. Məhz şər kateqoriyasının vasitəsi ilə biz ayrı-ayrı cinayətlərin müqayisəli xarakteristikasını verə bilərik. Məsələn, qətl zorlamadan bir çox xüsusiyyətləri ilə fərqlənir. Ancaq onları birləşdirən və hər ikisində də mövcud olan şərdir. Deməli, tam olaraq eyni cinayətlərin olmadığı kimi, tam fərqlənən cinayətlər də yoxdur. Fərqlər yalnız şərin dərəcəsi və xarakterində ola bilər. Beləliklə, cinayətlərdə ümumilik deyəndə onların hamısına aid olan xüsusiyyətlərin və keyfiyyətlərin birliyi nəzərdə tutulmalıdır.

Bununla əlaqədar D.A.Kərimov qeyd edir: "*Tamın yaranması o halda ola bilər ki, onun hissələri reallıqda mövcud olsun. Çünki onların birliyi müəyyən bir tam yaradır*"[49].

---

[49] *Керимов Д.А.* Методология права. С. 212.

Bütün bunlar bizə iddia etməyə imkan verir ki, cinayətlər olmasa, cinayətkarlıq (tam) da ola bilməz. Eyni zamanda, bu fikirin əksini də fikirləşmək mümkündür. Onlar təbii olaraq qarşılıqlı münasibətlərdə olaraq bir-birindən asılı vəziyyətdə şərtlənirlər. Burada ayrıca qeyd olunmalıdır ki, cinayətkarlıq tam bir varlıq kimi özündə yalnız cinayətin ayrı-ayrı əhəmiyyətli xüsusiyyətlərini deyil, həm də ona aid olan bütün xüsusiyyətlərin cəmini əhatə edir. Deməli, cinayətkarlığın tərkibində cinayət anlayışının tam mənası vardır. Bunun nəticəsində yaranan varlıq, yəni cinayətkarlıq o xüsusiyyətləri alır ki, onların içində cinayətin mahiyyətini təşkil edən şər vardır. Beləliklə, cinayətkarlıq da, cinayət də bir mahiyyətlə səciyyələnir, bu da təbii ki, şərdir. Cinayətkarlıq tam varlıq kimi yalnız cinayətlərin yığımı deyildir.

Cinayətkarlıq bir tam kimi ayrı-ayrı cinayətlərə (hissələrə) nisbətən obyektiv xarakter daşıyır, daha doğrusu, cinayətkarlıq qanunauyğunluq, onun yaranması isə zərurətdir. L. O. Volt qeyd etmişdir: "*Hər bir tam mexaniki aqreqatdan onunla fərqlənir ki, o hansısa qanunauyğun tərtibata, hissələrin təşkil olunmasına malikdir*"[50].

Buna görə də cinayətkarlığa sistem kimi baxılmalıdır. Çünki V. Q. Afanasyevin qeyd etdiyini görə: "*Sözsüz, hər bir tamı sistem adlandıra bilərik*"[51]. Ona görə ki, yeni inteqrativ keyfiyyətin var olmasını şərtləndirən cinayətlərin toplusu ilə qarşılıqlı münasibətləri əslində sistem təşkil edir. Cinayətkarlığın həm də müəyyən strukturu özündə birləşdirir.

Cinayətkarlığın tam bir varlıq kimi əlaməti onun zəruri olan ümumi strukturunda əks olunur. Bu struktur cinayətin ayrıca hissələrini birləşdirir və onlarda öz izini qoyur.

V.İ.Sviderskiyə görə strukturu "*prinsip, üsul, tamın*

---

[50] *Вольт Л.О.* Соотношение структуры и элементов // Вопросы философии. 1963. № 5. С. 45.

[51] *Афанасьев В.Г.* Проблема целостности в философии и биологии. М.,1964. С. 8–10.

*elementlərinin rabitə qanunauyğunluğu, mövcud olan tamın elementlərinin qarşılıqlı münasibətlərinin sistemi çərçivəsi*” kimi başa düşmək lazımdır[52]. Cinayətkarlığın strukturu onun daxili forması ilə səciyyələnir. Bu strukturda ayrı-ayrı cinayətlər öz müxtəlif əlamətlərinə görə başqa tama daxil olurlar. Məsələn, ağır cinayətlər törədənlər və ya yetkinlik yaşına çatmayanların törətdikləri cinayət qruplarını göstərmək mümkündür.

Cinayətkarlıq dəyişkən və qeyri-stabildir. Onun dayanıqlığı ayrı-ayrı cinayətlərin dinamikasından, xarakterindən, xüsusiyyətlərindən və təbiətindən asılıdır. Buna görə iddia etmək mümkündür ki, ayrı-ayrı cinayətlər, yəni tamın hissələri cinayətkarlığa (tama) münasibətdə öndə durur, köhnə cinayətlərə münasibətdə isə ikinci dərəcəli mövqe ortaya qoyur. Bunlar o əməllərə aiddir ki, sonradan cinayətkarlıq statusunu almışdır. C.Ə.Kərimov iddia edir ki, “*məhz tam o fundamenti təşkil edir ki, onun üzərində hissələr inkişaf edir və fəaliyyət göstərir. Buna görə də tamın tərkibində olan hissələrin əhəmiyyətindən asılı olmayaraq, son nəticədə onlar tama nisbətdə ikinci dərəcəlidirlər*[53]”.

Bu istiqamətdə ayrı-ayrı hissələr (ayrı-ayrı cinayətlər) əslində müstəqil cinayətlərdir. Bu səbəbdən tam (cinayətkarlıq) dəyişkəndir. Yalnız konkret cinayətlərin ətraflı təhlili və öyrənilməsi sayəsində cinayətkarlığın mahiyyətinin dərkini dərinləşdirmək, inkişafının müəyyən qanunauyğunluqlarını konkretləşdirmək mümkündür. Bu, heç də cinayətkarlığın ümumi səbəblərinin tədqiqat obyekti kimi tamın əhəmiyyətini kiçiltmir. Buna görə iddia etmək mümkündür ki, həm ayrıca cinayətlər (hissələr), həm də ümumiyyətlə cinayətkarlıq (tamlıq) müstəqil elmi tədqiqatın obyektidir. Bu istiqamətdə K. Fişer qeyd etmişdir:

---

[52] *Свидерский В.И.* Некоторые особенности развития в объективном мире. Л., 1964. С. 135.

[53] *Керимов Д.А.* Göstərilən kitab. C. 219.

“*Tam müstəqil, hissələr isə bu birliyin sadəcə tərkibləridir; eyni zamanda onlar da müstəqildirlər, reflektiv birlik isə onların ortaya çıxma anıdır”*[54].

Cinayətkarlığın sosial hadisə kimi təqdim edilməsi məcburi olaraq onun xüsusi sosial səbəblərlə şərtlənməsinin etiraf edilməsinə gətirib çıxarır. Yəni cinayətkarlıq ayrıca törədilmiş cinayətdən fərqli olaraq, “müstəqil iradənin” göstəricisi deyilsə, onda onun varlığı insan iradəsindən asılı olmayan hər hansı bir stabil güc və səbəblərlə təmin edilir.

Cinayətkarlıq cəmiyyətdə insanlar tərəfindən cəmiyyətin mənafeyinə qarşı törədilmiş əməllərin məcmusudur. Hər bir sosial dəyişiklik, nə qədər kiçik görünsə belə, birbaşa və ya dolayı yolla cinayətin dinamikasına və səviyyəsinə təsir edir. Ancaq bunu cinayətkarlığın səbəbləri ilə əlaqələndirmək mümkün deyildir. Çünki bu dəyişikliklər, o cümlədən mövcud olan sosial şərait cinayətkarlığa fərdlər vasitəsi ilə təsir edir və onların davranışlarında mənfi izlər buraxır.

Sosiologiya və kriminologiya elmləri tez-tez cinayətkarlığın müxtəlif növlərinin dinamikasına, strukturuna, səviyyəsinə, vəziyyətinə təsir edən faktorların və ümumiyyətlə mənfi definisiyaların axtarışına qayıtmışdır. Bu istiqamətdə bir çox iqtisadi, siyasi, demoqrafik və kosmik faktorlar aşkar edilmişdir. Burada sual yaranır: onlar kimə təsir göstərir? Şəxsiyyətə, fərdə və ya ayrı-ayrı cinayətlərin cəmi olan cinayətkarlığa? Bu halda biz nəyi araşdırmalıyıq: bu faktorların insana təsirini, yoxsa ayrı-ayrı cinayətlərsiz mümkün olmayan cinayətkarlığa? Cinayətkarlığın səbəbləri haqqında suallara cavab verməyə cəhd edəndə, biz onu əməlin subyekti kimi cinayəti törətmiş fərddə axtarırıq. Beləliklə, cinayətkarlığın səbəbləri haqqında sual arxa plana keçir. Buna görə Q.Manheynin: “*Cinayətkarlığın səbəblərinin*

---

[54] *Фишер К.* Гегель: его жизнь, сомнения и учения. М.; Л., 1933. С. 390.

*axtarılmasından imtina etmək dövrü gəlib çatmışdır*"[55] fikri ilə razılaşmalıyıq və insan davranışının, xüsusi ilə cinayət davranışının araşdırılması ilə ciddi məşğul olmalıyıq.

Beləliklə, cinayətkarlıq fenomenini yalnız fəlsəfi səviyyədə həll etmək mümkün deyildir, çünki cinayətkarlıq mürəkkəb, çox aspektli və hər şeydən əvvəl özünəməxsus xüsusiyyətlərə və inkişaf qanunauyğunluqlarına malik sosial-hüquqi hadisədir. Bu səbəbdən cinayət və cinayətkarlıq fərqli anlayışlardır. Buna görə də onları eyniləşdirmək doğru deyildir.

İdrakın statistik metodunu tətbiq edərək sosiologiya cinayətkarlığın keyfiyyət və kəmiyyət dəyişiklikləri haqqında obyektiv göstəriciləri ortaya çıxarır. Bunların əsasında kriminologiya cinayətkarlığın vəziyyəti, dinamikası və strukturunu tədqiq etməli, bu istiqamətdə cinayətkarlığın statistikasına nə aiddirsə onu da araşdırmalıdır. İnsanın cinayətkar davranışının səbəblərinə gəldikdə isə onu deyə bilərik ki, bu kriminologiyanın deyil, digər fənlərin araşdırma obyektidir. Bu fənlər fəlsəfə, psixologiya, biologiya, genetika olmaqla insan mahiyyətini geniş mənada tədqiq edir. Bununla bağlı hesab edirik ki, cinayətkarlığın səbəblərini deyil, insanın cinayətkar davranışının səbəblərini, hətta belə əməllərə gətirib çıxaran şəraiti və təfərrüatı araşdırmaq lazımdır.

Cinayətkarlıq insanın cinayətkar davranışının səbəblərinin aşkar edilməsi məqsədi ilə yox, bu hadisə ilə mübarizədə nəzəri və praktiki cəhətdən materialların ümumiləşdirilməsi, daha doğrusu statistik materialların araşdırılmasının nəticəsidir. Buna görə də "*Cinayətkarlığın fəlsəfəsi*" haqqında danışmaq mümkün deyildir. Eyni zamanda "*Cinayətin sosiologiyası*" termini də tətbiq olunmalıdır, çünki cinayətkarlıq eyni zamanda sosial-hüquqi hadisədir. Bu istiqamətdə həm sosiologiya, həm də fəlsəfə son nəticədə insan davranışı, xüsusən cinayətkarlıqla yaxından

---

[55] *Манхейн Г*. Comparative Criminology. London, 1965. P. 208.

əlaqəlidir.

Cinayətin fəlsəfəsi haqqında danışanda etiraf edilməlidir ki, cinayətin sosiologiyası və psixologiyası da mövcuddur. Cinayət sosial psixoloji və fəlsəfi-hüquqi anlayışdır. Buna görə də biz "*Cinayət hüquqi xarakter daşımalı və bu başqa cür ola da bilməz*" deyən E.A.Pozdnyakovla razılaşa bilmərik[56].

Yalnız insanın azad iradəsinin aydınlaşdırılmasından sonra cinayətin fəlsəfi mahiyyətini anlamaq mümkündür. Bu da fəlsəfənin bir elm kimi vəzifələrindən irəli gəlir.

Tədqiqatın predmeti kimi cinayətin fəlsəfəsi daha konkretdir. Buna görə də fəlsəfədə problemin həllinə necə yanaşmadan asılıdır. Fəlsəfə bu suala cavab verməyə cəhd edir. Nə üçün insan bu və ya digər vəziyyətdə cinayət əməli törədir? N. A.Neklyudov hesab edir ki, cinayətin fəlsəfəsi cinayətin statistikasının əsasında cinayəti tədqiq etməklə məşğul olan elmdir. O yazır: "*Cinayətin bir əməl kimi fəlsəfəsi keyfiyyət və kəmiyyət statistikasının abstrakt təsəvvüründən başqa şey deyildir*"[57].

Müəllif iddia edir ki, bizim ruhumuzda olan davranışlar cinayətkarlığın fəlsəfəsində araşdırma obyekti kimi nəzərdə tutulmamışdır. Eyni zamanda özbaşnalıq, nisbi azadlıq kimi şərri iradədən və ya insan taleyindən irəli gələn məsələlər fəlsəfənin və ya cinayət hüququnun vəzifələrindəndir.

Beləliklə, N. A. Neklyudova görə cinayətlərin obyektiv fəlsəfəsi var, hansı ki başlanqıc nöqtəsi subyektiv fəlsəfədir. Daha doğrusu cinayətin səbəbi şəri iradədən irəli gəlir. Yəni obyektiv fəlsəfənin obyekti o amillərdir ki, onlar subyektiv fəlsəfənin predmeti olan şəri iradədən irəli gələn əməllərdir.

Müəllifə görə cinayətlərin obyektiv fəlsəfəsi baxımından cinayət əməlinin törədilməsi yalnız şəri iradə ilə şərtlənmir,

---

[56] *Поздняков Э.А.* Философия преступления. С. 82.

[57] *Неклюдов Н.А.* Уголовные статистические этюды. М., 2010. С. 5.

burada xarici mühit də rol oynayır.

Birincisi, o iddia ilə razılaşmaq mümkün deyildir ki, cinayətlərin statistikası əsasında, cinayətin araşdırılması ilə məşğul olan elm sahəsi cinayətin fəlsəfəsidir. Hər şeydən əvvəl bu elm cinayətlə mübarizədə tövsiyyələrin hazırlanması məqsədi ilə statistik nəticələrin təhlili ilə məşğul olan kriminologiyadır.

İkincisi, cinayətkarın və cinayətin zaman və məkan xaricində sıx əlaqədə olduqları və varlığını təmin etdikləri mövcud sosial mühitdən süni ayırılaraq öyrənilməsini imkansız edir ki, bunun da heç bir mənası yoxdur.

Üçüncüsü, biz cinayətin fəlsəfəsi haqqında söhbət açanda, belə bir əməli nəzərdə tuturuq ki, o bilavasitə xarici mühitlə əlaqəsi olmayan insanla əlaqəlidir. Bu halda biz aşağıdakı suala cavab axtarırıq: cinayəti törədən insan öz davranışının seçimində azaddır, yoxsa yox? Bizi onun düşdüyü və bu əməlin törədilməsinə əslində təkan verə biləcək şərait və vəziyyət maraqlandırmır. Elə buna görə də biz hesab edirik ki, cinayətin fəlsəfəsini subyektiv və obyektiv növlərə bölmək mənasızdır.

Cinayətin fəlsəfəsi insanın öz davranışında azad olub-olmaması, cinayət əməlinin mənşəyinin nə olması haqqında suallara cavabların əbədi axtarışıdır.

## § 2. Cinayətkar davranışın səbəb və mənbələri

**I. Tarixi ekskurs.** Cinayətin səbəbləri haqqında təlim müxtəlif nəzəriyyələr, orijinal baxışlar, hətta filosofların, hüquqşünasların, psixoloqların, sosioloqların, təbiblərin, din xadimlərinin və yazıçıların maraqlı fikirləri ilə dolu çox böyük tarixi inkişaf yolu keçmişdir. Problemə nəzər saldıqda onların bəziləri çox ibtidai, hətta anlaşılmayan və əsassız görünür. Buna baxmayaraq cinayətin səbəblərinin araşdırılmasında yuxarıda qeyd edilən amillər çox böyük maraq doğurur. Nəticədə bu gün

cinayətin törədilməsini doğuran səbəblər haqqında hamı tərəfindən qəbul edilən aşağıdakı yanaşmalar mövcuddur: normativ-hüquqi, fəlsəfi, etik, dini, antropoloji (insanın bioloji və təbii xüsusiyyətlərinin nəticəsi), sosioloji və s yanaşmalar bura daxildir. Bu problemlərin tarixini aşağıdakı ardıcıl dövrlərə bölmək mümkündür.

Bu problem Antik Yunan filosofların diqqətini də cəlb etmişdir. Onlar öz qeydlərində cinayətin mənası və səbəblərinə diqqət yetirmişlər. Onu da qeyd etmək lazımdır ki, bu filosoflar hüquqi problemlərə fəlsəfənin ümumi elmi məsələləri çərçivəsində toxunmuşlar. Cinayətin sosial əhəmiyyəti və onu ortaya çıxaran səbəblər qədim Yunan filosofları Platon və Aristoteldən öncə hələ Solonun, Pifaqor, Protaqor kimi mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Platon "*Qorqias*" traktatında cinayətin səbəbini cinayətkarın ruhi xəstəliyi kimi deyil, dövlətin xəstəliyi kimi dəyərləndirir. O, bu problemlərin aradan qaldırılmasını və həllini dövlətə həvalə edir. Başqa sözlə, Platon cinayətlərin səbəblərini şəxslərdə deyil, cəmiyyətin ictimai təməlində axtarırdı.

Platondan fərqli olaraq Aristotelin problem haqqındakı görüşləri daha dolğun görünür. Çünki o, cinayətin səbəblərinə Platon kimi mücərrəd-fəlsəfi deyil, siyasi-cinayət nəzərində yanaşmışdır. Aristotel cinayətin səbəblərini sosial şər qüvvələrinin içində axtarır və onu ictimai əsaslarla yaxından əlaqələndirir. Ona görə də Aristotel sosial şərlə mübarizə aparmaq və onun qarşısını almağı vacib hesab edir. Kosmopolitik fəlsəfənin davamçılarından hesab edilən Stoya məktəbinin təmsilçiləri isə, əksinə, cinayətin törədilməsini insan təbiətinin korlanması kimi qiymətləndirirdilər. Ancaq qədim Yunan filosofları cinayət və onu ortaya çıxaran səbəblər haqqında hər hansı bir təkmilləşmiş nəzəriyyə yarada bilməmişdirlər. Buna baxmayaraq onların bu problem haqqındakı görüşləri və düşüncələri cinayət hüququ elminin inkişafında əvəzolunmaz rol oynamışdır.

İkinci dövr cinayət hüququnun klassik məktəbinin yaranması ilə başlanır. Bu dövr tarixdə iki əhəmiyyətli hadisə ilə yaxından əlaqəlidir. Bu iki tarixi hadisə tarixdə *Humanizm* və *Reformasiya* kimi tanınır. M.P.Çubinski tamamilə doğru qeyd edir ki, humanizm və reformasiya olmasaydı cinayət hüququ təlimlərin çiçəklənməsinə gətirib çıxaran müasir hüquqi doktrinlərin də formalaşması mümkün olmazdı [58].

O dövrdə siyasətçilər, filosoflar və hüquqşünaslar cinayəti ortaya çıxaran səbəblər haqqında yeni yanaşmalar ortaya qoymağa başlamışdılar. Onların arasında Huqo Qrotsio, Hobbs, Spinoza, Lokk, Fixte, Homel, Feyerbax və başqalarını göstərmək mümkündür. Şübhəsiz ki, onlar cinayət anlayışına, onu ortaya çıxaran səbəblər və bu hadisələrin qarşısını alan metodlar barəsində köhnəlmiş yanaşmalarla mübarizə aparmışlar. Təəssüf ki, onlardan heç biri Ç. Bekkarianın bu elmin inkişafı üçün etdiklərini edə bilməmişdilər.

E.Ferri qeyd etmişdir: *"Romalılar nə mülki hüququ gözəl şəkildə tərtib etmiş, nə də orta əsrlərin hüquqşünasları cinayət hüququnu fəlsəfi sistem səviyyəsinə yüksəldə bilməmişlər. İlk dəfə Bekkaria elmi istiqamətdə deyil, daha çox duyğularının çağırışı ilə cinayət və cəzalar haqqında təlimin inkişafına təkan vermişdir"*[59].

Doğrudan da cinayət hüququnun klassik məktəbinin yaranması Ç. Bekkarianın adı ilə bağlıdır. Müasir dünyada onun prinsipləri üzərində cinayət hüququnun sistemi qurulmuşdur. Bu məktəbin elmi metodu mücərrəd hüquqi mahiyyət kimi cinayətin apirior baxımdan öyrənilməsindən ibarət idi. Bu məktəbin ən parlaq nümayəndələrindən biri olan F. Karraranın bu sözləri məşhurdur: "*Cinayət hərəkət deyil, hüquqi hadisə və*

---

[58] *Чубинский М.П.* Очерки уголовной политики. М., 2010. С. 136.
[59] *Ферри Э.* Göstərilən kitabda. C. 22.

*pozğunluqdur*"[60].

Rusiya klassik məktəbinin ən parlaq nümayəndələri cinayəti "*hüquqi münasibətlər*"[61] istiqamətində hüquqi araşdırma obyekti olan bir hadisə kimi tərif etmişlər. S. N. Taqansevin qeyd etdiyinə görə bu, "*cinayətkar əməllərin hüquqi konstruksiyasının öyrənilməsidir*"[62].

Beləliklə, klassik məktəb cinayət əməlinin hüquqi anlayışından kənarda olan bir faktiki münasibət kimi kriminoloqun tədqiqat obyekti olmaması iddiası ilə çıxış edirdi. Çünki cinayət hüququ üçün V. D. Nabokovun "*cinayət və cəza anlayışın mahiyyətidir*"[63] sözləri də diqqəti cəlb edirdi.

Cinatət anlayışının bu konstruksiyası zəruri olaraq cinayət əməlinin subyekti olan cinayəti törətmiş şəxsin şəxsiyyətinin inkar edilməsinə gətirib çıxardı. Bu da klassiklərə qarşı belə bir kəskin əks sualının verilməsinə səbəb olmuşdur: Cinayəti onu törədənin şəxsiyyətini bilmədən öyrənmək mümkündürmü? Bu barədə E.Ferri qeyd etmişdir: "*Klassik kriminalist üçün cinayətkarın şəxsiyyəti ikinci dərəcəli bir məsələdir. Bu əvvəlki dövrlərdə xəstə həkimin nəzərində olduğu kimi cani onun gözündə elə bir şəxsdir ki, ona nəzəri ixtiraların məhsulu olan nəzəri düsturlar tətbiq olunur, bu baxımdan hakim arxasına cinayət məcəlləsinin maddəsini yapışdırmış canlı manekendir. Məhkəmə qərarının icrasında o özü nömrə olur*"[64].

Nəhayət, klassik məktəbi onda ittiham edirdilər ki, o, cinayəti hüquqi hadisə kimi dəyərləndirməklə, cinayətin öyrənilməsini ancaq hüquqi hadisə kimi məhdudlaşdıraraq cinayət

---

[60] *Carrara.* Programma, parte generale. 6-e ed., 1886. P. 1, 21–23.
[61] *Набоков В.Д.* Сборник статей по уголовному праву. СПб., 1904. С. 8.
[62] 4 *Таганцев Н.С.* Русское уголовное право. СПб., 1902. Т. 1. С. 16.
[63] *Набоков В.Д.* Göstərilən kitabda. C. 5.
[64] *Ферри Э.* Göstərilən kitabda. C. 32.

hüququ elminin məzmununu kiçildir[65]. Lakin klassik məktəbə qarşı ən güclü və ardıcıl ittiham ondan ibarət idi ki, o, cinayətin törədilməsi zamanı insanların azad iradəsini nəzərdə tutan müddəa kimi qəbul edir. Yəni cinayəti törətmək və ya törətməmək, onu bu və ya digər tərzdə həyata keçirmək, çox, ya az miqdarda etmək seçimi məhz insanların azad iradəsindən asılıdır[66].

Əslində isə klassik məktəb prinsipial olaraq cinayətkarların araşdırılması imkanlarını inkar etməmişdir. Onlar sadəcə buna diqqət yetirməmişlər. Klassik məktəb cinayətkara yalnız bir tərəfdən yanaşmışdır. Bu da törədilmiş cinayət perespektivindən dəyərləndirilir. Eyni zamanda bu məktəb etiraf edirdi ki, cinayətin tədqiqi, onu törətmiş şəxsin varlığı aydınlaşdırmadan imkansızdır. Buna görə klassik məktəbin bir təfəfdən cinayətə yalnız hüquqi istiqamətdən baxması, başqa tərəfdən insan və sosial amillərin cinayətə təsirini inkar etməsi haqqında iddialar həqiqətə uyğun deyildir. Buna dəlil gətirərək Ç.Bekkarianın "*Cinayət və cəza*" əsərini göstərmək mümkündür. M.P.Çubinski haqlı olaraq qeyd etmişdir: "*Məhz Bekkariadan sonra güclü islahatçı təbəqə inkişaf etmişdir. Bu isə sonda cinayət üzrə ədalət məhkəməsinin köhnəlmiş qanunlarını ortadan qaldırmış və yeni nizamın yaradılmasına təkan vermişdir. O nizam öz prinsip və təşkilatı qaydalarına görə keçmişdə olanlara qarşı kəskin mövqe ortaya qoymuşdur*"[67].

Qeyd etmək lazımdır ki, Ş.Monteskyenin əsərləri Ç.Bekkarianın baxışlarının formalaşmasında böyük rol oynamışdır. O, öz sələflərindən pozitivist yanaşmaları ilə seçilmişdir. Yalnız F.Bekon o baxımdan istisna edilə bilər ki, yalnız cinayət siyasəti üçün faydalı fikirlər irəli sürməklə kifayətlənməmiş, həm də onları əsaslandırmağa çalışmışdır.

---

[65]Bax: *Чарыхов Х.М.* Учение о факторах преступности. Социологическая школа в науке уголовного права. М., 1910. С. 1.

[66] *Ферри Э.* Göstərilən kitabda. C. 33.

[67] *Чубинский М.П.* Göstərilən kitabda. C. 218.

Aydındır ki, nə Bekkarianın, nə də Monteskyenin əlinin altında pozitivistlərin işlətdiyi zəngin sosioloji, statistik və antropoloji materiallar olmamışdır. Onlar daha çox tarixi materialllardan istifadə etmişlər.

Klassiklərin mövqeyi, zənnimizcə, ondan ibarətdir ki, cinayətin subyektinin psixofiziki təşkilinin öyrənilməsi hüquqi, xüsusən kriminoloji tədqiqatın obyekti ola bilməz. Çünki insanın fiziki, bioloji, psixoloji mahiyyətinin araşdırılması antropoloji və sosioloji tədqiqatın müstəqil sahələridir.

Əks halda *"Leqal tərif"* adlanan və cinayət qanunvericiliyində təsbit olunmuş cinayət anlayışı ilə birlikdə, həm də kriminologiyada işlənilən anlayışlardan istifadə etmək lazımdır. Bu da "maddi" və ya "kriminoloji" təriflərdir.

XIX əsrin əvvəllərində cinayətin öyrənilməsi ilə əsasən statistika məşğul olmuşdur. Hesab olunur ki, bu tarix cinayətkarın şəxsiyyəti ilə əlaqəli cinayətin təbiəti və anlayışının araşdırılmasının yeni üçüncü dövrüdür.

Məlum olduğu kimi, cinayətin aid olduğu sosial hadisələri fiziki, bioloji və təcrübi baxımdan dəqiq araşdırmaq mümkün deyildir. Buna görə də sosiologiya sahəsindəki elmi araşdırmalarda müşahidə metodu ilə məhdudlaşmaq və kifayətlənmək məcburiyyətində qalırıq. Bu kimi müşahidələr üçün ən faydalı və səmərəli vasitə statistikadır.

Q.D.Tard qeyd edirdi: *"Statistika inkişafda olan ictimai hissiyyata bənzər bir şeydir: cəmiyyətdə o həm müəyyənlik, həm tədricilik, həm öz cədvəllərinin çoxluğu, həm də qrafika baxımından əyri və əlvan xəritələrlə bu analogiyanı gündən-günə daha da heyrətamiz edir. Doğrudan da, göz optik dalğalanmaların tez və orjinal tərzdə hesablanmasını təmin edən möcüzə ilə dolu bir cihazdır. Bütün bunları o, bizə şəkillərin sonsuz ardıcıllığı kimi təqdim edir və hər zaman yeniləşən atlasa*

*bənzəyir"*[68].

Cinayətin statistikası əxlaqın statistikasının bir hissəsi kimi Belçika və Fransada işlənilmişdir. Cinayətkarlığı araşdırmağı qarşıya məqsəd qoymayan alimlərin bir hissəsi sadəcə əxlaqi statistikanı işləmək üçün cinayəti əxlaqa zidd bir əməl kimi dəyərləndirmişlər. Onlar cinayətkarlıqla əlaqəli problemləri aprior sübutlarla deyil, cəmiyyətin real həyatdakı nümunələri əsasında araşdırmışlar.

1825-1830-cu illər arasında cinayət statistikası elmi işıq üzü görmüşdür. Cinayət statistikasının ilk müəllifi Brüssel Universitetinin professoru A.Ketle hesab edilir. Krone qeyd etmişdir ki, cinayətin statistikası – "*Cinayətkarlar ordusuna qarşı mübarizədə uğur qazanmanın ilk şərti olmaqla bunun rolu mübarizə zamanı kəşfiyyat xidmətinin roluna bənzəyir* "[69].

Statistikaya istinad edən Ketle ağıl və əxlaqi duyğulara malik olan insan hərəkətlərinin hansı qanunauyğunluğa tabe olduğunu yoxlamaq istəmişdir. Bununla da o, bu nəticələrə gələ bilmişdir: "*Cəmiyyət özündə törədilən cinayətlərin rüşeymini daşıyır. Cəmiyyət özü bu və ya digər yollarla cinayəti yaradır və cinayəti törədən insan onun əlində bir cinayətkar alətə çevirilir. Hər bir ictimai forma müəyyən növ cinayətlər yaradır ki, onların da müəyyən ictimai mühitdə törədilməsi zərurətə çevirilir"*[70].

Ketleyə görə cinayətlərin səbəbləri araşdırılmayana və onları dəyişmək məqsədi ilə təsir etməyənə qədər sabit və dəyişməz qalacaqdır. Ancaq Ketləyə qədər bu problemlə ciddi və dərindən məşğul olanlar bunu bilirdilər. Burada yeni və mühüm olan odur ki, cinayətkarlığın vəziyyəti haqqında statistik göstəricilərin əsasında o, yayğın bir inanca çox təsirli zərbə

---

[68] *Тард Г.Д.* Göstərilən kitabda. С. 81.

[69] *Krochue.* Der gegenwärtige Stand der Geff ngnisswissen Schaft, G Zeitschzf.d. ges. Strafzechtw. 1881. 1. S. 75.

[70] *Quetelet A.* Physique sociale. Essai sur le derveloppement des taculters de l´homme. 2 ed. 1869, 1. P. 312; 11. P. 358.

endirmişdir. O inanc da cəza vasitəsi ilə cinayətkarlıqla mübarizə aparmaqdan ibarət idi.

O iddia edirdi ki, cəzalar cinayətin sosial amillərinə toxunmadan, cinayətlərin çoxalmasının qarşısını ala bilmir. Buna baxmayaraq onunla razılaşmalıyıq ki, cəza sosial amillərə birbaşa təsir edə bilmir. Eyni zamanda cins, yaş, iqlim, iqtisadi şərait, ictimai vəziyyət və s. cinayət amillərini dəyərləndirəndə, müəllif cinayətin bioloji faktorlarını araşdırmağa cəhd etmişdir.

A.Ketle statistik göstəricilərə nəzər yetirərək insanlardan kimin cinayətkarlığa meyl etdiyini sübut etməyə çalışmışdır. Ketlenin xidməti ondan ibarətdir ki, ona qədər cinayətkarlığın səbəblərini nəzəri olaraq göstərirdilər. Ondan sonra isə rəqəmlərin vasitəsi ilə cinayətin səbəblərini nisbətən dəqiq göstərmək mümkün olmuşdur ki, bu da tədqiqatın elmin göstərdiyi yolla davam etməsinə uğur gətirmişdir.

Statistikanın daha bir əhəmiyyətli tərəfi cinayətlərin statistik göstəricilərinin və onların qanuna zidd olan motivlərinin öyrənilməsidir. Eyni zamanda qeyd etmək lazımdır ki, kriminalistlər bu göstəricilərdən istifadə etməmişlər. Ancaq cəzanın prevensiya kimi deyil, repressiya keyfiyyətində düzgün istifadə edilməsi üçün onlardan istifadə edilmişdir.

Gördüyümüz kimi, statistiklərin əsas vəzifəsi rəqəmli göstəricilərin vasitəsi ilə cinayətin səbəblərinin və konkret cinayət davranışının mənşəyinin təyin edilməsində yardımçı olmasından ibarətdir. Eyni zamanda belə nəzərdə saxlamaq lazımdır ki, statistika cinayəti təyin edən fərdi faktor və şərtlərin toplusu deyildir. Bununla əlaqədar B.M.Bexterev qeyd etmişdir: "*Statistika ümumiyyətlə böyük rəqəmlərlə işləyir. Buna görə də, cinayətin xarakterini daha yaxından təyin edən xüsusi şərtlər haqqında bizə məlumat vermir. Ancaq istənilən şəxsiyyətə təsir*

*edən xüsusi amillər cinayəti və onun xarakterini təyin edir*"[71].

Məlum olduğu kimi, Ketle cinayətin yaranmasına təsir edən amilləri analiz etmək üçün çoxlu araşdırmalar həyata keçirmişdir. O, cədvəl tərtib edərək orada ilin fəsillərinin cinayətin törədilməsinə müəyyən qədər təsir etdiyini göstərmişdir.

Ketle iddia edirdi ki, statistika müəyyən ərazidə cinayəti proqnozlaşdırmağa imkan verir. Xüsusən, o belə bir qənaətə gəldi ki, hər il boyu törədilən cinayətlərin sayı demək olar ki, dəyişmir. Onun fikrincə, cinayətin hərəkəti o qədər bərabərdir ki, hətta ölüm hallarının statistikalarında nəzər yetirməklə, cinayətin törədilmə cədvəlini tərtib etmək mümkündür. O yazırdı: *"İnsanlıq durumu necə də acınacaqlıdır. Doğum və ölüm hadisələrini təyin etdiyimiz dəqiqliklə, kimin qan tökdüyünü, kimin saxtakar və qatil olduğunu əvvəlcədən xəbər verə bilərik"*[72].

Əlbəttə, Ketlenin bu iddiası ilə razılaşmaq asan deyildir. Çünki əslində onun qeyd etdiyi dəqiqliklə hər şeyi əvvəlcədən görmək, cinayətin vəziyyətini, dinamikasını və səviyyəsini proqnozlaşdırmaq mümkün deyil, çünki bunları günümüzdə qismən etsələr də, bu hallar kortəbii xarakter daşıyır. Ketlenin bu kimi qeyri-dəqiq fikirlərinə bəraət qazandırmaq mümkündür, belə ki, onun əlində çox qısa zamanın statistik göstəriciləri olmuşdur. Eyni zamanda nəzərə alınmalıdır ki, riyaziyyatçı olan Ketle nəticələrini məhz rəqəmlərin əsasında qurur və sadəcə olaraq cinayətləri cəmiyyətin sosial şəraiti ilə uzlaşdırmırdı.

Əxlaqi nizamı idarə edən fiziki qanunları araşdırarkən o hesab edirdi ki, "normal insan" cinayətə müəyyən qədər meyllidir. Yəni istənilən fərd cinayət törədə bilər. Ketlenin insan davranışına iqlimin, cinsin, yaşın təsir etməsinə gəldikdə isə bunun primitiv

---

[71] *Бехтерев Б.М.* Объективно-психологический метод в применении кизучению преступности // *Дриль Д.А.* Преступность и преступники. Учение о преступности и мерах борьбы с нею. М., 2010. С. 708.

[72] *2 Quetelet A. Physique sociale. Essai sur le développement des tacultés de l'homme. 2 ed. 1869. 1. P. 312; 11. P. 358.*

xarakter daşıması və sonralar şübhəli olduğu sübuta yetirilmişdir.

Buna baxmayaraq statistikanın əhəmiyyətini də kiçiltmək olmaz. 1860-cı ildə Londonda keçirilən Statistika Konqresində doğru vurğulanmışdır ki, "*dənizçi üçün xəritə, kompas və lot hansı məna kəsb edirsə, qanunverici üçün də cinayətin statistikası o mənanı kəsb edir*".

Beləliklə, cinayət və onun səbəblərini araşdıran pozitiv məktəbin yaranmasından əvvəl statistika bu işlərə qatılmışdır. Ancaq bu araşdırmalar rəqəmlər və ya heroqliflər ətrafında həyata keçirilirdi. Onları yerinə yetirmək üçün digər elmləri də buraya cəlb etmək lazımdır. Antropoloqlar, sosioloqlar və cinayətin səbəblərini araşdıran bütün tədqiqatçılar bu yolla getmişdirlər. Bunun sonunda belə bir sual ortaya çıxmışdır. Rəqəmlərin dəyişən tərkibi cinayət hüququnun klassik məktəbinin əsasını təşkil edən azad iradə anlayışı ilə uzlaşır, ya yox?

Pozitiv məktəb cinayətin səbəbləri barəsində klassik məktəbin əsas müddəalarını, xüsusən iradə azadlığını inkar edərək bu səbəbi başqa bir şeydə axtarmağa başlamışdır. Antropoloqlar bununla da sübut etməyə çalışmışlar ki, cinayət azad iradənin məhsulu deyil, cinayətin bütün fiziki və mənəvi individuallığın zəruri nəticəsidir. Klassik məktəbin azad iradə nəzəriyyəsini kəskin tənqid edən X. M. Çarıxov qeyd etmişdir: "*Nəzəriyyəçi kimi təcrübəçi də öz önündə yalnız qətl, zorlama, qarət və fırıldaqçılıq anlayışlarını görür. "Azad iradə" haqqında kədərli nəzəriyyənin sayəsində cinayətə cəlb olunmuş şəxs qarətin əsl təqsirkarı hesab edilir. Bu istiqamətdə yanlışlıqlar mütləq ortadan qaldırılmalıdır. "İradə azadlığı" haqqında təlimin tənəzzülü cinayət barəsində pozitiv təlimin fəthinin başlanğıcı idi*"[73].

Antropoloqlar ilk əvvəl cinayətin səbəblərini bizi əhatə edən fiziki təbiətdə - meteoroloji, iqlimlə bağlı, termometrik, geoloji və s. amillərdə - görürdülər. Lakin tezliklə onlar əsas diqqəti insana

[73] *Чарыхов Х.М.* Göstərilən kitabda. С. 133.

yönəltmişlər: cinayətin səbəblərini onun antropoloji, fizio-məntiqi və psixi təşkilində axtarmışlar. İddia edilirdi ki, cinayət törədildikdə, insan yalnız öz heyvani (fizioloji, bioloji) təbiətini deyil, həm də orqanizmin vəziyyətinin doğurduğu həyacanı əhatə edən psixikasını ortaya qoyur. Antropoloqların fikrinə görə cinayətkar davranışın yaranmasında "*Bir sözlə, bütün eşitdiklərimiz, gördüyümüz və digər məsələlər bizim münasibətlərimizdə iştirak edir*"[74].

Ç.Lambrozo hesab edirdi ki, heyvanların cinayətlərin öyrənilməsi insanlar tərəfindən törədilmiş cinayətlərin daha da dərindən dərk olunmasına gətirib çıxardacaq. Bu da ona bənzərdir ki, heyvanların anatomiyası və fiziologiyası insan təbiətinin dərk olunmasına təkan vermişdir. Doğrudan da insan cinayətinin daha yaxşı təyin olunması üçün heyvanların cinayətlərini öyrənmək olar, ya yox? Məsələn, Lambrozo hesab edirdi ki, bu təkcə heyvanlarda deyil, həm də bitkilərdə mümkündür.

Antropologiyanın predmeti və ya insan haqqında təlim onun təbiətinin dərk edilməsində böyük rol oynamışdır. Məhz antropologiya o qənaətə gəlməyə imkan vermişdir ki, insanın cinayətkar davranışı ilə irsiyyətin birbaşa əlaqəsi mövcuddur. Məgər bizim dövrümüzdə kimsə inana bilərmi ki, cinayətkar davranış "olduğu kimi" irsiyyətlə keçə bilər? Lombrozonun özünün də buna inanmadığını düşünürəm. O, hər bir cinayətin ibtidai insan vərdişlərindən irəli gəldiyini, hər bir cinayətkarın mənəvi və maddi əlamətlərinə görə vəhşi insana bənzədiyini iddia edirdi.

Antropoloji məktəb cinayət anlayışını ortaya qoya bilməsə də, onun nəzəri sistemi klassik məktəbdən fərqli olaraq məntiqi baxımdan təkmilləşməmiş qalsa da, məhz antropoloqlar klasiklərin ehkamlaşmış, məntiqi öyrənməsindən caninin və

---

[74] *Manouvrier*. La genése normale du crime // Bul. de la Société d´Anthropologie. Paris, 1893. P. 456.

cinayətin pozitiv baxımdan dərk edilməsinə keçidi təmin edə bilmişlər. Yəni hadisələrə cinayət anlayışının mücərrəd konstruksiya və abstraksiyalarının yerinə öz konkret yanaşmalarını ortaya qoya bilmişlər. Son olaraq Ç. Lambrozo belə bir nəticəyə gəlmişdir: "*Cinayət ölüm, hamiləlik, psixiki xəstəliklər kimi təbii və zəruri bir hadisə və bəzən onların ilkin formasıdır*"[75].

Nəzəri sistemdə boşluqları ortadan qaldırma vəzifəsini R. Qoranfalo öz öhdəsinə götürdü. O, cinayətin təbii-elmi anlayışını formalaşdırmağa, bununla da antropoloji təlimi cinayətin təbii-elmi nəzəriyyəsi səviyyəsinə qaldırmağa cəhd etmişdir. Lakin bu cəhd uğursuz olmuşdur.

Bu nəzəriyyənin digər təmsilçilərindən olan Bahar "biologiya elmi əsasında cinayətin yeni tərifini"[76] vermək fikrinə düşmüşdür. Onun fikrinə görə özünə bənzər varlığın həyatına son qoymaq niyyəti heyvan və insanlara aid hannibalizmin irsi instinktidir. Bu instinkt qidalanmanın təmin edilməsi üçün özündən daha da zəifləri qurban etməyə vadar edir.

Cəmiyyətdə, xüsusən ədalət məhkəməsində işləyənlərin arasında irsiyyətlə keçən anadangəlmə cinayətkar haqqındakı antropoloji nəzəriyyə rəğbətlə qarşılanmadıqdan sonra E.Ferri 1882-ci ildə yeni məktəbin yaranmasını elan etmişdir. E.Ferri onu cinayətin sosiologiyası adlandırmış və onun tərkibinə antropologiyanın, psixopatologiyanın və cinayət statistikasının eksperimental nəticələrini, eləcə də elmin cinayətlə mübarizə vasitələrini (repressiya və xəbərdarlıq yolu ilə) daxil etmişdir. E.Ferri yeni məktəbin məqsədini bu fikirlərlə ifadə etmişdir: "*Həm cinayətkarın yaşadığı mühitdə, həm də onun özündə müxtəlif vasitələrlə müalicə tətbiq etmək üçün cinayətin təbii*

---

[75] *Lombrozo.* L΄home criminal. Paris, 1895. T. II. P. 150.

[76] *Bahar J.* Une nouvelle definition du crime basse sur la Science biologique // Revue pénitentiare. 1895. P. 739–740.

*qenezisini öyrənməkdir*"[77].

Sonda E. Ferri bu nəticəyə gəlir: "*Biz anadangəlmə cinayətkar haqqında danışdıqda, cinayətə fiziopsixi istiqamətdən yanaşa bilərik. Bəzən bu insanların cinayətkar əməllərin qarşısı ətraf mühitin mülayim şəraiti ilə alına bilinər. Bu ona bənzərdir ki, ruhi xəstəliyə meylli olmaq dəliliyə gətirməyə də bilər. Ancaq şərait pisliyə doğru inkişaf etsə, hər şey dəyişə bilər. Bu da caninin antisosial və insanlığa sığmayan fəaliyyətinin yeganə pozitiv izahıdır"*[78].

Beləliklə, Ferri göstərmişdir ki, cinayət hansı formada və kateqoriyada olsa belə, cox mürəkkəb təbiətə və quruluşa malikdir. Onun həm bioloji, həm fiziki, həm də sosial təbiəti vardır. Buna görə də insanın əməlləri onun üzərinə yüklənir və bu səbəbdən cəmiyyətdə yaşadığı üçün məsuliyyət daşıyır.

Son nəticədə biz cinayət və cəzanı üç müstəqil, eyni zamanda bir-biri ilə sıx əlaqəli fənlərin araşdırma obyekti olan sosioloji məktəbi əldə etmişik. Hansı ki, onlar cinayət hüququ elmini təşkil edirlər. Bunlar cinayətin sosiologiyası (kriminologiya), cinayət siyasəti və cinayətin ehkamlarıdır. Əslində bu məktəb nə klassik məktəbin mərkəzini təşkil edən öz nümayəndələrinin şəxsində antropoloji faktların, nə də hüquqi öyrənməyi inkar etmir.

Sosioloji məktəbin nümayəndələrdən hesab edilən Q. D. Tard qeyd edirdi: "*Cinayət hər şey kimi sosial hadisədir. Eyni zamanda, o, həm də antisosialdır. O, orqanizmin həyatında iştirak edən, ancaq onun məhv olmasına gətirib çıxaran xərçıng xəstəliyinə bənzərdir*"[79].

Prinsipcə, bu məktəbin bütün nümayəndələri hesab edirlər ki, cinayət sosial ədalətsizliyə qarşı və cəmiyyətin yarıtmaz, qeyri-

---

[77] *Ферри Э.* Уголовная социология. М., 2005. С. 22.
[78] Göstərilən kitabda. C. 114.
[79] *Тард Г.Д.* Göstərilən kitabda. C. 198.

kafi təşkilatlanmasına cavab olaraq ortaya qoyulan davranışdır. Onların radikal islahatı cinayət göstəricilərini minimuma endirməli, bəlkə də onu tam ləğv edə bilərdi.

Sosioloji məktəbin müddəaları ona görə yaşadığı və böyüdüyü sosial şəraitin zəruri nəticəsidir. Bu məktəbin nümayəndələrindən olan X. M. Çarıxov yazırdı: "*Beləliklə sosial mühit ictimai inkişafın formalarını təyin edir və hərəkətə gətirir. Cinayət insanın fərdi və ictimai hərəkətlərinin forması, eləcə də, ictimai inkişafın formalarından biri kimi bütövlükdə, ictimai inkişafın formalarını hərəkətə gətirən və təyin edən amillərin təsirindən kənarda baxıla və öyrənilə bilməz. Buna görə də, cinayət inkişafın ümumi prosesinin xüsusi halı kimi kosmik deyil, sosial mühitin faktorları ilə təyin edilir*"[80].

Cinayətə fizioloji deyil, sosial mahiyyət kimi baxan L.P.Manuvriye hesab edirdi ki, "*insan öz fizioloji quruluşuna görə hərəkət edir. Ancaq onun təbiəti və xarakteri bütövlükdə xarici mühitlə təyin edilir. İnsanın fəaliyyəti onun anatomiya və fiziologiyasından asılıdır. Onun necə fəaliyyət göstərməsi artıq mühitdən asılıdır*"[81].

Beləliklə, aşağıdakı nəticələrə gəlmək mümkündür: Birincisi, sosial mühit hər şeydirsə, korlanmış və qüsurlu sosial mühit cinayətkar şəxslərin ortaya çıxmasına səbəb olursa, onda bu sosial mühitin islahat vasitələrinin yönəldilməsi lazımdır. "*Cəmiyyət cinayətkarları özü yaradır*"[82]. Belə çıxır ki, cinayətkarlığın sayının artması və azalması əsas olaraq sosial faktorlardan asılıdır. Yəni onlar digərlərindən daha asan dəyişə və düzəldilə bilərlər.

İkincisi, belə bir qənaətə gəlmək mümkündür ki, insan sosial

---

[80] *Чарыхов Х.М.* Göstərilən kitabda. С. 19.

[81] *Manouvrier.* Les aptitudes et les actes // Revue Scientifique. 1891. P. 592 (Parisdə ikinci konqress, 1889).

[82] *Lacassagne.* Marche de la criminalité en France // Revue Scientifique. 1881. N 22. C. 167.

iyerarxiyada nə qədər aşağıda yerləşirsə, o qədər onun cinayət törətmə ehtimalı artar.

Üçüncüsü, sosioloji məktəb cinayət amillərini fərdi və sosial qruplara ayıraraq, cinayətin səbəblərinin təyin olunmasında üstünlüyü cinayətin ilkin amillərinin kateqoriyası olan sosial amillərə verir. Buna görə bərabər şərait olsa belə, ilkin, daha doğrusu sosial faktorların olmaması fərdi səbəblərin (törəmə kimi) və ya psixofiziki xüsusiyyətlərin yaranmasına gətirib çıxarmayacaqdır. Bu o mənanı verir ki, cinayətin səbəbi insanın özündə və bizi əhatə edən ictimai mühitdə axtarılmalıdır. “Mikrob”, yəni cinayət elə bir elementdir ki, o, özünə uyğun mühit tapanda əhəmiyyət kəsb etməyə başlayır.

Dördüncüsü, cinayətkarlığın sosial amilləri dedikdə, ictimai mühitin təsirləri dərk edilir. Fərdi amillər isə insanın fərdi amillərinin təsirindən ortaya çıxır (List, Çarıxov).

Bu məktəbin çatışmayan cəhəti hansılardır? Təsdiq edilir ki, cinayət sosial faktorlarla təyin edilən sosial fenomendir. Bu fenomenin təbiəti konservativ (mühafizəkar) və ya evolyutivdirmi (təkamül meylli)? Bu suala cavab vermək olduqça çətindir. Cinayət hadisəsinin sosial faktorlarla bağlılığını bilərək, pozitiv metoddan istifadə edən bu sosial məktəbin nümayəndələri inkişaf etməmişlər. Onlar o məntiqi aşkar etmək istəmirlər ki, sosial mühit nəyin əsasında cinayət kimi sosial fenomeni ortaya çıxarır. Nəhayət, sosioloji məktəb iqtisadi səbəb və şəraitlər arasında dəqiq sərhədlər qoymur. Bu baxımdan sosioloji məktəb tam formalaşmamışdır. Çünki antropoloji məktəbdən bir sıra vacib məsələlərdən uzaqlaşmağına baxmayaraq, o, bir çox müddəalarda ona yaxınlaşır. Ona görə bu cərəyanlar bir-birinə qarşı duran iki düşmən düşərgə kimi təqdim oluna bilməzlər.

Cinayətin və onun səbəblərinin *iqtisadi yönümlü* olduğunu iddia edənlərin fikirləri cəmiyyətdə kifayət qədər rəğbətlə qarşılanır. Bu baxışın zəngin nəzəri və təcrübi əsasları vardır.

Cinayətkarlığın cəmiyyətin iqtisadi vəziyyətinin

barometrinə qeyri-adi şəkildə xidmət etməsi fikri mübahisəsizdir. Müxtəlif iqtisadi inkişaf mərhələlərində olan ölkələrdə cinayətkarlığın səviyyəsinin müqayisəli təhlili buna dəlalət edir. Vaxtilə T. Mor "*Utopiya*" kitabında minlərlə insanın ehtiyac və səfillik içində yaşamasını ortaya çıxaran və onları cinayətkarlığa vadar edən iqtisadi səbəbləri göstərmişdir. D. Romanozi qeyd etmişdir ki, iqtisadi ehtiyac cinayətə gətirib çıxara bilər: "*Biz soyğunçuluqla günlərini keçirən bədbəxtləri nümunə kimi göstərə bilərik. Onlar bunu ehtiyac və yoxsulluq səbəbindən edirlər. Həbs olunanlara nə üçün bu kimi təhlükəli işlə məşğul olduqları haqqında sual verilmişdir. Halbuki, onu doğuran cəza onlara əvvəlcədən məlum idi. Onlar cavab vermişdirlər ki, hansı təhlükələrlə üzləşə biləcəkləri haqqında bilirdilər. Ancaq çətin həyat şəraiti onları bu riskli yola getməyə məcbur etmişdir*"[83].

F.Engels statistik məlumatlardan istifadə edərək cinayətkarlığı tədqiq etmişdir. Nəticədə o belə qənaətə gəlmişdir ki, İngiltərədə cinayətkarlığın hədsiz dərəcədə artmasının səbəbi ağır iqtisadi vaziyyət olmuşdur. Eyni zamanda, Volter cinayətlərin qarşısının geniş şəkildə alınması üçün maraqlı fikirlər irəli sürmüşdür. O tələb edirdi ki, qanunverici orqanlar cinayətlərin insan təbiətinin hansı zəif tərəflərinə aid olduğunu ortaya çıxarsın. Volter vurğulamışdır ki, mülkiyyətə qarşı cinayətləri daha çox yoxsul təbəqədən olan insanlar törətdikləri halda, qanunları zəngin təbəqəyə aid insanlar yazırlar. O, bu cinayətlərin səbəblərinə qarşı biganəliyə qarşı çıxış edirdi. Onun iddiasına görə yoxsulluq və işsizliklə mübarizədə hamının gözü önündə edilən edamlar deyil, dilənçilik və səfilliyin kökünün kəsilməsi istiqamətində xüsusi üsullarından istifadə etmək lazımdır .

İ. Bentam doğru qeyd etmişdir ki, yaşayış vasitələrindən məhrum edilən, həyatdan əli üzülən insanı cəza ilə təhdid etmək

---

[83] *Romagnosi.* Cenesi del dizitto penale. Milano, 1841. P. 294.

mümkün deyildir. Çünki onu cinayətə vadar edən qarşısıalınmaz bir ehtiyac vardır. Qanun əvvəlcə onun ehtiyaclarını təmin etməlidir. Müəllifin fikrinə görə, yoxsulluq problemini həll etmək üçün gözləmək deyil, onun qarşısını almaq lazımdır. Bentamın sistemi orjinallıq və heyrətamiz əhatəliliyi ilə fərqlənir. Ondan əvvəl heç bir şəxs cinayəti törədən amillərə bu qədər dərindən nüfuz etməmişdir və onların qarşısını almaq üçün bu qədər təsirli vasitələr tapa bilməmişdir.[84]

Qeyd edilməlidir ki, hələ Homer "Odisseya" əsərində (XVII, 286) deyirdi: "*Ac qarına düşünmək mümkün deyil, çünki aclıq insanlara bədbəxtlik gətirir*". "Qızıl" dövrün filosofları cinayətə təsir edən maddi amilləri qeyd etmişlər. Belə ki, Ksenofont insanı cinayətkar davranışa təhrik edən cox güclü amili yoxsulluqla əlaqələndirirdi. Onun "Simpozium" (Ziyafət) əsərində Kallias deyir: "*Həyatları təmin olunanlar cinayətə meyl etməzlər*". Beləliklə, yoxsulluq və səfilliyin cinayətə əhəmiyyətli dərəcədə təsir etməsi barəsində cətin ki, kiminsə şübhəsi olsun. Bununla belə, bəzən zənginlik və şöhrət də cinayətlərin törədilməsində təkanverici rol oynayır. Hər şey cinayətin növündən və xüsusiyətindən asılıdır. "Respublika" kitabında Platon cəmiyyətdə zənginlik və yoxsulluğun eyni dərəcədə təhlükəli olduğunu qeyd edir. Buna görə də filisof dövlət xadimlərinə məsləhət görür ki, onlar ölkələrində zənginlik və yoxsulluğun yaranmasının qarşısını alsınlar. Çünki şöhrət və zənginlik düşkünlüyü, tənbəlliyi və hərisliliyi inkişaf etdirir. Yoxsulluq isə duyğuların düşkünlüyünə və şər əməllərin törədilməsinə istəyinin artmasına gətirib çıxarır.

Bu məsələ haqqında çox orjinal fikri Aristotel "Ritorika" kitabında ifadə etmişdir. O, qeyd etmişdir ki, zənginlik və yoxsulluq özü-özünə cinayətə gətirən amillər deyildirlər. Lakin yoxsullar maddi ehtiyacları səbəbindən bəzən cinayətə yönəlirlər.

---

[84] Bax: *Bentham*. Introduction aux principes de moralie et de jurisprudence, 1789.

Maddi varlığı olan insanlar isə əyləncə axtarır və bunsuz yaşaya bilmirlər. Yenə də bu əmələ onları sövq edən zənginlik və yoxsulluq deyil, onların öz nəfsləridir. Aristotelə görə cinayətin mənşəyi məhz insanın iradəsindən irəli gəlir. Deməli, insanda nəfsin yox olması cinayəti də ortalıqdan qaldırır. Elə həmən əsərdə filosof daha bir çox vacib məsələyə diqqəti cəlb edərək, cinayəti itiriləcək bir şey qalmayanda və yoxsulluq halında törədildiyini vurğulayır.

Doğrudan da xarici amillər, o cümlədən sosial-iqtisadi faktorlar subyektə müəyyən qədər təsir göstərir və onu elə bir psixofiziki hala gətirir ki, o. cinayətin törədilməsi ilə nəticələnir. Əhalinin müəyyən bir hissəsi üçün bu belədir. Ancaq bu vəziyyətdə olan bütün fərdlər də cinayətkar olmurlar. Cinayətkarlar dünya əhalsinin cəmi 6%-ni təşkil edir. Məhz buna görə ən çətin və mübahisəli məsələlərdən biri də cinayətlə iqtisadi şəraitin əlaqəsinin təyin edilməsidir. Burada onu nəzərdə saxlamaq lazımdır ki, cinayətin mənşəyi fərdi olduğu qədər, iqtisadi amillərdən də aslıdır. Buna görə "iqtisadi şərait" anlayışını həm cəmiyyətin, həm də ayrı-ayrı insanların həyatına aid edilməsi doğru olardı. Cinayətin iqtisadi səbəblərindən bəhs etdikdə, söhbət bilavasitə səbəbdən deyil, insan iradəsinə təsir edən səbəblərdən getməlidir. İnsanın bu qərara gəlməsinin səbəbləri ortalığa qoyulmalıdır. Bu isə insanın öz əlindədir. Ona yalnız iqtisadi durum deyil, həm də müxtəlif xarakterli digər amillər, o cümlədən psixofiziki aspektlər də təsir edə bilər. Çünki insan eyni zamanda bioloji varlıqdır.

*"Cəmiyyətdə iqtisadi bərabərsizlik cinayətin törədilməsinin əsas səbəbi və ya səbəblərindən biri hesab edilə bilərmi?"* sualına belə cavab veririk. Cəmiyyətin iqtisadi vəziyyəti, həmçinin bütövlükdə sosial mühit, cinayətin törədilməsinin səbəblərini ortaya çıxarır. Yəni yoxsulluq və səfillik amili cinayət əməlinin törədilməsinə təsir edə bilər, ancaq onun əsas səbəbi deyildir. Səbəb isə insanın özündən irəli gəlir. Hətta kollektivizm də

cinayətin, xüsusən iqtisadi səbəbdən ortaya çıxan cinayət və hadisənin varlığını ən şiddətli cəzalar, hətta ölüm cəzası olmasına baxmayaraq davam etdirmişdir. Buna görə də kütlələrin iqtisadi vəziyyətinin yaxşılaşdırılması cinayət hadisələrinin yox olmasına gətirib çıxartmayacaqdır. Söhbət yalnız onların azalmasından gedə bilər. Əgər əhalinin böyük əksəriyyəti iqtisadi şəraitin cinayətkar davranışa təsirini hiss edərək, iqtisadi vəziyyətləri ilə razlaşdıqlarını düşünmək doğru deyildir. Əgər belədirsə, onda cinayətkar ordusunun əksəriyyətini yoxsullarmı təşkil edir?

Azərbaycanda müəyyən dövrdə aparılan cinayətkarlığın statistikasının təhlili ölkədə cinayətkarlıqla iqtisadi vəziyyətin bir-biri ilə əlaqəsini göstərməkdədir. Eyni zamanda bu təhlil onu göstərir ki, cinayət öz üzərində tamamilə başqa hadisələrin - siyasətin, millətlərarası münasibətlərin, dövlətin ictimai-siyasi quruluşunun, ölkə idarəciliyinin formalarının və s. izlərini daşıyır. Məsələn, 25 ildən çox davam edən Qarabağ konflikti Azərbaycanda cinayətkarlığın vəziyyətinə, xarakterinə və səviyyəsinə çox ciddi təsir etmişdir. Bu yalnız Ermənistanla və Qarabağdan olan qaçqınların acınacaqlı iqtisadi və ictimai vəziyyəti ilə deyil, daha çox bütün respublikanın psixoloji vəziyyəti ilə izah olunur.

Yuxarıda göstərilən məsələyə xüsusi yanaşma Oktyabr inqlabından sonra formalaşmışdır. M. V. Kozlovskiyə görə bolşeviklər cinayətkarın sosial mühitin məhsulu olduğunu və onun niyyətlərinin ondan və bizim “iradəmizdən” asılı olmamasını aksiomatik tərzdə iddia etmişdir. Bununla belə, 1920-ci illərdə yeni qurulan Sovetlər Birliyinin kriminalist alimləri yekdilliklə hesab edirdilər: “*Heç bir cinayəti xarici səbəblərlə və onu törədən şəxsin xüsussiyyətlərini nəzərə almadan izah etmək mümkün deyildir*”[85].

“*Cəzanı cinayətkarın öz iradəsinin məhsulu kimi*

[85] Вах: Пролетарская революция и право. 1918. № 1. С. 27.

*dəyərləndirən nəzəriyyə yalnız qədim deyim olan "jus talionis"in (göz-gözə, diş-dişə, qan-qana) spekulyativ ifadəsidir*"[86] iddiasını irəli sürən alimlərin və cinayyət hüququ elminin yanaşması marksizm fəlsəfəsinə uyğun deyildir.

Bolşeviklər inanırdılar ki, cinayətin törədilmə səbəbləri bütün dünya burjuaziyası tərəfindən dəstəklənən devrilmiş istismarçı siniflərdə, hətta onların davranışlarında və xırda burjua anarxiyasında axtarılmalıdır.

Beləliklə, onlara görə, bu səbəblərin ortadan qaldırılması cinayətkarlığın sonuna gətirib çıxarmalı idi. Təbiidir ki, cinayət anlayışının elmi izahı cinayətkarlıqla mübarizə aparan sovet sosialist dövlətinin siyasəti və hakim təlimi ilə bir araya sığmırdı. Buna görə XX əsrin 30-cu illərindən başlayaraq sovet kriminologiyası cinayət anlayışına yenidən baxmış, bununla da cinayətkar davranışın köklərinin izahını dəyişdirməli olmuşdur. O illərdə A. N. Traynin qeyd etmişdir ki, "*Korlanmış irsiyyət, fiziki və ya psixoloji anomallıqlar cinayətin hərəkətində həlledici rol oynamırlar. Çünki ictimai hadisələr sosial vasitələrlə təyin olunurlar və qeyd edilmiş amillərin özü insan həyatının sosial əsaslarından törənir. Hətta bütün bunlar ondan başqa bir şey deyildir*"[87]. Problemə bu kimi yanaşma 1960-cı illərin əvvəllərinə kimi davam etdirmişdir. Sovet alimləri bundan sonra cinayətkarın şəxsiyyətinə fikir verməyə başlamışlar. İnsanın cinayətkar davranışında sosial amillərlə bioloji amillərin nisbəti haqqında diskussiyalar isə bu gün də davam etməkdədir.

Prinsipcə, cinayətin təbiəti haqqında təlimlər tarixini sosiolologiya və biologiyanın çarpazlaşması kimi təsəvvür etmək mümkündür. Hər şey aşağıdakı problemlərin həllinə doğru aparır: İnsan və ya cinayətkar davranışının irsiyyətlə hər hansı bir əlaqəsi vardırmı? Əgər varsa, onda insan orqanizminin müxtəlif

---

[86] *Маркс К., Энгельс Ф.* Соч. 2-е изд. Т. 8. С. 531.

[87] *Трайнин А.Н.* Уголовное право. Общая часть. М., 1929. С. 141–142.

funksiyalarında, psixoloji proseslərdə, insan davranışında bioloji tərəflərinin "payı" nə qədərdir?

XIX əsrə qədər bu problemin kökləri dəqiq araşdırılmasa da, genetika elminin uğurları zaman keçdikcə bu suallara cavab verməyə zəmin yaratmışdır. İnsan nə üçün cinayəti törədir? Cinayətkar davranışın mənbəyi nədədir? Cinayətkar davranışın aradan qaldırılması mümkündürmü?

Marksizm-leninizmin prinsipial mövqeyi ondan ibarət olmuşdur ki, cinayətin aid olduğu sosial hadisələr bioloji cəhətdən izah edilə bilməz. Axı insan həm də bioloji varlıqdır. Deməli, insanı və onun davranışını sosial-bioloji baxımdan araşdırmaq lazımdır. Əks təqdirdə, hər şeyi sosial mühitlə əlaqələndirmək, bioloji amili diqqətə almamaq doğru deyildir. Bu istiqamətdə insan cəmiyyətində bütün sosial problemlərin həllini və cəzanın ləğv olunmasını gözləməməliyik. Eyni zamanda insanlar cəmiyyətin sosial problemlərinə görə günahkar deyildirlər. V. Hüqo "*Səfillər*" romanında öz qəhramanı Jan Voljanın dili ilə sual verir: *"...insan yaşadığı cəmiyyətin nümayəndələrini bir tərəfdən sonsuz diqqətsizliyə, digər tərəfdən isə amansız uzaqgörənliyə məruz qoya bilərmi? Axı bunu edərkən bədbəxt insan həmişəlik çatışmazlıq və bolluq arasındakı məngənədə əzilir. Eyni zamanda işsizlik və ifrat yanaşmalar onu izləyəcəkdir*".

İnsanda bioloji və sosial, qazanılmış irsiyyətlə keçmişin ümumi müqayisəsini axtarmaq lazım deyildir. Bunun əvəzində davranışın səbəblərini izah etmək üçün konkret qarşılıqlı təsirləri, hətta amillərin təsir mexanizmlərinin təhlilini açmağa cəhd edilməlidir. Aydındır ki, insan özündə təbii və bioloji mənşəli hər şeyi dəyişdirir, ancaq inkar və ya məhv edə bilmir. Genetik fərqlilik hər insanın unikallığını, bioloji fərdiyyətinin təkrar olunmazlığını təşkil edir. Eyni zamanda elm sübuta yetirmişdir ki, insanların, irqlərin və etnik qrupların bioloji fərqi onların birliyi ilə müqayisədə olduqca kiçikdir.

Həqiqətən, irsiyyətlə çoxlu psixoloji xüsusiyyətlər ötürülür.

Ancaq bu insanın fiziki quruluşu, psixoloji göstəricisi və cinayətkar davranışı arasında bağlantının olmasına dəlalət etmir (bu barədə E. Kreqmer və R. Funes göstərmişlər). Q.Kayzer tamamilə haqlı qeyd etmişdir: "*Cunayətkarlığın irsiyyətin məhsulu kimi araşdırılması kifayət deyildir. Biz cinayətkar davranışı irsi amillərlə izah etmək cəhdinin uğursuz olduğunu etiraf etməliyik*"[88].

Müəyyən zaman kəsiyində bəzi ərazidə yaşayan insanların genetik qanunauyğunluqlarının cinayət davranışının qanunauyğunluqları ilə üst-üstə düşməsini təyin etməli olsaydıq, onada cinayətkarlığın irsi səbəblərinin varlığı haqqında iddialar irəli sürə bilərdik.

Beləliklə, bioloji amilin rolu haqqında mübahisələrin əsası genetik faktorun davranışın, o cümlədən cinayət əməlinin, həlledici səbəbi olmaması şərti ilə ləğv edilə bilər. Genetik faktor sosial səbəblərlə müqayisədə ikinci dərəcəli rol oynayır. Bu problemin həllindən cinayət hadisələrinin qarşısını alma forması və metodları asılıdır. Cinayətkar davranışın səbəblərinin bioloji amillərlə əlaqəsi təyin edilsə, onda bu istiqamətdə nəzarət formalarını axtarmaq lazım olacaqdır. Prinsipcə, müasir və sovet hüquqşünaslarının çoxu cinayətin bioloji amillərdən aslı olmadığını zənn edirlər. Filosoflar da bu fikirdədirlər. Məsələn, P. N. Fedosejev yazır: "*Cinayətkarlığın səbəblərini insanın bioloji təbiətində axtarmaq ağılsızlıq olardı. Ancaq bununla belə, insanlar arasında individuallığa da diqqət yetirilməlidir*" [89].

Məgər ağılı olmayan insanın düşüncəsi və davranışı anadangəlmə və genetik baxımdan proqramlaşmış olsaydı, qarşısıalınmaz tərəqqiyə meylli olan düşüncəli insan rolunu

---

[88] *Кайзер Г.* Genetics and Crime. Proceedings of the II International Symposium on Criminology. San Paulo, Brasile, 1975. P. 7–8.

[89]*Федосеев П.Н.* Проблемы социального и биологического в философии и социологии. Биологическое и социальное в развитии человека // Вопросы философии. 1976. № 3. С. 29.

oynaya bilərdimi? Elm sübut edir ki, "*beyinin yüksək plastikliyi, insanların öyrənmə bacarığı genetikanın tale yüklü əhəmiyyətini inkar edir"*[90]. Bu o deməkdir ki, normal genetik proqrama məxsus insanlar özlərini nəzarətdə saxlaya bilərlər. Genetik proqram pozulduqda isə bu ya digər dərəcə ağırlıq beyinə düşür. Yəni genetik proqramın pozulması sosial tələbat və bioloji imkanlar arasında ziddiyət yaradır.

Bilindiyi kimi, XX əsrin 20-ci illərində SSRİ-də cinayətkarlığın sosial və bioloji determinantlarının nisbəti haqqında qızğın mübahisələr başlanılmışdır. Çünki o zaman cinayətkarın şəxsiyyətinə ciddi diqqət ayrılırdı. Bu zidiyyətli baxışların tarixinə varmadan onu qeyd etmək lazımdır ki, bu mübahisələr günümüzdə də davam etməkdədir.

1969-cu ildə İ.İ.Karpets qəti olaraq bəyan etmişdir: "*Cinayətin təbiəti məsələsində sosial və bioloji amilləri əsas qəbul edən insanlar bir biri ilə barışmaz olaraq mübahisələrinə davam edirlər"*[91]. Aydın olmuşdur ki, hüquq elmi, o cümlədən kriminologiya bu problemin öhdəsindən gələ bilməməkdədir. Çünki burada söhbət insan təbiəti, onun mahiyyəti və davranışı, xüsusən, insanın cinayətkar davranışından gedir. Çox güman ki, insanın cinayətkar davranışının səbəbi haqqında suala genetiklər, bioloqlar, psixiatrlar, fizioloqlar cavab verməlidirlər. Onlar bu sahələrin nümayəndələri olaraq bilavasitə bioloji varlıq olan insan təbiətini öyrənirlər.

Destruktivlik nəzəriyyəsinin yaradıcısı E.Fromm hesab edirdi ki, insan davranışının deviasiyasını (sapmasını) yalnız psixoloji səbəblərdən hərəkətlə və sosial hadisələrdən asılı vəziyyətdə görərək izah etmək mümkün deyldir[92]. Sovet

---

[90] *Карпец И.* Проблемы преступности. М., 1969. С. 32.

[91]Беляев Р.К. Современная наука и проблема исследования человека//Там же ,1981 №3, с. 15.

[92] См.: *Фромм Э.* Анатомия человеческой деструктивности. М., 1994. С. 244–310.

kriminologiya elmində heç bir alim anadangəlmə cinayətkar, cinayətkar tiplərin mövcudluğunu iddia etmirdi. Eyni zamanda, onlar cinayətin bioloji tərəfni diqqətə almırdılar. Ç.Lambrozanın açıq və ya gizli tərəfdarları heç vaxt olmamışdır. Ancaq günümüzdə belə qəbul olunub ki, insan yalnız ictimai inkişaf qanunlarına deyil, həm də təbii və bioloji qanunlara tabedir və bunlar  determinasiyanın iki əsas: bioloji və sosial amillərinin birliyini təşkil edirlər. Buna görə cinayətin bioloji tərəfinin araşdırması ilə birlikdə onun sosioloji istiqaməti də araşdırılmalıdır. Daha doğrusu, cinayətin özünə məxsus ictimai hadisə kimi elmi araşdırılmasına və cinayətin sosial mühitlə əlaqələndirilməsinə ehtiyac vardır. İ.İ.Karpets qeyd etmişdir: "*İnsanı sosial mühitdən ayırmaq mümkün deyildir. Eyni zamanda cinayətkar davranış və ümumiyyətlə cinayətkarlığın səbəblərini bioloji amillərlə izah etmək olmur*"[93]. Çünki insan sosial varlıqdır. Ancaq təbiətin bir parçası kimi o, həm də bioloji xüsusiyyətlərə sahibdir. P.N.Fedoseev qeyd edir ki, sosial və bioloji amillərin qarşılıqlı münasibətlərinin mexanizminə dair, xüsusən, psixoloji sahədə hələ çoxlu aydın olmayan məqamlar mövcuddur[94]. Bu barədə o tamamilə haqlıdır. İnsan və ya cinayətkar davranışda hansı: bioloji yoxsa, sosial amillər üstünlük təşkil edir? sualı kəskin qoyulmuşdur. B.S.Volkov hesab edir ki, "*Bioloji xüsusiyyətlər şəxsiyyətin formalaşmasına çox böyük təsir göstərir*"[95]. İ.S.Noya görə isə, "*bu gün artıq müasir elmdə bəhs edilən məsələlər şübhə yaratmır ki, yeni doğulan insan həyata*

[93] *Карпец И.И.* Современные проблемы уголовного права и криминологии. М., 1976. С. 33.
[94] *Федосеев П.Н.* Проблемы социального и биологического в философии и социологии. Биологическое и социальное в развитии человека. М., 1977. С. 29.
[95] *Волков Б.С.* Детерминистическая природа преступного поведения. Казань, 1975. С. 80, 85-86.

*müəyyən mənada proqramlaşmış vəziyyətdə qədəm qoyur"*[96]. Hesab edirik ki, cinayətlərin səbəblərinin araşdırılmasında özünü doğrultmayan psixoloji və psixiatrik amilləri kifayət qədər tədqiq etmədən cinayətin sosial tərəfinə üstünlük vermək mümkün deyildir. Cinayət o qədər mürəkkəb bir hadisədir ki, insanın davranışında sosial və ya bioloji başlanğıcın öndə getməsi sualı perspektivli görünmür. Əsas məsələ ondan ibarətdir ki, məhz yuxarıda göstərilən amillərin olduğu təqdirdə cinayət əməli törədilir. Bu və ya digər amillərin üstünlüyü haqqında deyil, bioloji və sosial amillərin, yəni insan və ətraf mühitin qarşılıqlı münasinətlərindən söhbət etmək düzgündür.

**II. Cinayətin səbəblərinin dini izahı.** Qədim məbədlərdən birinin üzərində belə bir yazı vardır: "*Mən keçmişdə, günümüzdə və gələcəkdə olan varlığam, heç bir insan mənim mahiyyətimi dərk etməmişdir*". Bizim fikrimizcə cinayətin fəlsəfi mahiyyətinin dərki onun səbəblərinin təyin olunmasından aslıdır. Eyni zamanda tamamilə aydındır ki, "*İnsan nə üçün cinayət törədir*?" kimi əbədi sualın cavabı birbaşa insan davranışının mənasının dərk edilməsindən aslıdır. Bunun üçün insanın özünün mahiyyətini və təbiətini anlaması lazımdır, sonra isə onun davranışının, o cümlədəm cinayətkar davranışının araşdırılmasına başlanılmalıdır. Problemə məhz bu ardıcıllıqla baxılmasını qərara aldıq.

Delfadakı Apollon məbədinin girişində həkk olunan məşhur "*Özünü dərk et*" ifadələri antik dövrdən başlayaraq filosoflar üçün istiqamətverici mahiyyət kəsb etmişdir. Əsrlər boyu insana özünü, dünyadakı yeri, varlığının mahiyyətini, ədalət, xeyir və şər haqqında dərindən düşünmək qabiliyyəti aşılanmışdır. İnsan həqiqətin dərk edilməsinə doğru təkamül yolu ilə tədricən irəliləmişdir. M. de Monten qeyd edirdi: "*İnsanın ən mənfi tərəfi-onun özünü dərk edə bilməməsi və özünü idarə edə*

---

[96]3 *Ной И.С.* Методологические проблемы советской криминологии. Са ратов, 1976. С. 79.

*bilməməsidir*"[97]. Bu isə o mənaya gəlir ki, insanın ən uyğun vəziyyəti onun özünü dərk etməsi və davranışına nəzarət etməsidir. Bəs bu mümkündürmü? Bununla əlaqədar Platonun belə bir ifadəsi yada düşür: "*Öz işinlə məşğul ol və özün-özünü dərk et*". Bəlkə də filosof bizə demək istəmişdir ki, əgər insan bir şeyi istəsə və onun əldə edilməsi üçün cəhdlər etsə, o mütləq onu əldə edəcəkdir. Deməli, o zaman insanlar insan mahiyyətinin sirlərini aça biləcəklər. Lakin qədim filosofların xəbərdarlıq etdikləri kimi, bu günə qədər insan tam dərk olunmamış bir sirr olaraq qalmaqdadır. Belə ki, M. de Monten yazırdı: "*İnsan heyrətamiz dərəcədə fani, sabit olmayan və hər zaman tərəddüd içində olan varlıqdır. Onun haqqında davamlı və birmənalı təsəvvür yaratmaq mümkün deyildir*"[98]. B.Paskal bu fikri daha konkret ifadə etmişdir: "*...insan üçün bundan çətin və həlledilməz məsələ yoxdur, məhz sözü gedən onun özüdür*"[99].

İnsan bəzən özü özünü dərk etməyə də bilər. Bəlkə də onun özünü dərk etməməsi insanın bioloji tərəfindən, yəni maddi materiyaya sahib olmasından irəli gəlir. Onun üçün də ruhun dərk olunması daha çətindir. Ancaq ən anlaşılmaz məsələ maddi bədənin ruhla necə birlik təşkil etməsidir.

Ümumiyyətlə, insan hardan əmələ gəlib? İlk insanın- Adəm peyğəmbərin yaranma tarixi yəhudi, xristian və müsəlmanların müqəddəs kitablarında geniş təsvir edilmişdir. Yəhudi və xristian mənbələrində yaradılışın təsviri təxminən eynidir. "Yaradılış" kitabına görə Adəm torpaqdan yaradılmışdır. Talmudda isə Tanrı Adəmin bədənini palçıqdan yaradıb. Adəmin yaradılışının İslam versiyası isə yəhudi və xristianlarınkından fərqlənir. Orada biz bir çox maraqlı nüanslara rast gələ bilərik. "*O, qeybi də, aşkarı da biləndir, yenilməz qüvvət sahibi, mərhəmət sahibidir! O, yaratdığı*

---

[97] *Монтень М.* О природе человека: Монтень, Ларошфуко, Паскаль. М., 2009. С. 110.

[98]Göstərilən kitabda C. 19.

[99] Göstərilən kitabda C. 368.

*hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı*" (Quran, 32 surə, 6-7 ayələr).

Quranın "Bəqərə" surəsində Adəmin yaradılışının hikməti haqqında geniş məlumat verilir: *"(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu.*"(Quran, 2 surə, 30 ayə).

Bununla da Yerdə ilk insan Adəm haqqında hekayə formalaşmışdır. Tanrının əmri ilə mələklər müxtəlif keyfiyyətli və müxtəlif rəngli (qırmızı, ağ, çəhrayı və qara) torpaq nümunələrini götürmək üçün yerə enmişdilər. Bundan sonra Tanrı götürülmüş torpaqlardan Adəmi yaratmışdır. Onun nəsli də bütün dünyanın hər tərəfindən götürülmüş torpaqlar kimi müxtəlif olmalı idi. Bu səbəbdən də Onların görkəmləri və keyfiyyətləri müxtəlifdir.

Quranda Adəmin yaradıldığı torpağın müxtəlif adları vardır. Bu da bizə müəyyən qədər onun yaradılma prosesini təsəvvür etməyə imkan verir. Hər bir mərhələ üçün torpağın ayrıca adı qeyd edilir. Allah onu kitabında gil adlandırır. Sonra gil və ya torpaq su ilə qarışdırıldıqdan palçığa çevirilir. Sonra qurumaq üçün kənara qoyulmuş maddə "yapışqan palçıq" adlanır. Müəyyən vaxt keçəndən sonra o qaralır, ondan qoxu ayrılır və sonda qara hamar gil olur. Məhz bu maddədən Allah Adəmin bədənini yaratdı. Onun ruhsuz bədəni müəyyən vaxt ərzində qurudulmuş və Quranda qara palçıq adlanan maddəyə çevrilmişdir. Adəm dulusçu gilinə bənzər bir maddədən yaradılmışdır. Onu yüngülcə döyəcləyəndə zəng səsinə bənzər səs eşidilir. Maraqlıdır ki, bütün bunlar elmi əsaslarla təsdiq olunmuşdur. Məlumdur ki, ən sadə gilin tərkibində bioloji həyatın əsas elementləri mövcuddur. Ola bilsin ki, elə buna görə qədim zamanlardan günümüzə kimi gilin vasitəsi ilə müxtəlif xəstəlikləri müalicə edə bilirdilər.

Qədim zamanlardan bir çox xalqların əsatir və dastanlarında insanın gildən yaradılması haqqında deyimlər mövcuddur. Məsələn, Makedoniya əsatirində Tanrı özü insanı gildən yaratmışdır ki, "*Onun bədəninin heç bir qüsuru olmasın və inciməsin"*. Ancaq sonra o, insanların yaradılması prosesini tezləşdirmək üçün xüsusi qəlib düzəltmişdir. Bu "kütləvi istehsal" nəticəsində keyfiyyətə xələl gətirilmişdir. Qəlibdən insanların əlləri və əyaqları əyri, kor və ya keçəl, digərləri isə təkəbbürlü və inadkar çıxmışdır. Beləliklə yaxşı (əllə düzəldilmiş) və pis (qəlibdən çıxmış) insanlar yaranmışdır.

Maraqlıdır ki, bir Şumer əsatirində Enki və Ninmah adlı tanrılar insanları gildən yaradırdılar. Əvvəl onlar yaxşı insanları, daha sonra isə pis insanları yaratdılar. İnsanların gildən yaradılması hadisəsinə qədim Yunan, Misir, Afrika xalqlarının və bir sıra Şimali Amerika qəbilələrinin əsatirlərində rast gəlmək mümkündür. İncildəki insanın yaradılışı haqqında hekayə isə, şübhəsiz ki, hamıya məlumdur. Alimlər ibrani dilində "insan" sözünün "yer və qırmızı torpaq" mənalarının olduğunu iddia edirlər.

XX əsrin əvvəllərində tanınmış rus alimi V. İ. Vernadski gili araşdırarkən onda insan yaradılışı haqqındakı qədim əsatirlərin məzmununu təsdiqləyən bir sıra maraqlı xüsusiyyətlər tapmışdır. Gilin tərkibində bizim orqanizmdə mövcud olan bütün makro və mikro elementlər müəyyən edilmişdir. Hətta onların yaxınlıq nisbəti demək olar ki, elə bizim orqanizmdəki kimidir.

Bu yaxınlarda amerikalı alimlər sensasiyalı ixtira ilə çıxış etmişlər. Həmin ixtira V.İ.Vernadskinin araşdırmalarını təsdiqləmişdir. Onlar təyin etmişlər ki, adi gilin tərkibində insan və digər canlıların hüceyrələrinin membranlarını təşkil edən bioloji həyatın təməl elementləri mövcuddur. Qeyd etmək lazımdır ki, hüceyrələrin membranları yalnız hüceyrələrin yaranmasında iştirak etmirlər, eyni zamanda onların tərkibində, həm də bütün canlı aləmin təməlini təşkil edən orqanizmin genetik

kodu olan ribonuklein turşusu (RNT) da vardır.

Geoloqlar və torpaqşünaslara görə 40-a qədər gil növü mövcuddur. Onların tərkibi, quruluşu və rəngi bir-birindən fərqlənir. Mavi, ağ, qırmızı, sarı, yaşıl, boz və hətta qara rəngli gil mövcuddur. Gilin rəngi və çalarları, eləcə də onun xüsusiyyətləri elə bir kimyəvi tərkibə malikdir ki, bununlada onların müalicəvi xüsusiyyətləri ortaya çıxır. Gilin müalicəvi xüsusiyyəti onun misilsiz iondəyişdirici təsiri ilə səciyyələnir. Onun tərkibində olan hüceyrələrə çatışmayan elemetləri həm təmin edə, həm də aradan çıxara bilər. Beləliklə, gil orqanizmin mineral tərkibini normallaşdırıb mübadilə proseslərini tənzimləməyə qadirdir.

Beləliklə, mülahizəllərin birinə görə insanı Allah yaratmışdır. Bəs biz yaradıldığımızı dərk edə bilərikmi? Axı özümüzü dərk etməsək davranışımızı, cinayətkar əməllərimizin səbəblərini izah etmək mümkün olmayacaqdır. Doğrudan da, nə üçün insan xeyir və şərin nə oldiğunu bildiyi halda cinayət əməllər törədir? E.A.Pozdnyakovun qeyd etdiyinə görə, bu "*insan təbiətinin fenomenal cəfəngiyatının göstəricisidir. Bu səbəbdən insan bütün həyatı boyu iztirablar içində yaşayır, tənbeh olunur və hətta edam edilir. Bəlkə də o, buna layiqdir*"[100].

Bəlkə, Allah insan təbiətinə hansısa qeyri-bəşəri instinkt yerləşdirib? T. Hobbs bu barədə belə yazmışdır: "*İnsan təbiəti dağıdıcı mahiyyətə sahibdir. O, elə bir qatilə bənzərdir ki, onu sevimli sənətindən yalnız özündən daha güclü qatilin ortaya çıxması qorxusu çəkindirə bilər*"[101].

Halbuki mələklər Allahı insanın günahkar olacağından və qan tökəcəyindən xəbərdar etmişdirlər. Ancaq günahlarla dolu cinayətkar insan təbiətində təqsirli "*Tanrının yaratdığı bütün çöl heyvanlarından daha hiyləgər*" ilandır. O, kələkbazlıq və hiylə

---

[100] *Поздняков Э.А.* Философия преступления. С. 155-156.
[101] Daha ətraflı bax: *Гоббс Т.* Левиафан. 4.2. О государстве // *Гоббс Т.* Соч.:

işlədərək Həvvanı qadağan olunmuş Ağacın meyvəsini yeməyə, bunun nəticəsində isə Xeyir və Şərin nə olduğunu bilməyə təhrik etmişdir. Ancaq Həvva Tanrının onlara bu ağacdan meyvə yeməyi qadağan etməsini unudaraq bundan imtina etməmişdir. Çünki o meyvəni yeyən ölməli idi. Ancaq ilan ona dedi: "*Siz xeyir və şəri bilən tanrılar kimi olacaqsınız*". Sonda qadın ilanın təhrikinə uyaraq o ağacın meyvəsini yemiş, sonra Adəmi də yoldan çıxarmağa müvəffəq olmuşdur. Beləliklə, Adəm və Həvva xeyir və şərin nə olduğunu çılpaqlığı ilə dərk etdilər və Tanrının nəzərindən uzaqlaşmağa başladılar.

Xeyir və şər haqqında bütün məlumat yalnız Tanrıya məxsusdur. O, insanın əvəzinə bu anlayışları təyin edir. İnsan günahından əvvəl günaha batmış mələklərin timsalında dünyada artıq şər mövcud idi və Adəm xeyir və şər haqqında məlumata sahib idi. İohann Xrisostomosun ifadəsinə görə Tanrı əvvəldən insana öz iradəsini istifadə etməyə icazə vermişdir, belə ki, insanlar dini ehkamların pozulmasına görə cəzalandırmaz və ya onların icra edilməsinə görə savab qazanmazlar. İnsanın günaha batması onun xeyir və şərin nə olduğunu bilmək istəyi idi. Halbuki bu qərar Tanrının özünə məxsus idi. İnsanı bu günaha sürükləyən əməl də cəzalandırılmışdır. İlan lənətlənərək əbədi olaraq meyitlərlə qidalanıb qarnının üstündə şürünməyə, qadın ərinin tabeliyi altında olaraq ağrılar içində uşaq dünyaya gətirməyə, kişi isə həyatı boyu onun günahına ğörə lənətlənmiş yerdə tər və kədər içində işləməyə məhkum olmuşdular. Əslində insanlar ölməz yaradılmışdılar. Ancaq bu günahlardan sonra ölüb, təkrar Adəmin yaradıldığı torpağa qayıtmalı oldular. Bundan sonra Tanrı insanlara geyim verdi və onları yaratdığı torpağı becərmək üçün Adn cənnətindən qovdu. İnsanlar Həyat Ağacının meyvələrini yenə də qayıdıb yeməsinlər deyə, Tanrı cənnətin keşiyində əlində odlu qılınc olan kərubim məlakəsini təyin etdi. Deməli, şər insan təbiətinin dərinliklərində yer almışdır. Onun təzahürləri isə özünü irrasionallıqda göstərir və bu Tanrı

təbiətindən irəli gəlir. Eyni zamanda onun daxili mənbəyi də vardır[102].

Nə üçün, zülmün nə olduğunu bilməyən heyvandan fərqli olaraq insan onu etməyə meyl edir? Bu baxımdan E. Fromm yazır: *"İnsan öz mənfəəti üçün özünün soyundan olanı öldürə bilən tək varlıqdır"*[103].

Ola bilməz ki, Tanrı bizi bu cür, qana hərislik meylləri ilə yaratsın. O zaman şərin mənbəyi nədir? Bununla əlaqədar C.B.Rassel J.J.Russonun aşağıdakı fikirini xatırlatmışdır: "*Ey insan, şəri yaradanı uzaqlarda axtarma, onu yaradan sənin özünsən*"[104]. Z.Freydin nəzərəriyyəsinə görə isə insan davranışlarını heyvani instinktlərlə idarə edir. O iddia etmişdir ki, insan bu instinktlərin məngənəsindədir, çünki onlar onun təbiəti ilə şərtlənir[105].

Dini təsəvvürlərə görə insanın şərlə dolu davranışı, qəddarlığı, cinayət "şər" qüvvələrin insana təsirinin nəticəsidir. Belə ki, Müqəddəs Avqustin iddia edirdi: *"İnsan etdikləri əməllərin seçimində azaddır, o, yalnız şər iradənin və qüvvələrin təsiri nəticəsində cinayət əməlini törədir*"[106]. O zaman nə üçün Tanrı insana cani olmağa, şər əməl törətməyə imkan verir? Y. V. Romanets qeyd edirdi: "*Tanrı şəri bir nəticə olaraq rədd edir, lakin Xeyir və sevgi hissini qazanmaq üçün bir vasitə kimi ondan istifdə etmək imkanı verir"*[107]. Bu mülahizələrə oxşar bəzi ifadələri Arximandrit Platonun əsərlərində də rast gəlmək

---

[102] Bax.: *Бердяев Н.А*. Мировоззрение Достоевского. М., 2001. С. 237.

[103] *Фромм Э.* Анатомия человеческой деструктивности. М., 1994. С. 189–190.

[104] *Рассел Дж. Б.* Князь тьмы / Пер. с англ. И.Ю. Ларионова. СПб.: Евразия, 2002. С. 347.

[105] Bax: *Фрейд З.* Я и Оно. Тбилиси, 1991. С. 374–380.

[106] Творения Блаженного Августина. Киев, 1901. С. 41.

[107] *Романец Ю.В.* Этнические основы права и правоприменения. М., 2012. С. 302.

mümkündür (İqumnovda): "*Fəzilətə yönəlmənin yalnız o zaman həqiqi mənəvi dəyəri olar ki, onun günahları ilə mübarizə aparmaq gücü olsun"*[108].

Müqəddəs Avqustinə görə insan xəstəliyin ağırlığını sağaldıqdan sonra dərk edə bilər. "*İnsan məhkum valideyinlərdən dünyaya gələrsə, onların təbiəti bəd və maddi olur. Sonra onlar xeyirli əməlləri ilə Xristosa (İsaya) qədər yüksələrək mənəvi kamilliyə sahib olurlar. Ancaq hər bir mənfi xarakterə sahib insan xeyirxah olmaya bilər. Bununla belə, mənfi xarakterə sahib olmayan insan, sonra xeyirxah da ola bilməz*"[109]. Məgər bu o demək deyilmi ki, Tanrı bizim hər birmizə şəri törətmək icazəsini, sonra buna görə tövbə etmək imkanı da vermişdir? *"Qəlbimin istədiyi xeyrxahlığı etmirəm, əksinə, istəmədiyim şəri isə edirəm"* (Roma. 7:19).

Bizi yaradan Tanrı, həm də davranış qaydalarını təyin etmiş və orada inanclı insanın nə etməsini, vacib olanları etməsə isə onun aqibətinin necə olacağını, o, öz keçmişində günahlarını nə ilə islah edib, yenidən mömin həyata qayıda bilmələri üçün qaydalar ortaya qoyur. İnsana xeyir və şərin mahiyyətini açaraq, Allah şər hərəkətlər etməyi bizdən tələb edir, eyni zamanda bizi şərdən uzaqlaşdırıb xeyirə yönəlməyimizi istəyir.

Din insanların davranışını müəyyən edərkən ilk növbədə xeyir və şər anlayışına əsaslanır. Bunu hüquqi dillə desək, doğru, insani, qanuni və ya qanuna zidd, zərərli və cinayətkar tərkibli davranışın mənasını açıqlayır.

Quranda belə buyrulur: "*Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir).*" (Quran, "Zəlzələ"

---

[108]Вах: *Архимандрит Платон (Игумнов).* Православное нравственное богословие. Свято-Троицкая Сергиева Лавра, 1994. С. 224–228.
[109] *Блаженный Августин.* О граде Божьем. Т. 3. М., 1994. С. 43.

surəsi 99, 7-8 ayələr).

Ya da: "*O gün (qiyamət günü) çəki (əməllərin tərəzidə çəkilməsi) haqdır. Tərəziləri ağır gələnlər (yaxşı əməlləri pis əməllərindən çox olanlar) nicat tapanlardır!*" (Quran, "Əraf" surəsi 7, ayə 8).

Bu ifadələrə İncildə də rast gəlmək mümkündür: "*Yaxşılıq edənlər həyat üçün diriləcək, pislik edənlərsə hökm üçün diriləcək*" (Yəh. 5: 29).

Qeyd etmək lazımdır ki, müqəddəs kitablarda xeyir və şər əməllərin törədilməsi tamamilə insanın özündən asılıdır və onun rifahı üçündür. Yəni bu ya digər insan davranışı onun azad iradəsindən irəli gəlir. Bu isə o deməkdir ki, insan özü öz davranışına görə Tanrı qarşısında məsuliyyət daşıyır.

"*Yaxşılıq da etsəniz, pislik də, özünüzə etmiş olursunuz*!
"(Quran, "İsra" surəsi 17, ayə 7).

Yaxud: "*Yaxşı iş görənin xeyiri özünə, pislik edənin də zərəri özünə olar. (Ya Peyğəmbər!) Sənin Rəbbin (haqsız yerə) bəndələrə zülm edən deyildir*!" (Quran, "Fussilət" surəsi 41, ayə 46) kimi Quran ayələri yuxarıdakı fikirlərin doğruluğunu təsdiq edir.

Şübhəsiz, "*Sənin Rəbbin (haqsız yerə) bəndələrə zülm edən deyildir*" ifadəsi xüsusilə qeyd edilir ki, insan davranışı iradi, yəni onun özündən asılıdır və onu heç kim heç nəyə məcbur edə bilməz. Buna görə də Allah insana davranışında seçim azadlığını vermişdir.

Allah Quranda ağılın üstünlüyünü vurğulayaraq ağıllı insanları tərif edir. Ağıl insanları onlara zərərli olan hər bir şeydən çəkindirdiyini qeyd edir.

Beləliklə, Allah tərəfindən göndərilən vəhylər insanlığa göndərilmiş konkret qaydalar kimi qiymətləndirilir. Bunlar qadağalar, öhdəlik, icazə və ya ümümi prinsiplər ola bilərlər. Qeyd edilməlidir ki, Quran bir çox ayələrdə xeyirli işlər üçün mükafatın veriləcəyini xüsusi ilə vurğulayır. Müqəddəs Quran

insanlarda inam yaradır ki, onsuz onlar düz yolun yolçusu ola bilməzlər. Buna görə də Allah onu insanlar üçün doğru bələdçi adlandırmışdır. Elə buna görə Quran, digər İlahi Kitabları kimi müqəddəs hesab edilir. Onlarda həqiqətlər əks olunmuş və insanlar üçün faydalı və zəngin məlumatlar verilmişdir.

"*Həqiqətən Quran (bütün bəşəriyyəti) ən doğru yola (islama) yönəldir, yaxşı əməllər işləyən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir*!" (Quran, "İsra" surəsi 17, ayə 9).

Burada qeyd etmək lazımdır ki, Allah insanı yaradaraq insanda yalnız fəzilətli əməllər görmək istəmişdir. Bu əslində insanın dünyaya göz açdığı andan başlayaraq davam etməlidir. "Şər" qüvvələrin fəaliyyəti insanla bərabər yaradılmış və onun mənəvi və ruhi aləmi ilə paralel inkişaf etmişdir. Bu da o deməkdir ki, varlığımız boyu bizim içimizdə iki ruh və iki qüvvə yaşayır. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, şər insanda üstünlük təşkil etsə, insan hansısa cinayəti törədədəcəkdir. M. de Monten qeyd etmişdir: "*İnsan davranışlarının araşdırması ilə məşğul olan hər insanın çətinliyi onda ortaya çıxır ki, insanın daxilində mövcud olan xeyir və şər qüvvələrini bir-biri ilə barışdırsın və hər biri üçün eyni izahlar versin. Çünki onların bir mənbədən qidalanması ağlasığmazdır*"[110].

Beləliklə, dinin prinsipial mövqeyi göstərir ki, insan kamil deyildir. Çünki onun təbiətini əcdadlarının (Adəm və Həvvanın) ilk günahı pozmuşdur. Bu səbəbdən insan şeytani nəfsə uymağa meyllidir. İnsan bu nəfsin təsiri altına düşəndə cinayətə, yəni inkar yoluna yuvarlanmış olur. O zaman ortaya belə bir sual çıxır: Dini baxımdan insan öz davranışının seçimini bacarırmı? Əgər biz insanın Allah tərəfindən yaradıldığını etiraf ediriksə, deməli, ancaq Allah yaratdığı məxluqun mahiyyətini, yəni onun hər bir davranışının (o cümlədən cinayətkar davranışının) mənşəyini

---

[110] О природе человека: Монтень, Ларошфуко, Паскаль. С. 103–104.

bilməlidir. Bəs Tanrı insana öz davranışlarında sərbəstlik veribdirmi?

Bu sualı Müqəddəs Avqustin Həvari Pavelə yazdığı məktubunda vermişdir: "*İnsanın nə edəcəyi onun azad iradəsindən irəli gəlir, yoxsa bunlar insanın ilk günahından qaynaqlanan insan ehtiraslarına görə ortaya çıxır? İnsan doğru davranışın nə olduğunu dərk edərək və istəyərək bunu etmir*". Avqustinin özü isə heç bir iradə azadlığının olmadığını və insan həyatının Tanrı tərəfindən əvvəlcədən təyin olunduğunu sübuta yetirmək istəmişdir. O Tanrı ki, ona səadət verər və ya lənətləyər. Yəni, insan cinayəti Tanrının iradəsi ilə törədir. Əgər belədirsə, onda insan öz hərəkətinə, o çümlədən cinayətkar əməlinə görə cavab verməməlidir. Belə olduqda isə, törədilən əməllərə görə cavabdehlik problemi yaranmış olur. Tanrı nə üçün bəzi insanlara səadət bəxş edir, digərlərini isə lənətləyir? Nə üçün bəzi insanlar Onun iradəsi ilə cinayətkar, digərləri isə nəcib olur? Nəhayət Tanrı nə üçün yaratdığı insanların cani olub şər əməllər törətmələrini istəsin?

Erkən Xristianlıq insanların azad seçim imkanını yəni iradələrini gələcək davranışları ilə əlaqələndirir. Əgər insan qəsdən qətli törətmək istəyirsə, onda o, bu cinayətə əvvəldən hazırlaşır, yəni hər şeyi ölçüb biçir, edəcəyi əməlin nəticələrinin nə olması haqqında düşünür və cızdığı planın reallaşmasının mümkün variantlarını nəzərdən keçirir. Buna müvafiq olaraq düşünülməmiş, impulsiv, affektiv, xaotik və bir anda baş verən hərəkətlər digərlərindən fərqlənir. Məsələn, evinə qayıdan bir zabit öz həyat yoldaşını başqa bir kişi ilə görəndən sonra onları odlu silahla güllələyir. Burada hər şey bir neçə saniyə içində baş verir. Nəticədə zabitin bu davranışını düşünülməmiş və anidən baş vermiş hadisə kimi dəyərləndirmək mümkündür.

Bu barədə Emesli Nemesios qeyd edirdi: *"İradi davranış insanın özündə başlayan düşünülmüş əqli fəaliyyət kimi başa düşülür. İradi olmayan (qeyri-ixtiyari) davranış dedikdə isə biz*

*bunun əvvəldən düşünülməmiş və qeyri-ixtiyarı olduğunu düşünürük.*"[111].

Bizim bütün davranışlarımız əvvəldən Tanrı tərəfindən bilinirsə, o zaman nə üçün insana öz qardaşlarına qarşı cinayət törətməyə inkan verirmişdir? Dəməşqli İohannes "*Ortodoksal (pravoslav) dinin dəqiq bəyan edilməsi*" kitabında etiraf edir ki, "*Tanrı hər şeyin əvvəli və hər bir xeyrin səbəbidirsə, o zaman insanın törətdiyi hər bir əməl onun razılığı ilə həyata keçir. Digər tərəfdən Tanrı şər əməllərin törədilməsini istəmir, ancaq azad iradənin olduğuna görə buna imkan yaradır*"[112].

Avqustinə görə azad iradə insanı günah əməllər işləməyə təhrik edir, xeyir isə İlahi lütfün köməyi ilə həyata keçirilir[113]. D.Dorofeyev bu mövqe ilə əlaqəli əsərində qeyd etmişdir: "*Belə yanaşma terminoloji baxımdan Tanrıdan ayrılmış insanın sərbəst seçimi, Tanrıya bağlı insanın əsl azad seçimin fərqləndirilməsi zərurətinə gətirib çıxartmışdır. O, insanın tam azad iradəsini kortəbiilik kimi dəyərləndirmişdir. Bu da insanın şəxsi azadlığının və sərbəstliyə can atmasının mənfi qiymətləndirilməsinin dərkidir*"[114].

Əgər Tanrı insanın hərəkətlərini bilib, onları öncədən görürsə, o zaman nə üçün O qətlin törənməsindən cinayətkarı çəkindirmir? Dəməşqli İohannes bu sualı belə cavablandırmışdır: "*Hamı bilməlidir ki, Tanrı hər şeyi əvvəlcədən bilir, ancaq heç də bütün hadisələri qabaqcadan təyin etmir. Çünki O bizim hökmümüzdə olanı əvvəlcədən bilir, ancaq bunu əvvəldən təyin etmir. Çünki O insan iradəsinə qarşı çıxmayaraq xeyir və şərə*

---

[111] *Эмесский Немезий.* О природе человека. М., 1998. С. 103.
[112] *Дамаскин Иоанн.* Точное изложение православной веры. Ростов н/Д, 1992. С. 115.
[113] *Блаженный Августин.* Göstərilən kitabda. С. 250–253.
[114] *Дорофеев Д.* Под знаком философской антропологии. М.; СПб., 2012. С. 86.

*yönəlməni zorla həyata keçirmir*"[115].

Avqustin Siseronun mövqeyini tənqid edərək səbəblərin üç xüsusiyyəti haqqında məlumat verir. Bunlar təsadüfi, təbii və ixtiyari xüsusiyyətlərdir. O həm də etiraf edir ki, insanın azad iradəsi onun ehtimal etdiyi əməllərinin səbəbi və o (səbəb) transsendent və əbədi Tanrıya əvvəlcədən məlum olan müvəqqəti səbəblər və nəticələr sırasında yer tutmuşdur[116].

İnsan qətl kimi gözlənilmədən və kortəbii törətdiyi cinayətlərdən məsuldurmu? Emesli Nemesios hesab etmişdir ki, istənilən halda insan "öz hərəkətlərinin yaradıcısı hesab edilir və özünün təyinetməyə qabiliyyəti vardır"[117]. Yəni, cinayətin kortəbii, impulsiv törədilməsi insanı məsuliyyətdən qaçıra bilməz. Çünki bu əməl onun öz iradısi ilə törədilmişdir. Kentenberili Anselm hesab etmişdir ki, kortəbiilik ağıl sahibi olan varlıqların xüsusiyyətidir. O, xüsusilə qeyd etmişdir ki, insan "*zərurətə tabe olan*" varlıqdır. Zərurətə tabe olan hərəkət isə tam olaraq insan təbiəti ilə təyin edilir[118].

Bu tezisdən belə bir nəticəyə gəlmək mümkündür ki, insan iradəsinin bütün hərəkət və davranışlarını heyvani ehtiraslardan fərqləndirmək kortəbiilikdir. Bir qayda olaraq kortəbiilik sözü təbiət hadisələrinin və insan davranışlarının xarakteristikası üçün istifadə olunur. O reallaşan hadisənin xüsusu halı və ya edilən hərəkətin səbəbinin xüsusi xarakterini ifadə edir. İslamın bu məsələyə münasibətinə gəldikdə isə Quranda tam birmənalı və aydın olaraq Allahın dünyada olan hər şey üzərində hakim olduğu təsbit edilmişdir. Bu, insanların başına gəldiklərinə, onların əməllərinə, davranışlarına da aiddir. Bu iddianı İslam alimləri fərqli izah edirlər.

---

[115] *Дамаскин Иоанн.* Göstərilən kitabda. C. 115.
[116] *Блаженный Августин*. Göstərilən kitabda. C. 250–253.
[117] *Эмесский Немезий*. Göstərilən kitabda. C. 126.
[118] *Ансель Кентерберийский*. Сочинения. M., 1995. C. 198–273.

Bəziləri insanın başına gələn bütün hadisələri mütləq tale ilə əlaqələndirirlər. Yəni, onların fikrinə görə onun hər bir əməlini Allah yaradır, hamının əməllərini və davranışlarını O idarə edir. Buna görə də insan xeyir və ya şər əməl törədəndə bunu öz iradəsi ilə deyil, Allahın iradəsi ilə etmiş olur. Onda burada insanın öz əməllərinə görə məsuluyyət daşıması barəsində sual ortaya çıxır. Əgər insan öz əməlinin, o cümlədən cinayət əməlinin təşəbbüskarı deyilsə və bütün əməllər Allah tərəfindən yaradılırsa, onda bunlara görə necə məsuliyyət daşıyıb cəzalandırıla bilər? Məgər Allah insanı gücsüz və iradəsiz yaratmaqla ədalətsiz davranmamışdırmı? Yəni, O insanı cinayət törətdiyinə görə məsuliyyətə cəlb edir, sonra isə onu cəhənnəmə atır. Hansı ki, O insanların törətdikləri əməlləri əvvəlcədən bilir və onları bu əməllərdən uzaqlaşdırmaq gücündə və iqtidarındadır.

İradə azadlığını inkar edənlər bu suala belə cavab verirlər. İnsan əməli sadəcə Allahın külli iradəsinin təcəssümüdür. O tək olan əsl faildir, insan isə yalnız fiqural anlamda fəaliyyət göstərə bilər (əşarilərə görə). Bu da o deməkdir ki, o, Allahın digər yaratdıqlarından yalnız onunla fərqlənir ki, öz xeyir və ya şər, yaxşı və ya cinayətkar hərəkətlərinə görə məsuliyyət daşıyır, ona baxmayaraq ki, onların hər biri Allahın iradəsi altında reallaşır. Yəni, Allah hərəkəti yaradır və paralel olaraq insanı onu həyata keçirmək üçün vasitə kimi istifadə edir. Elə buna görə insan məsuliyyət daşıyır.

O zaman qətlin törədilməsindən əvvəl Allah insanda bu cinayəti törətmək imkanını yaradır. Ancaq əvvəl insan hərəkətə keçməlidir. Çünki bu olmasa, Allah bu qabiliyyəti insanda yaratsa belə, qətl reallaşa bilməz. Buna görə də belə bir məntiqi sual ortalığa çıxır. Quranda birmənalı olaraq deyildiyinə görə, Allah ədalətlidir və bu barədə heç bir insanda şübhə yaratmır. Əgər belədirsə, onda necə olur ki, Allah öz iradəsi ilə törədilən qətlə görə bu əmələ yalnız vasitəçi olan insanın cəzalandırılmasına imkan verir? Axı Allah ədalətə zidd olan heç bir şey etməz, O

yalnız xeyir işləri təqdir edər. Qüdrətli və ədalətli Allah insanlara qarşı şər işlətməz, xüsusən insanlardan mümkün olmayan bir şeyin edilməsini tələb etməz. Ümumiyyətlə, Allahın nəyinə gərəkdir ki, insanlar özlərinin deyil, Allahın iradəsi ilə törətdikləri cinayətlərə görə cəzalandırılsınlar? Digər tərəfdən, Allah insanların hərəkətlərini idarə edirsə, o zaman O nə isə istəyirmi, nəyə isə ehtiyacı vardırmı? Məgər kainatı, diri olan və olmayan hər şeyi yaradan Allahın nəyə isə ehtiyacı ola bilərmi? Buna görə də heç bir insanın cinayətkarlıqla bağlı istəyi və yönəlməsi Allaha aid edilə bilməz.

Onda nə üçün şər, zorakılıq, cinayət, qətl kimi hadisələr mövcuddur? Məgər Allah bu hadisələrin, mənfi və pis əməllərin qarşısını almaqda acizdirmi? Əgər O şər üzərində, xüsusən də cinayətlərin qarşısının alınmasında gücsüzdürsə, onda O şərə qarşı acizdir. Əslində bu o deməkdir ki, Allah şəri yaratmaq üçün İlahi qabiliyyətə malik deyildir. Digər tərəfdən, əgər O şər və cinayətlərin üzərində hakimdirsə, o zaman Allahın yer üzərində törədilən şər əməllərdən xəbəri yoxdur. Əks təqdirdə, O, onların qarşısını alardı. Ancaq bunlar barəsində məlumatı varsa, deməli Onun bunlara istəyi və ehtiyacı vardır. Yoxsa şərin, zorakılığın və cinayətin Onun tərəfindən yaradılmasının nə mənası olardı?

Bununla belə, Quranın məzmunu haqqında dərindən düşündükdə, xüsusən də bir çox ayələri təhlil etdikdə, Allahın insana azad iradə verməsi qənaətinə gəlmək mümkündür. Ancaq burada hər şey insanın doğum günündən başlayaraq, hər bir əməlin törədilməsindən əvvəl verilməsi haqqında sual yaranır.

Allahın ədalətli olması o deməkdir ki, insan öz əməllərinin yaradıcısı olmalıdır. Ancaq belə olan təqdirdə o, azad, eyni zamanda öz davranışına görə məsulyyətli olar. Başqa sözlə, əgər Allah insanı onun öz əməllərinə görə məsuliyyətli yaradıbsa, deməli xeyir işlərin və ya cinayətlərin törədilməsi hər bir kəsin öz sərbəst iradəsindən asılıdır. Lakin Allah insanlar üçün şər işlərin və cinayətin törədilməsini yasaqlamışdır. Buna görə də insanın

fəaliyyətinin məzmunu Allahın iradəsinə uyğun gəlsə də, gəlməsə də azad, iradəli kimi başa düşülür. Allahın vəzifəsi ondan ibarətdir ki, insana iradə azadlığı və seçim hüququ versin, bundan sonra isə öz hərəkətlərini idarə etmək üçün insana ağıl da vermişdir. Kleanfinin dediyi kimi, "*Getmək istəyəni tale aparır, istəməyəni isə sürükləyir*".

Çox vaxt cinayəti törətmiş insanlardan hamıya məlum olan "*Bu mənim taleyimdir*" və ya "*Alın yazım bu imiş*" kimi ifadələri eşidirəm. Real həyatdan gətirilmiş çoxlu tarixi hadisələr taleyin, qaçılmaz alın yazısının olduğunu təsdiqləyir. Hər şey də ona tabedir. Lakin hər şey alın yazısına tabedirsə, yaxud biz hadisələrin gedişini öz iradəmizin və istəyimizin gücü ilə dəyişə bilərikmi? Bu sual cinayətkarlığın araşdırılması zamanı böyük əhəmiyyət kəsb edir. Çünki cinayətin törədilməsi doğum anından başlayaraq alın yazısında yer almışdırsa, onda cinayətkara qarşı cəzanın tətbiq edilməsinin mənası yoxdur.

Hind fəlsəfəsində Dharman anlayışı vardır. Bu, kainatı və insanları idarə edən qanundur. Sadhana isə həyatın mənası və bu mənanın əvvəlcədən təyin olunmuş yolda təzahür etməsidir. Eyni zamanda hərəkət və reaksiya qanunu olan Karma da mövcuddur. Qədim yunanlar Olimpin sahibi olan Zevsdən də yuxarıda duran tanrıya tapınırdılar. Onlar Onu Zeus-Zen adlandırırdılar. Exil onu Taleyin üzərində hökmlü olan varlıq kimi təqdim edirdi. Qədim yəhudi Kabbalasında onu "Heçlik" adlandırırdılar. O bütün gözə görünməyən varlıqları idarə edən və ən yüksək nöqtədə yerləşən bir qüvvədir. Onun təsirinin gücü yüksəkliklərdən gəlir ki, bizim dünyamıza çata bilsin.

Bir sözlə, bütün qədim xalqlar intuitiv olaraq hiss edirdilər ki, hər şeyin, hətta tanrının üstündə dərk edilməz sirli bir tale prinsipi mövcuddur. O zaman tale nədir? Biz onu dəyişə bilərikmi? O zaman insana verilmiş iradə azadlığı nədədir? Həyat yolu ilə gedənlərdən kimin qanuna tabe olan vətəndaş, kiminsə cani olacağını necə anlamaq olar?

Antik dövrdə bütpərəstlərdə tale insan davranışlarının və hadisələrin əvvəlcədən təyin edilməsidir. Bütpərəstin taleyi əcəldir. İnsan isə taleyin oyuncağı, mövcud şəraitin köləsidir. Taledən qaçmaq, onu dəyişmək mümkün deyildir. Stoiklərin dediyi kimi, ona yalnız tabe olmaq lazımdır. Taleyin belə dərk edilməsi yalnız bir aspekti mütləqləşdirir ki, bu da insanın azad olmamasıdır.

Biz bu yanaşmanı metafiziklərdə də görürük. Onlar iddia edirlər ki, insan üzərində simaları olmayan güclər hakimdirlər və onların hökmünün qarşısı alınmazdır. Fərdə onun azad iradəsinin və seçim imkanlarının məhsulu kimi görünən hər bir hadisə əslində illüziyadır. İnsana məlum olmayan taleyinin elə bir xətti vardır ki, əcəl onu bu xəttin üzərində aparır. Əslində isə hər bir insan kiminsə sərhədsiz və güclü iradəsinin həyata keçirilməsi üçün yalnız bir vasitə və oyuncaqdır.

Dini düşüncədə taleyi teoloji determinasiya mənasında "Qəza və Qədər" də adlandırırlar. Burada insan həyatını idarə edən şər və ya simasız fiziki qanunlar deyil, Müdrik və Fəzilətli Yaradandır. Gördüyümüz kimi, din bütpərəstlik və ya təbii-elmi determinasiyadan fərqli olaraq Tanrı tərəfindən təyin edilən tale ideyasından çıxış edir. İnsan xeyir və şərin seçimində azaddır. Buna görə onun taleyi onun öz əlindədir. O, xeyirxah insan və ya cani ola bilər. Hər bir insan öz taleyini həyatı boyu formalaşdırır.

İslamda insan taleyinin özünəməxsus xüsusiyyəti vardır, bu, da onun mütləq olaraq Allah iradəsindən asılı olmasıdır. Allah istəsə insan fəzilət sahibi və ya cani olacaqdır. Cani olmamaq və cənnətə düşmək üçün nə etməli olduğunu insan əvvəldən bilmir. O zaman insan yalnız Allaha tabe olmaq məcburiyyətində qalır.

İstinad nöqtəsi o olmalıdır ki, onun nə olduğu bilinməsə belə hər kəsin öz taleyi vardır. Bununla belə, biz hər bir davranışımıza görə məsuliyyət daşıyırıq. Çünki mütləq alın yazısına inanan özünü həyatın axarına buraxır. Bunun isə nə ilə nəticələndiyi faktlarla ortaya qoyulur. Hər bir insana öz iradəsi, ritmi və

bacarığı ilə həyat yolunu getmək imkanı verilmişdir. Ancaq bu ritm və bacarığın necə olmasından asılı olmayaraq, o, kamilləşərək irəliyə doğru hərəkət etməlidir. Platon qeyd etmişdir ki, öz hərəkətlərinə görə insanlar özlərini deyil, taleyi, tanrıları və digər şeyləri təqsirli bilirlər. Onlar öz zəifliklərinə, acizliklərinə, xəstəliklərinə, qüsurlarına və ümumiyyətlə, çoxsaylı ağılsızlıqlarına görə məsuluyyəti taleyin üstünə atırlar. Cinayət əməli - tale deyil, iradənin zəifliyi və ya onun olmamasıdır. İradəli insan affekt halında olan zaman etdiklərini və digər xüsusiyyətləri istisna etməklə, prinsipcə istənilən şəraitdə öz maraqlarına zidd olan hərəkəti etməz.

**III. Cinayətkar davranışın psixologiyası və mənbəyi.** Darvinizm İlahi kitablarda təsbit olunan insanın Tanrı tərəfindən yaradılması ideyasına zidd olaraq insanın heyvanlar aləmi ilə olan ayrılmaz genetik bağlılığını göstərmiş və bəşəriyyətin heyvan növlərindən birindən təkmilləşərək ayrıldığını iddia etmişdir. Bu isə o deməkdir ki, bizim heyvan əcdadlarımızın bioloji mahiyyəti vardır.

Onların harmonik təkamül prosesi bioloji və sosial amillərin vəhdəti kimi təzahür etişdir. "*Ağıllı insan*" növünün yaranması yalnız bu növə məxsus xüsusi genetik proqramla həyata keçirilmişdir. Bu istiqamətdə insanı sosiallaşmış bir varlıq kimi adlandırmaq mümkündür. Beləliklə, insanın doğulmasından sonra bioloji amillər əsasında onun şüurunun formalaşması prosesi zamanı ona məxsus genetik proqram öz əhəmiyyətini itirmir, əksinə, münasib sosial şəraitdə yeni doğulan körpənin gələcək inkişafının hazırlığını təmin edən xüsusiyyətləri almış olur. Yəni insanın bioloji xüsusiyyətləri sosiallaşmış xarakter daşıyır. Ancaq bir canlı varlıq kimi insan yenə də əsas fundamental və bioloji qanunlara tabe olmağa davam edir. Buna görə o yer üzərində yaşayan bütün canlıların, o cümlədən heyvanların bəzi xüsusiyyətlərini özlərində daşıyır.

Beləliklə, elmin sübut etdiyi kimi insan inkişafı bioloji və

sosial amillərin qarşılıqlı münasibətlərinin dialektikasına əsaslanır, lakin onları mənimsəmir. Buna görə də təbii sual ortaya çıxır: Əgər belədirsə, *o zaman insanda bioloji, yoxsa sosial keyfiyyətlərdən hansı daha çoxdur* ?

Məlumdur ki, insanın və bəzi inkişaf etmiş heyvanların davranışlarında müəyyən qədər təcavüz komponentləri mövcuddur ki, bu da müəyyən qıcıqlandırıcı növlərə qarşı düşmənçiliklə, yaxud hücumla cavab vermək meylində özünü göstərir. Bu istiqamətdə D. Kruk qeyd edirdi: "*Təcavüzkar davranışa genetik baxış, şərtlənmiş ehtiyacın olmasına dair fərziyyələri təsdiqləmək üçün dəlillər ortaya qoymur*"[119]. Ancaq buna baxmayaraq məhz təcavüz cinayətin genetik təbiətinin əsas göstəricisidir. Eyni zamanda təbabətə görə insanın təcavüzkar davranışı psixikanın anadangəlmə mexanizmlərinə mütləq bağlı deyildir. Deməli, xüsusi dərmanlar vasitəsi ilə təcavüzkarlığı, emosiyaları zəiflətmək və ya artırmaq mümkündür. Cinayətkar davranışda bioloji amilləri qeyd etdikdə, bəziləri insanın fiziologiyasını, digərləri genetikanı, şəxsiyyətin fiziki və psixoloji xüsusiyyətlərini nəzərdə tuturdular. Bütün hallarda bu və ya digər insan xüsusiyyətləri və cinayətkar davranışları müxtəlif istiqamətlərdə təsvir edilir. Sonda belə nəticəyə gəlmək mümkündür ki, günümüzdə elmlərdən heç biri bir neçə minilliklər boyu verilən suala cavab vermək iqtidarında olmamışdır. İnsanı cinayətin törədilməsinə nə vadar edir, onun hansı bioloji xüsusiyyətləri cinayətkar və digər əməllərinin mənşəyində durur?

İnsana seçim azadlığı, o cümlədən qanuna zidd əməlin törədilməsi azadlığı verilsə, daha dəqiq desək, əgər insan öz təbiətinə görə cinayətkar və qanunauyğun davranışları asasında seçim imkanına malik olsa, öz gücü ilə təkbaşına bu xüsusiyyətlərin qarşısında dura bilərmi?

---

[119] *Крук Д.* The Nature and Function of Territorial Agression // Man and Agression. Oxford, 1968. P. 154.

Lakin bu fikirlərə qarşı əks mövqe olan fikirlər də mövcuddur. Məsələn, A.Şopenhauer insan təbiətini müsbət dəyərləndirərək onun bütün mənəvi qüsurlarının olmasında sivilizasiyanın günahkar olduğunu iddia edən J.J.Russo ilə polemika aparmışdır. Şopenhauer iddia edirdi ki, insan qorxulu vəhşi heyvana bənzəyir, onu nə mədəniyyət, nə də sivilizasiya əhliləşdirə bilməmişdir. Doğrudan da, şər insanı öz toruna salmaq və pisliyə təhrik etmək qabiliyyətinə malikdir. Əgər o bu qaranlıq qüvvənin təhrikinə uyarsa, azad iradəsini istifadə edə bilməyəcəkdir. Beləliklə, o, öz nəfsinin əsirinə, mövcud şəraitin quluna, tale ilə bağlı güclərin oyuncağına çeviriləcəkdir.

Ümumiyyətlə, xeyirxah, yaxud ziyankar insanın yaradılış mahiyyəti nədir? Hər şey ona yanaşmadan asılıdır. Bu baxımdan *təbii* insan özündə anadangəlmə xüsusiyyətləri və sonradan qazanılan qabiliyyətləri cəmləşdirir. Bəzən insan xeyirlə şər, cinayətlə qanunauyğun normal davranış arasındakı fərqləri görə bilmir. *Sosial* insan isə sonradan qazanılmış qabiliyyət və bacarıqların, psixi xüsusiyyətlərin, vərdişlərin, düşüncələrin, davranışların və s. toplusu kimi çıxış edir. Nəhayət, *mənəvi* insan özünün daxili aləminin dəyərini və təkrarolunmazlığını duyan şəxsiyyətdir. Yəni, insan anadangəlmə xüsusiyyətlərdən ibarət olan (təbii insan), müvafiq siyasi, əxlaqi, hüquqi keyfiyyətləri ilə fərqlənən (sosial insan), işarələr, mənalar, anlamlar aləmində istiqamətini bilən (mənəvi insan) sadə və çox mürəkkəb varlıqdır.

Bu xüsusiyyətlərin hər birinin insan danranışında nə kimi rolu vardır? Bu suala artıq psixologiya, biologiya, sosiologiya, təbabət və digər elmlər cavab verməyə çalışır. Bu sualın yaranmasında psixiatriya elmi böyük rol oynamışdır. Çünki bu elm sahəsinin mütəxəssisləri təkcə ruhi xəstələri müalicə etmir, həm də insan qüsurları və cinayətləri ilə məşğul olurlar.

Ç.Darvinin insanın təkamül nəticəsində yaranması haqqındakı bəyanatının səsləndirilməsindən sonra insan təbiətini təşkil edən xüsusi dəyişməz "substansiya" haqqındakı nəzəriyyə

öz əhəmiyyətini itirmişdir. Bununla əlaqədar olaraq E. Fromm qeyd etmişdir ki, "*insan təbiətindəki hər bir yeniliyi və ya problemi təkamül nəzəriyyəsindən hərəkətlə əsaslandırmaq lazımdır*"[120].

Təkamül nəzəriyyəsi psixoloqlara iddia etmək imkanı verdi ki, məhz bu elm ümumiyyətlə, insan davranışının, xüsusi ilə cinayətkar davranışın mənşələri haqqındaki tarixi suala cavab versin.

Bu nəticə ona əsaslanır ki, psixologiya insan davranışını hərəkətə gətirən mexanizmləri və onları yüksək nəticə əldə etməyə aparan məsələləri araşdırır. Məlum olduğu kimi, bu istiqamətdə çoxlu ixtiralar edilmiş, müxtəlif nəzəriyyələr formalaşmışdır. Buna baxmayaraq bu gün də insan davranışının mənşəyi haqqındakı suala cavab tapılmamışdır. Zənnimizcə, buna səbəb E. Frommun qeyd etdiyi kimi, "*İnsanın özü kamil bir varlıq deyil, o hələ də ziddiyətlərlə doludur. Bu istiqamətdə insanı öz inkişafının optimal yollarını axtaran bir canlı varlıq kimi adlandırmaq mümkündür. Bu əlverişli ətraf mühitin olmadığına görə tez-tez iflasa uğrayır*"[121].

Psixoloqların insanın təcavüzkar davranışı haqqında müxtəlif baxışları və yanaşmaları kriminalistlərin arasında cinayətkar davranışın səbəbləri haqqında müxtəlif fikirlərin ortaya çıxmasına gətirib çıxarmışdır. Bu istiqamətdə 1868-ci ildə cinayətkarların araşdırılmasına həsr olunan P. Despinin "Təbii psixologiya" əsəri işıq üzü görmüşdür. Faktlarla tanışlıq onu belə bir fikrə gətirmişdir ki, ağır çinayətlər törətmiş insanların xeyir və şərin, hətta vicdan əzabına gətirən cinayətkar istəklərin pislənməsi hissinin nə olması haqqında onların heç bir mənəvi duyğuları yoxdur.

Tanınmış fransız psixiatrı Marro XIX əsrin əvvəllərində

---

[120] *Фромм Э.* Анатомия человеческой деструктивности. М., 2012. С. 300.
[121] Göstərilən kitabda. C. 353.

belə bir qənaətə gəlmişdir ki, əlverişli ətraf mühitin vasitəsi ilə orqanizm inkişaf edir və irsiyyət yolu ilə getdikcə daha da kamil psixofiziki tipləri ortaya çıxarır. Əlverişsiz ətraf mühitdə isə hər şey əksinə baş verir, orqanizm geriləyir, funksiyalarını itirir və irsi ötürmə nəticəsində müxtəlif, getdikcə pozulan ağrılı tipləri ortaya çıxarır. Onların qüsurlu zövqləri, yönəlmələri və cazibələri olur. Bu kimi geriləyən tiplər insanlığın nəinki əqli və əxlaqi tərəqqisini təmin etmir, həm də əksinə, ona aparan yolda cəmiyyətin sağlam hissəsi ilə təmasa girdiyinə görə, ən böyük maneəyə çevirilir.

D.A.Dril qeyd etmişdir: "*Təcrübə göstərir ki, təxminən eyni olan şəraitdə iki insandan biri cinayəti törədir, digəri isə sağlamlığı, hətta həyatı bahasına olsa da, bu əməldən çəkinir. Görəsən, bu fərq nədən asılıdır? Məsələ burasındadır ki, birinci şəxsin xasiyyətində və xüsusilə onun psixofiziki quruluşunda mövcud zaman içində elə bir amillər var ki, onu cinayətə təhrik edir. İkincisinin xasiyyətində isə, əksinə, onu cinayətdən çəkindirən amillər vardır*"[122].

Bir qayda olaraq, cinayətin təbiətini araşdırmış psixiatrlar və həbsxana həkimləri bu hadisənin çox acınacaqlı xarakter daşıdığını qeyd etmişlər. Demək olar ki, onların hamısı bu hadisəni təsdiq edirlər. Onlar bir tərəfdən onun insan tipinin tənəzzülünun və mənəvi xəstəliyin təzahürləri ilə analogiyasını aşkar edirlər. Bunu edərək onlar cinayətkarlarda çoxlu psixi anomaliyaların olmasını ortaya çıxarırlar. Bunlar duyğuların səviyyəsinin aşağı düşməsi, eqoizm və mənəvi hissin olmamasından irəli gəlir.

Psixoanalizlə məşğul olan alimlər üçün düşüncə cinayət fenomeninin araşdırmasında istinad nöqtəsidir. Çünki məhz düşüncə insanı heyvanlardan ayıran əsas amildir. Buna görə də məhz düşüncədə insan xüsusiyyətinin səbəbi, yəni cinayətə meylli olması axtarılmalıdır.

---

[122] *Дриль Д.А.* Преступность и преступники… С. 59.

Psixologiyadakı hansı mexanizmlər insan davranışına təkanverici təsir edir və onlar maksimal nəticəyə çatmaqda necə istifadə edilə bilərlər müddəasından çıxış etsək, onda məhz psixoloqlar aşağıdakı suala cavab verməlidirlər: insan davranışının, o cümlədən cinayətkar davranışın mənşəyini harada axtarmalıyıq və hansı mexanizmlər bu davranışa təkan verir? İnstiktivistlərin nəzəriyyəsinə görə (Z. Freyd, K. Lorents, E. Fromm) insan öz keçmiş yaddaşı ilə yaşayır. Deməli, onun davranışı, o cümlədən cinayətkar, təcavüzkar, zorakı davranışı onun əcdadları ilə, yəni heyvanlarla əlaqəlidir. E. Fromm iddia edirdi ki, insanın əcdadı başqa canlılara, o cümlədən insanlara qarşı təcavüzkar refleksin daşıyıcısı olan yırtıcı heyvan olmuşdur. Deməli, insanın dağıdıcı tərəfinin genetik (anadangəlmə) mənşəyi vardır. Bununla da Freydin insan təbiəti ilə əlaqəli yanaşması təsdiqlənmiş olur[123]. Bununla əlaqədar tanınmış instinktivizm məktəbinin nümayəndələrinin insan davranışın, o cümlədən cinayətkar davranışın mənşəyi haqqında konsepsiyalara baxılması məqsədəuyğundur.

Bu problemə aydınlıq gətirmək üçün Z.Freydin yaradıcılığına müraciət etmək lazımdır. O, sevgi, nifrət, şöhrətpərəstlik, xəsislik, qısqanclıq və paxıllıq kimi insan nəfsinin və ehtirasın bütün tərəflərini araşdırmış ilk psixoloqlardan biridir[124]. Onun fikrincə, bütün bu xüsusiyyətlərin mənbəyi məhz şəhvəti duyğulardır. Freyd süni olaraq onları belə bir nəzəri sxemin içinə salmışdır. Orada onlara sublimasiya, ya da hər hansı bir formada seksuallığın reallaşması kimi əsaslandırılmışdır.

Qısa şəkildə desək, Freydin əsas nəzəri müddəası ondan ibarətdir ki, insan yalnız bir ehtirasın təsiri altındadır və bu, həm onun özünü, həm də digər insanları məhv edir. Bu problemdən

---

[123] *Фромм Э.* Göstərilən kitabda. C. 175.

[124] Bax: *Фрейд З.*: 1) Введение в психоанализ. СПб., 2012; 2) Психология бес сознательности. СПб., 2012.

çətin ki, kimsə qaça bilsin. Freydin bu nəticəsindən deyə bilərik ki, təcavüzün formalarından biri olan cinayət insan orqanizmdə daim potensial enerji kimi mövcuddur. O, insan təbiətinin bioloji və fizioloji qanunları ilə tənzimlənir.

Yəni insan elə bir varlıqdır ki, onda hər zaman təcavüzkar və cinayətkar enerji mövcud olur. Bəzən onu uzun müddət nəzarətdə saxlamaq mümkün olmur. Bu enerji ya faydalı işlər üçün sərf edilməlidir, ya da o özünü zorakılıqla müşaiyət edilən qətl, zorlama və s. bu kimi cinayətkar əməllər formasında göstərəcəkdir.

Buradan o qənaətə gəlinir ki, insanda anlaşılmayan qüvvələr mövcuddur və bunların rasional dərk edilməsi mümkünsüzdür. Bu da o deməkdir ki, cinayətkar davranışı əsasən şüuraltı səviyyələrdə olan psixi qüvvələr təyin edir. Buna görə davranışın, xüsusi ilə cinayətkar davranışın mənşəyini insanın özünü dərk etməsi vasitəsi ilə, şüuraltı şəhvəti hisslərin açılması yolunu tutaraq anlamaq mümkündür. Freyd səmimi olaraq insanı cinayətkar əməllərdən və şərdən çəkindirmək üçün yeganə vasitə olan ağıla inanırdı. Freydə görə özünüdərk nədir? Bu o deməkdir ki, insan şüuraltı olanları dərk edir.

Freyd bunun çox çətin proses olduğunu etiraf etmişdir. Çünki burada insan çox güclü müqavimətlə rastlaşır ki, o dərkedilməzin dərk edilməsinə mane olur. Onun fikrincə özünü dərk etmə insanın həm intellektual, həm də emosional baxımdan öz ruhunun ən gizli guşələrinə daxil ola bilməsidir.

Eyni zamanda, Freydin nəzəriyyəsi sosial mühit probleminə çox böyük əhəmiyyət vermişdir. Freydizmin aksiomasına görə, xəstənin inkişafında hər bir mənfi cəhət, ona erkən yaşlarında edilən mənfi təsirlərin nəticəsidir. Bu səbəbdən insanda mənfi psixoloji problemlərin səbəblərini onun tərbiyəsində və inkişafında axtarmaq lazımdır. Eyni zamanda, bu o deməkdir ki, cinayətkar davranışın mənşələri genetik baxımdan bir-biri ilə bağlı deyildir.

Sələfləri ilə müqayisədə Freydin baxışlarındakı ən böyük irəlləyiş ondan ibarətdir ki, o bütün “şəhvəti” iki kateqoriyaya bölmüşdür. Bunlar özünü qoruma və seksuallıq instinktləridir. Məhz buna görə Freydin nəzəriyyəsi instinktlər haqqındakı təlimin inkişaf tarixinin sonuncu pilləsi hesab edilə bilər.

Freyd şüurun qəbul etmədiyi psixi proseslərin kəşf edilməsini özünün ən böyük nailiyyəti hesab etmişdir. Bəs o zaman Freydə görə “Şüuraltı” nədir? “Şüuraltı” şüurun nəzarətindən kənarda gedən dərin psixi proseslər sahəsidir. Onlar müsbət və dağıdıcı xarakterli müxtəlif təzahürlərlə insanın sosial davranışında və mənəvi fəaliyyətində, bəzən isə cinayət formasında özünü göstərə bilər. Freydin psixoanalitik konsepsiyası cinayətin motivasiyalı zəminlərinin psixoloji və kriminoloji təhlili üçün hər hansı bir əhəmiyyət kəsb edirmi? Hər halda biz inkar edə bilmərik ki, Freyd bu müddəanı əsaslandırmağa müvəffəq olmuşdur. Bu da ondan ibarətdir ki, hər dəfə cinayətin rasional, anlaşılan motivlərindən başqa, həm də dərində yatan və düşünülməyən tərəfləri mövcuddur. Onlar kriminal təşəbbüslərin gizli, ancaq çox əhəmiyyətli təkanvericisi ola bilər. Bu bir çox məqsədsiz törədilən cinayətlərin olması ilə özünü göstərir, hətta bu problemlər viktimologiya (cinayətin qurbanı olma prosesini öyrənən elm) adlanan elmlə təsdiq olunmaqdadır. “Şüuraltı” normativ çərvivələrə salınması ilə kəskinliyini aradan qaldırmaq mümkündürmü? Yəni “Şüuraltı” özünü cinayət formasında əks etdirə bilərmi? Burada Freyd iki əsas vasitəyə işarə edir. Birincisi, instinktiv-seksual enerjinin sosial fəaliyyətə keçməsi (transformasiya olması) metodu kimi təqdim olunan *sublimasiyadır*. Bu nəticə belə bir müddəadan irəli gəlir ki, cəmiyyətdə insan fəaliyyətinin ən əhəmiyyətli aparıcısı seksual enerji olan *libidodur*. Bu enerji özünə çıxış tapmayanda, yəni sərf olunmayanda insan ya cani, ya da psixi xəstə olur.

Bəs həbsxanalarda uzun müddət cəzalandırılan və öz bioloji-təbii seksual tələbatlarını ödəyə bilməyənlərlə nə

etməlidirlər? Onlar ya əxlaqsızlıqla məşğul olmalı, ya da öz tələbatlarını təbii olmayan vasitələrlə ödəməlidirlər. Ancaq Freydin nəzəriyyəsindən çıxış edərək başqa bir yol da təklif etmək mümkündür. Bu da enerjinin sərf olunması üçün ağır şəraitlə müşaiyət edilən gərgin fiziki əməklə məşğul olmaqdır.

İkincisi, psixoterapevtik vasitələr sistemi olan psixoanalizin xüsusi olaraq işlənmiş metodikasıdır. Alman-amerikan psixososioloqu Karen Harni hesab edirdi ki, Z.Freydin klassik psixoanalizi bütün nevrozların səbəblərini seksual anomallıqlarla izah edərək özünün dar çərçivəli olduğunu ortaya qoyur.

Beləliklə, Freydin konsepsiyasına və neofreydçilərə görə, təcavüzkar davranış, o cümlədən cinayətkar davranışlar reallaşmış və "şüuraltı" sahəsində olan anadangəlmə şəhvətlərin çırpıntısı kimi ortaya çıxır. Bu barədə amerikan sosioloqu E. Şur qeyd etmişdir: "*Bəzi psixoanalitiklərin arasında cinayət haqqında yayılmış fikirə görə bizim hər birimiz ruhu səviyyədə canilərik*"[125].

K.Lorents "Şər adlanan" (1963) kitabında sübut etməyə çalışmışdır ki, insanın zor və şər işlətmək istəyinin nəzarətdə saxlanması imkansız bioloji amillərlə şərtlənmişdir. Təcavüz və şərin özlərini ifadə etməsi daxili gərginlikdir. Onlar öz ifadəsini müvafiq xarici qıcıqlandırıcı amillərdən asılı olmayaraq tapır.

İnstinktiv hərəkətlər üçün vacib olan xüsusi enerji sinir sistemi mərkəzlərində toplanır. Onun miqdarı müəyyən həddə gəlib çatanda, hətta hər hansı bir qıcıqlandırıcılar olmasa belə, partlayış halında ortaya çıxa bilər.

İnsanın cinayətkar davranışının mənşəyi haqqındakı məsələdə Lorentsin konsepsiyasından hansı nəticələrə gəlmək mümkündür?

Birincisi, Lorentsə görə insanın cinayətkar davranışı xarici qıcıqlandırıcı amillərə qarşı reaksiya deyildir. Məsələn, insan hər hansı səbəb və ya motivlər olmadan kimisə öldürürsə, deməli bu

---

[125] *Шур Э.* Наше преступное общество. М., 1977. С. 100.

əməl nə vaxtsa baş verməli idi. Ancaq təcrübə onu göstərir ki, zorakılıqla müşaiyət edilən cinayətlərin bir çoxu məhz qıcıqlandırıcı amillərin təsiri altında törədilmişdir.

İkincisi, bu konsepsiyaya görə cinayət, belə demək mümkündürsə, enerji gərginliyinin xilaskarıdır. Əslində cani və zərər çəkən arasındakı gərginliyin uzun müddət formalaşması nəticəsində cinayət törədilir. Məişət zəminində baş verən cinayətlərdə ailə üzvləri və ya qonşular arasındakı münasibətlər gərginlik həddini aşanda belə hallara tez-tez rast gəlinir. Deməli, kiçik bir qıcıqlandırıcının olması və instiktin işə düşməsi nəticəsində partlayış baş verir.

Lorentsə görə insan qətli bu anda törətməsə belə, o, bunu digər insanlara qarşı və digər yerdə edəcəkdir. Ancaq bu vəziyyətdə olan və müxtəlif səbəblər üzündən öz təcavüzkar davranışını reallaşdırmayan insan vaxtaşırı sakitləşir və zorakılığa yol vermir.

Üçüncüsü, insanın cinayətkar davranışını, onun anadangəlmə xüsusiyyətini dərk etmək o deməkdir ki, insan təcavüzkarlığının bu növü ilə mübarizə aparmağın heç bir mənası yoxdur. Digər tərəfdən, onun nəzəriyyəsi şəxsiyyətin strukturunun, eləcə də, cinayətkarlığın yaranması və inkişafında rol oynayan ictimai və fərdi amillərin dərkinə mane olur.

K.Lorents qətllərin, zorlamaların və digər zorakılıqla müşaiyət edilən insan əməllərinin azalması üçün nə təklif edir? O, bu sualı belə cavablandırır: *"Faustdan fərqli olaraq mən insanların özlərini yaxşı tərəfə necə dəyişə biləcəklərini onlara öyrədə bilərəm. Mənə elə gəlir ki, burada öz imkanlarımı doğru qiymətləndirirəm"*[126].

***Birinci tövsiyyə*** - özünü dərk etməkdir: "*Biz öz davranışımızın səbəb-nəticə bağlantılarından ortaya çıxan*

---

[126] *Лоренц К.* Так называемое зло, 1963. С. 393.

*biliyimizi dərinləşdirməliyik*"[127]. Yəni burada təkamül qanunları nəzərdə tutulur. Bəzən bununla razılaşmamaq mümkün deyildir. Çünki insan davranışının, o cümlədən cinayətkar davranışın sirlərinin açılması ilə əlaqəli bütün problemlər, bilavasitə bizim insan təbiəti haqqında biliyimizin yetərli olmamasından irəli gəlir.

***İkinci tövsiyyə*** - sublimasiya adlandırılan anlayışın psixoanaliz metodu ilə tədqiq edilməsidir[128]. Bilindiyi kimi (biz bu barədə artıq danışmışıq), Z.Freyd bu problemi dərindən araşdırmışdır.

***Üçüncü tövsiyyə*** - müxtəlif millətlər və partiyalardan olan insanların şəxsi tanışlığıdır[129]. Bunun üçün sonsuz misallar gətirmək mümkündür ki, məhz uzun müddətli tanışlıq və dostluqdan sonra milli mənsubiyyətlərindən asılı olmayaraq, insanlar bir-birlərinə qarşı zorakılıq əməllərini törətmişlər. Məsələn, onilliklər boyu SSRİ-də birlikdə yaşayan Axıska türkləri və özbəklər bu ölkənin dağılma ərəfəsində bir-birlərinə qarşı ağılasığmaz zorakılıqlar etdilər. Həmin hadisələr Qarabağ münaqişəsində azərbaycanlılarla ermənilər arasında da baş vermişdir.

***Dördüncü tövsiyyə*** - "*Müasir dünyada gənclərə həqiqi məqsədlərə nail olmaq üçün yardımçı olmaq lazımdır ki, onlar həyatın mənasını dərk etsinlər*"[130]. Bu da artıq dövlətin sosial siyasətinin tərkib hissəsidir. Lorentsin özü insanın cinayətkar davranışını anadangəlmə xüsusiyyətlərlə əlaqələndirsə, o zaman bu tövsiyyə əvvəlki tövsiyyələr kimi faydalı olacaqdırmı?

Beləliklə, həm Z.Freyd, həm də K. Lorents hər ikisi müxtəlif yollarla eyni fikirə gəlmişlər. İnsan daim artan təcavüzkar-dağıdıcı enerji daşıyıcısı olan bir varlıqdır. Bu enerji də uzun müddət mövcud ola bilməz.

---

[127] Göstərilən kitabda. C. 374.
[128] Göstərilən kitabda. C. 394.
[129] Göstərilən kitabda. C. 399.
[130] Göstərilən kitabda. C. 401.

"*Dağıdıcılıq və qəddarlıq instinktiv həvəslər deyil, ehtiraslardır. Onlar öz kökləri ilə insan varlığının tamlıq strukturuna qədər uzanır*"[131] - tezisini daha bir tanınmış psixoloq E. Fromm irəli sürmüşdür. O, insan ehtiraslarını tamlıq təşkil edən orqanizmin həyat prosesindəki funksiyaları ilə əlaqədə araşdırmışdır. Onun fikrincə, onların intensivliyi xüsusi fizioloji tələbatlarda deyil, tamlıq təşkil edən orqanizmin cismani və mənəvi mənada yaşamaq və inkişaf etmək tələbatlarindadır[132].

Psixoloq sübut etməyə çalışır ki, təcavüzkarlığın forması olan cinayət nə bioliji amil, nə də kortəbii yaranan impulslardır. Onlar müxtəlif sosial şəraitin və insanın ekzistensial tələbatlarının qarşılıqlı təsirinin nəticəsidir.

E.Fromma görə aşağıdakı təcavüz növləri mövcuddur. Bunalar həyatın qorunmasına yardımçı bioloji cəhətdən adaptiv, müsbət xassəli (misal üçün, insan özünümüdafiə məqsədi ilə ona hücum edəni öldürəndə) və həyatın qorunması ilə bağlı olmayan bədxassəli təcavüzlərdir. Bioloji baxımdan adaptiv təcavüz fərdin həyatı təhlükəsinə qarşı bir reaksiyadır. Bu, filigenezdə yer almışdır. Bu insan və heyvanlarda mövcuddur. Eyni zamanda aqresiv xarakter daşıyır və təhlükəyə qarşı instinktiv ortaya çıxır. Nəticəsi isə bu təhlükənin və ya onun səbəblərinin ortadan qaldırılmasndan irəli gəlir. Bədxasəli aqressivliyin təməlində isə instinkt deyil, hər hansı insan potensialı durur. Onun kökləri isə insanın varlığından qaynaqlanır[133].

Nəhayət, bu tezisdən belə bir nəticə çıxır ki, cinayəti bədxassəli təcavüz növünə aid etmək lazımdır. Lakin o anadangəlmə olmadığına görə, onu islaholunmaz hesab etmək olmaz.

Bu baxımdan cinayət elə bir insan potensialıdır ki, ondan

---

[131] *Фромм Э.* Göstərilən kitabda. C. 109.
[132] Göstərilən kitabda. C. 23.
[133] Göstərilən kitabda. C. 255–256.

asanlıqla azad olmaq mümkündür. Ancaq bunun yolu nədir? E. Fromm hesab edir ki, məhz xarakter əsas məqsədlərə uyğun olan davranışın seçimini təyin edir. Bu da o deməkdir ki, biz xarakterin hansısa xüsusiyyətinə görə "*İnsanın daha çox ehtimal olunan davranışını əvvəlcədən görə bilərik. Daha doğrusu, o, özünü verilən imkanlar daxilində necə aparmaq istəyəcəkdir*"[134].

Ehtimal etmək mümkündür ki, məhz xarakterin xüsusiyyəti insanı öz xasiyyətinə uyğun davranmağa vadar edir. Bu da cinayətkar davranışın mənşəyinin insanın xasiyyətindən irəli gəldiyini göstərir. O zaman E. Fromma görə xarakter nədir?

E.Fromm qeyd edirdi: "*Xarakter insanı sosial və təbii aləmlə bağlayan butun instinktiv olmayan həvəslərin (meyl və maraqların) nisbətən sabit sistemidir. Bu - insanın ikinci təbiətidir*"[135]. E. Fromm hesab edir ki, Lorentsin və digər tədqiqatçıların yanlışlığı ondan ibarətdir ki, onlar iki növ həvəsləri - instinktlərlə şərtlənənləri və xarakterlə təyin olunanları - qarışıq salmışdırlar[136]. Maraqlıdar ki, Fromm xarakterin bütün xüsusiyyətlərini ya seksual köklərlə, ya da qeyri-seksual affektlərlə əlaqələndirir. Beləliklə, E. Fromm cinayətin, daha doğrusu cinayətkar davranışın səbəblərini insan xasiyyətində axtarmağı tövsiyyə edir. Bu xasiyyətdə qarşıda qoyulan məqsədlərə çatmağa yönəlmiş insan enerjisi təşəkkül tapmışdır. Davranışın seçimi isə xasiyyətlə təyin olunur.

Eyni zamanda, bir çox psixoloqlar tərəfindən qəbul edilən *flrustrasiya* nəzəriyyəsi də mövcuddur. Onu bu və ya digər tələbatları ödəmək imkansızlığı ilə şərtlənən mənfi psixi vəziyyət kimi müəyyənləşdirirlər. Bu vəziyyət nigarançılıq, məyusluq, narahatlıq, əsəbilik və nəhayət çarəsizlikdə təzahür edir. Bu nəzəriyyənin ən parlaq nümayəndələrindən olan C. Dollard ona

---

[134] Göstərilən kitabda. C. 119.
[135] Göstərilən kitabda. C. 310.
[136] Göstərilən kitabda. C. 109.

belə tərif verir: "*Təcavüzkar davranışın yaranması flustrasiyanın olması ilə şərtlənmişdir və əksinə, flustrasiyanın olması hər zaman hər hansı təcavüzkarlığın formasını ortaya çıxarır*"[137].

Əslində bu və ya digər tələbatların ödənilməsinin imkansızlığlı insanı təcavüzkarlığa təhrik edə bilər. Lakin bu o demək deyil ki, bu təcavüzkarlığın nəticəsində mütləq olaraq hansısa qətl, zorlama və s. kimi zorakılıqla müşaiyət edilən cinayət törədiləcəkdir. Hər şey insanın düşdüyü şəraitdən və müvafiq vəziyyətdən asılıdır.

"Şüuraltının" cinayətin əsas amillərindən biri kimi qəbul edilməsini həm A. Şopenhauerin, həm də F. Nitsşenin əsərlərində müşahidə etmək olmaz.

İnsanın ilkin günahı haqqında təsəvvürlər cinayətkar insan konsepsiyanın formalaşması üçün zəmin yaratmışdır. Ç.Lambrozo və digər alimlər tərəfindən irəli sürülən antropoloji model insana əsasən bioloji və psixoloji varlıq kimi baxırdı. Məhbuslar üzərində öz orjinal araşdırmalarını aparan Lambrozonun əməkdaşı, psixiatr və həbsxana həkimi Marro özünün çox qiymətli əsərində ("I caratteri dei delinquenti", 1887-ci il) "*Cinayətin etiologiyasında xəstə irsiyyəti*" təsirinin daha çox əhəmiyyət kəsb etməsi haqqında yazmışdır. Burada Marronun fiziki və psixiki keyfiyyətlərinin irsiyyətlə keçməsi məsələsində, uşağın ana bətnində əmələ gəlməsi anında, ata-ananın yaşına diqqət yetirməsi böyük maraq doğurur. O iddia etmişdir ki, hər bir yaşın öz fiziki və psixiki xüsusiyyətləri vardır. Bu da cinayətin törədilməsinə təsir edir. Burada qeyd etmək yerinə düşərdi ki, psixiloji determinizmə E. Saterlend, D.Mts, T.Sayks və digər amerikan sosial psixoloqları tərəfindən hazırlanmış bir çox sosial-psixoloji nəzəriyyələrdə də rast gəlmək mümkündür.

Beləliklə, müasir psixologiyanın nəticələri insanın

---

[137] *Dollard Y.* et al. Frustration and Agression. New Haven: Yale Univ. Press, 1939.

cinayətkar davranışının səbəblərini dəqiqliklə və aydınlıqla aça bilmir. Çünki həyat göstərir ki, planetin əhalisinin əksəriyyəti öz təcavüzkar emosiyalarını cilovlaya və onları aradan qaldıra bilirlər.

Əlbəttə, biz insanın bütün əməllərini, o cümlədən cinayətkar hərəkətlərini və psixiki proseslərini yalnız insanın yaradılışı və təkamülü ilə bağlı məsələlərlə aydınlıq gətirə bilmərik. Bununla belə, bəzi insanlar günümüzdə tamahkarlıq və fırıldaqçılıq, yalan, zorakılıq və hətta qətl kimi çirkin hərəkətləri "insanın təbiəti ilə" izah etməyə cəhd edirlər[138].

Ümumiyyətlə, insan özü özünü dərk edə bilərmi? Təəssüf ki, nə Freyd, nə Lorents, nə də Fromm bu suala cavab tapa bilməmişdirlər. Onlar yalnız "özünü dərketmə deyəndə nə nəzərdə tutulur?" sualına cavab vermişlər. Məsələn, Lorents iddia etmişdir ki, bu təkamül faktları, xüsusən də təcavüzkarlığın instinktiv kökləri haqqında nəzəri bilikdir. Prinsipcə, insanın mahiyyəti və təbiəti ilə fəlsəfə və din məşğul olur. Bizi bu problem insanın cinayətkar davranışının səbəblərinin bioloji, psixoloji və ya sosial sahələrdə axtarılmasında yardımçı olacaq qədər maraqlandırır. Darvinin təkamül nəzəriyyəsi Tanrının uca yaradıcı kimi obrazını dağıtdıqdan sonra ona qüdrətli ata kimi inam hissini də zəiflətmişdir. Bəziləri isə Darvinin nəzəriyyəsini qəbul etməklə, Tanrıya olan inam hissini də qoruyub saxlaya bilmişlər. İnsanın təkamül nəticəsində yaranması ideyası bərqərar olunandan sonra, insan təbiətini təşkil edən xüsusi, dəyişməz substansiya haqqındakı konsepsiya iflasa uğramışdır. Deməli, insan, onun mahiyyəti və davranışlarının səbəbləri haqqında biliklərin dərinləşdirilməsi, təkamül nəzəriyyəsinə əsaslanan insan təbiəti sahəsində yeni ixtiralarla bağlı olmuşdur.

E.Fromm yazmışdır: "...insan heyvanlardan məhz onunla fərqlənir ki, o qatildir. O primatlar növündən olan yeganə

[138] *Фромм Э.* Göstərilən kitabda. C. 300.

nümayəndədir ki, heç bir bioloji və iqtisadi səbəblər olmadan öz həmqəbilələrini öldürür və bundan rahatlıq tapır”. Bu da bioloji baxımdan anomal və filogenetik cəhətdən proqramlaşdırılmayan “bədxassəli” təcavüz olaraq, insan cinsinin gələcəkdə yaşaması üçün təhlükə törədən əsl problemə çevirilmişdir[139].

Maraqlıdır ki, bütün tədqiqatçılar vahid bir nəticəyə gəlmişlər ki, canlı aləmin inkişaf səviyyəsi yüksək olduqca, onun həyatında sərt, davranışın əsirinə çevrilmiş filogenetik modellər daha az rol oynayır. Ancaq biz onun da şahidi oluruq ki, yüksək insan inkişafına nail olmuş cəmiyyət, ən geniş mənada desək, cinayətkar davranışda qəddarlığın səviyyəsinin azalmasını təmin edə bilmir. Əgər instinktlər nəzəriyyəsinə istinad edilsə, onda deyə bilərik ki, insan öz cinayətkar əməllərinə görə məsuliyyət daşımır. Çünki onun davranışı instinktlərlə idarə olunur və azad deyildir. Onda nə üçün insanların əksəriyyəti qətl, zorakılıq və s. əməllər törətmir? Bəlkə insanda cinayətkarlığın qarşısını alan antitəcavüz instinkti də vardır? Doğrudanmı insanda cinayətkar davranışa qarşı daxili maneələr yoxdur?

Məsələn, K.Lorents hesab etmişdir ki, yırtıcı heyvandan fərqli olaraq insanda özünə bənzərlərin öldürülməsinə qarşı heç bir instinktiv maneələr yoxdur. E.Fromma görə, isə əksinə, insanda daxili “öldürmə!” hissi vardır və qətl hadisəsi baş verən zaman bu hiss insanda daxili vicdan əzabını canlandırır, hansı ki, buna dair çoxlu dəlillər vardır[140].

Həqiqət ondadır ki, insanın öz nəfsini cilovlaması imkanı təkcə daxili amillərdən deyil, həm də həyatın müvafiq vəziyyətlərindən, o cümlədən qətlin motivindən asılıdır.

İnsanın cinayətkar davranışın mənbəyinin izahında instinktivizmə əks mövqeyi qeyd edənlər mühit nəzəriyyəsinin nümayəndələridir. Onların fikrincə, insanın cinayətkar davranışı

---

[139] Göstərilən kitabda. C. 17.

[140] Göstərilən kitabda. C. 168.

yalnız sosial mühitin təsiri altında formalaşır, yəni "anadangəlmə" deyil, sosial, mədəni, xarici faktorlardan asılıdır. Bu nəzəriyyənin fəlsəfi başlanğıcı bundan ibarətdir ki, insan xeyirli və ağıllı doğulur. Onda cinayətkar meyllər yaranırsa, bunun səbəbi mənfi şərait, pis tərbiyə və xarici amillərdir.

Şəxsiyyətin formalaşmasında ətraf mühitin təsiri danılmazdır. Mühitin şəxsiyyətə təsirinə aid ən sadə misal- beynin inkişafına ətraf mühitin birbaşa təsiridir. Belə ki, B. F. Skinner hesab etmişdir ki, genetik göstəricilərə baxmayaraq davranış tam olaraq təşviqlərdən asılıdır. Onlar iki yolla əmələ gəlir, ya normal mədəni proses nəticəsində, ya da əvvəlcədən cızılmış plan üzrə inkişaf edir[141].

O zaman deyə bilərik ki, pozitiv stimulların düzgün tətbiq edilməsi yolu ilə insan davranışını, yəni cinayətkar əməlləri müəyyən dərəcədə xeyirxah əməllərə doğru dəyişmək mümkündür. Cinayətkarlığa son qoymanın yolu, Skinnerin fikrincə, daha kamil, elmi cəhətdən əsaslandırılmış ictimai quruluşun yaradılmasından aslıdır. Çünki insan cəmiyyətin təsiri altında formalaşır və insan "təbiətində" elə bir şey yoxdur ki, cəmiyyətin nizamına prinsipial olaraq mane ola bilsin.

Əslində hər bir insan müəyyən mühitin təriri altında əxlaq haqqındakı təsəvvürlərinə, müsbət şəxsi keyfiyyətlərinə, eləcə də bütün sosial prinsiplərə, dəyərlərə, normalara zidd cinayətkar davranış ortaya qoya bilər. O, tez-tez nifrətindən, saddizmindən, eqoizmindən, tamahkarlığından irəli gələn hissinə görə hər şeyi qurban verə bilər. Buna görə insan davranışını yalnız tərbiyə və təhsilin təsiri ilə, daha doğrusu Skinnerin sözləri ilə desək, təşviqlərin aşılanması ilə dəyişmək mümkündür.

Ətraf-mühit nəzəriyyəsi çox vacib olan sualları açıq saxlayır: bütün insan imkanlarının inkişafı üçün bizi əhatə edən

---

[141] Bax: The Design of Cultures // Daedalus. Cambridge, 1961. P. 534–546 (American Association for the Advancement of Science).

şəraitə nəyi əlavə etməliyik? Ədalətli cəmiyyət qətl, zorakılıq və digər cinayətkar davranışlardan uzaq olan normal insanı formalaşdırmağa qadirdimi?

**IV. Genetika və cinayətkar davranış.** Şübhəsiz, insan davranışının səbəblərinin izah edilməsində genetika elmi böyük töhvələr vermişdir.

Bu elmin müasir nailiyyətlərinə görə insanın bir çox xəstəlikləri ya bilavasitə irsiyyətlə keçir, ya da onlara meyilli olmaq amili ilə ötürülür. İrsi əlamətlər ata-anadan uşaqlara cinsi hüceyrələr vasitəsi ötürülür. Məşhur genetik N. P. Dubinin qeyd etmişdir: "*İnsanın bioloji xüsusiyyətlərinin sosiallaşmış xarakterini etiraf edərkən, nəzərdən qaçırmaq olmaz ki, o, həm də canlı kimi fundamental bioloji qanunlara tabe olur və bununla da Yer üzərində yaşayan bütün canlılara məxsus xüsusiyyətlərə malikdir*"[142].

Genetika - irsiyyət qanunu və orqanizmlərin dəyişkənliyi haqqında elmdir. İnsanda bioloji başlanqıc onun həyat fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. İctimai varlıq olan insan üçün bioloji başlanğıc onun fövqəl bioloji xüsusiyətlərinin inkişafının zəruri şərtidir. Əsas sual bundan ibarətdir: insan davranışının, o cümlədən, cinayətkar əməlləri orqanizmin irsi xüsusiyətləri ilə hər hansı əlaqəsi vardırmı?

Qeyd edək ki, hər bir insan genetik baxımdan unikaldır: anatomik, biokimyəvi, fizioloji cəhətlərinə və temperamentlərinə görə bənzərsizdirlər. Onun genetik surəti nə indi, nə tarixi keçmişdə, nə də gələcəkdə olmamış və olmayacaqdır. Hətta eyni yumurtacıqlı əkizlər öz somatik mutasiyaların yığımı baxımından bir-birindən fərqlidirlər. Buna görə də insanın cinayətkar davranışının səbəblərinin və mexanizmlərinin təyin edilməsində bunu nəzərə almaq lazımdır.

---

[142] *Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н.* Генетика. Поведение. От ветственность. М., 1982. С. 14.

Genetikanın irsiyyət haqqında bir elm kimi nəticəsi qısa şəkildə aşağıdakılardan ibarətdir. Ağıllı insanın düşüncələri və təfəkkürü anadangəlmə və genetik baxımdan proqramlaşdırılmış olsaydı, o sonsuz sosial tərəqqiyə addımlamağı bacaran düşüncəli və fəaliyyətdə olan bir varlıq kimi rolunu icra edə bilməzdi. Buna baxmayaraq, elmə bir sıra faktlar məlumdur ki, onlar psixoloji çatışmazlıq, cinayətkarlıq və s. kimi insan fenomenlərinin ortaya çıxmasının səbəbi kimi özlərini göstərməkdədirlər[143].

Ancaq bu o demək deyildir ki, insan davranışı yalnız heyvanların davranışlarının nümunələri ilə izah edilməlidir. Çünki mədəniyyətin birinci dərəcəli amil kimi çıxış etməsi insanı unikal bioloji varlıq kimi ortaya çıxarır. F. Engels yazırdı: "*İnsanın heyvanlardan yaranması faktı o deməkdir ki, o, tam olaraq heyvanlara məxsus olan xüsusiyyətlərdən azad ola bilməmişdir. Yəni söhbət yalnız insanlarda bu xüsusiyyətlərin az və ya çox olmasından və heyvani ilə insani xüsusiyyətlərin müxtəlif dərəcədə olmasından gedə bilər*"[144].

Qeyd etmək lazımdır ki, bioloji başlanğıc tək və mütləq genetik vasitə deyildir. İnsanın bioloji tərəfi onun həm bədəninin quruluşu, həm daxili orqanlarının funksiyaları, həm də sağlamlıq və xəstəliklərini əhatə edir. Buna görə bioloji başlanğıcın insan davranışı, o cümlədən cinayətkar davranış ilə əlaqəsi doğrudan da insanın irsi xüsusiyyətlərinin rolundan daha əhatəlidir.

Araşdırılan problemlə əlaqədar çox maraqlı sual yaranır: qrupların və irqlərin davranışlarının fərqliliklərini genetik xüsusiyyətlərlə izah etmək mümkündürmü? Axı genetika doğrudan da insan davranışında əhəmiyyətli rol oynayırsa, onda təbii olaraq o bütün irqlərin, qəbilələrin və s. davranışlarına təsir edir. Yəni, etiraf edilsə ki, insan davranışına genetik xüsusiyyətlər

---

[143] Bax: *Пастуший С.А.* Философия и современная биология. М., 1973.С. 195.

[144] *Маркс К., Энгельс Ф.* Соч., 2-е изд. Т. 20. С. 102.

təsir edir, onda belə bir sual ortaya çıxır: müxtəlif xalqların genetik xüsusiyyətləri fərqlidir, yaxud eynidir?

Ən azı bu gün elm bu suala birmənalı cavab vermir. Digər sual belədir ki, tarixi inkişaf prosesində xalqın genofondu dəyişikliklərə məruz qalırmı? Bu suala araşdırdığımız məsələnin nöqteyi-nəzərindən cavab versək, onda qeyd etmək lazımdır ki, son 20 il ərzində Azərbaycanda cinayətkarlığın sayı az da olsa artmışdır. Lakin bu, o demək deyil ki, ötən müddət ərzində bizim millətin genofondu dəyişmiş və "cinayətkar nəsillərin" sayı artmışdır. Çox güman ki, bu cəmiyyətin həyatında iqtisadi, sosial, siyasi, psixoloji şəraitin dəyişməsi ilə əlaqədardır. Bütün bunlar da insan davranışına ciddi təsir göstərir.

Müasir genetika yeni insanın formalaşması haqqında düşüncələrə gətirib çıxarır. Doğrudan da, əgər insanın bütün həyatı onun genləri tərəfindən təyin olunursa, onda yeni insanı formalaşdırmaq üçün insanların genetik xüsusiyyətlərinin dəyişdirilməsi tələb olunur. Deməli, cinayətkar insan davranışının genetik səbəblərdən ortaya çıxması və irsiyyətlə bağlı olması sübuta yetirilsə, onda tibbi müdaxilə yolu ilə insanın şər və cinayətkar əməllər törətməməsi üçün bu genlərin dəyişdirilməsi zərurəti yaranacaqdır. Bu halda insan təkrar cinayət törətməyəcəkdir. Bəs o zaman potensial cinayətkarlarla nə etməli? Məsələn, F.Krik təklif etmişdir ki, insanı genetik yoxlamadan keçirdikdən sonra qəbul etmək lazımdır. Belə yoxlamalara tab gətirə bilməyən körpələr yaşamaq hüququndan məhrum edilməlidir.

Romanların birində cərrah-genetik göstərmişdir: *"Ola bilsin ki, gələcəkdə insanlar cinayətkarın bütün orqanizmini deyil, yalnız onu cinayətkar edən tərəfini məhv edəcək, bunu da humanist addım kimi dəyərləndirəcəklər... mən burada həmən o həyat kodu olan yazını nəzərdə tuturam ki, o, insanda insanlığa sığmayan meylləri aktivləşdirir".* Sonra o, cinayətkara müraciət edərək deyir: "*Mən yalnız sizin üzünüzün bəzi cizgilərini və gözlərinizin*

*rəngini deyil, həm də cinayətkar düşüncələrinizi dəyişdirəcəyəm. Hətta mən sizin nüvə əsasınızı belə dəyişəcəyəm*”[145].

Əlbəttə, əgər yeni doğulan körpənin gələcəkdə hansısa ciddi xəstəliklərə səbəb ola biləcək genetik xüsusiyyətləri aşkar olunarsa, onda tibbi-genetik müdaxiləni məqbul qəbul etmək olar. Lakin gələcəkdə insanın cinayətkar davranışını irsiyyət əlamətlərinin genetik kodu ilə təyin etmək və bunun əsasında cərrahiyə metodlarını tətbiq etmək həm etik baxımdan doğru olmaz, həm də insan səhhəti üçün təhlükəli ola bilər.

Genetika elminin bu məsələ ilə məşğul olmasından əvvəl insanın quruluşunda “onu” tapmaq lazımdır, hansı ki, o, insanı cinayətkar edir. Buna baxmayaraq insan təbiətini tibbi-bioloji üsullarla “dəyişdirməyin” mümkünlüyü və ya imkansızlığı barəsində problem günümüzdə də vardır.

Bəzən belə bir fikrə də rast gəlmək olur ki, guya genetiklərin uğurları insan seleksiyası yolu ilə yüksək irqlərin yaradılması üçün elmi əsas hazırlayır. Belə ki, Nobel mükafatı laureatı olan Q. Möller 1929-cu ildən başlayaraq mütəmadi olaraq insanlığın liderləri hesab edilən böyük şəxsiyyətlərin genlərinin digər insanlara ötürülməsi ideyasını irəli sürərək onu inkişaf etdirmişdir. O, bunu qadınların süni mayalandırılması yolu ilə həyata keçirmək istəmişdir. Bu məqsədlə onun tərəfindən hətta spermaları istifadə olunacaq tanınmış adamların siyahısı da tərtib olunmuşdur[146]. Bu müddəadan belə bir nəticə ortaya çıxır ki, cinayətkar valideyinlərdən doğulmuş uşaqlar da gələcəkdə cinayətkar olacaqlar.

Bəziləri iddia edir ki, planetimizdə humanist insan yoxdur. Onu yalnız genetik əməliyyatların nəticəsində formalaşdırmaq mümkün olacaqdır (K. Lorents).

---

[145] Bax: *Казанцев А.* Льды возвращаются. М., 1981. С. 387, 430.

[146] *Мёллер Г.* The Inideme of Human Evolution // Studiesin Geneties, 1962. P. 560.

Həqiqətən, həm XX əsrdə, həm də hazırda insanın genetik baxımdan təkmilləşdirilməsinin zərurəti haqqındakı məsələ aktual olaraq qalmaqdadır. Çünki zənn edilir ki, insan təbiətini onun genləri təyin edir və yalnız sosial şəraitin dəyişməsi ilə bu sahədə heç nə əldə etmək mümkün olmayacaqdır.

Bütün zamanlarda insanlar şər əməllər törətməsinlər deyə onların şər əməllərdən uzaq, hümanist bir varlıq kimi formalaşdırmağa çalışmışlar. Bununla əlaqədar J. Lenjen qeyd etmişdir: "*Şəxsən mən inanmıram ki, nə vaxtsa gen mühəndisliyinin oyunları vasitəsi ilə fövqəl bəşəriyyət yaranacaqdır. Bizdən daha da ağıllı insan yaratmaq üçün, biz olduğumuzdan daha ağıllı olmalıyıq. Təbabət təvazökar olsa da, daha çox səmərəlidir*"[147].

Elə buna görə də mən insanı cinayətkarlıqdan yayındıran tibbi xarakterli metodların və vasitələrin mövcud olmasına inanmıram. Çünki genetika elmi hələ də insanın cinayətkar davranışının mənbəyinin harada olması və bu məsələdə irsiyyətin nə kimi rol oynaması suallarına cavab verməmişdir. Lakin bir şey aydındır ki, insanın özündə onu müəyyən davranışa təhrik edən "O" vardır. Bəs insan bu davranışa nəzarət edib onu tənzimləyə bilərmi? Yəni insan onu cinayətə təhrik edən "şər" qüvvələrə qarşı çıxa bilərmi? O zaman insan bunları necə etməlidir?

Məhz bu sualların cavablnda insanın cinayətkar davranışının sirrləri gizlənir. Əgər insan öz təbiətinə görə ona təsir edən şər qüvvələrlə mübarizə aparmaq iqtidarında deyilsə, onda bizim onun cinayətkar davranışını ittiham etməyə haqqımız yoxdur. Əksinə, əgər insan özü bu qüvvələrə qarşı çıxmır və ya onları özündə formalaşdırır, onda o, heç şübhəsiz ki, törətdiyi əməllərə görə cavab verməlidir. Çünki bu, onun davranışının azad seçimidir.

---

[147] Вах: *Ленжен Ж.* Генетика и психическое здоровье // Генетика и благосостояние человечества. 1980. № 7. С. 92.

**V. Fəlsəfə və iradə azadlığı.** Əslində fəlsəfədə insanın cinayətkar davranışının səbəbləri iradə azadlığı ilə izah edilir. Başqa cür desək, iradə azadlığının fəlsəfi izahından bilinməlidir ki, insan davranışı onun düşüncəsi və iradəsindən asılı olmayan tale, Tanrı, orqanizmin daxili gücü, ətraf mühit və s. tərəfindən əvvəlcədən təyin olunmuşdurmu?

Başqa daha konkret məsələlərin həll edilməsi məhz bu sualların aydınlaşdırılmasından aslıdır. Bu suallara konkret cavablar vardır. İnsan törətdiyi əməllər üçün məsuliyyət daşıyırmı və bu məsuliyyət hansı dərəcədədir? O, dini, əxlaqi və hüquqi mənada bütün bunlara məsuliyyət daşıyırmı?

Qeyd etmək lazımdır ki, Tanrı anlayışı ilə bağlı məsələ istisna olmaqla, fəlsəfə tarixində iradə azadlığı məsələsi qədər heç bir problem bu qədər rəy və mülahizələrə, qarşılıqlı ittihamlara və etirazlara məruz qalmamışdır. Bu da təbiidir ki, bu məsələdə fəlsəfənin bütün əsas istiqamətləri kəsişir.

Filosoflar, bir qayda olaraq, azadlığı daxili istək və arzu ilə əlaqələndirirlər. Əgər istəklər cismani xarakter daşıyırsa, o zaman insana azadlıqdan məhrum olmuş və nədən isə asılı bir varlıq kimi baxılır.

Bildiyimiz kimi, bəzən insan çörəyi sağ qalmaq naminə oğurlayır. Bunu etməsə o, ola bilsin ki, məhv olar, buna görə də onun başqa seçiminin olmaması özünü göstərir. Bu gətirilən misalda deyə bilərikmi insan azad varlıqdır? Axı o, oğurluğa ona görə gedir ki, başqa çıxış yolu yoxdur. Bu, orqanizmin təbii tələbatından irəli gəlir. O, bu tələbatı ödəməsə ölüm hadisəsi baş verə bilər. Bunu bilən insan öz hərəkətini mütləq azad iradəsindən asılı olan hərəkət kimi qiymətləndirilir. Hətta, o aclıqla müqayisədə ölümü seçib formal cəhətdən cinayət hesab edilən bu oğurluğu etməsəydi, bu davranış onun seçimi olardı. Cinsi əlaqə də insanın təbii ehtiyacıdır, deməli, o, cismani xarakter daşıyır. Ancaq çörəyə ehtiyacdan fərqli olaraq, insan bu ehtiyacı cilovlaya bilə, qadınla zorla əlaqəyə girməkdən imtina edə bilər. Bu qərar

onun iradəsindən irəli gəlir. O zaman “azadlıq” nədir?

Monteskye qeyd edirdi: *“Azadlıq” sözü kimi ikinci belə bir söz yoxdur ki, bu qədər fərqli mənaları olsun və müxtəlif şəxsiyyətlər ona bu qədər əhəmiyyət versin”*[148]. “Azadlıq” anlayışına verilmiş bir çox fəlsəfi təriflərlə tanış olandan sonra yuxarıda deyilənlərlə razılaşmamaq mümkün deyildir.

B.Spinoza yazmışdır: “*O şey azaddır ki, o, yalnız öz azad təbiəti zərurəti ilə mövcuddur və yalnız öz-özünə tərəkət etməsi ilə təyin olunur. Zəruri olan və ya daha doğrusunu desək, məcbur edilmiş odur ki, məlum və bilinən obrazla varlığa və hərəkətə bir başqa güclə təsir etsin”*[149]. Şopenhauer qeyd etmişdir: *“Mən istədiyim hər bir şeyi edə bilirəmsə, o zaman mən azadam”*[150]. “Axı azadlıq daxili duyğu və subyektiv yaşanan intim hissdir. Eyni şəraitdə olan insan özünü azad və ya qeyri-azad məhrum hiss edə bilər”[151]. E. A. Pozdnyakov iddia etmişdir ki, azadlıq məhz istək fenomenində təzahür edir[152].

Azadlıq anlayışı haqqında çoxsaylı sitatları və tərifləri nisbi ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, azadlıq insana öz yönəlmələrini həyata geçirmə və özünü ifadə etmə yollarının tapılması imkanların toplusu kimi izah edilir. Aydındır ki, mütləq azadlıq ola bilməz. Buna görə bu anlayışa bütün hallarda dolğun tərif vermək üçün hər zaman “nə üçün azad olmaq?” soruşulur. İnsan davranışı baxımından azadlıq hər zaman düşüncənin dəlilləri ilə hərəkət edir. Düşüncəyə sahib insanın nisbi azadlıq imkanları vardır.

Mənşəyinə görə iradə azadlığı yalnız nəzəriyyənin deyil, həm də təcrübənin predmeti olmuşdur. Ona fəlsəfi cəhətdən

---

[148] *Монтескье Ш.* Избр. произв. М., 1955. С. 288.

[149] *Спиноза Б.* Этика // *Спиноза Б.* Избр. произв: В 2 т. Т. 1. М., 1957. С. 362.

[150] *Шопенгауэр А.* Свобода воли и нравственность. М., 1992. С. 48.

[151] *Сорокина Ю.В.* Введение в философию права. М., 2001. С. 96.

[152] Bax: *Поздняков Э.А.* Философия свободы. С. 26.

baxdıqda düşüncənin praktiki motivləri öz hüquqlarını nəzəri motivlər kimi güclü və hətta daha güclü göstərir. İradə azadlığı probleminin izahı yəqin ki, Aristotel tərəfindən "Nikomaxın etikası"nın üçüncü kitabında ilk dəfə verilmişdir. Bu kitab xüsusi ilə cinayətlə bağlı məsələlərdə davranışın sağlam düşüncə ilə həyata keçirilməsi üçün hansı əhəmiyyətə malik olmasına dair göstərişlərlə başlayır. Bu da məsuliyyətlə azadlıq anlayışlarının nisbiliyini göstərir. Artıq Sokratın "zülmün könüllü edilməsində" iradə azadlığı probleminin rüşeymi görünməkdədir. Buna görə "*Antik fəlsəfədə iradə azadlığı mövzusuna maraq olmamışdır*"[153] deyən E. A. Pozdnyakovla razılaşmaq çox çətindir.

Güman edirik ki, keçmişin müdrikləri və filosofları insan əməllərinin araşdırılmasını özünüdərk prosesindən başlamağı məsləhət görürdülər. Bu isə cətin ki, insan iradə azadlığı haqqında düşünmədən baş verə bilsin. Beləliklə, fəlsəfədəki mübahisələr iki əks – iradə azaddır; iradə qeyri-azaddır konsepsiyanın arasında getməkdədir.

Bəziləri (indeterministlər) iradə azadlığının sərhədsiz olduğunu bəyan edirlər. Onların fikrincə insan prinsipcə istədiyi qərarı qəbul edib, hətta istənilən vəziyyətə baxmayaraq müstəqil seçimi ilə hərəkət edə bilər.

Hegel qeyd etmişdir: "*Tez-tez belə deyirlər: mənim iradəm hansısa motivlərlə, şəraitlə və həvəslə təyin edilir*"[154]. Bu sözlərlə böyük filosof onu demək istəmişdir ki, cinayətkar əməllərə bəraət qazandırmaq cəhdi və hər bir şərin işlənməsini məsuliyyətdən qaçmaq üçün sosial mühit, xarici amillər və onları doğuran anonim qüvvələrin üzərinə atmaq insanın mahiyyəti və təbiətinə ziddir.

Digərləri (deterministlər) deyirlər ki, hər şey insanın azad iradəsindən asılı olsaydı, biz hər bir sıxıntıdan qurtara bilərdik,

---

[153] Göstərilən kitabda.
[154] *Гегель Г.В. Ф.* Работы разных лет. М., 1971. Т. 2. С. 26–29.

şər əməllər və cinayətlər törətməzdik.

İrsi və ailə problemləri insanda, onun bütün ömrü boyu xatırladığı ilkin izlər qoyur. Bütün bunlar xarakterlə birlikdə əvvəldən alın yazısında yazılmışdır. Eyni zamanda insan həyatının asılı olduğu digər şeylər də tale ilə əlaqəlidir.

M. de Monten öz zamanında qeyd etmişdir ki, hisslər düşüncə və ağılla yaranmır, yaranan vəziyyət onları ortaya çıxarır. Buna görə də "*Bizim davranışlarımızı ətraf mühitin təsiri ilə, səbəblərin araşdırılmasına varmadan və digər əqli nəticələrə gəlmədən, izah etmək ən doğrusudur*"[155]. Bu barədə P. Holbax daha dəqiq yazmışdır: "*Təbiətdə heç bir şey təsadüfən baş vermir, hər şey müəyyən qanunauyğunluğa tabedir. Bunlar isə yalnız müəyyən nəticələrin səbəbləri ilə olan əlaqəsidir*"[156].

Buna görə insan iki şeydən asılıdır: irsiyyətdən və ətraf mühitdən. Onların heç birini də insan özü seçmir, onlar ondan asılı olmayaraq verilir və insan bu çərçivə içində bütün həyatını yaşayır. Belə ki, Hobbes demişdir: "*Heç nə öz-özünə başlanmır, o bilavasitə xaricdən təsir edən hansısa amilin təzyiqi ilə ortaya çıxır. Beləliklə, insanın doğru olmayan yönəlməsi və onun səbəbləri iradi deyildir. Bəzən səbəb elə bir şeydir ki, o ondan asılı olmaya bilər... Hər bir hadisə, nə qədər təsadüfi, öz-özünə yaranmış olsa da, əslində zərurətdən ortaya çıxır*"[157].

İnsan nəyə görə şər əməllər törətməyə meyllidir? Bəlkə onun təbiətində elə meyllər vardır ki, onlar onu antisosial davranışa sürükləyir? Bəlkə cəmiyyət və mühitin özü insan təbiətində olan (əgər bu varsa) cinayətə meyilliliyin reallaşması üçün şərait yaradır? Bütün bu suallar təkcə nəzəri deyil, həm də təcrübi xarakter daşıyır. Çünki cinayət insan orqanizminin bioloji

---

[155] О природе человека: Монтень, Ларошфуко, Паскаль. С. 106.

[156] *Гольбах П.* Избранные антирелигиозные произведения. М., 1994. Т. 1. С. 34–35.

[157] *Гоббс Т.* О свободе и необходимости // *Гоббс Т.* Избр. произв.: В 2 т. Т. 1. М., 1964. С. 556–558.

xüsusiyyətləri ilə yaranıb və determinələşirsə, onda o, törətdiyi cinayətə görə məsuliyyət daşımamalıdır. Eyni zamanda, insan davranışı əməl-səbəb baxımından xarici mühit ilə şərtlənmişdirsə, onda insan ona görə məsuliyyət daşımamalıdır.

Beləliklə, davranışın azadlığını qəbul edərkən, biz cinayət törətmiş şəxsin cəzalandırılmasını da ehtimal edirik. Biz cinayətin mahiyyətini, cəzalandırmanın mənası və məqsədini yalnız insanın, xüsusən də cinayətkarın davranışının nə olmasını açandan sonra öyrənə bilərik. Böyük həyati enerjisi olan insan yarada və ya dağıda, xeyir və ya şər əməllər görə bilər. Bunları edərkən o, mülahizə edərək və törətdiyi əməldən nə itirəcəyini və qazanacağını müqayisə etmək bacarığına malikdir. Buna görə nədən çəkinməli, nəyə yönəlməli olduğunu bilir. Hegel yazmışdır: "*İnsan cərəyan edən hadisələrlə, doğru yoldan sapmağına bəraət qazandırmaq istəyirsə, onda o etdiyi əməli özündən bir növ aralamaq istəyindədir. Ancaq bununla o yalnız özünü azadlıqdan məhrum etmiş olur. Əslində isə onun etdiyi əməl onun özünə məxsusdur. Yəni bütün bunlar insandan kənarda baş verən bir şey deyil. İnsan üzərində ətraf mühit və ya müəyyən motivlər onun özünün imkan verdiyi dərəcədə hökmranlıq edə bilər*"[158].

Bir qayda olaraq hər insan öz çatışmazlıqlarının və qüsurlarının mənşəyini özündə və öz həyatında deyil, kənar amillərdə axtarır. "*İnsan ictimaiyyətin hər bir səhvindən asılı hala gətirilir. Sosial mühit haqqındakı təlimlər bəzən insanı simasızlığa sürükləyərək, hər bir şəxsi əxlaqi davranışlardan uzaqlaşdırır və azadlığını əlindən alır. Bunun nəticəsində insan ağılasığmaz dərəcədə kölələşdirilir*"[159].

İnsanın törətdiyi cinayət əməlinə görə cəzalandırılmasının vacibliyini iddia edən ictimai fikir bunu onunla izah edir ki,

---

[158] *Гегель Г.В.Ф.* Работы разных лет. М., 1971. Т. 2. С. 26.
[159] *Достоевский Ф.М.* Дневник писателя // *Достоевский Ф.М.* Полн. собр.соч.: В 30 т. Л., 1980. Т. 21. С. 16.

insanın azad iradəsi vardır. Deməli o özü cinayət əməlini seçir və öz seçiminə görə də məsuliyyətə cəlb olunmalıdır. Bu istiqamətdə istər ənənəvi fəlsəfə, istərsə də, cinayət hüququnun klassik qolu bunu iddia edir.

Dini təlimlərə uyğun olaraq unsanın toxunulmaz tərəfi də vardır ki, orada onun vicdanı özü özünün sahibidir. Çünki, əməllər azad iradədən irəli gələn xeyir və şər problemlərindən aslıdır.

Beləliklə, insanın məsuliyyəti onun iradəsinin azad olub-olmamasından və ya hər bir insanın azadlığının dərəcəsindən asılıdır. Elə bir ağıllı varlıq ola bilməz ki, onun azad iradəsi olmasın. İnsana təbiət tərəfindən çox iti ağıl bəxş edilmişdir. Onun vasitəsi ilə hər insan xeyri şərdən, qanunauyğun davranışı qanunauyğun olmayandan ayıra bilir. Buna görə də, insan nəyi istədiyini və nədən çəkinməli olduğunu yaxşı bilir. Seçimi də o öz azad iradəsi ilə edir. Buna görə də L. Feyerbaxın «*Bir çox hallarda insan törətdiyi əməli özü dərk edib izah edə bilmir. Buna görə də o təəccüb edərək soruşur: "Necə ola bilər ki, mən belə bir əməlin törənməsini istəyim? Mən özümə bu qədər əziz olan namusumu necə ləkələyə bilərdim? Necə olur ki, mən, məsələn, qızlara görə, əhəmiyyətsiz şeyə görə öz alicənab adımı və ləyaqətimi qurban verdim?"*[160] sözləri ilə razılaşmaq mümkün deyildir.

İlk baxışdan bu doğrudur. Çətin ki, törədilən hadisədən sonra əməlindən peşman olmayan insan tapılsın. Bu da təbiidir. Törədilmiş əməl haqqında peşmançılıq ona dəlalət edir ki, insan ağıllı varlıqdır və onun davranışı onun özünə məxsus olan azad seçimidir. Törədilmiş cinayət onun gözünün önündə bütün çirkinliyi ilə ortaya çıxdıqda, hadisələri geri çevirmək imkanı təbii ki, mümkün olmur. Ancaq bu, heç də həmişə belə olmur. Bir qayda olaraq, bu, o cinayətlərə aiddir ki, onlar planlaşdırılmadan, qəfldən və müəyyən səbəblər üzündən törədilir. Buna baxmayaraq

---

[160] Вах: Правовая мысль: Антология. М., 2011. С. 275.

bu vəziyyətdə insan təcavüzkar instinktlərini zəiflətmək, psixi enerjini başqa səmtə yönəltmək bacarığına malikdir. Hər şey yenə də insanın azad iradəsindən aslıdır. Z.Freydin qeyd etdiyi kimi, "mədəni insanın" xüsusiyyəti ondan ibarətdir ki, o, instinkti iradəsinin gücü ilə üstələyə bilir. Bir çox hallarda azad iradədən irəli gələn davranış seçimi şüursuz, avtomatik, vərdişdən asılı olsa belə hər zaman özünü göstərir.

Buna görə də E. A. Pozdnyakovun fikirləri ilə razılaşmaq mümkün deyildir. O hesab etmişdir ki, seçim azadlığı "*İnsana dəlillərlə motivlərin ağrılı ixtilafından, ağılın çaşqınlığından başqa bir şey vermir*"[161]. Müəllif sonra öz fikrini konkretləşdirmişdir: "*Seçim imkanı nəinki hərəkətin azadlığını artırmır, əksinə, onu minimuma endirir. Azadlığın dərəcələri nə qədər çox olsa, o qədər canlı varlığın azadlığı məhdudlaşır. Hər halda insan üçün bu, bir qanunauyğunluqdur. İnsan üçün davranışın və hərəkətin arasındakı alternativlərin, müxtəlif imkanların, müxtəlif yolların arasındakı azad seçimdən üzücü və ağrılı heç nə ola bilməz"*[162].

Seçim - müxtəlif alternativlərin arasında qarşı-qarşıya qoymaların və dəyərləndirmələrin prosesidir. Buna görə seçim imkanları nə qədər çox olarsa, o qədər, insan doğru qərar qəbul etmək üçün hər şeyi detallarına qədər düşünə bilər. Alternativlərin azlığı - səhv seçimin əsasıdır.

Hər bir vəziyyətdə seçimin çoxsaylı imkanları azad hərəkətdən xəbər verir. Azərbaycan Respublikasının Məhkəmə Ekspertizası institutuna başçılıq edərkən kriminal dünyada baş verən müxtəlif hadisələrlə rastlaşdıqdan sonra bu qənaətə gəldim. Belə ki, respublikanın rayonlarının birində 72 yaşlı kişi ov tüfəngindən 30 yaşlı qızını qətlə yetirmişdir. Çünki qızı ailəli və iki uşağının olmasına baxmayaraq Bakıya gedib orada yüngül

---

[161] *Поздняков Э.А.* Философия преступления. С. 104.
[162] Göstərilən kitabda.

həyat tərzi keçirirdi. Bu barədə xəbər tutan və kəndlərində böyük hörməti olan atanın halı, psixi durumu çox pis olmuşdur. Bir müddətdən sonra həmin qızı gözlənilmədən kəndə qayıdır. Orada onun atası ilə söhbəti olur. Ata qızından xahiş edir ki, kənd camaatının gözünə görünməmək üçün yenidən şəhərə qayıtsın və rüsvay olmuş atasını bir daha biabır etməsin. Bu söhbət atanın otağında baş vermişdir. Orada tüfəng divarda asılmış vəziyyətdə idi. Qız isə çox kobud surətdə atasına istədiyi kimi yaşamaq hüququna malik olduğunu bildirmişdir. O zaman ata hiddətlənərək tüfəngi götürüb onu güllələmişdir. Onu buna nə təhrik etdi, o, özünü bu əməldən çəkindirə bilərdimi? Keçirilən uzunmüddətli psixoloji ekspertizanın nəticəsində təyin olunmuşdur ki, məhz onun qızının "mən istədiyim kimi yaşayacağam" sözləri onun öldürülməsinin səbəbi olmuşdur.

Bu hadisədə cinayətkar davranışın baş verməsində həlledici rol nədir? Bilindiyi kimi, insan instinktin əsasında deyil, düşünən ağlı və ya onun iradəli davranışını təyin edən mexanizmi əsasında hərəkət edir. Bəs bu mexanizm nədir? O, insanın özündən və ya xarici amillərdən aslıdır?

Bəzi alimlər hesab edir ki, *insan istəyi* onun şüurlu, iradi həyatının bir hissəsidir[163]. Nə vaxtsa başqa bir iradi fəaliyyət insan istəyinin qarşısını alsa belə, o yenə təzahür edəcəkdir. Artıq dərk edə bilən insan həmişə öz istəklərinin qarşısını almaq durumunda olur. Bəzən onlar başqa istəklərin təsiri ilə ortadan qalxa bilər. Buna görə də istəklər qarşılıqlı münasibətdə olaraq bir-birinin qarşısını alır. İstəklərin bərabərləşməsi nəticəsində seçim formalaşır. Ancaq əvvəl baxdığımız cinayət işində atanın öz qızını öldürmək istəyi olmamışdır. Beləliklə, bu mexanizm davranışın iradəli seçimində həlledici rol oynaya bilməzdi.

Digər alimlər hesab edirlər ki, insanda heyvanda olduğu kimi əsas və həlledici amil varlığa və yaxşı güzarana yönələn

---

[163] Bax: *Виндельбанд В.* О свободе воли. М., 2000. С. 16.

*eqoizmdir*[164]. Ehtiyac ətraf mühitlə təmasda olan və ondan həyatının davam etməsi üçün vasitələr əldə edən hər bir canlı üzvi varlığa xas olan nəyinsə çatışmazlığı duyğusudur. Tələbatlarımızın və istəklərimizin təmin olunması insana zövq, onların təmin edilməməsi isə ona əziyyət verir. Buna görə insan, təbii ki, tələbatlarının ödənilməsinə cəhd edir və əziyyətdən qaçır. Öz ehtiyaclarını və həvəslərini ödəməyə çalışan insan bunu qanuni yolla edə bilməyəndə hər dəfə qanunları pozur və cinayətlər törədir. Bu ehtiyaclar və tələbatlar ona anadangəlmə verilibsə, onda demək olar ki, o, öz təbiəti ilə günaha meyllidir. Elə buna görə onun içində şərlə xeyirin mübarizəsi, yəni cinayət törətmək istəyi ilə qanunun pozulmasına qarşı olan düşüncənin kəsişməsi baş verir.

Anadangəlmə ehtiyacları insanın qidalanması, su içməsi və s. kimi təbii insan xüsusiyyətlərindən biri hesab etmək olar. Həvəslərə gəldikdə isə qeyd etmək lazımdır ki, onlar anadangəlmə deyil, həyat boyu qazanılandır. Bunlara misal kimi narkomaniyanı, sərxoşluğu, fahişəliyi və s. göstərmək mümkündür. Buna görə razılaşmaq çətindir ki, ata öz qızını həvəslənərək öldürmüşdür. Hesab edirik ki, müəyyən şəraitdə bu ya digər davranış mexanizminin seçilməsində müstəsna rol oynayan psixi qüvvələrə müraciət etsək, daha doğru olar. Ola bilsin ki, bizim gətirdiyimiz konkret cinayətkar davranışının nümunəsi bu dəlili təsdiqləyir. Yaşa dolmuş cani atanın psixoloji təhlilinin nəticəsində aşkar olmuşdur ki, onun davranışının mahiyyəti cinayətin törədilməsi anında onun içində yığılmış və ona güclü təsir etmiş psixi həyəcanının ortaya çıxması və reallaşdırılması idi. Bu da məhz qızının əxlaqsız həyatı ilə bağlı olmuşdur. Atanın özü əxlaqsız, ləyaqətsiz, kəndliləri arasında

[164] Вах: *Шопенгауэр А.* Об основе морали. Свобода воли и нравственность. М., 1992. С. 196.

hörmət qazanmayan bir insan olsaydı, təbii ki, o, heç vaxt qızının öldürülməsi ilə nəticələnmiş hadisəyə səbəb olmazdı. Z. Freydin nəzəriyyəsinə (psixoanalizin "şüuraltı" təlimi) görə hər bir vaxt "şüuraltı" ortaya çıxıb zəif psixoloji nəzarət şəraitində irrasional, qəribə və azğın davranışlara səbəb ola bilər.

Qeyd edilməlidir ki, iradə azadlığı haqında Freydin nəzəriyyəsi ənənəvi fəlsəfi, hüquqi və psixoloji təsəvvürlərə uyğun idi. Onları nəzərə almaqla insan davranışının psixi və rasional tənzimlənməsinin imkanları sərhədsiz görünür. Q.V.Maltsev qeyd edirdi: "*Freyd üçün həlledici təsəvvür ondan ibarət idi ki, insan danranışını ictimai inkişaf qanunları deyil, irrasional psixi güclər idarə edir. Zəka isə bu güclərin pərdə arxası gizlədilməsi rolunu oynayır, reallığın əks olunmasının vasitəsi deyildir. Bu istiqamətdə fərd və sosial mühit əbədi və gizli savaş halındadır*".[165]

Yuxarıda göstərilən misalda cinayətin törədilməsi zamanı qatil ata öz eqoizminin köləsi olmuşdur. Çünki o, öz şəxsi ləyaqətini və namusunu qızının həyatından üstün tutmuşdur. Bu halda məhz heyvanlarda olduğu kimi insanda da eqoizm təkanverici qüvvə kimi özünü göstərmişdir. Ancaq bütün bu hadisələr cinayət törətmiş şəxsdən asılı olmayan müvafiq xarici faktorlar olmasaydı, baş verməzdi. Belə ki, ata ilə qız təklikdə olmuşlar. Tüfəng atanın əlinin altında olmuşdur. Eyni zamanda vaxt gec olduğundan evdə hamı yatmışdır və bu hadisə baş vermişdir. Bu xarici amillərin heç olmasa biri olmasaydı, cinayət baş verməyə də bilərdi. Məsələn, otaqda aranı sakitləşdirən üçüncü bir şəxs olsaydı, ata özünü ələ alıb başqa cür davrana bilərdimi? Bəlkə bu vəziyyətdə o, qızını öldürməzdi. Onu döyüb, üzünə tüpürüb və qovardı? Bu suallara cavab vermək üçün mənim şəxsi təcrübəmdə olan bir başqa misalı gətirmək yerinə düşərdi.

Polis zabiti gözlənilmədən evində öz həyat yoldaşını başqa

---

[165] *Мальцев Г.В*. Социальные основания права. М., 2011. С. 150.

kişi ilə yataqda tutmuşdur. Bu an onun xidməti silahı yanında olmuşdur və o, sərbəst şəkildə bu silahdan istifadə edə bilərdi. Ancaq o, özünü ələ alır, onlardan geyinməyi xahiş edərək, sakitcə mətbəxə keçir. Sonra o, həyat yoldaşı ilə birlikdə olan şəxsi yola salmış və problemi öz həyat yoldaşı ilə təmkinlə müzakirə etmişdi. Nəticədə onlar bir-birindən ayrılmaq qərarına gəlmişlər. İndi sual yaranır ki, nə üçün zabit özünün qəzəbini saxlaya bilmişdir? Halbuki cinayətin törədilməsi və irrasional davranış üçün əlverişli şərait və vəziyyət yaranmışdır. Necə oldu ki, düşünən ağlı onu cinayətə deyil, məsələnin dinc yolla həll edilməsinə yönəltdi?

Beləliklə, eyni vəziyyət və şəraitdə insanlardan bəziləri cinayət edir, bəziləri isə etmirlər. Deməli, insan amili, psixoloji göstəricilər, ümumiyyətlə, şəxsiyyətin özü ilə əlaqəli hər şey müstəsna rol oynayır və bunlar qətllərin, eləcə də tamah niyyəti ilə edilmiş zorakılıqların törədilməsində cinayətkar davranışın səbəbidirlər. Heç də hər bir insan, onun namusu və vicdanı alçalanda cinayət törətməkdən özünü cilovlaya bilmir. Bu, alçaldılmağa və təhqir edilməyə qarşı qisas deyil, özünü təbii və insanlıq xüsusiyyətləri çərçivəsində *saxlaya bilməməkdən* irəli gəlir. Əgər kişi öz həyat yoldaşının aşnasını öldürmək niyyətinə düşərək buna hazırlıq görürsə, bu başqa məsələdir. O zaman bu qisas kimi dəyərləndirilə bilər. Tamahın təmin edilməsi zorakılıqla törədilmiş cinayətlərə səbəb olduqda isə, burada ilk olaraq sosial, xarici amil önə çıxır. Eyni zamanda, tamahda da insan faktoru yer alır ki, bunlar da xəsislik, zənginləşmə və mənfəət əldə etmək istəyindən irəli gəlir.

Biz təyin etdik ki, cinayət fərdi qanunauyğunluqların təsiri altında iradənin kölələşdirilməsi yox, azad fərdi seçimin, iradənin reallaşmasıdır. O zaman nə üçün iradə azadlığının əsasında davranış seçiminə malik olan insan cinayət törədir? Bunu ona nə məcbur edir? Prinsipcə insan yaxında olana deyil, özündən uzaq olana, həmçinin qadağa olunana meyl etmək xüsusiyyətinə

malikdir. Bunlar həzz almaq, nəyi isə əldə etmək, hakimiyyətə gəlmək istəkləri ola bilər. Konkret cinayətlərin təhlili bunu göstərməkdədir. Cinayətin səbəblərini, daha doğrusu insanın cinayətkar davranışının səbəblərini açmaqla biz fərdin təbiətinin mahiyyətini və davranışlarını, onun psixologiyasını, sosiologiyasını, xasiyyətini, meyllərini, maraqlarını, tərbiyə və inkişaf səviyyəsini da kəşf edirik.

Hərəkətin bir növü də cinayətin insanı sınağa çəkmək xüsusiyyəti vardır. Bu sınaq ondan ibarətdir ki, başqa vəziyyətlərdə özünü köstərməyən xüsusiyyətlər ortaya çıxır. Misal üçün, rüşvətxorun mahiyyətini, təbiətini və xüsusiyyətlərini ancaq onun hansısa səlahiyyətli vəzifəyə malik olamasından sonra aşkara çıxartmaq mümkündür. Zorlama cinayəti zorlayanın elə xüsusiyyətlərini ortaya çıxarır ki, başqa vəziyyətlərdə bu xüsusiyyətləri görmək mümkün olmur. Bəs cinayətkar əməlin səbəblərini harada axtarmaq lazımdır? D. Abrahamsen hesab etmişdir ki, onları müxtəlif nəzəriyyələri uyduraraq və xarici amillərin təsirini ortaya çıxararaq haradasa "başqa yerdə" deyil, bizim özümüzün içində, insanın əsas xüsusiyyətlərində, onun mental psixi konstruksiyasında axtarmaq lazımdır[166].

Psixoanalitiklər üçün ağıl onların cinayət fenomeninin tədqiqini başladıqları istinad nöqtəsidir. Çünki məhz ağıl insanı heyvandan fərqləndirən ən başlıca xüsusiyyətdir. Buna görə də ağılda insan xüsusiyyətini səbəblərini, daha doğrusu cinayətə meylliliyin səbəblərini ağılda axtarmaq lazımdır. XX əsr dünya qədər qədim olan cinayət probleminə bizi yeni baxışla yanaşmağa məcbur etmişdir. Məsələn, fransız filosofu A.Kamyu iddia etmişdir ki bunu absurd kateqoriyasından çıxış edərək həyata keçirsək daha yaxşı olardı. Bu mənada absurd belə bir haldır ki,

---

[166] Bax: *Abrahamsen D.* Whoare Cuiety? Study of Education and Crime. Westport, Connecticut, 1972. P. 16.

orada yüksək mənalar görsənmir, hər şey qarışmış və xeyirxahlığa cinayətin, "lehinə" və "əleyhinə" olanların arasında fərq qarışmışdır. Sərhədlərin, iyerarxiyaların və qaydaların ortadan qalxması nəticəsində istənilən hər bir şeyin edilməsinə və hər bir işin görülməsinə yol açıldı. Belə düşünürük ki, bütün cinayətlər üçün ümumi səbəblər axtarmağın mənası yoxdur, çünki onlar mövcud deyildir. Eyni qəbldən cinayətlər yoxdur və ola da bilməz. Hətta cinayətlərin bir birinə tam bənzər səbəbləri də yoxdur. Fərdin xüsusiyyətlərini nəzərə almaqla hər bir konkret cinayətin öz səbəbi vardır.  L. N. Tolstoy "Kreyser sonatası" hekayəsində (1889) şəhvəti insanı cinayətə sürükləyən çox dəhşətli və dağıdıcı bir qüvvə kimi təsvir etmişdir. Deməк şəhvət zorlamanın səbəbi ola bilər. Bəzi insanlar bu hissi cilovlaya bilirlər, başqaları isə bunu bacarmırlar. Seksual zəmində kimi isə qətlə yetirmək başqa məsələdir. Bu, daha çox bioloji fenomendir və cinsi şəhvət deyildir. Aydındır ki, quldurluq, rüşvətxorluq və zorlama kimi cinayətlərin ümumi səbəblərini axtarmağın mənası yoxdur. Hesaba alınmalıdır ki,  bu günə qədər Ç. Lambrozonun vaxtı ilə iddiasında olduğu insanın cinayət əməlinin genetik amillə bağlılığını hələ də heç bir elm sübuta yetirə bilməmişdir.

Bununla belə, şübhələnməyə heç bir əsas yoxdur ki, insanın, xüsusi ilə cinayətkar insanın hərəkətləri bir çox hallarda onun psixofizioloji xüsusiyyətlərdən asılı olsun. Sosial mühitə daha çox cinayətkar davranışın səbəbi kimi deyil, insanın psixofizioloji xüsusiyyətlərinin təzahürü kimi baxılmalıdır. Məlum olduğu kimi, ağır şəraitdə yaşayan insanların əksəriyyəti heç də insanları öldürmür, qarət  və başqalarına qarşı zorakılıq etmir.  Bu o deməkdir ki, konkret cinayətkar əməlin səbəbləri sosial mühitdə deyil, cinayəti törədənin özündədir. Bildiyimiz kimi, Avropanın bir çox ölkələrində praktik olaraq bizim söhbət apardığımız şərait yoxdur. Lakin orada da ağır sosial mühitlə qətiyyən əlaqəsi olmayan cinayətlər törədilir. Buna görə də ümumi səbəblərlə şərtlənmiş konkret cinayətlərin səbəbləri "*Sosial inkişafın hər bir*

*mərhələsində olan çatışmazlıqlardan, eləcə də ictimai həyatda hələ də mövcud olan mənfi hadisələrlə onların aradan qaldırılmasına maneə olan şəraitlə əlaqəlidir*" [167] - deyən İ. İ. Karpetslə razılaşmaq mümkün deyildir.

E. A. Pozdnyakovun əks mövqeyini də doğru hesab etmirik. O hesab etmişdir ki, "*ümumiyyətlə cəmiyyət cinayətkar əməlin səbəblərinin daşıyıcısı deyildir. Cəmiyyət yalnız insanın özündə yer alan şər və antisosial davranışa meylliliyin inkişafı üçün daha yaxşı və pis, əlverişli və əlverişsiz şərait yarada bilər. Onlar elə bir rüşeymə bənzəyirlər ki, ondan "cinayət" adlanan qeyri-adi bir çiçək əmələ gəlir*"[168].

Beləliklə, filosof E. A. Pozdnyakov hesab etmişdir ki, hər bir insanda şər xüsusiyyətlər və cinayətə meylilik əvvəldən formalaşmışdır. Belə halda insan real cinayətkar olacaq, ya yox. Bu, şəraitdən asılıdır. Belədirsə, onda qanuna tabe olan və cinayət əməlləri törətmiş şəxslərin faiz nizbətini açıqlamaq çətin olur. Əgər sübuta yetirilmiş fakt kimi onu qəbul etsək ki, hər bir insanda şər və cinayətkar xüsusuyyətlər əvvəlcədən formalaşmışdır, onda cinayətkarlığın hər il artmasını, onun xarakterini və s. izah edə bilmərik.

Q. A. Avanesovun bu iddiası da heç bir dəlilə söykənmir və əsassızdır: "*İnsan ....anadangəlmə xüsusiyyətlərə malikdir. Onlardan bəziləri, bizim fikrimizcə, müəyyən şərait yetişəndə cinayətin törədilməsinə yardımçı və ya konkret olaraq cinayət hüququ tərəfindən cəzası nəzərdə tutulan əməlin səbəblərindən biri ola bilər*"[169]. Biz onunla razılaşırıq ki, insanın ayrı-ayrı fizioloji keyfiyyətləri müəyyən şəraitdə cinayətkar davranışın səbəbi kimi çıxış edə bilər, ancaq onların anadangəlmə olması

---

[167] *Карпец И.И.* Современные проблемы уголовного права и криминологии. М., 1976. С. 69.

[168] *Поздняков Э.А.* Философия преступления. С. 141.

[169] *Аванесов Г.А.* Криминология, прогностика, управление. Горький, 1975. С. 91.

fikri ilə razılaşmaq mümkün deyildir. Digər tərəfdən insan, bu dəhşətli təmayülün qurbanı olaraq bəzən ona qalib gəlmə imkanına malikdir və ya ona düz istiqamət verə bilir. Ancaq qalib gəlmə qüdrəti bu insanda tərbiyənin çatışmazlıqlarının dərəcəsinin nisbətinə, orqanlarının və yüksək qabiliyyət imkanlarının az inkişaf etdiyinə görə azalır. Beləliklə, Q. A. Avanesovun qeyd etdiyi xüsusiyyətlər anadangəlmə olsa da, onlar insanın özünün nəzarərindədirlər. Hər şey insanın azad iradəsinin gücündən asılıdır. Əlbəttə, istisna etmək olmaz ki, güclü xarakter və iradəyə sahib ən əxlaqlı və qanuna tabe olan insana, aclığın basqısı altında müxtəlif cinayətlərə, xüsusən, çörək oğurluğuna və qəddarlığın ən yüksək həddinə gətirib çıxarsın. Çətin ki, bu vəziyyət onun xarakterini və iradəsini qəti şəkildə dəyişə bilsin.

Həmçinin unutmaq olmaz ki, hər bir millətin özünəməxsus psixologiyası və milli xüsusiyyəti vardır. Bu amil davranışın cinayətkar olub-olmamasını təyin edəndə böyük əhəmiyyət daşıyır. Hər bir millət öz ideyalarını, mədəniyyətini, psixologiyasını, yəni davranışların təkanverici səbəblərini əsrlər boyu formalaşdırmışdır. Eyni şəraitdə qafqazlı öz milli xüsussiyəti, psixoloji vəziyyəti, emosionallığı və s. səbəbləri ilə avropalını təəcübləndirən hərəkət edə bilər. Eyni zamanda, fransızın adi hərəkəti qafqazlı tərəfindən nəinki ədəbsiz, həm də cinayət kimi dəyərləndirilə bilər. Buna görə də millətin taleyini bizim əcdadlarımız, onların adətləri, ənənələri, xüsusiyyətləri və əxlaqları "idarə edir". Bəzən biz onların səhvlərinin yükünü daşımalı oluruq. Məsələn, onlardan bizə cinayət hesab edilən qan qisası miras qalmışdır. Təəssüf ki, bu günə qədər biz keçmişin bu qalığından tam azad ola bilmirik. Çünki əvvəlki nəsillər bizlərə yalnız öz fiziki təşkilatlarını deyil, həm də düşüncələrini ötürürlər. Q. Lebon qeyd etmişdir ki, "*heç vaxt mənə bu dərəcədə aydın olmamışdır ki, hər bir irqə məxsus insanları, sosial vəziyyətlərinin fərqinə baxmayaraq, ideyaların, adətlərin, ənənələrin, duyğuların, düşüncə metodlarının sarsılmaz ehtiyatlarını qoruyub saxlayırlar.*

*Onlar əcdadlarının məntiqdən uzaq milli-mədəni irsiyyətin qorumalarına baxmayaraq, onlar bu gün təsir gücünü itirmişdir.*”[170].

Bu gün çoxları belə bir sual verir ki, nə üçün avropalılar, bir qayda olaraq, bizdən çox qanunatabe olmağa meyllidirlər? Biz nə vaxtsa onlar kimi ola bilərikmi? İnsan nə etsə belə, o, hər zaman və ilk əvvəl ruhunu daşıdığı millətinin nümayəndəsidir. Məhz ruh həmin o ideya və duyğuların, psixi xüsusiyyətlərin ehtiyatıdır ki, onların anadangəlmə daşıyıcıları hər millətin nümayəndələridir. Əslində məhz bu ruh davranışı idarə edir və ya ən azı davranış seçiminə əhəmiyyətli təsir edir.

Hər bir millətin ruhu əxlaqi və intellektual xüsusiyyətlərin toplusudur. Anatomik əlamətləri kimi hər millətin psixoloji xüsusiyyətləri də irsiyyətlə ortaya çıxır. Ümumi psixoloji əlamətlərin aqreqatı milli xüsusiyyətləri təşkil edir.

Hətta müxtəlif millətləri təmsil edən cinayətkar qatillər cinayətin törədilməsindən əvvəl də, onun törədilməsi zamanı da öz psixoloji xüsusiyyəti ilə fərqlənirlər. Qeyd edilməlidir ki, qanuna tabe olma ideyası yalnız onda təsir etməyə başlayır ki, nə vaxt o bizim düşüncələrimizi emal edən “şüuraltı” sahəsinə daxil olur. Təəssüf ki, avropalılardan fərqli olaraq bizdə bu hiss hələ də formalaşmayıb.

Elə buna görə də biz cinayətlərə qarşı sərt cəzalar tətbiq etməkdə davam edirik. Buna görə də bizim öz cinayət qanunvericiliyimizi avropa qanunvericiliyi (119) ilə uyğunlaşdırmağımıza hələ çox qalıb. Şübhəsiz, nəzərə alınmalıdır ki, hər millətin tarixi müxtəlif amillərlə təyin olunur. Bu tarix əhəmiyyətli hadisələrlə və təsadüflərlə doludur. Bu hadisələr baş vermiş, ancaq baş verməyə də bilərdi. Millətin, xalqın qanuna olan münasibətini dəyişdirməsi üçün, o, gərək ilk əvvəl öz

---

[170] *Лебон Г.* Психология народов и масс. М., 2012. С. 8.

"ruhunu" dəyişdirsin. Ona görə yalnız hüquqi tərbiyə ilə bu məsələni həll etmək mümkün deyil. Çünki hüquqi tərbiyənin vasitəsi ilə yalnız bu sahədə ağılın inkişaf səviyyəsini yüksəltmək mümkündür. Xarakterin keyfiyyəti isə, demək olar ki, həmişə onun təsirindən ortaya çıxır. Bu gün, bildiyimiz kimi, Avropa öz xeyirxah niyyəti ilə sivilizasiyanın daha aşağı pilləsində duran digər xalqları cinayəti törədənlərə qarşı hüquqi cəzanın tətbiq edilməsində öz şərtlərini qəbul etdirməyə çalışır, onları cinayətkarlıqla mübarizədə cəzanın roluna və əhəmiyyətinə yenidən baxılmasına çağırır. Bəs bu mümkündürmü?

Hesab edirik ki, indiki zamanda bu səhv addımdır. Çünki, biz buna hazır deyilik. Yaddan çıxartmaq olmaz ki, Avropa xalqları və keçmiş Sovet İttifaqı xalqlarının psixoloji formaları arasında ucurum vardır. Xarici görünüşdən bir-birinə bənzəyən xalqlar öz duyğu və davranış qaydaları, inancları, mədəniyyətləri, incəsənəti ilə bir-birindən çox fərqli ola bilərlər. Lambrozonun göstərdiyi iqlim, dərinin rəngi, irq kimi anatomik amillər deyil, məhz bu xüsusiyyətlər insan davranışına, o cümlədəm cinayətkar davranışa təsir edir.

Millətin ümumi xarakteri müxtəlif elementlərin kombinasiyası ilə formalaşır. Onları psixoloqlar duyğular (əzmkarlıq,enerji, özünü əldə saxlamaq, əxlaq) kimi təyin edirlər. Q. Lebon qeyd etmişdir: *"Əsasən xalqların böyüklüyü onların əxlaqından irəli gəlir*"[171].

Qanuna tabe olmaq, əxlaq qanunun müddəalarına hörmətlə yanaşmadır, hansı ki, o qanunlardan həm asayişin, deməli, həm də cəmiyyətin varlığı asılıdır. Xalqın əxlaqı məlum doğru davranış qaydalarının varlığı və cinayətlərin törədilməməsi ilə əlaqələndirilir. Bu cinayətlərin sayı onda azalır ki, nə vaxt bu və ya digər xalq öz əqidəsinə görə buna məcbur edilmədən, qanunlara, öz qədim adətlərinə riayət etdiyi kimi riayət etsin.

---

[171] Göstərilən kitabda. C. 24.

Beləliklə, insanın cinayətkar davranışının səbəblərini onun genetik, irsiyyət xarakterli olmayan psixofizioloji xüsusiyyətlərində axtarmaq lazımdır. Onlar xarici mühitin müəyyən şəraitinin və vəziyyətinin təsiri altında təzahür edir. Bunun da nəticəsində insan öz azad istəyi ilə bu və ya digər qərarı qəbul edir. Buna görə nə cəmiyyətin sosial şəraiti, nə iqtisadi faktorlar (dilənçilik, yoxsulluq, zənginlik, dəbdəbə), nə də ələlxüsus irsiyyət cinayətin səbəbləri kimi çıxış edə bilməz.

Bu problemin araşdırılmasının yekunu olaraq belə bir nəticəyə gəlmək mümkündür: Cinayətin fəlsəfi mahiyyəti insan davranışının azad iradəsindən irəli gəlir. Onun mənbəyi mənfi xarici sosial-iqtisadi şəraitin və vəziyyətin təsiri nəticəsində yaranan şəxsiyyətin psixofizioloji xüsusiyyətlərindədir.

## § 3. Cinayətkarın şəxsiyyəti

Cinayətdə təqsirkar xarici faktorlara nə qədər çox əhəmiyyət verilməsindən asılı olmayaraq həmişə konkret şəxsiyyət hesab edilir. Buna görə də cinayətdə şəxsiyyətin rolu mövzusunu diqqətdən kənarda qoymaq olmaz. Klassik hüquqşünaslara görə cinayətkarın müstəsna və xüsusi keyfiyyətlərini (yaş, sərxoşluq halı, xəstəlik və s.) istisna etsək, o, adi bir insandır. Ancaq o da bəllidir ki, belə yanaşma insanın cinayətkar davranışının səbəblərinin əsl elmi yolla araşdırılmasına imkan vermir.

Öz zamanında S. K. Qogel qeyd etmişdir: "*Orta əsr rəvayətləri və ənənələri ilə dolu cinayət hüququnun hüquqi qəsrinə, yeni həyatla hər bir təmasdan özünü təcrid etmiş aləmə yeni istiqamətlər gətirən alimlər gəldilər... Onlar ehkamçılara bəyan etdilər ki, siz diri insanın problemlərini unutmusunuz. Bundan sonra, cinayətkarın ümumi riyazi düsturunu tərtib edib göstərdilər ki, cinayətin müxtəlif kökləri vardır. Bunlar anadangəlmə və ya təsadüfi olmalarına baxmayaraq, onlar qatil də, oğru da ola bilərlər. Eyni zamanda onların arasında heç bir*

*ümumi cəhət yoxdur. Buna görə də onları bir anlayış altında birləşdirmək yolverilməzdir*".

İlk dəfə bir çox ingilis həbsxana həkimləri və başqa mütəxəsisslərin tədqiqi ilə başlamışdır. Bunu daha çox ingilis həkimləri və digər mütəxəssislər etmişdirlər. O vaxt məsələ belə qoyulmuşdur ki, cinayət törətmiş şəxs (Qədim Poma və Yunanıstanda olduğu kimi) hansı gözlə: kölə və ya başqalarına bənzəməyən xüsusi təbiətli canlı kimi baxılmalıdır?

Bəlkə cinayəti törədən insan ruhi xəstə və ya vəhşidir? Bəlkə də o, E. Ferrinin güman etdiyi kimi, degeneratdır? Bəlkə o, Ç. Lambrozonun iddia etdiyi kimi, epilepsiya xəstəliyinin daşıyıcısıdır? Bəlkə cinayətkar xüsusi psixologiyaya sahibdir? Qeyd etmək lazımdır ki, insan davranışının doğru işlənilib hazırlanmasına çox güclü təsir etmiş məhz psixiatriya üzrə təlimlərin inkişafı nəticəsində cinayəti törətmişin şəxsiyyətinin və onun xüsusiyyətlərinin tədqiq edilməsi mümküm olmuşdur. Belə ki, məsələn, B. Morits 22 müşahidə hallarının əsasında belə bir fərziyyə irəli sürmüşdür ki, cinayətkarın beyni normal insan beynindən fərqlənir[172]. Artıq bir ildən sonra o bəyan etmişdir ki, "*üzvi orqanik çatışmazlıq və ya peşəkar cinayətkarın psixologiyasının əsas elementi "nevrasteniya", yaxud fiziki, əxlaqi və əqli cəhətdən əsəbi zəiflik, əsəbi tükənmədir. Bu zəiflik anadangəlmədir, ya da erkən yaşlarında yaranmışdır*"[173].

Sonda o belə bir nəticəyə gəlmişdir ki, peşəkar, islaholunmaz cinayətkar faktiki olaraq "homo" adlanan cinsdən fərqlənən və ayrılan bir varlıqdır.

Qeyd edildiyi kimi, faktlarla tanışlıq P. Despini belə bir fikrə gətirib çıxarmışdır ki, ağır cinayətlər törətmiş şəxslərdə insana xeyir və şərin olduğunu diktə edən, cinayətkar istəkləri qınayan və gələcəkdə onlarda vicdan əzabı duyğularını yaradan

---

[172] Bax: Доклад на конгрессе в Антверпене в 1885 г.
[173] Cazetta de Tribunaux. 1852.

mənəvi hisslər olmur.

Həbsxanalarda və psixiatrik xəstəxanalarda iki minə qədər insanı araşdıran antropoloqlar qeyd etmişlər ki, xüsusi ilə özünü qabarıq göstərən vəziyyətlərdə, onlar bədən əlamətləri əsasında anadangəlmə qatilləri digər canilərdən fərqləndirə bilirlər. Bu cərəyanın ən parlaq nümayəndələrindən biri olan Ç.Lambrozo cinayətkarların, daha doğrusu, onların çoxunun özlərinə məxsus xarici xüsusiyyət (tipinin) daşıyıcısı olduqlarını iddia edən F.İ.Gallın ideyalarını inkişaf etdirmişdir. Onların fikrinə görə, elmi araşdırmaların vəzifəsi ancaq cinayətkarlara məxsus olan xüsusi xarici əlamətləri aşkar etməkdir.

İnsanın, xüsusən cinayətkar tiplərin bizim sivilizasiyaya düşmüş vəhşi olması fikrini, Lambrozo və daha çox Despin ifadə etmişdirlər. Məhz Lambrozo ilk dəfə "anadangəlmə cinayətkar" anlayışını istifadə etmişdir ki, bu da onun fikrinə görə müxtəlif xəstəlik meyllərinin və atavizmin nəticəsidir. Anadangəlmə cani "vəhşi və eyni zamanda xəstə adamdır". Cinayətkar haqqında bu iki baxışı uzlaşdırmaq imkanını Lambrozo bəzi orqanların inkişafdan geri qalması və xüsusilə zəif qidalanan psixi mərkəzlərin inkişafı ilə əlaqələndirir. Bu amil həmin orqanları, bir tərəfdən, "ən kiçik müqavimət" mərkəzlərinə çevirir, yəni onları müxtəlif pozulmalara sürükləyir, digər tərəfdən isə onları inkişafın ən aşağı tipinə qaytarır. O həm də iddia etmişdir ki, güya anadangəlmə cinayətkarın orqanizminin ifrazatı təsadüfi canidən və ya qanuna tabe olan insandan fərqlənir və anadangəlmə cinayətkar onlardan daha az sidik və normadan daha çox fosfatlar ifraz edir[174].

Lambrozo daha çox xüsusiyyətləri, hər şeydən əvvəl, anadangəlmə cinayətlarların kəllə sümüklərində, onların hər bir yerində, quruluşunda, cizgilərində tapmışdır. Məsələn, cinayətlarların, xüsusən oğruların kəllələri daha kiçik olur.

---

[174] *Ломброзо Ч.* Новейшие успехи науки о преступнике. 1892. С. 66.

Onlarda daha böyük kəllələr nadir hallarda olur. Lambrozonun laboratoriyasında yalnız kəllələr deyil, həm də qulaqlar, burunlar və s. araşdırma obyektləri olmuşdur.

Lambrozonun yığdığı xüsusi "tipin" təyin edilməsi üçün materialları araşdıran L.P.Manuvriye israrlı idi ki, onların əsasında yalnız bir şeyi iddia etmək mümkündür. Orta hesabla cinayətkarlarda adi insanlardan fərqli olaraq daha çox sapmalara rast gəlinir. Lambrozo "tipi" yaratmaq üçün müxtəlif, bir-birindən fərqli cinayətkarlarda olan əlamətləri birləşdirirdi. Lakin bu təsnifatı Manuvriye doğru hesab etməmişdir.

Əslində isə "patoloji" və ya cinayətkar insanın ümumi tipi mövcud deyildir. Cinayətkarların müxtəlif tipləri mövcuddur. Ümimiyyətlə, professor Manuvriyenin anatomik və fizioloji "cinayətkar tipinin" mövcud olması haqqında ədalətli iradları bundan ibarətdir.

IV Cinayət-antropoloji konqresdə Lambrozonun tələbəsi və həmkarı professor Ferri "cinayətkar temperament" haqqında məruzə ilə çıxış etmişdir. Bu məruzədə o, əvvəl Lambrozonun ardıcılları tərəfindən "cinayətkar tipə" və özünəməxsus xüsusi əlamətlərə malik olan "cinayətkar insan" anlayışından imtina etməyə cəhd etmiş, eyni zamanda cinayət hadisələrinin öz həqiqi mənşəyi olan psixoloji degenerasiya hadisələrinə aid edildiyini vurğulamışdır.

Cinayəti törədən şəxsləri S. V. Poznışev də müəyyən "tipə" aid edirdi. O yazırdı: "*Cinayətkar "tip" yalnız şəxsiyyətin məlum psixi xüsusiyyətlərinin cəmi deyil, həm də onun quruluşu, psixi xüsusiyyətlərinin kombinasiyasıdır. Bu kombinasiya da o şəxsiyyətin cinayətə doğru sürüklənməsinə təkan verir. Bu təkan nəticəsində insan cinayəti törətmək, imkan düşəndə ondan imtina etməmək, ya da heç olmasa belə cinayətkar istəyə qarşı çox da*

*güclü müqavimət göstərməmək istəyinə düşür*"[175].

Müasir hüquqşünas alimlər "*cinayətkarın şəxsiyyəti haqqında ayrıca, müstəqil sosial və psixoloji tip kimi danışırlar*"[176]. Bununla belə, onlar dəqiqləşdirirlər ki, "*Cinayətkarın şəxsiyyəti" anlayışı şərtidir, yalnız terminoloji baxımdan işlənilir. "Əslində "cinayəti törədən adamın (fərdin) şəxsiyyəti" demək daha doğru olardı*"[177].

Bu müəlliflərə görə cinayətkar ilə adi insanın şəxsiyyətləri nə ilə fərqlənir? Y. M. Antonyan və V. E. Eminov bu suala belə cavab verirlər: "Cinayətkarların *böyük bir hissəsinin və qanuna tabe olan vətəndaşların müqayisəli psixoloji araşdırması onu göstərmişdir ki, birincilər ikincilərdən impulsivliyin daha yüksək səviyyəsi ilə fərqlənirlər, deməli, onlar ilk qıcıqlandırıcı amilin diktə etdiyi ilə hərəkət etməyə meyllidirlər. Onlarda həm də təcavüzkarlıq müşahidə edilir ki, o da şəxsi münasibətlərdə həssaslıq və təsirlənməyə gətirib çıxarır*"[178].

Müəlliflər cinayətkarda hətta "*genetik baxımdan şərtlənmiş əmanətləri və meylliliklər*i"[179] görürlər. Psixologiya kitabında "Şəxsiyyət" adlı başlıq vardır. Bu nə deməkdir? Bu, o deməkdir ki, "şəxsiyyət" termini o qədər mürəkkəb və onun istifadə sahəsi o qədər genişdir ki, onun tərifini təyin etmək üçün üzərinə heç bir məsuliyyət götürmədən bu barədə çox yazmaq və xeyli fikir səsləndirmək mümkündür. Hazırda bu terminin onlarla tərifini sadalamaq mümkündür:

*Tiplər nəzəriyyəsi* (Hippokratın xolerik, melanxolik, sanqvinik, fleqmatik adlanın dörd əsas temperamentləri

---

[175]*Познышев С.В.* Криминальная психология.Преступные типы. М., 2007. С. 31.

[176] *Антонян Ю.М., Эминов В.Е.* Личность преступника. Криминолого-психо логическое исследование. М., 2010. С. 12.

[177] Göstərilən kitabda.

[178] Göstərilən kitabda. C. 9.

[179] Göstərilən kitabda. C. 10.

haqqındakı nəzəriyyəsi);

*Cizgilər nəzəriyyəsi* (insan şəxsiyyətinin cizgilərin və ya davranışın, düşüncənin, duyğuların, reaksiyanın və s. kimi xüsusi vasitələrin məcmusu haqqında nəzəriyyə).

Bundan başqa psixodinamik və psixoanalitik nəzəriyyələr də mövcuddur (Freyd, Yunq, Fromm, Horn). Şəxsiyyət onlarda inteqrasiya anlayışı vasitəsi ilə xarakterizə olunur. Cinayətkarların şəxsiyyətini hansı tərifə uyğunlaşdırmaq doğru olacaqdır?

Biz artıq qeyd etmişdik ki, antropoloqlar "cinayətkar tip" haqqında yazdıqda məlum "xarici" tip kimi, yəni cinayətkarları adi insanlardan fərqləndirən müəyyən xarici əlamətlərin kombinasiyası, onların təsnif edilməsi və tanınması üçün qulluq edən amil anatomik-fizioloji və antropoloji tip kimi ortaya qoymuşlar. Beləliklə, qeyd etdiyimiz bu "tipdə" idarəedici və həlledici amil xarici əlamətlərə məxsusdur. Buna görə, "cinayətkar tipi" nəzəriyyəsində duranlar öz diqqətini daha çox insanın xarici görkəminə yönəldirlər. Çətin ki, indiki zamanda kimsə cinayətkarın adi qanuna tabe olan insanlardan xarici əlamətlərlə fərqlənməsinə inansın.

Cinayətkar – heç də spesifik xarici xüsusiyyətlərə görə xüsusi tip deyildir. Fiziki baxımdan bu tam normal insandır. Bəlkə canilərin fərqli psixologiyası vardır? Ancaq psixologiya elmi bu qənaətə gəlməmişdir. Qatilin psixologiyası əslində müəyyən həyat şəraiti yetişəndə qatil ola biləcək hər bir insanın psixologiyasıdır. Cinayətkar bütün insanlar kimi fərdi xüsusiyyətlər məcmusuna malikdir. Hər bir insanın psixi və fiziki konstruksiyasını təşkil edən məlum fiziki və psixi xüsusiyyətləri vardır, eyni zamanda hər ikisinin tərkibi bir tərəfdən anadangəlmə, digər tərəfdən sonradan alınma xüsusiyyətlərdən ibarətdir. Buna gərə də cinayətkarları xüsusi kateqoriyaya, xüsusi "tipə" ayırmağın və onları mənfi mənada qeyri-adi şəxsiyyətlər kimi dəyərləndirilməsinin heç bir mənası yoxdur.

"Cinayətkarın şəxsiyyəti" anlayışı da əhali arasında mənfi

qarşılanır. Bundan başqa, “cinayətkarın şəxsiyyəti” anlayışını ehtiyatsızlıq üzündən cinayət törətmis insana aid edə bilərikmi?

Beləliklə, ***şəxsiyyət*** - insanı səciyyələndirən dünyagörüşü, psixoloji və sosial əlamətlərinin davamlı sistemidir. Cinayətkarlarda bu əlamətlərin xüsusi sistemini təyin etmək mümkündürmü? Bu gün elm həmin suala təsdiqedici cavab vermir.

***Şəxsiyyətin tipi*** - müəyyən insan toplusuna məxsus olan şəxsi xarakteristikaların abstrakt modelidir. Elə insanlar var ki, onların gözə parlaq görünən xüsusiyyətləri xarakteristikaların konkret sosial-mədəni sistemindən və şəxsiyyətin inkişaf səviyyələrindən ayrılır.

Lakin bu o demək deyil ki, onlar xüsusi bir tipi təşkil edirlər. Bu yalnız o insanların hansısa səbəblər üzündən aşağı inkişaf səviyyəsini göstərir. Məsələn, bütün həyatı boyu dağlarda yaşayan insan sonra sivilizasiyalaşmış Avropaya gedir və orada məskunlaşır. Əlbəttə, bu adam davranışında da, ünsiyyətində də və s. digərlərindən fərqlənəcəkdir. Ancaq bu o demək deyil ki, o cinayət törədib cinayətkar olacaqdır.

Hər bir insan – təkrarolunmaz xarakterik xüsusiyyətlərini məcmusuna və psixi amillərə malik olan, şəxsiyyəti başqalarından fərqlənən fərdiyyətdir. Bütün bunlar cinayətkara da məxsusdur. Ancaq elə xüsusiyyətlər yoxdur ki, onlar bütün cinayətkarları bir qrupa yığıb hansısa xüsusi şəxsiyyət “tipi” yaratsın. Buna görə güman edirik ki, “cinayətkarın şəxsiyyəti” anlayışından imtina edib “cinayəti törədən şəxslər” anlayışının istifadə edilməsi daha məqsədəuyğundur..

## 4. Cinayətkarlığın gələcəyi

Məlumdur ki, maksizm-leninizmin klassikləri cinayətkarlığın kökünün kəsilməsinin mümkünlüyünü iddia etmiş və bunu insanı insan tərəfindən istismar edilməsinə son qoymaqla

əlaqələndirmişlər. Bu təlimin ardıcılları Kriminologiya dərsliyində yazmışdırlar: "*Sosialist cəmiyyəti inkişaf etdikcə, cinayətkarlığın sosial kökləri kəsiləcək, ancaq cinayətkarlaığın bəzi səbəbləri davam edəcəkdir. Onlar sosializmin təbiəti ilə deyil, müəyyən çətinliklərlə və ziddiyətlərlə üzləşən və beynalxalq səviyyədə gərgin sinfi mübarizə aparan sosializmin qurulmasının konkret tarixi şəraiti ilə əlaqəlidir. Cinayətkarlıq kommunizm quruluşunda ölümə məhkum olacaqdır*"[180].

Sovet dövrünün demək olar ki, bütün alimləri bu mövqedə idilər. Buna görə kriminoloqlar öz qarşılarına cinayətin "ortadan qaldırılması", hətta onun "məhv olunması" vəsifələrini qoymuşdular, halbuki qərb alimləri hesab edirdilər ki, "sosializm cinayətkarlığın qarşısını ala bilməmişdir". Cinayətkarlığın müvəqqəti xarakter daşıması haqqındakı fikirlər Sovet alimlərindən əvvəldə də səsləndirilmişdir. Məsələn, utopist R. Ouen qeyd demişdir: "*Ümumi həyat səviyyəsini artırmağa israrlı olun və bunun üstündə durun, ictimai asayışın qorunmasında cinayətlərə qarşı həddən artıq sərt cəzalar tətbiq etməyin. Bunları etsəniz cinayətlər tədricən azalacaqdır. Çünki ən naqis belə özünə yer etmiş fəzilətin qarşısında uzun müddət dura bilməz*"[181].

Y. M. Antonyan haqlı olaraq qeyd edirdi ki, "*hazırda heç bir insan bu cür utopik planlar cızmır. Çünki hər kəsə aydındır ki, cinayətkarlıq bütün zamanlarda xəstəlik və ölüm kimi insanlığın təbii və qaçılmaz istiqaməti olacaqdır*"[182]. Bununla əlaqəli İ. İ. Karpetsin səmimi etirafını diqqətə çatdırmaq yerinə düşərdi: *"Cinayətkarlığın tam dərk edilməsi prosesinə tarixi retrospektiv baxış, tədricən bizin səhvlərimizi, yanlışlıqlarımızı və*

---

[180] Криминология: Учебник / Под ред. А.А. Герцензона, И.И. Карпеца, В.Н. Кудрявцева. М., 1966. С. 54.
[181] Sit: *Чубинский М.П.* Курс уголовной политики. 2-е изд. СПб., 1912. С. 178.
[182] *Антонян Ю.М.* Причины преступности. М., 2006. С. 16.

*xəyallarımızı bütün çılpaqlığı ilə açmışdır*”[183].

Bu gün cinayətkarlığın əbədiliyi haqqında bir çox məşhur alimlər yazmışdır. Məsələn, Y. M. Antonyan qeyd edirdi: “*Cinayətin bütün zamanlarda mövcud olması fikrinə praktiki olaraq şübhələrə yer verilməmişdir. Bu nəticə ona görə böyük əhəmiyyət kəsb edir ki, müxtəlif “günəş şəhərləri” qurucuları bunu iddia etsələr belə o, insanlığın qaçılmaz istiqaməti kimi heç bir vaxt yox olmayacaqdır*”[184].

Filosof E. Pozdnyakov da iddia edir ki, cinayətkarlıq “*insan təbiətinin, yəni bütün insanlığın gözəl və hərtərəfli elementlərindən biridir*”[185]. Yəni insan nə qədər varsa, cinayət də o qədər mövcud olacaqdır.

A. İ. Aleksandrov bu barədə yazmışdır: “*Cinayət üzərində tam qələbə çalmaq və onun yox edilməsi praktik olaraq yol verilməzdir. Bu ən azı bizə məlum olan sosial-iqtisadi formasiyalarda belədir. Bu yalnız ona doğru gedilməli bir idealdır”*[186].

Bildiyimiz kimi, cinayətin əbədiliyi nəzəriyyəsi qərbdə yaranmışdır. Bu barədə E. Dürkheym, U. Landen, Ç. Breytel və digərləri yazmışlar. Belə ki, Dürkheym hesab edirdi ki, “*Cinayətkarlıq normal bir hadisədir. Çünki onsuz cəmiyyətin varlığı tamamilə mümkün deyil. Cinayətkarlıq zəruridir: o hər bir sosial həyatın əsas şərtləri ilə sıx əlaqəli olmalıdır. Çünki özünün də tərkib hissəsi olan şərait əxlaqla hüququn həqiqi təkamülündən ayrılmazdır*”[187]. Onun fikrincə cinayətkarlıq sağlam cəmiyyətin elementidirsə, o zaman o mənfi və zərərli hadisə ola bilməz. Yəni,

---

[183] *Карпец И.И.* Преступность: иллюзии и реальность. М., 1992. С. 73.

[184] *Антонян Ю.М.* Göstərilən kitabda C. 14.

[185] *Поздняков* Э. Философия преступления. М., 2001. С. 502.

[186] *Александров А.И.* Философия зла и философия преступности. СПб., 2013. С. 148.

[187] *Дюркгейм* Э. Норма и патология. Социология преступности. Современные буржуазные теории. М., 1966. С. 40-42.

o zaman cinayət hardasa bir hadisə kimi faydalıdır. E. Şur da iddia etmişdir ki, "*bütün cinayətlərin yox edilməsi haqqında düşünmək mənasızdır*"[188].

Beləliklə, həqiqət ondan ibarətdir ki, cinayətkarlıq problemini heç bir sosial-siyasi sistem həll edə bilməmişdir. N. S. Taqantsevin dediyi kimi, "*Bütün xalqların həyatı bizə şahidlik edir ki, həmişə və hər yerdə müxtəlif səbəblər üzündən qadağan olunmuş əməllər törədilmişdir. Onlara və onları törədənlərə qarşı dövlət və cəmiyyət məlum tədbirlər görmüşdür. Çünki bu əməllər cinayətkar davranışlar kimi qiymətləndirilmişdir. Həm də hər zaman ictimai asayışın qaydalarına, hakimiyyətin tələblərinə tabe olmayan şəxslər də mövcud olmuşdur*"[189].

Təbabət öyrədir ki, hansısa xəstəliyə qarşı müalicə vasitəsi tapmaq üçün ilk əvvəl onun mənşəyini açmaq və səbəbini araşdırmaq lazımdır. Güman edirik ki, cinayətkarlığın əbədiliyi və ya davamsızlığı haqqında məsələ insanın cinayətkar davranışının səbəbləri kontekstindən kənarda həll edilə biməz. Cinayətlərin səbəblərinin yalnız sosial xarakter daşıdığı tezisindən şıxış etsək, onda cinayətkarlığın əbədiliyi sual altında olacaqdır. Çünki elə bir cəmiyyət ola bilər ki, cinayətin baş verməsi üçün bu sosial şəraitlər orada olmasın. Əgər cinayətkar davranışın səbəbləri bilavasitə, xarici sosial şəraitlə əlaqəli olmadan, insan təbiəti ilə bağlıdırsa, onda bu şərin mənşəyini aşkar etməyənə və onun kökünün kəsilməsi üçün vasitələrin tapılmamasına qədər cinayətkarlıq mövcud olacaqdır.

Nəhayət, cinayətin səbəbləri kimi həm ətraf mühit, həm də insanın psixofiziki xüsusiyyətləri çıxış edə bilər. Belə olan halda həm sosial mühit, həm də insan "qüsurlarının" ləğv edilməsi şərti ilə cinayətkarlıq yox edilə bilər. Təəssüf ki, bu gün biz insanın cinayətkar davranışının səbəbləri haqqında sualları cavablandıra

---

[188] *Шур Э*. Наше преступное общество. М., 1979. С. 15.

[189] *Кудрявцев В. Н.* Стратегии борьбы с преступностью. М., 2003. С. 9.

bilmirik. Buna görə də cinayətkarlıq bizim üçün əbədi şərə çevrilmişdir.

İndi nə etməliyik? Bəlkə cinayətkarlıqla mübarizənin heç bir mənası yoxdur? Y. M. Antonyan bu suallara belə cavab verir: "*Cinayətkarlıqla mübarizə insan imkanları daxilindədir. Ancaq bu məsələdə onun tam kökünün kəsilməsi haqqında absurd məsələlər qoyulmamalıdır*"[190].

V. N. Kudryavtsev bu mübarizənin ağır olduğuna işarə edərək qeyd etmişdir: "*Cinayətkarlıqla mübarizə uzun müddətli və əbədi səciyyə daşıyır. İlk baxımdan məğlub və darmadağın olmuş cinayətkar qüvvələr elə bil yenidən yoxdan yaradılıb, "göbələklər" kimi artmışlar. Yeni cinayət davranışları ortaya çıxır, cinayətkarların əhatəsinə yeni, daha savadlı insanlar daxil olur*"[191].

Son zamanlar bizə məlum olan "savaş", "mübarizə", "ləğv edilmə" kimi sözlərin yerinə daha çox "nəzarət" termini işlənməkdədir. Hətta cinayət törətmiş şəxslərə bütün müraciət formalarını "cinayətkarlığa qarşı reaksiya" kimi vahid terminlə birləşdirmək cəhdləri də vardır. V. N. Kudryavtsev güman edir ki, "mübarizə" sözünün dəyişdirilməsi cinayətkarlığa qalib gəlməyin imkansızlığı kimi də başa düşülə bilər. Belə çıxır ki, biz ona üstün gələ bilmədiyimiz üçün onu yalnız "nəzarət" altında saxlayırıq, yəni hadisələrin gedişini izləmək məcburuiyyətində qalırıq[192].

V. N. Kudryavtsev onda haqlıdır ki, "nəzarətdə" saxlamaq ifadəsi cinayətkarlıqla mübarizədə cəmiyyətin acizliyini, passivliyini və səmərəsizliyini göstərir. Biz hesab edirik ki, "cinayətin qarşısının alınması" ifadəsini işlətmək daha məqsədəuyğundur. Çünki o, "mübarizə" sözündən daha demokratik və mütərəqqidir.

---

[190] *Антонян Ю.М.* Göstərilən *kitabda*. С. 7.
[191] *Кудрявцев В. Н.* Указ. соч. С. 29
[192] Göstərilən *kitabda*. С. 36.

Əgər biz cinayətin kökünün kəsilməsi iqtidarında deyiliksə, bəs onda cəmiyyət qarşısındı nə kimi vəzifə qoyulmalıdır? Y. M. Antonyanın fikrincə, "*cinayətkarlığının vəziyyətinin sivilizasion səviyyədə saxlanılması aktual vəzifə olaraq qalmaqdadır*"[193].

Cinayətkarlığın gələcəyi haqqında problem maraq kəsb edir. Burada söhbət yalnız bu hadisənin əbədi və ya müvəqqəti olmasında deyil, həm də onun yaxın gələcəyindən bəhs edilir. Bu maraq təbii olaraq onun qarşısının alınmasına hazır olmaq zərurətindən döğur. Ancaq cinayətkarlığın gələcəyini heç olmasa 3-5 il önə çəkildiyini təsəvvür etmək üçün onun vəziyyəti və kəmiyyət göstəricilərindən, müəyyən zaman kəsimindəki dinamikasından, yəni cinayətkarlığın keçmişdə və günümüzdəki vəziyyəti haqqında məlumatımız olmalıdır. Bu isə bilindiyi kimi, cinayətkarlığın proqnozlaşdırılması problemidir. O da bizdən cinyətkarlıq sahəsində dəyişikliklərin əvvəlcədən öyrənilməsi qabiliyyətini tələb edir[194]. "*Proqnozlaşdırma o alətə çevirilmişdir ki, bizə gələcəkdə cinayətkarlıq sahəsində dəyişikliklərin qanunauyğunluğunu öyrənmək inkanını verir. O cinayətkarlığın öyrənmə metodunun xüsusiyyəti olmuşdur*"[195].

Belə bir proqnozlaşdırma mümkündürmü? Riyaziyyatçılar sübut etməyə müvəffəq olmuşlar ki, qeyri-xətti və qeyri-müntəzəm sistemin gələcək vəziyyətitini müəyyən dərəcədə dəqiqliklə təyin edilməsi imkansızdır. Bu belə bir sistemdir ki, onun azacıq əyilməsi çox böyük dəyişikliklərə səbəb ola bilər və bu sistem stabillik vəziyyətindən uzaqlaşa bilər. Bu sistemdə real görünən hər bir tendensiya hər an dəyişə bilər və gələcək proses prinsipial olaraq təsadüfə çevirilə bilər. İddia etmək mümkündür

---

193 *Антонян Ю.М.* Указ. соч. С. 17.

194 Cinayətin proqnozlaşması imkanları barədəsində daha ətraflı bilgi almaq üçün bax: *Аванесов Г .А.* Теория и методология криминологического прогнозирования. М., 1972; *Рагимов И.М.* Теория судебного прогнозирования. Баку, 1987.

195 *Аванесов Г.А.* Göstərilən kitabda. C. 27.

ki, cinayətkarlıq da bu tipli sistemlərə aiddir. Yəni, cinayətkarlığın gələcəyini proqnozlaşdırmaq vəziyyətini hətta 2-3 il əvvəl dəqiqliklə bilmək mümkün deyildir. Çünki o, kütləvi antisosial hadisə olaraq əhəmiyyətli dərəcədə amorf, xaotik və kortəbii bir quruluşdur. Bu, "*Yüksək təşkil olunmuş orqanizmin, müxtəlif mikroorqanizmlər toplusunu*" yeməsinə bənzərdir"[196].

Yəni, cinayətkarlıq haqqında əvvəlcədən xəbər vermənin imkansızlığı, onun bilinməsi gözlənilməz xarakter daşıyır. Kimin nə vaxt, hansı səbəb üzündən və hansı cinayəti törədəcəyi haqqında bizim xəbərimiz olmur. Həm də biz insanlığın bütün mərhələlərində cinayətkarlığın varlığını izah edə bilmirik.

Bu baxımdan biz nə üçün cinayətkarlıq insanlığın qaçılmaz və ölməz yol yoldaşıdır sualına cavab tapmadığımız müddətdə, cinayətkarlığın gələcəyini proqnozlaşdırmağa hazır olmayacağıq. Eyni zamanda, onu nəzərə almaq lazımdır ki, cinayətkarlıq ehtimal olunan qanunauyğunluqlara, obyektiv və subyektiv faktorların təsirinə tabe olan statistik sistemdir.

Beləliklə, cinayətkarlığın proqnozlaşdırılmasının məqsədi gələcəkdə cinayətkarlığın inkişafını (yönünün dəyişməsini) səciyyələndirən ən ümumi göstəricilərin formalaşmasından, bunun əsasında arzuolunmaz təmayüllərin və qanunauyğunluqların açılması və bu təmayüllərlə qanunauyğunluqların doğru istiqamətdə dəyişmə üsullarının tapılmasından ibarətdir.

Bu mövqedən çıxış edərək gələcək 5 il ərzində Azərbaycandakı cinayətkarlığın ehtimal olunan vəziyyətini təyin etməyə cəhd edəcəyik. Əvvəlcə keçmişdə və gələcəkdə olan cinayətkarlığın vəziyyətinin təhlilindən başlayaq və onun 50 il müddətində baş verən dinamikasını izləyək. Bütün bu dövrü şərti olaraq iki hissəyə ayırmaq mümkündür. Sovet Azərbaycanında və müstəqillik dövründəki cinayətkarlığın vəziyyətini və dinamikasını göstərmək olar.

---

[196] *Кудрявцев В.Н.* Göstərilən kitabda. C. 27.

Prinsipcə, təsdiq etmək olar ki, siyasi quruluşdan asılı olmayaraq, Azərbaycanda son 50 ildə cinayətkarlığın artması müşahidə olunmuşdur. Belə ki, 1961–1970 illərdə cinayətkarlığın orta illik səviyyəsi 13 600 cinayətdən ibarət idisə, 1971-1980-ci illər arasında bu səviyyə 14650, 1981-1990 illərdə isə 15 850-yə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, əhalinin sayı o qədər də çox olmayan respublika üçün cinayətkarlığın bu kimi artma təmayülü gözə çarpandır.

1981-ci ildən başlayaraq cinayət göstəricilərinin ümumi yüksəlişi müşahidə olunmuşdur: 1981 ildə 42%, 1985 ildə 45 %, 1990 ildə 58% olmuşdur. Tədricən ən ağır, hətta digər zorakılıqla müşayiət olunan cinayətlərin sayı da artmışdır. 1981-ci ildə törədilən cinayətlərin ümumi sayından 390-nı qətllər təşkil edirdisə, 10 ildən sonra, 1991-ci ildə bu rəqəm 489-a yüksəlmişdir. 1981-ci ildə ağır bədən xəsarəti yetirməklə törədilən cinayətlərin sayı 222, 1991-ci ildə 397, həmən ildə quldurluqla törədilən cinayətlərin sayı 169, qarətlərin sayı isə 186 olmuşdur. 1991-ci ildə isə bu rəqəmlər müvafiq olaraq 295, 213 idi. Eyni zamanda, zorlamaların sayı azalmışdır: 1981 ildə —119, 1991 ildə isə 48-ə düşmüşdür. 1986-cı ildən başlayaraq dövlət və ictimai əmlakın oğurlanması hallarının kəskin artımı müşahidə edilmişdir.

Belıliklə, sovet Azərbaycanında həyata keçirilən cinayətkarlığa qarşı sərt və kəskin siyasətə baxmayaraq cinayətlərin, o cümlədən ağır və ən ağır cinayətlərin artımı müşahidə olunmuşdur. 1970-ci ildə cinayət törətmiş şəxslərin 28-32% azadlıqdan məhrum etməklə cəzalanmışlar, 1970-ci ildən başlayaraq isə bu rəqəm 52%-dən aşağı düşməmişdir. Çox vaxt müxtəlif cinayətlərin, o çümlədən iqtisadi zəmində törədilmiş cinayətlərin törədilməsinə görə ölüm cəzası tətbiq edilmişdir. Belə ki, 20 il ərzində, daha doğrusu 1971-ci ildən başlayaraq 1991-ci ilə qədər Azərbaycanda 400 nəfər insan ölüm cəzasına məhkum edilmişdir ki, bu da ildə 20 nəfərə bərabərdir. Sovet Azərbaycanında cinayətkarlığın vəziyyəti və dinamikasının

mənzərəsi ümumiyyətlə belə olmuşdur.

Son 12 il ərzində əldə edilən statistik rəqəmlər onu göstərir ki, müasir Azərbaycanda da cinayətkarlığın artımı müşahidə edilməkdədir. Ümumi mənzərə belədir: 2000-ci ildə 13 958 cinayət törədilmişdir. 2001 ildə 14 607, 2002 ildə 15 520, 2003 ildə 15 206, 2004 ildə 16 810, 2005 ildə 18 049, 2006 ildə 18 667, 2007 ildə 19 045, 2008 ildə 20 185, 2009 ildə 21 250, 2010 ildə 23 000, 2011 ildə 24 000, 2012 ildə 24 320 cinayət hadisəsi qeydə alınmışdır.

Məlum olduğu kimi, qətl, qarət, zorlama, quldurluq və narkomaniya kimi cinayət növləri cinayətkarlığın nüvəsini təşkil edir. Buna görə, onun vəziyyətini təkcə statistik rəqəmlərlə deyil, həm də ağır və təhlükəli cinayətlərin xarakteri və payı ilə qiymətləndirmək lazımdır. Nəzərdə tutulmalıdır ki, məhz yuxarıda sadalanan cinayət növləri son onilliklər ərzində özünü göstərmişlər. Bu amil də gələcəkdə cinayətkarlığın səviyyəsinin proqnozlaşdırılmasında və təyin edilməsində nəzərə alınmalıdır.

Azərbaycanda cinayətkarlığın vəziyyətinin, dinamikasının və xarakterinin təhlil edilməsi nəticəsində hansı nəticələrə gəlmək mümkündür?

***Birincisi,*** cinayətkarlıq bir formasiyadan başqa formasiyaya doğru, onun içində siyasi və iqtisadi ziddiyyətlərdən və dönüşmələrdən asılı olaraq dəyişir.

Azərbaycanda kommunist rejiminin dağılmasına qədər hər il bütün məhkumların ümumi sayından 6-10%-ni kənd təsərrüfatı məhsullarının alverçiliyinə, bir o qədər də alıcıların aldadılmasına görə azadlıqdan məhrum edilirdilər. Əlbəttə bütün bunlar respublikada cinayətkarlığın ümumi mənzərəsinə təsir edirdi.

Eyni zamanda, qanunvericiliyimizdə elə cinayət növlərinə görə məsuliyyət nəzərdə tutulub ki, onlar sovet Azərbaycanında olmamışdır. Buna görə nəzərə almaq lazımdır ki, cinayətkarlığın obyektiv dəyişməsi ilə yanaşı, həm də subyektiv faktorlar da mövcuddur, hansı ki, onlar qanunvericilikdə və qanunvericilik

praktikasında dəyişikliklərdən asılıdır.

***İkincisi***, cinayətkarlıq dinamik inkişaf edən hadisə olduğuna görə, ona cəmiyyətdə gedən bütün proseslər kontekstində baxılmalıdır. Cinayətkarlıq o halda özünü bütün şiddəti ilə cəmiyyətin iqtisadi, sosial və siyasi problemlərin və ziddiyyətlərin məngənəsində çırpındığı zamanı bildirir. Heç bir sosial-siyasi sistem bu qanunauyğunluqdan qaça bilmir. Tam əminliklə demək mümkündür ki, bir milyona yaxın qaçqın ordusunun yaranmasına gətirib çıxaran Qarabağ münaqişəsi 1989–1992 illərdə respublikada cinayətkarlığın artıma doğru gedən vəziyyətinə ciddi təsir göstərmişdir. Gələcəkdə isə bu artıma bütün sovet respublikalarını siyasi, iqtisadi və hüquqi böhranla üzləşdirən Sovet İttifaqının dağılması təkan vermişdir. O zaman qətllərin və ağır cinayətlərin kəskin artımı prosesi başlamışdır. Belə ki, 1988-ci ildə Azərbaycanda 285 qətl hadisəsi törədilmişdirsə, bu rəqəm 1990-cı ildə 482, 1991-ci ildə isə 489 olmuşdur. Ümumiyyətlə qəsdən törədilmiş cinayətlərin ümumi göstəricisi 1992-1998-ci illər arasında 450 olmuşdur. 1999-cu ildən başlayaraq cinayətin bu növünün sayı azalmağa başlamışdır. Orta hesabla cinayətin bu növünün sayı 200-ə bərabər olmuşdur. Şübhəsiz, bu eniş birbaşa respublikada stabilliyin, xüsusi ilə siyasi stabilliyin yaranması ilə əlaqəli olmuşdur.

Buna görə cinayətkarlığın, xüsusən onun nüvəsini təşkil edən qətllərin, zorakılıqla müşaiyət edilən ən ağır cinayətlərin, quldurluğun və qarətlərin gələcəyi heç şübhəsiz cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi həyatından asılıdır.

Cinayət hadisələrinin qarşısını almaqla məşğul olan qurumların fəaliyyətindən də çox şey asılıdır. Çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, çox güclü praktik vasitələrimizin olmasına baxmayaraq, biz bu sahədə hansısa irəlləyişi müşahidə edə bilmirik. Belə ki, hamımız bilirik ki, korrupsiya Azərbaycanda cinayətkarlığın inkişaf etməsində çox təhlükəli bir hadisəyə çevirilmişdir. O cəmiyyəti qaçılmaz olaraq tənəzzüllə doğru

aparır. Bizim qanunvericiliyimizdə korrupsiya və rüşvətxorluğa görə çox ciddi cəza nəzərdə tutulub. Ancaq bu cəza yalnız Cinayət Məcəlləsində qalmaqdadır və reallıqda tam gücü ilə tətbiq edilmir və hətta istehza ilə qarşılanır. Bu isə ona gətirib çıxarır ki, insanların korrupsiya və çirkli pulların yuyulması, gəlirlərin gizlədilməsi, qanunsuz özəlləşdirilmə və s. bu kimi iqtisadi cinayətlərə olan münasibəti bu gün ictimai əxlaqın enməsinin göstəricisi kimi dəyərləndirilə bilər. Çünki bu kimi əməllərə qarşı əhalinin mənfi reaksiyası müşahidə olunmur. İctimai şüurda bu kimi cinayətlər təhlükəli, əxlaqsız, zərərli deyil, tam normal hadisə kimi qiymətləndirilir.

1992-ci ildən başlayaraq rüşvətxorluq hallarının sabit olaraq azalması meyli müşahidə olunur, praktiki olaraq Azərbaycanda korrupsiya hallarına rast gəlinməmişdir. Bu təbii ki, reallığa uyğun deyildir. Belə ki, 1997-ci ildə 68, 1998 -ci ildə 66, 1999-cu ildə 68, 2001 -ci ildə 54, 2004-cü ildə 5, 2007-ci ildə isə 8 rüşvətxorluq halları aşkar edilmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək mümkündür ki, yaxın 5 il ərzində pespublikada cinayətkarlığın artımını saxlamaq mümkün olmayacaqdır. Əlbəttə, müvafiq sosial və hüquqi xarakterli tədbirlər görülməsə, cinayətkarlıq daha da artacaqdır. Əhalinin hələ də psixoloji cəhətdən dərk edə bilmədiyi mövcud sosial ədalətsizlik, varlılarla yoxsullar arasında olan uçurum, maddi sərvətlərin bərabər paylanmaması, həyatdakı bir çox problemlərin hüquqi vasitələrlə həll edilməsinin imkansızlığı insanların psixologiyasına çox güclü təsir edəcəkdir. Bu da bəzi hallarda zorakılıqla müşaiyət edilən cinayətlarin törədilməsinə gətirib çıxaracaqdır. Buna görə qətl, ağır bədən xəsarəti yetirmək, xuliqanlıq kimi cinayətlər ən yaxşı halda indiki səviyyədə qalacaqdır. Qarabağ münaqişəsinin həll edilməməsi də həmçinin cinayətkarlar kateqoriyasına öz mənfi təsirini göstərəcəkdir. Əhalinin müəyyən hissəsinin iqtisadi vəziyyəti oğurluq, quldurluq, dələduzluq, vergilərdən yayınma

kimi cinayət növlərinin artmasına təkan verəcəkdir. Belə ki, indi oğurluq bütün cinayətlərin 16%-dən çoxunu təşkil edir.

Eyni zamanda nəzərə alınmalıdır ki, oğru, quldur, fırıldaqçıların 90 faizi əmək qabiliyyəti olan, lakin heç yerdə işləməyən insanlardır. Bizim proqnozlara görə narkotiklərlə əlaqəli cinayətlırin sayı artacaqdır. Orta hesabla hər il respublikada 2500 belə cinayət törədilir, bu da qeydə alınmış cinayətlərin 15 faizini təşkil edir. Müvafiq orqanların kifayət qədər səmərəli fəaliyyətinin olmaması bu nəticələrə gəlməyə imkan vermişdir.

Beləliklə, cinayətkarlığın gələcək vəziyyəti və dinamikası həm məkan, həm də zaman kəsiyində dəqiq deyil, nisbidir. Çünki harada, nə vaxt və kim tərəfindən növbəti cinayətin törədilməsini əvvəlcədən bilmək mümkün deyildir. Eyni zamanda, statistik proqnozların həyata keçirilməsi ilə güman etmək mümkündür ki, ildən-ilə cinayətkarlıq hallarının müəyyən növləri təkrarlanacaqdır. Təbii ki, burada bəzi göstəricilərin dəyişməsi də mümkündür.

# II F Ə S İ L
# CƏZA

***Anlayışı və mahiyyəti. Məzmun və xüsusiyyəti. Cəzalandırma hüququ. Cəzanın gələcəyi***

## §1. CƏZANIN ANLAYIŞI VƏ MAHİYYƏTİ

**Cəzanın mahiyyətinin dini-fəlsəfi əsası.** Cəzanın anlayışı və mahiyyəti barəsində əsrlər boyu qızgın mübahisələr getmiş, mövzu ilə əlaqəli müxtəlif konsepsiyalar, nəzəriyyələr və təlimlər yaranmışdır. Hətta "cəza" sözünün özünə münasibətdə heç vaxt birmənalı fikir mövcud olmamışdır. Belə ki, bir neçə əsr əvvəl o, təzminat mənasında işlədilirdi. Bundan əvvəl isə cəza "qisas" anlayışına bərabər tutulurdu. Klassik hüquqda cəza iztirab, pozitivistlərə görə qabaqlayıcı (preventiv) və təzyiqedici (repressiv) müdafiə, dində isə Tanrı cəzası kimi dərk edilirdi. F. Nitsşe isə cəzanı açıqlamağa cəhd edərək, onun haqqında aşağıdakıları qeyd etmişdir: "*Cəzanın digər fərqli elementinə və onun mənasına gəldikdə, mədəniyyətin sonrakı mərhələlərində (Avropada) "cəza" anlayışı doğrudan da heç bir məna kəsb etmirdi. Onda "mənaların" sintezi də, cəzanın əvvəlki dövrlərdəki tarixi də, onun müxtəlif məqsədlər üçün tətbiq edilməsinin tarixi də, bir növ birliyə, çətin həll olunana, çətinliklə təhlilə məruz qalana doğru irəliləyir və keçilməz bir həddə çevirilirdi*" [197].

Bəzən bir sıra müəlliflər, xüsusən filosoflar cəzanın mahiyyəti, məzmunu və anlayışı arasında fərq qoymamışlar. Bunu Platona, Aristotelə və Huqo Qrotiusa da aid etmək olar. Axı biz cəza anlayışını təyin etmək istəyiriksə, özümüzə "o nədir?" sualını veririk. Belə bir nəticəyə gəlirik ki, dövlətin qarşısına qoyduğu məqsədlərə çatması üçün cəza xüsusi bir vasitədir. Əgər burada

---

[197] Правовая мысль: Антология. М., 2011. С. 309.

soruşulsa ki, bu vasitənin mahiyyəti nədir? Onda cavab verə bilərik ki, - bunun mahiyyəti intiqamdır. Nəhayət, cəzanın məzmunu nədən ibarətdir? - sualına cavab axtarsaq, o zaman məzmunu cəzalandırmanın elementlərində axtara bilərik. Cəzanı dərk edib, ona tərif vermək ancaq onun məzmun və mahiyyətini aydınlaşdırmaq şərti ilə mümkündür. Buna görə cəza anlayışına tərif vermək üçün əvvəlcə onun məzmun və mahiyyətinə müraciət edilməlidir. Bunu edərkən nəzərə alınmalıdır ki, "məzmun" və "mahiyyət" hüquqi deyil, fəlsəfi kateqoriyalardır.

Demokrit demişdir: "*Mən varlıq haqqında söhbət edəcəyəm*". O zaman "*Var olan nədir*?" sualına cavab elə mahiyyətin özüdür. Bu da o deməkdir ki, mahiyyət hadisələrin müxtəlif variantlarındakı, o cümlədən müvəqqəti variantlarında qorunub saxlanılan həmin varlığın əsasıdır. Məntiqdə mahiyyət - elə bir ayrılmaz keyfiyyətdir ki, onsuz bir şey haqqında düşünmək belə mümkün deyildir.

D. A. Kərimov qeyd etmişdir: "*Mahiyyət elə bir daxili substansiyadır ki, "hadisə" anlayışı ümumiləşən xarici təzahürlərin əks mənası kimi başa düşülür. Bu davamlı münasibət, hadisələrin çoxluğundakı bir vahidlikdir*"[198]. V. V. Sorokina da mahiyyət anlayışını belə dərk edir: *"Fəlsəfi kateqoriya olan "mahiyyət" bütün şeylərin anlaşılmasının başlanğıcıdır*". *Mahiyyət özünü varlığın bütün ziddiyətli və çoxnövlü formalarında göstərən predmetin daxili məzmunudur*"[199].

Yəni, cəza kimi hadisənin mahiyyətini dərk etmək üçün onun inkişafında və funksiyanın təyin edilməsində mühüm və başlıca olanı açmaq, onun məqsədini bilmək, nəyə görə zəruri olduğunu anlamaq lazımdır. Başqa cür desək, cəzanın mahiyyət baxımından məqsədini bimək üçün onun zəruri olan daxili, əsas və dayanıqlı xüsusiyyətlərini açmaq lazımdır. Onların özəlliyi,

---

[198] *Керимов Д.А.* Методология права... С. 155.

[199] *Сорокина В.В.* Введение в философию права. С. 289.

inkişaf və təsir qanunauyğunluqlarının birliyi və qarşılıqlı şərtlənməsi insan davranışının əsasını təyin və təşkil etsin.

Cəzanın mahiyyəti obyektiv xarakter daşıyır. Bu, o deməkdir ki, o, tarix boyu cəza ilə birlikdə təzahür olunan həqiqətdir, subyektiv-obyektiv fenomen deyildir. Bu istiqamətdə cəza anlayışı cəzalandırma və qisas kimi qəbul edilir.

Hesab edirik ki, cəzanın mahiyyətini anlamaq üçün repressiyaların tarixi inkişafının təhlili çox əhəmiyyətlidir. Bu da cəmiyyətin öz üzvlərinin davranışına qarşı elə bir reaksiyasıdır ki, onun təhlükəli olduğu üçün qarşısı alınmalı və ya təsir gücü müəyyən qədər zəiflәndirilməlidir. Bunu edərkən nəzərə alınmalıdır ki, cəzanın mahiyyəti, cəzalandırma haqqında nəzəriyyədə olduğu kimi, yalnız hüquqi anlayışların və cəzanın faydalı və ya faydasız olması haqqındakı praktiki göstəricilərin əsasında heç vaxt müsbət nəticəyə gətirib çıxarmaz. Bu isə çox mürəkkəb bir məsələ olmaqla yanaşı, onun tədqiqi cinayət hüququnun hüdudlarından çox-çox kənarda qalan bir məsələdir. Xüsusilə, fəlsəfə, sosiaologiya və psixologiyanın iştirakı olmadan cəza və onun mahiyyətinin araşdırılması həmişə səthi xarakter daşıyacaqdır. Günümüzdə də cəzanın mahiyyəti haqqındakı elmi bilikləri biz kriminalistlərin deyil, filosofların fikirlərinin və digər elmlərdən olan tədqiqatçıların araşdırmaları əsasında əldə edə bilmişik.

İnsan hər zaman və indi də cəzanı psixoloji yöndən qisas kimi dərk edir. Cəzanın qisas olması fikri insan düşüncəsində o qədər dərin kök salıb ki, o ondan başqa bir mahiyyətə sahib deyildir. Bütün hallarda cinayətdən əziyyət çəkən insanın maraqları təmin olunmalı, yəni işlətdiyi şər əmələ görə cinayətkardan qisas alınmalıdır. Bəzən isə bunu da cəza kimi başa düşürlər. Buna görə də cəzanın əsas mahiyyəti cinayətə görə qisasın alınmasıdır. Ancaq hansı qisasdan söhbət gedir? Əlbəttə ki, söhbət klassik mənada qisas almadan deyil, mütləq ədalətdən, yəni cəzanın cinayətin ictimai və əxlaqi ifadəsi kimi

dəyərləndirməsindən gedir.

S. P. Mokrinski qeyd etmişdir ki, "*müasir qisasın mənşəyi əsrlər boyu davam edən ümumi qisas anlayışından irəli gəlir. Günümüzdəki qisas bir çox xüsusiyyətlərinə görə tarixi prototipindən çox fərqlənir. Özünə və ya digərlərinə görə qisas almaq istəyi cinayəti törədənə qarşı hiss edilən nifrətdən irəli gəlir. Əksinə, müasir qisas törədilmiş cinayət faktına deyil, əxlaqi normanın tapdanması mənasında cinayət hüququnun pozulmasının (deliktin) abstrakt anına əsaslanır"*[200].

Qisası necə başa düşməyimizdən asılı olaraq cinayəti törədən şəxsə - cinayətkara münasibətimiz dəyişir. Cəza dövlətin zor tətbiq etməsi, törətdiyi cinayətə görə insana əzab vermə iqtidarında olmasının göstəricisinə görə deyil, cəmiyyətin əksəriyyətinin onu təqdir etməsinə görə ədalətli hesab edilir. Çünki o bununla vətəndaşların ədalət hissini təmin edir.

B. N. Çiçerin vaxtı ilə çox ədalətli bir fikir söyləmişdir: "*Cəzanın həqiqi nəzəriyyəsi odur ki, hüququn mahiyyətini təşkil edən əsaslara və hər biri insanın əməllərinə görə qarşılıq verən əhatəli bir mənbəyə əsaslansın*"[201].

Qədim filosoflar cəzanın törədilən cinayətin qarşılığı kimi qisas alma vasitəsi fikirini irəli sürmüşdülər. Belə ki, Aristotel cəzaya qisas mənası verərək göstərdi ki, "*insanlar şərin qarşısını şərlə almağa çalışırdılar*". Lakin bu cür qisas ala bilməyən insan qul hesab olunurdu. Bu kimi ideyalara Platonda, Siseronda və Senekada da rast gəlmək mümkündür. Bu istiqamətdə cəzanın fəlsəfəsi ən qədim dövlətlərin qanunvericiliklərində bir ehkam şəklində mövcud olmuşdur. Bu baxımdan cəza hüququ qisas instinktinin təzahürü kimi dəyərləndirilirdi.

Yunan və Roma filosoflarının əsərlərində cəzanın qisas

---

[200] *Мокринский С.П.* Наказание, его цели и предположения: В 3 ч. М., 1902. С. 82–83.

[201] *Чичерин Б.Н.* Философия права. СПб.: Наука, 1998. С. 127.

mahiyyətli olması haqqında hansısa təlimi axtarmaq mümkün deyil. Buna baxmayaraq, onlar cinayət hüququ məsələlərində öz aforizm və müddəalarnı bizə miras goyub getmişdirlər.

Huqo Qrotiusdan başlayaraq "cəza - qisas" doktrinası daha aydın şəkildə ortaya çıxmağa başlamışdır[202]. O, cəzanı talionla[203] eyniləşdirir, öz baxışlarını tarixi faktlarla sübut etməyə çalışırdı. Bu nəzəriyyə yeni dövrün alman fəlsəfəsində formalaşmış və tanınmışdır. Kant qisas ideyasını cəzanın yeganə mahiyyəti kimi qiymətləndirmiş ilk filosof olmuşdur. O qeyd edirdi: "*Şər şərlə ödənməyi tələb edir. Yalnız bərabərlik prinsipi ilə qisas cəzanın həcm və qədərini və ya təsir gücünü təyin edə bilər*"[204].

Həm fəlsəfi fikrin inkişafı, həm də cinayət hüququ təlimində Hegelin qisas nəzəriyyəsi böyük əhəmiyyət kəsb etmişdir. Hegelə görə hüquq - ədaləti qisas vasitəsi ilə bərpa etməlidir. Hegel iddia etmişdir ki, "*cəza qisasdır. Ancaq bu qisas, vurulan zərərin dəyəri ilə cinayətkara kəsilən cəzanın dəyəri arasındakı bərabərlik deyildir*"[205]. Bu da müxalif iradənin öz-özünə mövcud olan azad və əqli iradəyə tabe olmaqla reallaşır.

Beləliklə, Kant və Hegelin cəza haqqındakı nəzəriyyələrinin məzmunu cinayət əməlinə görə verilən cəzanın və vurulan zərərin əvəzinin ödənilməsindən ibarətdir. Cinayət dini baxımdan günah əməl hesab edilir, cəza isə bu günahın yuyulmasıdır[206]. Fərq yalnız ondan ibarətdir ki, Kant maddi, Hegel isə dialektik qisas nəzəriyyəsini irəli sürmüşdür. Yəni, Kanta görə qisas riyazi

---

202 *Hugo Qrotius*. De jure belli ac pacis, 1625.

203 Talion (lat. talio) - "can əvəzinə can, göz əvəzinə göz, diş əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə ayaq, yanıq əvəzinə yanıq, yara əvəzinə yara, zədə əvəzinə zədə" (Çıxış, 21:23-26) qaydasının tətbiq edilməsidir.

204 *Кант И.* Metaphysische Anfangsgrunde der Rechtslenze, 1797; См.: *Ойзерман Т.И.* Философия Канта и современность. М., 1974. С. 187–191.

205 *Гегель Г.В.Ф.* Философия права. М., 1977. С. 49–51.

206 Kəffarə - törədilmiş günahın garşılığında onu yüngülləşdirə bilən bir işin görülməsidir.

bərabərliyi, Hegelə görə isə həndəsi mütənasibliyi, lakin eyni dəyərləndirməni tələb edir.

Cəza - qisas təlimi mənşə etibarı ilə dinə əsaslanır və biz mənbələrdə cəzanın mahiyyətinin ilk izahını görürük. İlahi kitablardan çıxış etsək, deyə bilərik ki, cəza Tanrı tərəfindən ilk dövrlərdən ona görə təyin edilib ki, onun vasitəsi ilə yaratdığı insan varlığına təsir etsin. Hesab edilir ki, cəza haqqında ilk teoloji nəzəriyyələr Əhdi Ətiq mətnlərinin müddəalarına əsaslanır. Bu da insana yetirilən zərərə görə qisas alma və "*gözə göz, dişə diş*" (Çıxış, 21:23) kimi talion qaydalar vasitəsi ilə insanları pis əməllərdən çəkindirmək məqsədi ilə həyata keçirilirdi.

Adəmlə ilk əhdini bağlayan Tanrı ona xəbərdarlıq etmişdir ki, o "xeyir-şəri dərk edən ağacdan" meyvə yeməsin, əks təqdirdə "hökmən öləcəksən" (Yaradılış, 2: 17) deyərək tənbeh etmişdir. Buna görə güman etmək olar ki, cinayət hüququ Tanrının Qanunundan başlamışdır. Bu qanunu ilk pozan insan - Adəm olmuşdur. Eyni zamanda, Adəmi tarixdə ilk ölüm cəzasına məhkum edilmiş insan da hesab etmək mümkündür. Tanrı tərəfindən tərif edilmiş cəzanın mahiyyətini dərk etmək çox vacibdir. Bu baxımdan cəza törədilən cinayətkar əməlin qarşılığı kimi qisasdır: "*Mən düşmənlərimdən qisas alacağam və mənə nifrət edənlərdən əvəz çıxacağam.*" (Qanun, 32: 41) fikirləri bunu təsdiq edən ifadələrdir.

"Hökmən öləcəksən" ifadəsinin mənası ölüm cəzası ilə cəzalandırılmağı ifadə edir. Daha doğrusu, ölüm cəzası çox mənasızdır. Ancaq onun izahı istənilən variantda verilsə, demək mümkündür ki, burada söhbət qanuna tabe olmamaq, qadağan olunmuş əməli etmək və ilk qanunun pozulmasına görə cəzalandırmadan gedir. Bu günahın cəzalandırılma növü ölümdür. Bunun mənbəyi isə Tanrıdan gəlir. Eyni zamanda bu cəza ona görə kəsilmişdir ki, Adəmin törətdiyi günah (hüquqi dildə desək, cinayət) "əbədi yaşamasın", yəni əbədi xarakter daşımasın (Yaradılış, 3: 22).

Bir dünya dini kimi İslam da cəzanı qisasla (əvəzin verilməsi) əlaqələndirir. "*Allah həddini aşanları sevmir*" deyərək, insanları qanunları pozmamağa çağıran Qurana müraciət edək (Quran. Surə 5 "Maidə", ayə 87). Bu cinayət və cəzanın bütün institutlarının üzərində qurulduğu çox əhəmiyyətli və əsaslı prinsipdir. Allah Onun qanunlarına riayət edilmənin vacibliyi haqqında xəbərdarlıq edir. Çünki Onun iradəsinə tabe olmayan insanları sevmir. Allahın bu kəlamından, daha doğrusu xəbərdarlığından aydın görünür ki, qanunları pozanlar öz günahlarının qarşılığını alacaqlar. "*Günahın aşkarından da, gizlisindən də əl çəkin! Günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar*!" (Quran. Surə 6 "Ənam", ayə 120).

Burada Quran "günah" anlayışını daha da geniş mənada verir. Bu anlayışa həm də müxtəlif cinayət əməlləri daxildir. Qurana görə cəzanın mahiyyəti yalnız qisas deyil, həm də özündə xeyri, mərhəməti, şəfanı daşıyan öyüddür. Bu da yeni cinayətlərin törədilməməsi üçün bir zəmindir. "*Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz."*(Quran. Surə 6 "Ənam", ayə 160).

Qurana görə qisas, cəzanın mahiyyəti kimi, aşağıdakı xüsusiyyətlərlə səciyyələnir.

**Birincisi**, qisas ədalətli və cinayətin ağırlığına bərabər olmalıdır. "*Hər bir pisliyin cəzası onun özü kimi bir pislikdir*" (Quran. Surə 42 "Şura", ayə 38). 5-ci surənin 45-ci ayəsi artıq qisasın prinsipini konkretləşdirir: "*Biz yazıb hökm etdik ki, qisas cana-can, gözə-göz, buruna-burun, qulağa-qulaq, dişə-diş və yaralara-yaralardır*".

**İkincisi**, Quranda Allah qisasın insanlara böyük xeyir gətirdiyini izah etmişdir. Məhz, qisas cinayətlərin törədilməsinin qarşısını alır və çox insanların həyatlarını xilas edir. "*Ey ağıl sahibləri, bu qisas (qisas hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz*" (Quran.

Surə 2 "Bəqərə", ayə 179).

**Üçüncüsü**, Quran bağışlayanları və işləri yola qoyanları, hətta sülh istəyənləri təqdir edir, daha doğrusu Allah qisas alınmasını istəmir, əksinə, O, imkan daxilində ixtilafların sülh yolu ilə həllini istəyir. "*Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs (pislik edəni) bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz*!" (Quran. Surə 42 "Şura", ayə 40).

**Dördüncüsü**, Quran, digər müqəddəs kitablar kimi, insanlara təkcə bu dünyada deyil, həm də axirət dünyasında qisasın (əvəzçıxmanın) olacağı haqqında xəbərdarlıq edir.

Quran "həyatı boyu törətdiyi xeyir və ya şər əməllərə görə bu dünyada əvəzini almayanların aqibəti necə olacaq" kimi bütün zamanlarda gündəmdə olan suala çox dəqiq cavab verir. Dünyada həyat qısa müddətlidir və axirətdə bizi bu dünyada törətdiyimiz əməllərimizə, sınaqlara davam gətirib-gətirmədiklərimizə görə mühakimə edəcəklər. Bəzi insanlar axirətdəki cəzanın ədalətli olduğuna şübhə ilə yanaşırlar.

Quranda təsvir edilmiş cəhənnəm əzabları o qədər dəhşətli və inandırıcıdır ki, inananlar üçün çox güclü düşündürücü amilə çevrilmişdir: "*Allaha və Onun Peyğəmbərinə qarşı vuruşanlar, yer üzündə fitnə-fəsad salmağa çalışanlar çarmıxa çəkilməli və ya əl-ayaqlarının çarpazvari (sağ əllərilə sol ayaqlarını) kəsilməli, yaxud da yaşadıqları yerdən sürgün olunmalıdırlar. Bu (cəza) onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir*" (Quran. Surə 5 "Maidə", ayə 33).

Quranda tez-tez rast gəlinən "böyük bir əzab" və "rüsvayçılıq" ifadələrinin mənası nədir? - sualına cavabı bu Quran ayəsindən ala bilərik "*...Cəhənnəmliklər orada əbədi qalacaqlar!*"(Quran. Surə 7 "Əraf", ayə 36).

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, həmin mənalar İncildə də vardır: *"Kim günah işlədib və pislik edibsə, onlar əbədi cəhənnəmdə qalacaqlar*" (Марк. 11: 24–26).

“*Sizin düşəcəyiniz yer atəşdir. Allahın istədiyi (vaxt və ya sonradan islamı qəbul edib nicat tapan kimsələr) istisna olmaqla siz orada həmişəlik qalacaqsınız!” (*Quran. Surə 6 “Ənam”, ayə 128). Daha dəhşətli cəza “Yunus” (10) surəsinin 4 ayəsində nəzərdə tutulmuşdur: *“Kafirləri etdikləri küfrlərə görə qaynar su (cəhənnəm içkisi həmim) və şiddətli bir əzab gözləyir*!”.

Allah Quranda insanların törətdikləri pis əməllərin və günahların əvəzini vermək üçün cəhənnəm kimi bir yeri nəzərdə tutmuşdur. Qeyd edilməlidir ki, Quran insanlara təkcə, bu dünyada törətdirləri şər əməllərə görə axirətdə veriləcək əzablar haqqında deyil, həm də xeyir işlər görmüş möminlərin mükafat alacaqları haqqında da xəbər verir. *“(Ya Peyğəmbər!) Onlara (qiyamət günü düçar olacaqları) şiddətli bir əzabla müjdə ver! İman gətirib yaxşı əməllər edənlər istisna olmaqla! Onları (Cənnətdə) minnətsiz (tükənmək bilməyən) mükafat gözləyir*!” (Quran. Surə 84 “İnşiqaq”, ayə 24-25). Bu nə mükafatdır?

“*İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar*”(Quran. Surə 2 “Bəqərə”, ayə 82). Quran həm də cənnətin nə olmasını açıqlayır: “*Həqiqətən, Allah iman gətirib yaxşı işlər görənləri (ağacları) altından çaylar axan cənnətə daxil edəcəkdir. Onlar orada altun və incilərlə bəzənəcəklər (qızıldan və mirvaridən bilərziklər taxacaqlar), orada libasları isə ipəkdən olacaqdır!*” (Quran, Surə 22 “Həcc”, ayə 23).

Nə üçün şər əməllər törətmiş insanları Allah elə bu dünyada cəzalandırmır? Bu suala Quranda çox müdrik cavab tapmaq mümkündür: “*Əgər Allah insanları zülmləri üzündən cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ buraxmazdı. Lakin (Allah) onlara müəyyən müddət (ömürlərinin sonunadək) möhlət verər. Əcəlləri gəlib çatdıqda isə (ondan) bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərlər.*”(Quran. Surə 16 “Nəhl”, ayə 61). Deməli, cəzalandırma hüququ yalnız Allaha məxsusdur və yalnız O, kimisə hansısa əməlinə görə cəzalandıra bilər. Cəzanın növünü

də yalnız O, təyin edər. Allahın məqsədi odur ki, insanlar dünyada və axirətdə bir birinə qarşı yaxşı münasibət bəsləsinlər, cinayətlərə, qəddarlığa və şərə əl atmasınlar. "*Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər. Onlara orada (Cənnətdə) heç bir yorğunluq (zəhmət) üz verməz. Onlar oradan çıxan da deyillər. (Cənnətdə əbədi qalacaqlar*)" (Quran. Surə 15 "Hicr", ayə 47-48).

Beləliklə, din insanların qisas alma haqqını, qan tökənlərə və qatllərə qarşı "*Kim insan qanı tökərsə, onun da qanı insan tərəfindən töküləcək*" prinsipi ilə qanuniləşdirmişdir. Bu baxımdan insan qisas almaq üçün qismən də olsa məsuldur. Bunu Tanrı ona "*Mən qisas alanam*" ümumi prinsipdən bir qədər çəkilərək vermişdir. Qisas, cəza və digər bu kimi retributiv ədalətə aid Quran və İncildə yer alan kateqoriyaların təhlili qədim insanların müvafiq baxışlarının nə qədər dərin və tam olduğunu, orada bu günə kimi öz aktuallığını itirməyən mənaların varlığını göstərir. Bir sözlə, Quran və İncili öyrənərkən biz orada elə bir ideyaları görürük ki, onlar qədim insanın həyat və ölüm, qətl və cinayət, qisas və cəza haqqındakı təsəvvürlərinin mahiyyətini açır.

Müqəddəs Quran Z. Freyd və F. B. Skinner kimi böyük alimlərin elmi nəticələrini qabaqlayaraq insanlara axirət həyatı haqqında mühüm təlimi bəxş etmişdir. Orada sə'id (xoşbəxt, mübarək) adlanan yüksək məqam və *haki* (lənətlənmiş, bədbəxt) adlanan dəhşətli durum təsvir edilmişdir.

Qurana görə sə'id məqamında olanlar cənnətdə olmağa layiqdirlər. Haki halında olanlar isə cəhənnəm əzabını dadacaqlar. Şərə qarşı nifrət, xeyirə qarşı rəğbət prinsipində insanların tərbiyə edilməsində mühüm əhəmiyyət kəsb edən dinin bu rolunu inkar edən insan çətin ki, tapılsın.

Qeyd etmək lazımdır ki, axirətdə şər əməllərin qarşılığının veriləcəyi inancı bütün insan tayfa və cəmiyyətlərində ölünün ikinci Mən-inin dircəlməsi şəklində olmuşdur.

İnsanın axirət həyatı haqqında hinduizm və buddizm

təlimləri bir çox əlamətlərə görə, o mənşədən ayrılmışdır. Bu təlimlərə görə, ruhların köçməsi birbaşa bütün formalarında mahiyyətcə əbədi deyil, müvəqqəti hesab edilən mükafatlar və cəzalar kimi mühüm əhəmiyyət kəsb edir. Onun gələcəkdə bitki, sürünən, quş, qadın, brahman, müdrik və s. olub-olması insanın bu dünyadakı davranışlarından asılıdır. Bu o deməkdir ki, əgər insan bu həyatda ləkəni müvafiq tövbə ilə yumayıbsa, onda o, ən alçaq məxluqlardan olacaq; əgər təmiz olaraq ölmüşdürsə, onda insanlığın yüksək zirvəsinə yüksələcəkdir.

Vişnu və Manunun kitablarını qanun kitablarına ona görə aid etmək olar ki, onlarda dəqiqliklə yazılmış davranış qaydaları və bu qaydaların pozulmasına görə cəzalar əks olunmuşdur. Yüksək kateqoriyalı canilər bir bitkidən digərinə köçər və beləliklə, bütün bitki aləminə məxsus həyatı yaşayarlar. Ağır günah törədənlər soxulcan və həşəratların bədənlərində həyat taparlar. Nisbətən yüngül cinayətlər törətmişlər isə bir qədər daha üstün heyvanların bədənlərinə və s. köçürlər. Dördüncü kateqoriyalı canilər su heyvanlarına çevirilirlər. Kastadan xaric edilmiş canilər isə amfibiyaların bədənlərinə köçürlər. (Vişnu, XLIV. 2). Bu qanuna görə kim ictimai yolu qəsb etsə, o mağaralarda yaşayan ilan, kim buğdanı oğurlayıbsa siçovula çevirilir. Suyu oğurlayan isə su quşlarından biri olur.

Hələ Tanrı vəhylərindən əvvəl insanların yaşam qaydalarına bir canlının bədənindən digərlərinə ruhun köçməsi qorxusu çox böyük təsir etmişdir. Daha sonrakı dövrlərdə, bu kimi inanclar qanunverici mətnlərdə də yer almışdır. Mövcud qanunlara zidd olan qaydaların pozulması, cinayətlərin və şər əməllərin törədilməsi bunu edən insanın üzərinə bir ləkə idi. O ləkə isə bu dünyada könüllü tövbə ilə silinməsə, onun ruhunda qalır və ölümdən sonra axirət dünyasında şiddətli əzablarla silinəcəkdir. Hind qanunlarına görə, kimsə bir brahmanı öldürsə, onun axirətdəki cəzası onun qanamış bədəninə hopan tozcuqların sayı qədər müddətdə cəhənnəmdə qalacaqdır (Manu XI. 20).

Qeyd etmək lazımdır ki, müsəlman və xristian hüquqşünasları, həmişə cəza anlayışına ciddi yanaşmışlar. Bunu edərkən onlar birmənalı olaraq ona əsaslanırdılar ki, cəza əslində qisasdır. Əbdül-Qədir Övda yazmışdır: "*Cəza cəmiyyətin təhlükəsizliyini qorumaq üçün qanunvericiyə tabe olmamanın tək yoludur*"[207].

Əhməd Fəthi Bəhnasi də demək olar ki, eyni düşünmüşdür. O iddia edirdi ki, cəza qanunla, onun tərkibində olan qadağanların pozulmasına görə əvvəlcədən təsbit olunmuş bir fəaliyyətdir. Bunu ona görə tətbiq edirlər ki, cinayətkar cəzadan çəkinərək cinayəti törətməsin[208].

Əl-Mavərdi cəzaya belə bir tərif vermişdi: "*Hüdud (Quranda təsbit olunan cəza – İ. R.) Allahın onun qadağanlarını pozanlara qarşı kəsdiyi cəzadır. Məsələ burasındadır ki, insanın təbiətində bir tərəfdən ehtiraslar və həzz alma istəkləri, digər tərəfdən isə axirət dünyasında vəd edilən qadağanları pozmağa görə cəzaların verilməsi qorxusu durur. Elə buna görə də hüdudlar müəyyən edilmişdir ki, onlar yüngül xasiyyətli insanları qadağanların pozulmasısından çəkindirsin*"[209]. Məhz bu dərin və tam tərifdə aşağıdakı maraqlı məqamları qeyd etmək mümkündür.

Birincisi, əl-Mavərdi tərəfindən verilən tərif təbii ki, dini mahiyyət daşıyır. Çünki orada cinayətlərin qarşısının alınması zərurəti təkcə cəmiyyətin maraqlarını müdafiə etmək baxımından deyil, eyni zamanda Allahın axirətdə cəza verəcəyi inancı ilə izah edilir. Bu da çox əhəmiyyətli məqamdır. Bundan başqa müəllif digər hüquqşünaslardan fərqli olaraq qeyd etmişdir ki, cəzalar və qadağalar qanunverici tərəfindən deyil, Allah tərəfindən qoyulur.

İkincisi, əl-Məvardi verdiyi tərifdə insanın cinayətkar

---

[207] *Абдель Кадер Ауда.* Мусульманское уголовное право. Бейрут, 1987. Т. 1. С. 609.

[208] Bax: *Ахмад Фахти Бахнаси.* Наказание по мусульманскому праву. Каир,1989. С. 13.

[209] Bax: Göstərilən kitabda.

davranışının səbəblərini ifadə edir, onu şəxsiyyətin psixoloji və daxili xüsusiyyətləri ilə əlaqələndirir. Beləliklə, müəllif onu deməklə cinayətin törədilməsinin səbəblərini insanın bioloji xüsusiyyətlərində axtarır.

Üçüncüsü, Quranın buyruqlarına zidd olan əməllərin qarşısının alınmasında cəzanın rolu vurğulanır. Bu da qorxutma və günahlardan çəkindirmə mahiyyəti daşıyır.

Beləliklə, din cəzanı həm qisas kimi, həm də özündə xeyir, mərhəmət və şəfa daşıyan nəsihət kimi dəyərləndirir.

Onu da görmək çətin deyildir ki, filosoflar cəza anlayışına tərif verəndə ona fəlsəfi anlayış kimi baxmışlar. Bununla da onların mövqeyi cəzanın İlahi mahiyyət daşıdığını iddia edən ilahiyyatçılardan fərqli idi.

Doğrudan da biz cəza haqqında həqiqəti ancaq fəlsəfi kateqoriyaların, cəmiyyətin və təfəkkürün dərk edilməsi üçün universal vasitələr olan müqəddəs kitabların vasitəsi ilə dərk edə bilərik. Cəza anlayışı haqqında həqiqəti ancaq fəlsəfi kateqoriyalar və İlahi Müqəddəs kitablar vasitəsilə dərk edə bilirik. Onlar metodoloji baxımdan universal vasitə, alət və metodları, eləcə də cəmiyyətin dərk edilməsinin əsaslarıdır. Ancaq cəza anlayışının təyin edilməsində hüquqşünas yalnız hüquqi mahiyyət daşıyan elementlərsiz keçinə bilməz. Ən əsası, biz onu anlamalıyıq ki, əgər biz hüququ onun yaranmasının səbəbi olan faktların və hadisələrin real aləmindən ayırsaq, biz cəza anlayışının mahiyyətinə vara bilmərik.

Q. V. Maltsev hesab etmişdir ki, cəza cinayətin törədilməsi nəticəsində zərər çəkmiş insanın canidən qisasın alınması ilə rahatlıq tapmasıdır[210].

N. S. Timaşovun verdiyi tərifə görə, cəza hər hansı bir sistemin qaydaları baxımından müsbət və ya mənfi görünən əməlin arxasınca getməkdir. Bu baxımdan əməli törədən üçün o,

---

[210] *Мальцев Г.В.* Месть и возмездие в древнем праве. С. 228.

əməlin daxili üstünlüyünün ekvivalentidir[211].

Adi məişət dilində desək, cəza yaxşı və ya pis əməl törədən insana xeyirlə şərin kəffarəsinin ödənilməsidir. Fəlsəfi kateqoriyalardan istifadə etsək, cəzaya *ədaləti* reallaşdırmanın yolu və metodu kimi də tərif edə bilərik. Buna görə cinayətin ağırlığına uyğun olmayan cəza da ədalətsizlikdir. Bəs cəza haradan qaynaqlanır?

M. de Monten yazmışdır ki: "*Qisas alma istəyi - yüksək dərədəcədə şirin görünən bir ehtirasdır. Ona müəyyən qədər böyüklük məxsusdur və bu da təbiidir*".[212] Güman etmək mümkündür ki, bu nəfs bərabərliyə ehtiyac hissindən doğur. Çünki insan həmişə istəyir ki, şərə şərlə cavab versin. Buna görə də, biz indi də cəza anlayışına məmnunluq hissi bəsləyirik və onu mütləq bir şey kimi qəbul edirik. Əlbəttə, burada söhbət ədalətli cəzadan və qisasdan gedir. Ümumiyyətlə, qan qisası əvvəllərdən də şər və cinayət əməlinə qarşı cəza kimi retrobutiv ədalət kateqoriyasına aid bir qədim ideya olmuş və dərk edilmişdir. Bu daha çox şər davranışı, onun qarşısında duran qisas mahiyyətli cavab tədbirinin arasında tarazlığın qurulması üçün tələb olunmuşdur[213].

Çox geniş yayılmış fikrə görə, bütün xalqlarda cəza ideyasının ilk ifadəsi qan qisası hesab edilmişdir. Yalnız bundan sonra xəsarət alan insan əvəzində kəffarə alması adəti formalaşmışdır. Bu proses dövlətin cəza vermə hüququnu öz üzərinə götürməsi ilə bitmişdir.

Tanınmış bəzi müəlliflərin fikirlərini misal gətirmək yerinə düşərdi. Belə ki, A. M. Boqdanovski qeyd etmişdir: "*Cəza şərə qarşı ortaya qoyulan bir fəaliyyətdir. Bu isə qisas adlanır. Bu davranış insanın özü tərəfindən edilən ilk mühakimədir. Gec-tez*

---

[211] *Тимашов Н.С.* Условное осуждение. СПб., 1914. С. 303–304.
[212] О природе человека: Монтень, Ларошфуко, Паскаль. М., 2009. С. 151.
[213] Bax: *Мальцев Г.В*. Göstərilən k*itabda*. C. 129.

*bu forma başqası ilə əvəz olunur və bu da törədilmiş əməlin qarşılığı kimi maddi formada əks olunur***.** *Bu sistemdə qeyri-müəyyənlik daha azdır. Bu da təbiidir. Bu formada cəza ideyası adətən xalq hüququnda uzun müddət yaşayır və ancaq o zaman yeni formada ortaya çıxır ki, nə vaxt millətin vahid fəaliyyətdə olan orqanizmi dövlətin və bu orqanizmə düşmən kəsilmiş, ona qarşı çıxan cinayətkarlıq anlayışı formalaşsın. Bu andan başlayaraq cəza yüksək mənalarda anlaşılmağa başlayır. Bu da cinayətə qarşı qisasın ortaya qoyulmasıdır. Bu baxımdan cəza dövlətə məxsusdur*"[214].

İ.Y.Foynitskiyə görə cəza tarixinin ilkin mərhələlərində cəzalandırıcı fəaliyyəti cinayətdən zərər çəkən ayrı-ayrı insanlar həyata keçirirdilər. Bu isə cəza deyil, qisas kimi səciyyələnirdi. Tədricən ictimai qruplar hakimiyyəti ələ almış və cinayətkarlıqla mübarizə aparmışdır. Beləliklə, zərərçəkən insanın qisası və şəxsiyyəti arxa plana keçmişdir. Müəllifin fikrincə, müasir sisvilizasiyalı xalqların hüquq sistemində ictimai dərnəklərin birləşməsi, cəza hüququ və onun subyekti olan dövlətin əlində cəmləşməsinə gətirib çıxarmışdır[215].

E.Ferri iddia edirdi ki, cəza yaranandan bu günə kimi öz təkamülündə dörd mərhələni keçmişdir: bunlar *ibtidai* ( yəni müdafiə və qisas reaksiyasından), *dini* (Tanrı tərəfindən təsirlənən), *əxlaqi- etik* (orta əsrdə cinayətin kəffarəsin) və *hüquqi* mərhələlərdir. O güman etmişdir ki, burada sosial mərhələni də keçmək lazımdır. Bu elə bir mərhələdir ki, orada antropologiya və hüquqi statistikasının cinayətin mənşəyi haqqındakı yeni məlumatların əldə olunması səbəbi ilə cəza artıq əxlaqi mərhələyə (hüquqi-etik mərhələ) uyğun olmur, ancaq qabaqlayıcı (preventiv) və təzyiqedici (repressiv) tədbirlərin toplusu kimi ortaya çıxır.

---

[214] 2 *Богдановский А.М.* Развитие понятий о преступлении и наказании в русском праве до Петра Великого. М., 1857. С. 5–6.

[215] *Фойницкий И.Я.* Учение о наказании в связи с тюрьмоведением. СПб.,1889. С. 18.

Sonuncular cinayətin təbiətinə və mənşəyinə görə cəmiyyəti cinayətkar əməllərdən və onlara yönəlmələrdən daha etibarlı qoruyacaq və humanizm baxımından üstün olacaqdır[216]. Beləliklə, şəxsi qisasın ictimai cinayət cəzasına çevirilməsini dövlətlərin yaranması dövrü ilə əlaqələndirmək lazımdır. Bu barədə Hegel də öz mövqeyini bildirmişdir[217].

Şəxsi qan qisasının ictimai cəzanın mənşəyi olması haqqındakı fikirlər, zərər çəkmiş insanın cəmiyyətin inkişafının ilkin mərhələlərində ortaya çıxan qarət, quldurluq, qətl və s. kimi təhlükəli və zərərli əməllərə reaksiyasının səbəbi barəsindəki fərziyyəyə əsaslanır. Bu zərərçəkmişin reaksiyası qan qisası adətinə uyğun idi və xüsusi xarakter daşıyırdı.

Yəni qisasın mahiyyəti ondan ibarətdir ki, bu və ya digər hərəkətlə törədilmiş şər əməlin qarşılığı mütləq şərlə ödənilməli və hər çür zərərin qarşılığı verilməlidir. Bu zərər qətllə əlaqəlidirsə, onda qisas da qanla alınır. Bunun mahiyyəti təkcə qisas deyil, borc, müqəddəs öhdəlik və nəhayət, mülkiyyət hissinin ödənməsidir. Bununla əlaqədar xüsusi olaraq qeyd etmək lazımdır ki, məhz qisas vasitəsi ilə insan öz hüququnu bərpa edə bilər. Yəni yalnız ona yetirilən fiziki və ya maddi zərərin deyil, həm də öz alçaldıldığını və təhqir olunduğunu anlayır və dərk edir. Bu da ən əsas amildən biridir.

Bu səbəbdən qan qisasının vasitəsi ilə bu təhqiri yumaq və özünün daxili ədalət hissini ödəmək mümkündür. O zaman yaddan çıxartmaq olmaz ki, qisas, nə qədər amansız olsa belə, müəyyən qədər xəbərdarlıq mahiyyəti daşıyır. Ancaq bu o deməkdirmi ki, qan qisası cəzanın yaranmasının sosial səbəbi olmuşdur? Məgər şəxsi qisasdan əvvəl insanlar qəbilə, icma, qrup üçün təhlükəli olan əməllərinə görə cəzalandırılmırdımı?

A. F. Kistyakovski doğru qeyd etmişdir ki, "*İnsan cəzanın*

---

[216] Bax: *Ферри Э.* Göstərilən kitabda. С. 363-364.

[217] Bax: *Гегель Г.В.Ф.* Философия права. М., 1953. С. 146.

*nə üçün və nəyə görə mövcud olması sualını ilk dəfə verəndən çox əvvəl, mövcud olmuş və fəaliyyət göstərmişdir*"[218]. Bizim bu gün cəza adladırdığımız əməllərin ilk rüşeymlərini sosial və təbiət hadisələrində axtarmaq lazımdır. Bu, cəmiyyətin varlığının davam etdirilməsi üçün xarici təhlükədən qorumağa xidmət edən təbii insan reaksiyasıdır. Məlimdur ki, bütün ibtidai cəmiyyətlərdə, hətta ən vəhşi qəbilələrdə belə, insanlar qisasa aid olmayan əməllərə görə cəzalandırılırdılar. Bu da cəmiyyətə xəyanət, tanrılara qarşı çıxmaq, cadugərlik və s. kimi əməllər idi. Kütləvi qisas kimi deyil, ictimai narazılığın ifadəsi kimi anlaşılan xəyanətə görə cəmiyyətin reaksiyasını şəxsi qisas kimi dəyərləndirmək mümkündürmü? Axı, bu, ictimai cəzadır. Çünki, xəyanət icmanın hər bir üzvünün hiss etdiyi cinayətlərdən biri kimi başa düşülür.

İbtidai cəmiyyətlərdə ən təhlükəli əməl kimi dəyərləndirilən cadugərlik çox geniş yayılmış bir fəaliyyət idi. Bu da ayrı-ayrı icma üzvlərinin fövqəltəbii qüvvələri idarə etmək imkanlarının olmasına inamdan irəli gəlirdi. Əgər hər hansı bir cadugər yağışın yağmasına mane olsaydı, o, icmanın ən təhlükəli düşməni sayılıb mütləq cəzalandırılmalı idi. Çünki onun varlığı digər icma üzvləri üçün təhlükəli hesab edilirdi. Bu da qan qisası deyil, ictimai təhlükənin aradan qaldırılması, qarşısının alınması idi. Əgər qətl fiziki vasitələrlə həyata keçirilirdisə, daha doğrusu icmanın bir üzvü digərini öldürürdüsə, onda buna münasibət də fərqli olurdu. Belə olanda cəmiyyət bu münasibətlərə müdaxilə etmirdi. Çünki bu kimi hadisələr ictimai təhlükə yaratmır və şəxsi münasibətlər səviyyəsində həll edilirdi. Eyni zamanda, ona şəxsi qan qisası çərçivəsində baxılırdı.

Beləliklə, cəza tarixinin *şəxsi qisasdan* başlandığını fərz etsək, onda etiraf edilməlidir ki, cəmiyyətin söz açdığımız

---

[218] *Кистяковский А.Ф.* Элементарный учебник общего уголовного права. Киев, 1890. С. 764.

əməllərə reaksiyası cəza deyildir, həmin əməllər ictimai baxımdan təhlükəli hesab edilmirdi. İbtidai dövrdəki cəza cadugərdən, satqın və xəyanət edənlərdən qisas almaq məqsədi güdməmişdir. İbtidai dövrdəki cəza cani üçün deyil, cəmiyyət üçün verilən bir kəffarə idi ki, fövqəltəbii varlıq tərəfindən özlərinə qarşı yönəlmiş qisasa məruz qalmasınlar. Buna görə də böyük ehtimalla cəzanı qisas kimi deyil, qurban kimi qiymətləndirmək lazımdır. Yəni, cəzanın mənşəyi haqqında problem bilavasitə cinayət anlayışının yaranması və inkişafı haqqındakı suala aydınlıq gətirilməsi ilə əlaqəlidir.

Prinsipcə, təkcə cəzanın yaranma tarixi deyil, həm də onun nəzəriyyəsi ilə əlaqəli fundamental məsələləri cinayət anlayışından və onu doğuran səbəblərdən ayıraraq izah etmək mümkün deyildir. Cinayətlə əlaqəli cəzanın istənilən məsələsinə toxunarkən, biz cinayətin törədilməsinin problemləri ilə üzləşirik. Buna görə də cəzanın mənşəyini təyin etmək üçün cinayət anlayışının yaranması prosesini izləməyimiz zəruridir. Məlumdur ki, bu anlayışların yaranmasına gədər insanların, keçmiş dövrlərdəki mənalarına görə cəmiyyətləri təhlükələrlə üzləşdirirən əməlləri olmuşdur. Cəmiyyətlər isə buna müvafiq reaksiya vermişlər.

Q. Oppenheymerə görə, ibtidai cəmiyyətlərdə cəzalandırılan cinayətlər və ya icmaların, qəbilələrin və s. varlığına təhlükə törədən və müvafiq reaksiyalar doğuran əməllər bunlardır: cadugərlik, qeyri-təbii qəbul edilən pis vərdişlər, xəyanət, küfr və müxtəlif cinayətlər[219].

Beləliklə, cəza şəxsi qisasla deyil, o vaxt ortaya çıxmışdır ki, ibtidai cəmiyyətlər fövqəltəbii qüvvələr tərəfindən ortaya çıxan təhlükənin olacağını zənn etmişlər. Belə hallar isə icmanın hər hansı bir üzvünün hansısa mənfi davranışına səbəb ola bilərdi.

---

[219] *Оппенгеймер Г.* Историческое исследование о происхождении наказания. М., 2012. С. 6.

Bunun qarşısını almaq üçün təhlükənin mənşəyi olan insanı cəmiyyətdən xaric etmək zəruri idi. O, insanlar arasında yaşaya bilməzdi. Buna görə Q. Oppenheymer doğru qeyd etmişdir: "*İctimai qanunu pozma ideyası sehir və dini anlayışların arasında yaranmışdır"*[220].

Cəza o zaman formalaşmışdır ki, ictimai hüquq pozuntularına görə mövcud icmanın, qəbilənin və qrupun başçıları ölüm və ya sürgün edilmə kimi cəzaları tətbiq etməyə başlamışdırlar. Əslində məhz bu cəzalar icmaların təhlükə mənbələrindən qurtarmasının vasitələri olmuşdur. Ancaq qan qisası ideyasını cəza prinsipinin həqiqi başlanqıcı hesab etmək olar. İbtidai təcrübə birmənalı və inandırıcı olaraq qisasın formalaşmasını cəza anlayışı ilə əlaqələndirmişdir. Qan qisası əhalinin mərkəzi hakimiyyətə etibar etmədiyi dövlətlərdə, həmçinin ailə və qəbilələrin ənənəvi xüsusiyyətlərini itirməyən bəzi xalqlarda hələ də mövcuddur. Yeri gəlmişkən demək yerinə düşər ki, bəzi qəbilələrdə, xüsusən Alyaskada qatil və onun qurbanı bir tayfada eyni cinsə mənsubdurlarsa, onda onlara qan qisası qanunu şamil edilməmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, qan qisasının ölüm cəzasından yaranması fikri doğru deyildir.

Beləliklə, qan qisası digərlərinə qarşı törədilən cinayətin və zərərin özünə qayıtmasının ilkin formasıdır. Bu cəza zaman keçdikcə öz əhəmiyyətini itirərək cəza kimi cərimə ödənilməsi ilə əvəz olunmuşdur. Güman etmək olar ki, bu hadisə insanların sosial həyatında pulun yaranması ilə bağlı olmuşdur. Bir neçə bərabər cəza formaları mövcuddur. Onların ən sadəsi talion ("həmən ölçüdə, həmən tərzdə qarşılığını ver") hesab edilirdi.

Talionun klassik variantı müqəddəs kitablar olan İncil və Quranda mövcuddur: "*Cana can, gözə göz, dişə diş, ələ əl, ayağa ayaq, yanığa yanıq, yaraya yara, zədəyə zədə*" (Çıxış, 21:23-26). "*Biz (Tövratda İsrail oğullarına) yazıb hökm etdik ki, canın qisası*

[220] Göstərilən kitabda. C. 29.

*can, gözün qisası göz, burunun qisası burun, qulağın qisası qulaq, dişin qisası diş və yaraların qisası yaralardır*" (Quran. Surə "Əl-Maidə" 5, ayə 45). Bu Tanrı buyruqlarında talionun qorxutmaq ruhu hiss edilir. Yəni, Allah məhz talionun vasitəsi ilə insanların təcavüzkarlıqlarına və zorakılığına son qoymaq istəyir. Çünki bu sonda qəbilələrin məhv olmasına gətirib çıxara bilərdi. Talionun prinsipləri Roma Qanunlarının XII cədvəlində də mövcuddur (e. ə. 451–450 illər). Orada qeyd edilmişdir: "*Kimsə başqasının bədəninə xəsarət yetirsə və qarşı tərəf onunla barışmasa, onun özünə də həmin xəsarət yetirilsin*".

Zaman keşdikcə talion tanınmaz qədər mürəkkəbləşərək qisas prinsipləri sisteminə çevirildi ki, onlar da müasir dövlətlərin cinayət siyasətinin əsasını təşkil edir. Əslində, insanlar talion prinsipinin vasitəsi ilə qan qisasının təsir dairəsini daraltmaq istəyirdilər. Çünki qan tökülməsinin təhlükəli olduğunu anlayırdılar. Ümumiyyətlə, talion cəza institutuna yaxınlaşma idi. Talionun mənası ondan ibarətdir ki, insanlar özlərinin üzərində törədə biləcək şərin və zorakılığın nə olduğunu dərk etsinlər. Başqa sözlə desək, talion qan qisası ilə cəzanın arasında olan keçid mərhələsi idi. Yəni, talionun qan qisasının praktikasına daxil edilməsi xaotik qisasın cinayətin törədilməsinə görə cəzanın tətbiq edilməsi prosesinin başlanğıcı oldu.

Şübhə yoxdur ki, talion qan qisası təcrübəsindən doğmuş və müəyyən təkamülə məruz qalaraq ilk yaranmış dövlətlərin cinayət hüququna daxil edilmişdir. Q. V. Maltsevə görə "*Müasir hüququn talionla üstü örtülü əlaqəsi, hər dəfə cinayətin törədilməsinə görə cəza sisteminin məntiqi və tarixi köklərini araşdıraraq və ya insanın azadlıqdan məhrum olunması ilə ölüm cəzasının tətbiq edilməsini müzakirə edərkən üzə çıxır*"[221]. Cəza nəzəriyyəsi cinayətə görə cəzalandırmanın yeganə əsası və mahiyyətidir. Eyni zamanda, qanuni cəza hesab edilən qisas həm də ən məqsədə

---

[221] *Мальцев Г.В*. Göstərilən kitabda. С. 249.

uyğunudur. Ancaq bu şəkildə olması üçün o ilk olaraq doğrudan da cinayətə görə ədalətli cəzanın verilməsidir. Bu baxımdan, ədalət - cəzanın mahiyyətinin əxlaqi əsası olmalıdır.

Beləliklə, cinayət hüququnda əks olunmuş cəzanın daxili məzmunu və mahiyyəti onu qeyd etməyə imkan verir ki, digər hüquqi tədbirlərlə müqayisədə cəza institutunun fərqləndirici xüsusiyyəti onun tərkibində yer alan qisas elementidir. Bununla belə, xüsusilə qeyd edilməlidir ki, qisas hər hansı bir qanunvericinin şəxsi kəşfi deyl ki, kiminsə arzusu ilə nə vaxtsa cəzanın tərkibindən çıxara bilsin. Qisas cəzanın obyektiv təbiətində olan bir hadisədir. Biz qisası cəzanın məqsədi kimi deyil, onun mahiyyətini xarakterizə edən bir an kimi dərk edirik. Bu ansız cəzanı təsəvvür etmək mümkün deyildir. Qisas cinayətin baş verməsindən sonra yaranan etiraz hissinin nəticəsidir. Elə buna görə qisas cəmiyyətdə sosial ədalətin bərqərar olması hissinin təzahürüdür. Cəmiyyət cəzanın verilməsi zərurəti olmayanda bu fəaliyyətdən imtina edəcəkdir. Çünki qisas cəzanın əsasıdır. Cəzanın mahiyyəti kimi təqdim edilən qisas nəzəriyyəsi həmişə kəskin etirazlarla üzləşmişdir. O tanınmış alimlər tərəfindən qəti olaraq qəbul edilməmişdir. Sosialist inqlabı ümumiyyətlə ondan intina etmişdir. Buna görə də kommunist ideologiyasının hökm sürdüyü dövrdə bu problem ciddi araşdırmalar və diskussiyalar obyekti olmamışdır. Bu baxımdan qisasın cəzanın əsası kimi təqdim edilməsinə qarşı ədəbiyyatdakı etirazlar baxış bucaqları baxımından çox fərqli görünür.

Məşhur rus filosofu V. Solovyov "*Xeyrin bəraəti*" əsərində (1997) qisas təliminin və ya "qisas ədalətinin" daxili mənasızlığını göstərmişdir. Bunun da məzmunu ondan ibarətdir ki, qisas və təhdid tarix boyu "heyvan-insan" və "tanrı-insan" münasibətləri çərçivəsində qiymətləndirilmişdir. Bir başqa əsərində müəllif yazmışdır ki, məntiqi və əxlaqi mənasını itirmiş qisasın hüquqi-cinayət doktrini vəhşilik halının qalıqlarıdır. Hazırda cinayətin törədilməsinə görə cəza verilən fiziki əzabların bir məqsəd kimi

dərk edilməsi ibtidai dövrdən qalan qan qisasının tarixi transformasiyasıdır.

Qisasın qeyri-əxlaqi xarakteri haqqında da fikirlər vardır. Belə ki, S. V. Poznışev göstərmişdir ki, heyvani xarakter daşıyan qisas ideyası əxlaqi baxımdan bir mənalı deyildir.

Bəzi müəlliflər qisas nəzəriyyələrinin qaneedici olmamasının səbəbini onda görürlər ki, onlarda cəzanın düzgün yerinə yetirlməsi üçün müəyyən olunmuş dayanıqlı meyyar yoxdur.

Birincisi, qisasın cəzanın məqsədi olduğu iddia ediləndə, yalnız ədalətli yanaşma nəzərdə tutulur. Əgər qisas törədilən əməldən daha ağır yerinə yetirilirsə, onda bu, qisas deyil, repressiyadır. Çünki o halda ədalət prinsipi pozulmuş olur. Törədilmiş əmələ görə qisas çox yumşaq olarsa, onda bu cəza yox, cəzasızlıqdır. Bu baxımdan cinayətə qarşı o vasitə cəza hesab edilir ki, onun mahiyyətində ədalətli qisas olsun.

İkincisi, qəti olaraq "qisas" sözündən də imtina edilməməlidir. Çünki o artıq keçmişdə güclü emosiyaların doğurduğu mənfi reaksiyanı əks etdirmir. Maarifçilik dövründən başlayaraq qisas anlayışı köklü dəyişikliklərə məruz qalmışdır. İndi cəza yalnız kiminsə öz iradəsi ilə törətmiş cinayətinə ədalətli qisas prinsipinə uyğun olaraq cavabın verilməsidir.

Sözsüz ki, qisas cəzanın təməlində yer almaqdadır. Ancaq bu amil qisasın cəzanın mahiyyəti kimi əhəmiyyətini azaltmır. Qisas və cəzanın eyni mənşəli olması hələ qisası cəzanın mahiyyəti kimi qiymətləndirən baxışları nüfuzdan sala bilməz.

Qisas ideyası formal, kəmiyyət və ya keyfiyyət baxımından bərabərlik mənasını daşıyan talion ideyası deyildir. Eyni zamanda, qisas zərərçəkənin kobud, instinktiv və mənasız reaksiyası ilə müşaiyət ediləni və ya o zərərin insan gözü ilə görülməyən əxlaqi vasitələrlə "cilalanması" da deyildir. Onun məzmunu ondan ibarətdir ki, ictimai asayışın pozulması nəticəsində ortaya çıxan cinayət hadisəsinin mənfi qiymətləndirilməsinə müvafiq

münasibəti doğurmalıdır. O da cəzanın mahiyyətidən irəli gəlir.

**II. Cəzanın mahiyyətinin əxlaqi əsasları**. İ.Kant bu ölməz fikirləri söyləmişdir: " *Əgər ədalət yox olarsa, onda yer üzündə həyatın heç bir dəyəri olmayacaqdır*". Cəza problemi ilk növbədə əxlaqi problemdir. Buna görə də insanlıq keçmişdən indiyə qədər özünə belə bir sual verir: "*Ölüm cəzasını və ya uzun müddətə azadlıqdan məhrum etmə cəzalarını tətbiq etmək əxlaqa uyğundurmu*?" Bu gün də qarşımızda, buna bənzər suallar durur: Cinayətkarları cəzalandırma ənənəsini XXI əsrdə də davam etmək lazımdırmı? Bir çoxlarına görə bununla cəmiyyət cinayətlərin qarşısını almaq məqsədinə nail olmur. Bəs cəzanın əvəzində humanizm tələblərinə cavab verən digər səmərəli cəza vasitəsini tapmaq mümkündürmü?

Yalnız bir şey aydındır ki, burada söhbət konkret hadisələrdə cəzanın cinayətə uyğun olmasından və ya hüquqi tərəfindən asılı olmayaraq, humanizm və ədalət prinsiplərini inkar etməyin imkansızlığından gedir. Müasir sivil cəmiyyətlərin buna hüququ yoxdur. İnsanlar həmişə və hər zaman ədalətli cəza istəyirlər. Buna görə mülki hüquqi dövlətdə bunu dərk edən müdrik qanunverici öz fəaliyyətində cəzanın əxlaqi əsaslarına söykənir. Hakimlər isə, törədilən cinayətin meyyarlarla elementləri tapırlar ki, onlar ağırlığının, həm də ona qarşı verilən cəzanın ölçüsü olsun.

Q. Meyer qeyd etmişdir: "*Yalnız şəxsi münasibətlərdə deyil, həm də qanunvericilikdə hər bir insanın və ya söhbəti gedən ayrıca münasibətin üzərinə az və ya çox pay düşür. Bu səbəbdən də bəzi suallar ortaya çıxır*"[222]. Bəs bu mümkündürmü?

Bu sual insanın cəzanın mənası və əhəmiyyətini, cinayətin şər və zərərli əməl olmasını anlayan vaxtdan indiyə kimi mövcuddur. Özü üçün ədalətlə bağlı olan məsələləri insan, vicdanının hökmü ilə əxlaqi qaydalara əsaslanaraq həll edir.

---

[222] "Die Cerechtigkeit imstrafzecht". Cerichtesaae. B. XXXIII. S. 101 и etc.

Əlbəttə, bu onun ədalətə verdiyi subyektiv qiymətidir. Məsələn, ölüm cəzasının verilməsini ədalətsiz hesab edir, lakin belə bir halda qanunverici öz şəxsi istəklərinə uyğun gəldiyinə görə siyasi düşüncədən çıxış edərək zərərçəkənin maraqlarını, həmçinin, xalqın hüquqi şüurunu inkar edir. Onu müzakirə etmək mümkündür, ancaq onları nəzərə almamaq da olmaz. Çünki cəmiyyət üzvlərinin böyük əksəriyyəti bu fikri dəstəkləyir.

Bununla belə, elə əxlaqi qaydalar vardır ki, onları bəlkə də çox insanlar qəbul edir və sağlam düşüncəli insanlar bu qaydaları inkar etmirlər. Buna görə də biz ölüm cəzasının tərəfdarlarını onun ləğv edilməsinin ədalətli olmasına inandırmaq istəyiriksə, digər vasitələrlə yanaşı mütləq ədaləti təmin edən humanizm prinsipinə də istinad etməliyik.

Deməli, qanunverici qanunda bu və ya digər əməllərə görə cəzanın növü və ölçüsünü təyin edəndə, mütləq elə bir əxlaq qaydalarına istinad etməlidir ki, onlar onun (qanunvericinin) ədalət anlayışına zidd olsa belə, həmin qaydalar cəmiyyət də yaxşı qarşılanmış olsun. Əks halda, cəmiyyət təcrübədə və real həyatda müvafiq mənfi nəticələr ədalətsiz cəzalar ilə üzləşəcəkdir. İnsanın gizli düşüncələrini, daxili motivlərini və davranışının səbəblərini bilən Allahı yalnız qəbul ediriksə (bunu bilmək isə, bizim bu gün imkanlarımız xaricindədir), Buna görə, cinayətlə cəzanın arasında kamil olan ideal bərabərlik ola bilməz. Prinsipcə, bu nə əxlaqi, nə də hüquqi baxımdan mümkün deyildir.

Ancaq bu heç də o demək deyil ki, qanunvericinin simasında dövlət, öz siyasi məqsədlərinə nail olmaq üçün, cəzanın növü və ölçüsünün seçimində ədaləti pozmaq imkanına malikdir. Bu hansı ki, bir çox ölkələrin tarixində rast gəlmək mümkündür.

Ədalətli qisas, cinayətlə cəzanın arasındakı gözə görünən bərabərliyi qanunvericiliyə əsasən tənzimləməkdir. Belə ki, əgər dövlət icazə verilməyən piketlərin, mitinqlərin və yığıncaqların keçirilməsinə görə cəzanı təyin etmişdirsə, onda bu şübhəsiz ki, cinayətlə cəza arasında o ədalətin sərhədinin pozulması baş

verəcəkdir. Çünki, qanunvericiliyin ortaya qoyduğu problemin həlli yollarında hüquq pozuntusunun ictimai təhlükə dərəcəsinin əxlaqı meyarına dayanmış hər hansı bir əsası yoxdur.

Müəyyən əməllərə görə bu və ya digər cəza növü seçəndə qanunverici başa düşür ki, qanunu pozan şəxs cəzalandırılacaqdır. Qanunverici əvvəlcədən cəzanın törədilən əmələ uyğun olmamasını bilsə və qisas ədalətin və hüququn ideyasına qulluq etməsə, o əxlaq qaydalarına uyğun olmayan hərəkət etmiş olacaqdır. Qanun, daha doğrusu cinayətlə pozulan mühafizə obyekti, nə qədər əhəmiyyətlidirsə, bir o qədər də cinayətin özü əhəmiyyət daşıyır. Qanunun dəyəri cəzanın ağırlığının dərəcəsini təyin edir. Ancaq hansı obyekt daha əhəmiyyətlidir?

Təbii ki, bu anlayış nisbidir. Çünki bu dövlət hakimiyyətinin səlahiyyəti daxilindədir. Daha doğrusu hər bir dövlətin fərdi baxışıdır. Bu, doğru və ədalətli yanaşmadır. Çünki hər bir xalqın əxlaqi dəyərlərinin qiymətləndirilməsinin öz meyarları və istənilən dəyərin əhəmiyyətliliyi haqqında öz anlayışları mövcuddur. Deməli, hər bir xalqın bu və ya digər cinayətin ağırlığına müxtəlif baxışları mövcuddur. Bu, o deməkdir ki, müxtəlif xalqların eyni cinayətə baxışı, bir qayda olaraq, fərqli olur. Əlbəttə, Sovet hakimiyyəti dövründə dövlət və ictimai əmlakın mənimsənilməsinə görə ölüm cəzasınının tətbiq edilməsi mənasız və ədalətsiz hesab edilirdi. Bu halda belə cəza növü ortaya qoyan dövlət əxlaq qaydalarından, humanizm prinsiplərindən və ədalət ideyasından deyil, ideoloji səbəblərdən və cinayətlə mübarizə siyasəti haqqında yanlış təsəvvürlərdən çıxış edirdi. Əməlin əhəmiyyətliliyi dərəcəsi hər dövrdə qanunverici tərəfindən hakimiyyətin maraqlarını nəzərə alaraq və şəxsiyyətin cəmiyyətdə tutduğu yerə və mövqeyinə uyğun olaraq təyin edilirdi. Buna görə bütün zamanlar və xalqlar üçün eyni cəza sisteminin qurulması mümkün deyildir. Eyni zamanda, bu və ya digər əməlləri müxtəlif xalqların tarixində müxtəlif dövrlərdə cinayət kimi hesab etmək də olmur. Deməli, cəzanın ideal

sisteminin, eləcə də forma və məzmun baxımından ideal konkret cəzaların yaradılması mümkün olmamışdır. Cəzaların növləri və ölçüləri tədricən dəyişikliklərə məruz qalır, çünki hər bir dövr cinayət əməllərinin əhəmiyyətliliyinin dəyərləndirmə meyarlarını irəli sürür. Misal üçün, bu gün orta əsrlər dövrünün cəzaları bizim tərəfimizdən rədd edilir və humanizm prinsiplərinə uyğun sayılmır. Ancaq, o dövrün qanunvericiliyi baxımından onlar məqsədəuyğun hesab edilirdi. Burada təəccüb doğuran və qəribə bir şey yoxdur. Çünki hər bir dövr öz cəzalarını və cinayət hadisələrinə qarşı öz təsir formalarınımüəyyən edir ki, onlar digər, sonradan gələn dövr üçün məqsədəuyğun olmaya da bilər.

Ədalət nədir? Onun cəza üçün əhəmiyyəti nədir?

Ədalət ideyası, insanın şüurunun və sosial mahiyyətinin ifadəsi kimi insan cəmiyyətinin müəyyən inkişaf mərhələsində yaranmış və tarixi xarakter daşımışdır. Z. A. Berebejkina qeyd eymişdir ki, *"konkret tarixi səciyyə daşıyıcısı olan ədalət bir dəyər, ideya, etalon, qayda kimi insan cəmiyyətinin inkişafının müəyyən pilləsində yaranmışdır*"[223].

Təəcüblüdür ki, bu günə kimi ədalət anlayışının ətrafında gedən mübahisələr səngimək bilmir, baxmayaraq ki, bu etik kateqoriya çox qədim tarixə malikdir. Kant qeyd etmişdir ki, *təbii sadəliyə malik olan insan ədalət hissini tez mənimsəyir, ancaq ədalət anlayışına çox gec çatır və ya ola bilsin heç çatmasın.*[224] Ancaq bu amil heç vaxt ədaləti ədalətsizlikdən ayırmaq üçün maneyə yaratmamaışdır. İsveçli hüquqşünas - nəzəriyyəçi hüquqşünas Ekelof demişdir: "*Ədalətin ümumi konsepsiyası Tanrı haqqındakı baxışlara bənzəyir. Onun haqqında hamı danışır, ancaq onun nə olması haqında heç kim bilmir"*[225].

---

[223] *Беребешкина З.А.* Справедливость как социально-философская категория. М., 1983. С. 30.

[224] *Кант И.* Соч. М.: Наука, 1964. Т. 2. С. 196.

[225] Bax: *Бондесон У.* Концепция справедливости в представлениях населения и судей // Криминология и уголовная политика. М., 1985. С. 44.

Ümumiyyətlə, əxlaqın kateqoriyası olan ədalət, prinsip kimi öz tətbiqini istisnasız olaraq ictimai həyatın bütün sahələrində tapır. Etik təlimlərin tarixində ədalətə daha çox əxlaqi şüurun və əxlaqi tələblərin ölçüsü kimi baxılırdı. Prinsipcə, ədalətə bu kimi yanaşma doğrudur. Ədalətin simvolik olaraq tərəzi kimi təsvir edilməsi ənənəsi boş yerdən formalaşmamışdır. P. Lafarq qeyd etmişdir: "*Zərbəyə zərbə ilə cavab vermə, yetirilən zərər həcmində cəza, yerin və qidanın paylanılmasında bərabərlik prinsipi kimi məsələlər ilk insanlara məlum olan yeganə ədalət anlayışları idi. Bu anlayışları pifaqorçular tərəzinin müvazinətini pozmamaq aksiomasında ifadə edirdilər*"[226].

Əsrlər boyu həqiqət haqqında anlayış bərabərlik prinsipi ilə əlaqələndirilmişdir. Hamıya eyni dərəcədə şamil edilən ədalətli hesab edilirdi. Bu başlanğıc insan şəxsiyyətinin mahiyyətindən və təbiətindən irəli gəlir. "*Bütün insanlar mahiyyət etibarı ilə ağıllı azad varlıqlardır, onlar Tanrının surətinə bənzər olaraq yaradılmışdılar və belə olan təqdirdə öz aralarında bərabərdirlər. Bu köklü bərabərliyin etiraf edilməsi həqiqətin ali tələbini təşkil edir, hansı ki, bu baxımdan o bərabərləşdirən həqiqət adlanır*"[227].

Konfutsidən, Platondan, Aristoteldən, Roma hüquqçularından başlayaraq müasir dövrə yaşayan alimlərə qədər bütün zamanlarda filosoflar və alimlər ədalət fenomeninə fəlsəfi-hüquqi kontekstdə yanaşmışlar. Onlar bura aşağıdakı müddəaları daxil edirdilər: a) eyni şəraitdə hamının bərabərliyi; b) görülmüş əməlin və onun nəticəsinin qarşılıqlı əlaqəsi; c) itirilənin və əldə edilənin bərabərliyi. Hər bir insan ədaləti hüququn əsası və rəhbər prinsipi kimi qəbul edərək, onun mahiyyətini hər bir insana qarşı törədilən əmələ qarşılıq olaraq qisasda görürlər. Bu, o deməkdir ki, törədilmiş cinayətə görə cəza ədalət prinsiplərinə, həm cinayət qanununa (yəni cinayət-hüquqi sanksiyada), həm də cəzanın təyin

[226] *Лафарг П.* Соч. Т. III. М.; Л., 1931. С. 82.
[227] *Чичерин Б.Н.* Философия права. С. 96.

edilməsi zamanı hüquqi-tətbiqi fəaliyyətə uyğun olmalıdır. Bununla əlaqədar "*Süleymanın məsəlləri*" kitabında deyilmişdir: "*Fərqli çəki daşları Tanrıda ikrah yaradar, O, aldadıcı tərəzidən xoşlanmaz*".

Aristotelə görə ədalət ilk növbədə qanunlara uyğun olan bir şeydir. Bəs qanunun özü ədalətsiz olanda nə etməli? Axı qanunverici öz məqsədinə çatmaq üçün istənilən əmələ görə cəza müəyyən edə bilər. Məsələn, əvvəl qeyd edildiyi kimi, Sovet hakimiyyəti dövründə bütün respublikaların məcəllələrində 10 min manatın mənimsənilməsinə görə ölüm cəzasının tətbiq edilməsini nəzərdə tutan maddə olmuşdur. Çətin ki, bu qanunu ədalətli hesab edənlər tapılsın. Bu baxımdan T.Hobbsın söylədiyi "*Hansı qaydalar yazılsa da, ədalətin yeganə ölçüsü qanunun özüdür*" - sözləri ilə razılaşmaq mümkün deyildir.

Qədim yunanlar dövlət qanununa tabe olmağı, hətta onu doğru hesab etməsələr belə, özləri üçün əxlaqi borc bilirdilər. Sokratın könüllü olaraq zəhəri içməsi hamıya məlumdur. O məhkəmənin qərarını ədalətsiz hesab edirdi, ancaq dövlət qanunlarına tabe olmağı hər bir vətəndaşın əxlaqi borcu kimi qəbul edirdi. Qədim yunan filosofu Antifont deyirdi: "*Vətəndaşın ölkənin qanunlarını pozmaması ədalətdir*" [228]. Qədim yəhudilər yunanlardan fərqli olaraq ancaq Tanrı qanunlarına zidd olmayan qanunlara tabe olmağı özlərinə borc bilirdilər. Qafqazlıların həyatında da adətlər çox böyük rol oynamışdır. Buna görə də, xalqlar daha çox qanunlara deyil, adətlərə tabe olurdular. Aydındır ki, qanun mütləq olaraq ədalətli ola bilməz. Çünki ədalət tələbi insana maksimal dərəcədə fərdi yanaşmanı tələb edir. Qanun isə bütün fərdi amilləri nəzərə almaq iqtidarında deyildir[229].

Hər bir cəmiyyətdə qayda hesab edillən elə həyat səviyyəsi və həddi vardır ki, onun üzərindən keçdikdə yolverilməz ifratçılıq

---

[228] Bax: Правовая мысль: Антология. С. 75.
[229] Bax: *Романец Ю.В.* Указ. соч. С. 237.

meylləri ortaya çıxır. Deməli, hər bir cəmiyyətin qanunları da mahiyyət etibarı ilə bir-birindən fərqlənir və ədalət prinsiplərinə uyğunlaşmış kimi qəbul edilir. Cəzanın ədalətli olması haqqında anlayış bu və ya digər xalqın, adətlərin, ənənələrin və s. tarixi inkişafı nəticəsində formalaşır.

Qədim Çin filosofu Mo-Tzı yazmışdır: "*İlkin insanlar yaranan dövrlərdə hələ cəzalar formalaşmamışdır. Ancaq o zaman hər insanın öz ədalət anlayışı olmuşdur. Birinin - bir, ikisinin - iki, onunun – on ədalət haqqında təsəvvürləri mövcud idi. İnsanlar nə qədər çox dünyaya gəlirdilərsə, bir o qədər də ədalət haqqında təsəvvürlər ortaya çıxırdı. Hər bir insan öz yanaşmasını doğru hesab edərək digərlərinin fikirlərini inkar edirdilər. Nəticədə insanlar arasında güclü düşmənçilik hökm sürürdü*"[230]. Eyni zamanda bəşəriyyət həmişə ədalətə hamı tərəfindən qəbul edilən anlamı verməyə cəhd etmişdir. Əlbəttə, bu vəzifəni ilk növbədə filosoflar öz üzərinə götürmüşdürlər.

Fəlsəfi ədəbiyyatda ədalət həm mənəvi gözəlliyin mahiyyətini təşkil edən fəzilət, həm qanun qarşısında hamının bərabərliyi, həm də törədilən cinayətin cəzaya uyğun olması və s. kimi tərif edilir. Lakin ömürlük azadlıqdan məhrum edilmə cəzasının ölüm cəzasından daha ədalətli olmasını nə ilə müəyyənləşdirmək mümkündür? Norveç qanunvericiliyində nəzərdə tutulmuş 70 nəfər insanı qəsdən öldürmə cinayətinə görə 21 il azadlıqdan məhrum edilmə cəzası ədalətlidirmi? Asiya və Şərqin bəzi ölkələrində qəsdən bir adam öldürməyə və ya zorlanmasına görə nəzərdə tutulan ölüm cəzası ədalətlidirmi?

Hər bir cəmiyyət cəzanı öz əxlaq qaydaları, mentaliteti, adətləri və cinayətkarlığın vəziyyəti baxımından ədalətli hesab edir. Demokritə görə, hər bir dövlət "ümumi xeyir" naminə ədalətin pozulmasına görə şiddətli cəzanın verilməsini zəruri hesab edirdi. "*Nə olursa olsun, cəmiyyətə zərər verəni və ədaləti*

---

[230] Вах: Правовая мысль: Антология. С. 44.

*pozanı öldürmək lazımdır. Dövlət quruluşunda ruh yüksəkliyini, kişiliyi, hüquqlarını və əmlakını qoruyan insan bunları etməyən insandan üstündür*"[231].

Məhz ədalətin müxtəlif mənalarının olmasına görə cəzanın törədilən əmələ uyğunluğunu təyin etmək mümkün olmamışdır. Norveçdə 70 nəfər insanı öldürmüş terrorçunu bütün rahatlıqları olan 2 otaqlı kamerada saxlamaq şərti ilə 21 il azadlıqdan məhrum edilməsi mövcud qanunvericilik baxımından ədalətli ola bilər. Ancaq, bu hələ o demək deyildir ki, bu cür cəza dünya ictimaiyyəti və sadə norveçlilər üçün ədalətlidir.

Avropalıların fikrincə, bəzi ölkələrin, o cümlədən Orta Asiya ölkələrinin cinayət məcəllələrində yetkinlik yaşına çatmayanların zorlanmasına görə ölüm cəzasının tətbiq olunması ədalətin pozulması hesab olunur və sözün geniş mənasında, o xalqların inkişaf səviyyəsini mənfi cəhətdən səciyyələndirir. Ancaq bu, avropalıların mövqeyidir. Həmin ölkələrdə isə ictimaiyyət və qanunvericilər bu növ cəzanın verilməsini ədalətli hesab edirlər.

Qədim zamanlardan bəri iddia edilirdi ki, hər bir cinayət əməli cəzalandırılmalıdır. Eyni zamanda, hər bir cəza ədalətli olmalıdır. Çünki bütün düşünən insanlar ədalətli cəzanın həm cəmiyyət, həm də cinayətkarın özü üçün faydasını anlayırdılar, yoxsa cəza öz mahiyyətini itirmiş olar. Bəs o zaman nə həddən çox yumşaqlığa, nə də ifrata yol vermədən, qisasın ədalət prinsipinə uyğun yerinə yetirilməsi mümkündürmü? Bu istiqamətdə A. Frank qeyd edirdi: "*cinayət bizim düşmənimizin bədənindən kəsilib atılmalı olan ətin miqdarını keçir və ya ona çatmırsa, cəza mütləq tarazlığın tələblərinə görə ən dəqiq şəkildə icra edilmirsə, o, zərurətə uyğun olaraq ədalətsizliyə və özbaşınalığa çevirilir"*[232].

---

[231] Вах: Материалисты Древней Греции. М., 1955. С. 170.
[232] *Франк А.* Философия уголовного права. СПб., 1868. С. 133.

Minilliklər boyu mütəfəkkirlər ədalətli cəza düsturunu tapmağa cəhd etmişlər. Hələ Platon ədalətli cəza haqqında və onun təyin edilməsi istiqamətində müəyyən qeydlər aparmışdır.

Ç. Bekkariyanın əsərinin işıq üzü görməsindən yüz il sonra təsis edilmiş cinayət hüququnun klassik məktəbinin nümayəndələri ona istinad edirdilər ki,  cəza qaçılmaz və törədilən cinayətin ədalətli qarşılığı olmalıdır. XIX əsrdə ingilis hüquqşünası və iqtisadçısı İ. Bentam cəzanın utilitar nəzəriyyəsini ortaya çıxarmışdır. Bunu edərkən o, cəzanın yaranması və tətbiq olunmasının üç şərtini irəli sürmüşdür:

a) Cəza cinayət nəticəsində vurulan zərəri aradan qaldırmağa qabil deyilsə, tətbiq edilməməlidir;

b) Cəza çox da baha olmamalı, yəni cinayətkar tərəfindən yetirilən zərərdən bahalı olmamalıdır;

c) Cinayətin nəticəsində yetirilən zərərin qarşısı cəza ilə deyil, daha ucuz üsulla alınarsa, o zaman cəzanı tətbiq etmək lazım deyildir.

List hesab etmişdir ki, *cinayətin növü və ölçüsünü təyin edərkən, qanunda əməlin törədilməsinin zahiri nəticələrinə deyil, onu törədənin daxili vəziyyətinə daha çox əhəmiyyət verilməlidir*[233]. Beləliklə klassik məktəbdə cəzanın ölçüsünün miqyası əməlin nəticəsində olanlardır, pozitivistlər üçün isə fərdin daxili durumudur.

Müasir hüquqşünas N. Xavronyuka görə cəzanın maksimal dərəcədə ədalətli və törədilən cinayətə tam uyğun olması üçün aşağıdakı prinsiplər yerinə yetirilməlidir:

1) Cinayət statistikası tərtib edilməli və ona dair ümumi tələblər qəbul edilməlidir;

2) Anketləşmə və sorğu aparılmalıdır. Göstəriciləri yüksək olsa belə, rəsmi statistika mütləq əhalinin viktimoloji sorğularının nəticələrinə əlavə olunmalıdır;

---

[233] *List F.* Strafrechtliche Aufsätre u Vorträge. B. II. S. 377.

3) Cinayət qanununun riyaziliyi nəzərə alınmalıdır;

4) Cəza prosesi ekspert müşaiyəti ilə yerinə yetirilməlidir.

Müəllif belə bir nəticəyə gəlir ki, "*Sanksiyanın sərtlik (yumşaqlığı) meyyarı, ilk olaraq, bu və ya digər əməlin həqiqi ictimai təhlukəsi kimi əks etdirilməlidir*"[234].

Fikrimizcə, törədilmiş əmələ görə cəzanın ədalətli olması üçün o, aşağıdakı əsas tələblərə cavab verməlidir:

*Birincisi*, cəza bu və ya digər xalqın və ya millətin əxlaqi, dini, tarixi, mədəni əsaslarından asılı və onlara uyğun olmalıdır.

*İkincisi*, o cinayət əməlində olan şərə uyğun olmalı və onunla tarazlıq təşkil etməlidir. Bu şərtlər qanunvericinin öz fəaliyyətində cəzanın təyin edilməsi zamanı prinsipial əhəmiyyət kəsb edir.

*Üçüncü* şərt cəzanın təyin edilməsi baxımından məhkəmə fəaliyyətinə aid edilir. Bu cəzanın praktiki tətbiq edilmə mərhələsində diqqət daha çox cinayətkarın şəxsiyyətinə yönəlməlidir. Yəni cinayətin subyekti, onun xüsusiyyətləri, daxili durumu ədalətli cəzanın reallaşdırılmasında əhəmiyyətli rol oynamalıdır.

Əgər ədalət bir prinsip kimi qanunverici tərəfindən cəzanın təyin edilməsində əhəmiyyət kəsb edirsə, onda onun təyin edilib icra olunmasında etik və fəlsəfi kateqoriya kimi dəyərləndirilən humanizm zəruridir. Humanizm hüquqda tətbiqedici fəaliyyətin prinsipi kimi ilk növbədə humanizmin ümumi nəzəriyyəsindən doğan məzmunla əhatə olunmalıdır.

Humanizmin əsas prinsiplərindən biri, insanın mütləq dəyər olmasının etiraf edilməsidir. Buna görə insana və onun inkişafına qulluq edən hər bir şey "humanizm" (lat. insani, insana aid olan)

---

[234] *Хавронюк Н.* Каким должно быть уголовное наказание, или Почему юриспруденция отстает от физики? // Материалы Научно-практической конференции в Пекине. 2012 г. 1-3 дек. С. 14-15.

adlanır. “*Humanizm insanın bir şəxsiyyət kimi dəyər daşımasını, onun ləyaqətinə hörmət edilməsini, insan xeyrinə yönəlməni ictimai tərəqqinin məqsədi kimi tanıyan əxlaqi mövqedir*”[235].

Eyni zamanda, humanizm özünü daha çox cəmiyyət və insan münasibətlərində göstərir. Buna görə də humanizmin ikili xarakteri haqqında danışmaq mümkündür. Birinci tərəf hümanizmin cəmiyyətə münasibətində, ikinci tərəfi isə, ictimai və şəxsi maraqların cinayətkar qəsdlərdən qorunmasından ibarətdir. Bu cür humanizm prinsiplərinə görə cinayətkarların sərt cəzalandırılması tədbirləri tam doğrudur. Belə ki, E. A. Sarkisov qeyd etmişdir ki, s*osialist cəmiyyətinin və bütün Sovet vətəndaşlarının cinayətkar əməllərdən qorunmasına dair humanist ideyaların ciddiliyi, cinayətkarlara və xüsusi ilə qanun tərəfindən qorunan obyektlərə qəsd edən cinayətkarlara qarşı barışmazlığını tələb edir*”[236].

Humanizmin digər tərəfi *cinayətkara* yönəlmiş və onun şəxsiyyətinə insani münasibətin, sərt cəzanın inkarının, yumşaldıcı amillərin nəzərə alınmasının və s. göstəricisidir. Belə ki, J. P. Marat “Cinayət qanunvericiliyinin planını” tərtib edərkən ona yönəlmişdir ki, “*Nə ədaləti, nə azadlığın rolunu kiçiltmədən, cəzanın yumşaqlığını onun etibarlılığı və insanlığı vətəndaş cəmiyyətinin təhlükəsizliyi ilə barışdırsın*”[237]. Ç Bekkariya qeyd etmişdir: “*... yalnız belə bir cəzanı tətbiq etmək lazımdır ki, o insan ruhuna daha çox təsir bağışlasın və əksinə, cinayətkara daha az əzab versin*”[238].

İ. İ. Karpetsin qeyd etdiyi kimi, cəmiyyəti təhlükəli hadisələrdən qorumaq üçün cinayətkarların sərt cəzalandırılması

---

[235] *Келина С.Г., Кудрявцев В.Н.* Принципы советского уголовного права. М., 1988. С. 147.

[236] *Саркисов Э.А.* Гуманизм в советском уголовном праве. Минск, 1968. С. 23.

[237] *Марат Ж.П.* Избр. произв. М., 1956. Т. 1. С. 213.

[238] *Беккариа Ч.* О преступлениях и наказаниях. М., 1939. С. 244.

cəmiyyətə qarşı humanizm deyil, bu prinsipin həyata keçirilməsindən məcburi çəkinmədir[239].

Belə mövqe diqqəti humanizmin mahiyyətinin yalnız bir tərəfinə yönəldir ki, bu da cinayətkara qarşı insani münasibəti ortaya qoyur. Hamı tərəfindən qəbul olunmuş mənada "humanizm" termini insanın bir şəxsiyyət kimi dəyərinin etiraf edilməsi, insan üçün xeyirli olanın ictimai münasibətlərin qiymətləndirilməsinin meyarı kimi təsdiq edilməsidir. Deməli, humanizm ancaq konkret insana aid edilə və müasir mənada insanlıq mərhəmət kimi başa düşülə bilər. Konkret insana zərər verməklə cəmiyyətin maraqlarının ödənməsi, hətta zərurətdən doğsa və sosial maraqlara uyğun olsa belə humanizm hesab edilə bilməz. Çünki, zorakılıq və humanizm bir yerə sığışmayan iki ayrı anlayışdır.

Cinayət hüququnda humanizm prinsipi yalnız cinayətkarın şəxsiyyəti ilə əlaqəli bir məsələ və ona qarşı humanist davranma meyilləridir. Bununla bağlı təbii sual ortaya çıxır. Məgər humanizm sadəcə cinayət törətmiş insan üçün yumşaq cəzanın verilməsidir?

Bu istiqamətdə A. S. Qorelik hesab etmişdir ki, "*Cinayətkara hətta mümkün olan cəzalardan ən yumşağının təyin edilməsini yalnız şərti olaraq humanizm adlandırmaq mümkündür. Hər bir cəza qisasdır. Qisas və humanizm bir-birinə zidd anlayışlardır. Cəza, ümumiyyətlə, çox və ya az humanist ola bilməz. Daha doğrusu söhbət daha çox və ya az humanist olmayan cəzadan gedə bilər. Bunu da bu terminin işlədilməsində nəzərə almaq lazımdır*"[240].

Beləliklə, humanizm prinsipi konkret cəzanın, cinayətkarın xüsusiyyətlərini nəzərə almaq şərti ilə törədilmiş cinayətə ədalət

[239] *Карпец И.И.* Наказание: Социальные, правовые и криминологические проблемы. М., 1973. С. 87.

[240] 1 *Горелик А.С.* Наказание по совокупности преступлений и приговоров. Красноярск: Изд-во Красноярск. ун-та, 1991. С. 83.

baxımından yanaşmadır. Buna görə humanizmi ədalətə aparan yol kimi qiymətləndirmək mümkündür. Ədalət və humanizmin cinayət-hüquqi kateqoriyalarının qanunvericilər və hakimlər tərəfindən anlaşılması böyük əhəmiyyət kəsb edir. Əlbəttə ki, onlar fəlsəfə tərəfindən işlənilmiş ədalət və humanizm anlayışlarına qarşı qoyulmamalı və ondan ayrılmamalıdır.

Ədalət – qiymətləndirmə mexanizmi kimi insanların fəaliyyətinin, əməllərinin doğruluğunun ölçüsünə çevrilir. Bu əsasən hakimlərə aiddir. Cinayətin düzgün qiymətləndirilməsinə inamlı olan hakim humanizm prizmasından yanaşmaqla, gərək cinayətin ədalətliliyini cəsarətlə həyata keçirsin, bunu edərkən o, özünü unutmalı, ancaq həqiqətin qayğısına qalmalıdır. Hakimin məqsədi yalnız həqiqəti üzə çıxartmaq, onun haqqında deyilənlər isə onu maraqlandırmamalıdır. Eyni zamanda nəzərə alınmalıdır ki, cəzanın ədalətli olmasının şərti hakimin təmənnasızlığı və pulla ələ alınmamasından aslıdır. Siseron demişdir ki, "*Kəsilən hökmlərə görə pulun alınması cinayətdir. Bəraət qazansın deyə bir kəsdən pul alıb ona iş kəsmək daha da böyük cinayətdir*". Demokrit isə qeyd etmişdir ki, "*Pulla alınan ədalətli olmaz".* F. Bekon bu fikri dəqiqləşdirərək qeyd etmişdir: *"Hakimlər iti zəkalı olmaqdan daha çox - elmli, sübutları ortaya çıxartmaqdan daha çox - mərhəmətli, özünə güvəncli olmaqdan daha çox ehtiyatlı olmalıdılar*"[241].

Bəzən məsələnin həlli günahkarın şəxsiyyətinin xarakterindən asılıdır. Belə hallarda ədalət və humanizm kateqoriyalarını ortaya qoymadan keçinmək mümkün olmur. İnsanın fərqləndirici əlamətlərinin çox olması, onları təsbit olunmuş dəqiq meyarlar şəklində ifadə etməyə imkan vermir. Buna görə, bu normalardan istifadə edərkən humanizm və ədalətin əxlaqi kateqoriyaları mühüm əhəmiyyətə malik olur. İnsan xarakterini təyin edərkən onlara istinad edilməlidir. Bu normalar

---

[241] *Бэкон Ф.* Соч. Т. 2. М., 1978. С. 473.

içərisində cəzanın təyin edilməsi qaydaları 1-ci yerə çıxır.

Məhkəmə prosesində cəzanın təyin edilməsi zamanı subyektivlikdən qaçmaq mümkün olmur. Bununla əlaqəli olaraq biz hakimin daxili əminliyi və onun xüsusi yanaşması ilə rastlaşırıq. Bu da hakimin psixikasınadan irəli gəlir ki, o kəsdiyi cəzanı ən ədalətli hesab edir. Daxili əminlik bir hal kimi keçici təəssüratların nəticəsində yaranmır. O, törədilmiş cinayətin ictimaiyyət üçün təhlükəli olması dərəcəsinin və xarakterinin təhlili, təqsirkarın şəxsiyyəti, cəzanı yumşaldan və ağırlaşdıran amillərin əsasında ortaya çıxır. Ölkəmizin məhkəmə təcrübəsi göstərir ki, xarakteri və dərəcələrinə görə eyni olan cinayətlərə məhkəmələr bir-birindən fərqli cəza növləri və müddətləri təyin edir. Bəs onda hakimin rəyi nədir?

A. Barak "*Hakim rəyini" qanunun hakimə verdiyi səlahiyyət kimi tərif edir. Bu səlahiyyət ona görə verilir ki, o, bir neçə qanuni alternativlərdən seçim edə bilsin. Bu halda rəy nə emosional, nə də əqli durum deyildir. Bu daha çox hüquqi şərtdir ki, onun olmasına görə hakim variantlar sırasında seçimini edə bilər*[242]. Bununla çətin ki razılaşmaq olar, çünki bu və ya digər konkret cəzanın verilməsi üçün hüquqi şərtin seçimi qanun tərəfindən təyin edilmişdir. Bu da o deməkdir ki, hakim ədalətli qərar vermək üçün bu şərtlərin çərçivəsindən çıxa bilməz.

Hakim rəyi daha çox hakimin bu və ya digər qərarının çıxarılmasının əsasında duran əxlaqi, praktiki və pedaqoji şərtlərin kompleksidir. Buna görə hökmün doğruluğu hakimdə bu keyfiyyətlərin inkişaf etməsinin səviyyəsindən asılıdır. Əlbəttə, peşəkar keyfiyyətlərlə yanaşı, hakimin ümumbəşəri kateqoriyalarla düşünməsi bacarığı böyük əhəmiyyət kəsb edir.

Bundan çıxış edərək biz güman edirik ki, hakim rəyi cinayətkara cəza təyini zamanı ədalətli qərarın qəbul edilməsində daxili əminlikdir. Aydındır ki, hakim rəyinin həddi olmalıdır.

---

[242] *Барак А.* Судейское усмотрение. М., 1999. С. 13–14.

Söhbət hakim rəyinin optimal variantından gedir. Bəzi müəlliflərin hakim rəyinə qarşı çıxış etmələrinə baxmayaraq, etiraf edilməlidir ki, hüquq olan yerdə onu icra edənin rəyinə əsaslanan seçim imkanı da vardır.

Bu mənada biz V. P. Najimovun ehtiyatlı mövqeyini dəstəkləyirik. O xəbərdarlıq etmişdir ki, p*rosesin iştirakçıları, xüsusi ilə müttəhim və vəkil, hakimlər tərəfindən cəzanın konkret ölçüsünün kəsilməsinin qarşısında acizdirlər. Hakimlər bu məsələyə özlərinin pis əhvalını, müttəhimə qarşı intuitiv mənfi hisslərini və başqa bu kimi istənilən subyektiv məqamları daxil edə bilərlər*[243]. Görünür ki, bütün bunlar hakim rəyinin mümkün çərçivələrindən deyil, onun şəxsi keyfiyyətlərindən asılıdır. Biz hakim rəyinin sahəsinin kiçilməsi ilə çıxarılan hökmün qanunilik və doğruluq dərəcəsinin artmasına əmin deyilik. Buna zəmanət də yoxdur. Ona görə məsələnin qoyuluşu hakim rəyindən imtina edib-etməməkdən deyil, bu rəyin hüdudlarının necə olamasından aslıdır.

Sözsüz, zəruri olan ilk şərtlərlə yanaşı, ayrı-ayrı dəlillər haqqında düşünmək, onları təhlil və müqayisə etmək, çıxarıla biləcək hökmə tənqidi nəzər yetirmək, bütün bunlardan sonra gəlinən nəticələrin doğruluğunu yoxlamaq və nəhayət qərarın əsasında duran məlumatların arasında məntiqi və səbəb-nəticə əlaqəsini təyin etmək rasional daxili əminliyin formalaşmanın elementləridir[244].

Hakimin daxili rasional əminliyinin ilk şərti ondan ibarətdir ki, o, öz düşüncəsində formalaşdırmış cəzanın növü və ölçüsünün beynində yaratdığı model kimi yanaşaraq özünə nəzarət edir. Özünə nəzarətin mühüm elementi - şübhədir. Hər bir cəzanın

---

[243] *Нажимов В.П.* Справедливость наказания — важнейшее условие его эффективности // Вопросы организации суда и осуществление правосудия в СССР. Калининград, 1973. Т. 2. С. 3.

[244] *Надь Л.* Приговор в уголовном процессе. М., 1982. С. 92.

növü və ölçüsünü seçən hakim öz əxlaqi prinsiplərindən çıxış edir. Burada qeyd edilməlidir ki, cəzanın ədalətli və məqsədəuyğun təyin edilməsində çox mühüm rolu hakimin fəlsəfi, hüquqi, ümümbəşəri baxışlar sistemi oynayır. Siyasi və ideoloji prinsiplər hakimə yad olmalıdır.

Beləliklə, qanun səlahiyyətli şəxsin və ya icraedici orqanın təqdiri üçün müəyyən çərçivələr yaradır. Bunu da ona görə edir ki, o humanizm və ədalətə əsaslanın prinsiplər üzərində doğru qərar qəbul etsin. Belə ki, Allahın Elçisi - Məhəmmədlə onun tərəfindən Yəmənə hakim təyin edilmiş Muaz ibn Cəbəl arasında belə bir dialoqun baş verdiyi rəvayət olunmuşdur. "*Səndən kimsə gəlib nəsə soruşsa, nəyə əsaslanıb hökm verəcəksən?" deyə Məhəmməd peyğəmbər soruşdu. Muaz: "Allahın Kitabına"- deyə cavab verdi. Rəsulullah: "Əgər tapa bilməsən, nəyə əsaslanacaqsan?", deyə yenidən soruşdu. Muaz: "Rəsulullahın sünnəsinə", deyə cavab verdi. Rəsulullah: "Orada da tapa bilməsən?..." deyəndə Muaz belə cavab verdi: "O zaman öz fikrimə əsaslanıb, ona görə hökm verərəm*". Onun bu cavabı Peyğəmbərimizi çox sevindirdi. Peyğəmbərimiz: "*Rəsulullahın elçisini razı salan Allaha həmd olsun*!" buyurdu.

## § 2. Cəzanın məzmun və xüsusiyyətləri

**I.** Hüquqi ədəbiyyatda yalnız bir neçə müəllif "cəzanın mahiyyəti" anlayaşını "cəzanın məzmunundan" fərqli anlamda istifadə etmişdir. Digərləri isə bu anlayışları ya eyni mənada, ya da onlardan sadəcə birini işlətmişdir. Cəzanın mahiyyəti anlayışına dair bəzi fikirləri işıqlandıraq.

İnqlabdan əvvəlki rus kriminalist alimlər cəzanın mahiyyəti deyəndə, cinayətkarın törətdiyi əmələ görə, cəzalandırılmasını

nəzərdə tuturdular[245]. Məsələn, N. D. Sergiyevski cəzanın mahiyyətini "məlum fiziki və mənəvi zərər şəklində" özünü göstərən qınaqda və danlamaqda görürdü[246]. Ancaq sovet alimi P. P. Osipov tərkibinə tərbiyə əlavə edilən cəzaların iki mahiyyətli təbiətinə diqqət yerirmişdir[247]. İ. A. Tarxanov cəzanın mahiyyətini "hüquqi məhdudiyyətlərdə əks olunmuş cinayəti törətmiş şəxsin və cinayətkar davranınşın dövlət qınağı"[248] kimi tərif etmişdir. Cəzanın mahiyyətini qisasda görən müəlliflərə də tez-tez rast gəlmək mümkündür[249].

Əslində cəzanın əsl mahiyyətini açmaq, ona dəqiq tərif vermək, ona tarixi və məntiqi baxımdan yaxın olan və cəzanın məzmununu təşkil edən cəzalandırma hadisəsindən fərqləndirmək çox çətin məsələdir. Bunu təsdiq etmək üçün C. Ə. Kərimovun ifadələrini xatırlatmaq yerinə düşərdi: "*Hüququn mahiyyəti ilə məzmununun bir-birindən ayrılması özünü doğrultmur, burada yalnız mahiyyət deyil, həm də, məzmun da obyektiv kateqoriyadır və qanunvericilikdə əks olunmuş subyektiv kimi ifadə edilmişdir"*[250].

Cinayətin məzmunu onun mahiyyətindən fərqli olaraq, dayanıqlı olmayan, dəyişkən, tərəddüd içində olan bir şeydir.

---

245 Bax: *Таганцев Н.С.* Русское уголовное право. Лекции. Часть Общая. С. 91–93; *Спасович В.Д.* Учебник уголовного права. Т. 1. Вып. 2. СПб., 1863. С. 180; *Познышев С.В.* Основные вопросы учения о наказании. М., 1904. С. 335.

246 *Сергиевский Н.Д.* Русское уголовное право. Часть Общая. Пособия к лекциям. II изд., 1915. С. 84.

247 Bax: *Осипов П.П.* Теоретические основы построения и применения уголовно-правовых санкций. Л., 1976. С. 68.

248 *Тарханов И.А.* Замена наказания по советскому уголовному праву. Казань, 1982. С. 9.

249 Bax: Учение о наказании в уголовном праве России. М., 2011. С. 58; *Наташев А.Е., Стручков Н.А.* Основы теории исправительно-трудового права. С. 17.

250 *Керимов Д.А.* Методология права... С. 167.

Cinayətin məzmununda bilavasitə hərəkəti əks etdirən daimi inkişaf və cəmiyyətin maddi, mənəvi, sosial-siyasi həyatının dəyişməsi vardır. Buna görə cinayətin mahiyyəti ilə məzmununu eyniləşdirmək yolverilməzdir. Çünki çəzanın mahiyyəti məzmunundan fərqli olaraq daha dərin və ümumi kateqoriyadır. Birincisi, cəzanın əsası və mahiyyətidir, ikincisi isə, onun cəzanın mahiyyətinin çoxsaylı və müxtəlif təzahürlərində ifadə olunmasıdır.

Mahiyyət cəzanın daxili təbiətini açır, cinayətin məzmunu isə, bu və ya digər şəxsin əzablarını və istirablarını konkret olaraq cinayət hüquqi sanksiyasında ifadə edir. Buna görə cəzanın məzmunu, qisas və onun bütün xüsussiyyətlərini əhatə edir. Cəzanın məzmununa görə dövlət iradəsinin reallıqda hansı vasitə və metodlarla reallaşdırdığını təyin etmək lazımdır. Bundan isə belə bir nəticəyə gəlmək mümkündür ki, dövlət hakimiyyəti obyektiv və dəyişməz xarakter daşıyan cəzanın mahiyyətinə, cəmiyyətin səviyyəsindən asılı olaraq geniş mənada cəzanın məzmunu daim dəyişikliyə məruz qalmasına baxmayaraq təsir etmək iqtidarında deyildir.

Törədilmiş cinayət qarşısında qisas cəzanın məqsədi deyil, onun məzmunudur. Qisas onun içində obyektiv olaraq mövcuddur və bu vasitəni öz maraqları üçün məqsədəuyğun istifadə edə biləcəyi ehtimal edilən qanunvericidən asılı deyildir.

Cəzaverici məzmunun dərk edilməsində çətinlik təkcə, elmdə yer alan qisasın cəzada yerinin təyin edilməsi məsələsindəki müxtəlif yanaşmalarla deyil, həm də alimlərin cəzanın özünün təbiətinə dair fərqlənən baxışları ilə əlaqəlidir. Belə ki, B. S. Utevski qisası nəyə isə məcbur etmək kimi tərif edirdi[251]. B. S. Nikiforov qisasın bu kimi tərifini tənqidlə

---

[251] *Утевский Б.С.* Вопросы теории исправительно-трудового права и практика ее применения // Материалы теоретической конференции по вопросам советского исправительно-трудового права. М., 1957. С. 37.

qarşılayaraq onun əzab olduğunu zənn etmişdir[252]. Beləliklə, o, qisasda təkcə ümumu mənada nəyə isə məcburiyyət deyil, həm də törədilən cinayətlə tarazlıq təşkil edən cəza məcburiyyətini görürdü.

B. S. Noy qisasa öz münasibətini belə ifadə etmişdir: "*Qisas insanı islah etmək məqsədi ilə əzab vermək fəaliyyətidir. Qisasın məhz bu cür başa düşülməsi praktik olaraq onu cəzanın tərkibində olan, ancaq qisas olmayan zorakılığın başqa növlərindən fərqləndirmək imkanı verir*"[253].

S. V. Polubinskaya hesab etmişdir ki, qisas cəzanın ayrılmaz hissəsidir. Bu mənada cəza cinayətkarları yeni cinayətlərin törədilməsindən məhrum etmədir. Belə anlamda qisas cəzanın məqsədinə çatması üçün zəruri olan ilk şərtdir. Məqsəd isə cinayətin qarşısını almaqdır[254]. Nəhayət, V. K. Duyunova görə qisas *"sosial həyatın istənilən sahəsində işlənsə belə, həmişə müqəssirin törətdiyi əməlin qarşısında əmələ gələn pisləmə, qınama və giley kimi reaksiyalardır*"[255].

Həm Avropa, həm də Şərq dillərində belə bir söz yoxdur ki, "cəzadan" fərqli olaraq "qisas" anlayışına uyğun gəlsin. Rus dilində bu mənada işlədilən "kara" (кара) sözü onu tam əks etmir. Dalın sözlüyünə görə, "kara" ümümi mənada olan cəza deyil, həm də şiddətli cəza, eləcə də edamdır. Məhz qisasın xüsusiyyəti ilə cəza digər cəza anlayışlarından fərqlənir. Buna görə cinayətlərin ictimai təhlükə dərəcəsi müxtəlif olduğu kimi cəzalar da bir-birindən qisasın dərəcəsi baxımından kəmiyyət və keyfiyyət

---

[252] Материалы теоретической конференции по вопросам советского ис-пра вительно-трудового права. С. 128.
[253] *Ной И.С.* Сущность и функции уголовного наказания... С. 31.
[254] *Полубинская С.В.* К вопросу о целях наказания. Проблемы усовершен-ствования уголовного закона. М., 1984. С. 100.
[255] *Дуюнов В.К.* Наказание в уголовном праве России — принуждение или кара? С. 65.

baxımından fərqlənir.

Qisasın konkret ifadəsi bu ya digər müxtəlif cəzanın məzmununu təşkil edir. Cəza sistemlərinin təhlili zamanı görmək mümkündür ki, onun tərkibinə cəzaların müxtəlif növləri daxildir ki, onlar eyni mahiyyətli olsalar belə, bir-birindən fərqlənir. Bu, o deməkdir ki, cəzanın məzmunu mahiyyətinə nisbətən tez-tez dəyişə bilər. Qanunverici bu və ya digər cəzanın məzmununa onun tərkibindəki qisasın bu və ya digər "ölçüsünün" təyin edilməsi vasitəsi ilə təsir edə bilər. Məsələn, azadlıqdan məhrum edilmədə qisasın "ölçüsü" kəmiyyət baxımından cərimədə olan qisasın "ölçüsündən" fərqlənir. Bu, tamamilə təbiidir, çünki məqsədə çatmaq üçün bir hadisədə qisasın "ölçüsü" çox, başqasında isə daha az olması zəruridir.

Qisas məzmunlu cəzanın reallaşması prosesi müttəhimə müəyyən əzablar verir. Məhz bu xüsusiyyət cəzanın məzmununun elementi kimi qisasın zəruri əlamətidir. Burada qeyd etmək lazımdır ki, əzab vermək cəzanın məqsədi deyil, qisasın xüsusiyyətidir, deməli, qisasın ayrılmaz xüsusiyyəti, səciyyəsi və keyfiyyətidir. Mənəvi və əxlaqi əzabların fiziki əzablarla birləşməsi tam ədalətlidir. Çünki cinayətin törədilməsi hadisəsinin özü cinayətkarı əxlaqdan məhrum edir.

Törədilən cinayət əməlinə görə təyin edin cəza cinayətkarın islah olması üçün reallaşan hüquqi aktdır. Belə olmasa, cəza anlayışı hüquqi leksikondan, tarixi baxımdan köhnəlmiş anlayış kimi silinərdi. S. P. Mokrinski yazmışdır: "*Qəsdən əzabın verilməsi cəzanın səciyyəvi cəhətidir. Onu ondan alsaq və bir qayda olaraq, gözlənilən nəticə vermədiyi fikrini ortaya atsaq görərik ki, o artıq cəza anlayışına uyğun deyildir. Cəza həm də məcburi tərbiyə, təhsil, təcrid, nifrət, tibbi istehlak ölçüsü adlandırıla bilər*"[256].

[256] *Мокринский С.П.* Наказание, его цели и предложения. Ч. I–III. М., 1902. С. 3.

Eyni zamanda, iztirab və alçalma ifrat dərəcəyə çatdırılmamalı, əzablar isə məqsədsiz və zəminsiz olmamalıdır. E. Ferrinin bu xəbərdarlığını da nəzərə almaq lazımdır: "*Biz qətiyyətlə həbsxanaların qanuna tabe olan yoxsul insanların evlərindən daha rahat və komfortlu olmasına gətirən ictimai ədalət prinsiplərini rədd edirik*"[257].

Fikrimizcə, əzabın həqiqi həyati mənası hətta ən adi şüura belə aydın olan anlayışların sırasındadır. Ancaq əzab çətin və ziddiyətli məzmuna malikdir. *Psixoloji* cəhətdən əzab - narazılıq duyğusu ilə bağlı olan xüsusi bir həyacandır. *Sosial* cəhətdən əzab digərləri tərəfindən qəbul edilməmənin, yadlaşmanın nəticəsidir. Dini dünyagörüşə görə əzab gündəlik insan həyatına daxil deyildir. Əzab anlayışı din çərçivəsindən qırağa çıxmır və insanlar arasındakı münasibətlərlə deyil, yalnız Tanrı ilə insanlar arasında olan münasibətlərlə əlaqəli olan dini təlimdir. Deməli, əzab – İlahi Müqəddəs bir varlığa verilən qurbandır. Əzabı dözümlülük kimi də izah etmək mümkündür. *Hüquqi* cəhətdən əzab törədilmiş şərin və cinayətin nəticəsidir.

*Əzab*- canlı varlığın iyrənc, ağır və ya iztirabverici duyğularının toplusudur. Bu duyğular ona fiziki və emosional narahatlıq, ağrı, stress və s. verir. Aydındır ki, əzabın səbəbi kimi sevgi, xəstəlik və s. duyğular da çıxış edə bilər. Bu kimi əzabları dövlət vermir və eyni zamanda insanı buna məcbur da etmir. Deməli, bu ortaya zorla atılmış deyil, təbii insan hisslərindən irəli gəlir.

Əzab cəzanın əlaməti və xüsusiyyəti kimi öz məcburi xarakteri ilə fərqlənir, lakin o, insanın öz iradəsinə uyğun xüsusi şəraitdə həyata keçirilir. Bu hisslər cinayətkarı könüllü olaraq dövlət orqanlarına təhvil verməsinə gətirib çıxartsa belə, onun mənəvi iztirablarını və vicdan əzabını bu kimi əzablardan

[257] *Ферри Э.* Указ. соч. С. 270–271.

fərqləndirmək lazımdır. Məhz bu əzaba görə şər əməl törətmiş insan öz günahının əvəzini verməli, davranışının yanlışlığını, azadlıqda yaşamağın gözəlliyini və əhəmiyyətini anlamalıdır.

Eyni zamanda, qeyd edilməlidir ki, əzab əsəbiliyə və psixozlara gətirən və insanın sağlamlığına mənfi təsir edən haldır. Cəza ortadan tam qalxsa, qisas da öz mənasını itirmiş olur. Çünki qisas məhrumiyyətlər, əzab-əziyyət və məhdudiyyətlərsiz düşünülməz. Q. V. Maltsev bu sözləri deyəndə tam olaraq haqlı idi: "*Tərkibində qisasın elementləri olmayan təmiz cəza zamanımızın liberallarının xəyallarıdır. Bu cinayətə qarşı reaksiyanı puça çıxara bilən bir xülyadır*"[258].

Buna görə cəzadan iztirab, həyəcan və s. bu kimi qisas elementləri alınsa, o zaman bu anlayış (cəza) cinayət qarşısında verilən cəza anlayışına uyğun gəlməyəcəkdir. Əslində, bunu etməyə cəhd edilsə də, bu, mənasız olacaqdır. Çünki, qisas cəzanın belə bir obyektiv xüsusiyyətidir ki, o onsuz mövcud ola bilməz. Tanrı cəzası ideyası cəza haqqında hüquqi-cinayət təsəvvürlərinə köklü şəkildə təsir etmişdir. Dini ehkamlara görə ancaq düşüncə yolu ilə tövbə etmək mümkün deyildir. Bu mənasız və səmərəsizdir. Elə buna görə də din əsl tövbəni ağrı və iztirablarda, törədilən cinayətin, günahın, şərin qarşılığında ağır həyəcan hissinin yaşanmasında görür ki, bunlar da qisas görkəmində çıxış edən cəzada vardır.

Ədəbiyyatda bütün zamanlarda qisasın tərbiyəvi imkanları haqqında suallar yaranmışdır. Belə ki, Leffler hesab etmişdir ki, əgər vətəndaşların ən yaxşıları dövlətin cinayətkar kimi dəyərləndirdiyi əməllərin çoxuna qarşı məlum nifrət hissi bəsləyirlərsə, onda bu hiss ictimai tərbiyənin nəticəsidir və bu tərbiyədə ən mühüm rolu məhz cinayətə görə təyin edilən cəza oynamışdır[259].

---

[258] *Мальцев Г.В.* Göstərilən kitabda. С. 524.
[259] *Леффлер.* Der Begriff der Vezantworlichkeit. Mitt. D.I.K.V.VI. S. 388.

Əgər cəzanın məzmununda iztirablar, məhrumiyyətlər və s. digər tərbiyə elementləri vardırsa, onda cəza qisas mahiyyətindən başqa, həm də tərbiyəvi xüsusiyyətlərə malik olur. Bu, o deməkdir ki, cəza yalnız əzab vermir, eyni zamanda tərbiyələndirir. Dövlətin qarşıya qoyduğu cəzanın icra edilməsi prosesində insanların islah olunması məqsədinə gəldikdə isə, bu heç də o demək deyildir ki, qisasın məzmununda tərbiyələndirmə elementləri vardır. Dövlətin islahetmə məqsədi cəza üçün deyil, cəzanı icra edən orqanların qarşısında məsuliyyət qoymadır. Bunlar isə fərqli şeylərdir.

Aydındır ki, cəzanın zor işlədərək icrası prosesində məhkumun şəxsiyyətinə müsbət təsir etmək mümkün deyil. Çünki qisasın, yəni hüquqi məhrumiyyətlərin tətbiq edilməsi, bir sözlə, məhkumların şəxsi maraqlarına zərərin yetirilməsi tərbiyə vasitəsi hesab edilə bilməz.

İnsanı vətənpərvərliyə, başqalarının mülkiyyət hüququna və insanlara qarşı sevgi hissi bəsləməyə məcburiyyətin mümkün olmadığı kimi, cəza vasitəsi ilə insanın daxili aləmini yenidən qurmaq və ya təkmilləşdirmək imkansızdır. Səbəb də budur ki, cəza məcburi ola bilər, ancaq inandırma mümkün deyildir. Buna görə cəza vasitəsi ilə insanın, o cümlədən, caninin, islah edilməsinə və yenidən tərbiyələndirilməsinə ümid bəsləyənlər yanılırlar.

Qisas tərbiyələndirmir, o sındırır, qorxudur və ən yaxşı halda davranışda konformluğu[260] yaradır. Qisas ilə hədələmə tərbiyə edə bilməz, şüuru dəyişməz və əxlaqi qaydaları möhkəmlətməz. Qisas məhkumun şəxsiyyətinə təsir vasitəsi kimi tərbiyəvi mahiyyət daşımır. Yalnız yeni cinayətin qarşısının alınması məqsədi daşıya bilər.

Beləliklə, cəzaverici və tərbiyələndirici təsirin hüquqi təbiəti

---

[260] Konformluq (lat. conformis — uyumlu) itaət edən, boyun əyən, uyğunlaşan mənalarına gelir. (tərcüməçinin qeydi).

müxtəlif olsa da, onalr nisbətən sərbəst hadisədir. Tərbiyələndirici təsirin ölçüləri qisasın məzmununa daxil deyildir, lakin onunla cinayətlərin qarşısının alınması məqsədinə çatmaq üçün məhkumlara islahedici təsirin vahid prosesində birləşir.

Cəzaverici və tərbiyələndirici elementlərin qarşıya qoyulan məqsədə çatması üçün azadlıqdan məhrum etmə nümunəsində daha çox aydın təzahür edir. Onlar tam bir sistemə daxil olaraq cəzaverici və tərbiyələndirici elementlərdən ibarət olan isalahedici təsir adlanan keyfiyyətcə yeni hadisəni təşkil edirlər. Cəzanın icraedilmə prosesində iki müstəqil, eyni zamanda bir-biri ilə sıx əlaqəli olan məsələlər həll edilir. Bu da qisas elementlərinin reallaşması və cəzanı müşayiət edən tərbiyələndirici təsirin təşkilidir.

Daha bir mühüm məsələyə diqqət çəkmək istərdik, bu da cəzanın qisasdan fərqidir. Onların ikisi də cəzanın tərkib hissələri olmasına baxmayaraq fərqləri ondadır ki, cəza məhkum olunana əzabın verilməsi, qisas isə şər əməl törədənlərdən əvəzin alınması ilə xarakterizə olunur. Bu ödənişözündə bərabərliyi, zərərin ödənməsini, pozulmuş bir şeyin düzəldilməsini əhatə edir. Lakin bu dənişinin alınması, törədilən cinayətə görə qisasın alınması deyildir. Bundan başqa, qisas cəzanın elementi kimi cəzanın icrası prosesində reallaşır.

**II.** Hər bir fəaliyyət, o cümlədən dövlət fəaliyyətləri müəyyən məqsədə görə həyata keçirilir, yoxsa bu fəaliyyət mənasız olardı. Prinsipcə, burada məqsəd cinayət hüququ deyil, fəlsəfi kateqoriyadır. Fəlsəfədə məqsəd deyəndə yerinə yetirilən işin nəticəsini əvvəlcədən görmək qabiliyyəti başa düşülür. Hüquqa tətbiq ediləndə "*Məqsəd fəlsəfi kateqoriya kimi, hüquqi hadisə və proseslərin araşdırılmasının əsasında durur, hüquqi fəaliyyəti, hüququn özünü, qanunvericiliyi, onun reallaşdırılmasını və hüquqi sistemin inkişafını və*

*təkmilləşdirilməsini qabaqcadan təyin edir*”[261].

Hər bir məqsəd ümumiyyətlə subyektivdir, çünki müəyyən adamlar tərəfindən formalaşır, qanunvericilikdə ifadə olunur və insanların subyektiv fəaliyyətində reallaşır. Eyni zamanda, məqsəd, zərurətə görə, həmişə bu və ya digər maddi və ya mənəvi yöndən duyulan formada ortaya çıxır. O forma da tələbatın reallaşmasının nəticəsidir. Hegel yazmışdır: “*Məqsəd mənim içimdə olan bir varlıqdır. O subyektivdir, ancaq həm də obyektiv olmalıdır, öz çatışmamazlığını kənara atmalı, yalnız obyektivliyinə son qoymalıdır*”[262].

Xüsusi olaraq qeyd etmək lazımdır ki, prinsipcə cəza hansısa məqsədi güdmür, bu baxımdan onun qarşısında hər hansı bir məqsəd qoymaq olmaz. Çünki məqsədlər cəmiyyət, yəni subyekt tərəfindən cəzanın obyektiv imkanlarını nəzərə alaraq və bunu qanunda təsbit edərək qoyula bilər. Deməli, cəzaya - məqsədə çatmaq üçün bir vasitə kimi baxılmalıdır. Burada məqsədin reallaşması və onun cəzanın mahiyyətindən doğması çox mühüm məsələdir. Belə olmasa o, deklarativ və mənasız xarakter daşıyacaq və birbaşa cəzaya aid olmayacaqdır.

Əlbəttə, dövlət qarşıda duran məqsədə çatmaq üçün digər vasitələrdən və imkanlardan istifadə edə bilər. Ancaq onlar artıq cəzaya deyil, digər obyektlərə həvalə ediləcəkdir. Cinayət hüquq elmində məqsəd deyəndə istənilən o ideal nəticə başa düşülür, hansı ki, ona dövlət cəzaları tətbiq edərək onu həyata keçirməyə cəhd edir. O zaman cinayətə görə cəzanı təyin edərək dövlət hansı məqsədləri qarşısına qoyur?

Burada ən mübahisəli məsələ qisas və cəzanın nisbətidir. Belə bir fikir yayılmışdır ki, qisas cəzanın məqsədidir. Birincisi, qeyd etdiyimiz kimi cəza heç bir məqsəd güdmür. İkincisi, dövlət özü-öz qarşısına qisas alma məqsədini qoya bilməz. Qisasın

---

[261] *Керимов Д.А.* Методология права… С. 270–271.

[262] *Гегель Г.В.Ф.* Соч. Т. VII. С. 39.

alınması cəzanın obyektiv təbiətində duran bir hadisədir. Əvvəl qeyd edildiyi kimi, qisasın alınması cəzanın mahiyyətində xarakterizə olunur və dövlət bu vasitəni qarşısında qoyduğu məqsədə çatmaq üçün istifadə prosesində reallaşdırır. Qisasdan imtina etmək cəzadan imtina etmək deməkdir. Bunu da müasir zamanda gerçəkləşdirmək çətindir. Qisas eyni zamanda cəzanın həm məqsədi, həm də mahiyyəti ola bilməz.

Həmin şey cəzanın məzmununu səciyyələndirən qisasa aiddir ki, onun cəmiyyətin məqsədi kimi çıxış etməsi mümkün deyildir. İslah olmanın məqsədinə gəldikdə, əlbəttə dövlət qarşısına belə bir məqsəd qoyur. Ancaq cəza bu məqsədə çatma vasitəsi kimi yardımçı rolunu oynayır. Çünki cəzanın məzmununun özündə tərbiyə elementləri yoxdur ki, onların vasitəsi ilə insana tərbiyəedici təsir göstərmək mümkün olsun. Buna görə də, dövlət bu məqsədə çatmaq üçün başqa vasitə və üsullardan istifadə edir ki, onlar da cəza anlayışından kənardadır.

Ədəbiyyatda cinayətin qarşısının alınmasına dair xüsusi profilaktik tədbirlərin görülməsi haqqında iki baxış vardır. Müəlliflərdən bəziləri hesab edir ki, bu tədbirlər cəza çəkmə müddəti zamanı belə bir xüsusi şəraitin yaradılmasını nəzərdə tutur ki, onlar məhkum olunmuşlar tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını alsın. Məqsəd ondadır ki, onlar cinayətin törədilməsini heç gözləri önünə belə gətirməsinlər və buna dair onlarda xüsusi düşüncə formalaşmalıdır[263]. Bu o deməkdir ki, islah olunmanın məqsədi yeni cinayətlərin törədilməməsi ilə kifayətlənir və onun qanunda xatırlanması məhkum olunmuş üçün tərbiyələndirici təsirin zərurətini ortaya çıxarır.

Digər müəlliflər hesab edir ki, cinayətin qarşısının alınmasına dair xüsusi profilaktik tədbirlər anlayışının bu kimi geniş izahı özünü doğrultmur. Çünki burada məhkumların islah

---

[263] *Ефимов М.А.* Лишение свободы как вид уголовного наказания // Сборник ученых трудов. Вып. 1. Свердловск, 1964. С. 200.

edilməsi məqsədi ortadan qalıxır. Onlar bu anlayışı cəza çəkmə zamanı yeni cinayətin törədilməsi ehtimalını ortadan qaldıran şəraitin yaradılması kimi başa düşürlər[264].

Cinayəti törədən şəxs sanki cəmiyyət üçün özünün təhlükəli olmasını "bəyan edir". A. S. Çervotkinin qeyd etdiyi kimi, cəzanın məqsədi kimi cinayətlərin qarşısının alınması üçün profilaktik tədbirlərin təzahürlərindən biri odur ki, məhkumlar yeni cinayət törətməsinlər. Bu da şəxsiyyətin dəyişdirilməsi və ya onun aradan götürülməsi yolu ilə olmaz. Bunun üçün yeni cinayətin törədilməsinə imkan yaradan şəraitin ortadan qaldırılması lazımdır[265].

Ədəbiyyatda fərqlənən digər mövqe də qeyd edilir. Bu mövqeyə görə, cinayət qanununun cinayətlərin qarşısının almasına yönəlməsi özü-özlüyündə etibarlı cinayət hüquq nəzarəti mexanizmini təmin etmir. Onu diaqnostikaya məruz qoymaq olmur. Həm də, insan o gədər çox fantaziyaya meylli olmalıdır ki, məsələn, beş il həbsxanada yatmış insanın cəmiyyət üçün daha xeyirli və faydalı olacağını düşünsün, çünki "*hal-hazırda islahedici məqsədlərdə istifadə edilən vasitələr heç də kamil deyildir*"[266].

Biz ondan çıxış edirik ki, cinayətin qarşısının alınmasına yönələn profilaktik tədbirlər cəzanın icra edilməsi sahəsinə aiddir. Cəzanın icrası zamanı cinayətin qarşısının alınması məqsədi müttəhim tərəfindən cəzaçəkmə müəssisələrində yeni cinayətlərin törədilməsinin qarşısını almaqdırsa, onda etiraf edilməlidir ki, cinayətin qarşısının alınması üçün xüsusi profilaktik tədbirlər yalnız cəza çəkmə müddəti boyu yeni cinayətlərin baş

---

264 *Беляев Н.А.* Цели наказания и средства… С. 21.

265 1 *Червоткин А.С.* Цель специального предупреждения преступлений и средства ее достижения при применении уголовного наказания // Актуальные вопросы борьбы с преступностью. Томск, 1984. С. 156.

266 2 *Коробеев А.И., Усс А.В., Голик Ю.В.* Уголовно-правовая политика: тенденции и перспективы. Красноярск, 1991. С. 139-141.

verməməsinə yönəlmiş xüsusi şəraitin yaradılmasından ibarətdir.

Profilaktikanın bu kimi forması cinayətlərin ümumi profilaktikasının bir hissəsidir. Buna görə "xüsusi profilaktika" adlanan şey yalnız cəzanın yeganə və əsas məqsədinə - cinayətlərin qarşısının alınması məqsədinə çatması üçün *şərtdir*. Buna görə də düşünürük ki, "xüsusi profilaktika" anlayışının əvəzinə "cinatətlərin qarşısının alınması üçün spesifik şərtlər" deyilsə daha doğru olardı.

MDB ölkələrinin müasir cinayət qanunvericiliklərində cəzanın məqsədlərinin biri ilk növbədə sosial ədalətin bərpasıdır, yalnız bundan sonra digər məqsədlər gəlir.

V. D. Filimonov "*sosial ədalətin bərpa edilməsi*" məqsədinin əsasına "*qisasın məqsədinin modifikasiyasını*" qoyur[267]. V. K. Duyunov qanunvericilikdə "*sosial ədalətin bərpa edilməsini məqsəd kimi görərək, cinayətin törədilməsinə görə cəzanın məqsədlərindən biri kimi qisasın üstü örtülü formada olsa belə, rəsmi qəbul edilməsini*" qeyd edir[268].

Qeyd etmək lazımdır ki, 1960-cı illərdə professor N. A. Belyayev sosial ədalətin bərpa edilməsini cinayət cəzasının məqsədi adlandırmışdır. Hesab edilir ki, qanunvericinin bu mövqeyi aşağıdakı səbəblər üzündən dəstəklənə bilməz.

Birincisi, sosial ədalət hüquqi deyil, fəlsəfi, əxlaqi kateqoriyadır. Buna görə onu qanunda hallandırmaq deklarativ xarakter daşıyır, deməli, hələ konkret müəyyənliyi yoxdur. Onda nə üçün qanunda cinayətin ləğv edilməsi cəmiyyətin məqsədlərindən biri kimi təsbit olunmasın?

İkincisi, cinayət qanunvericiliyi "*sosial ədalətin bərpa edilməsi*" anlayışını tam olaraq açmır. Orada o dəyərləndirmə xarakteri daşıyır.

Üçüncüsü, sosial ədalətin bərpa edilməsi məqsədinə cinayət

---

[267] Вах: Новое уголовное право России. Общая часть. М., 1996. С. 96.

[268] *Дуюнов В.К.* Göstərilən kitabda. C. 152.

hüququ vasitəsi ilə deyil, dövlətin sosial siyasəti vasitəsi ilə çatmaq mümkündür. Sosial ədalət problemi cinayət cəzasının çərçivəsindən kənara çıxır. Əgər qanunverici cəzanın sosial ədalətini cinayəti törədən şəxsə əməlin ağırlığı, onun törədilməsinin xüsusiyyətləri və müttəhimin şəxsiyyətinin xüsusiyyətləri nəzərə alınaraq müvafiq ədalətli cəzanın təyin edilməsində görürsə, onda "ədalətli qisas" anlayışını istifadə etmək daha yaxşı olardı.

Əgər ədalət etik kateqoriya kimi dəyərləndirilirsə, "ədalətli qisas" mənasında hüquqi baxımdan baxıla və səciyyələndirilə bilər. Bundan başqa, onun əlamətləri ilə meyarları cinayət- hüquqi xarakter daşımalıdır. "Ədalət", "humanizm" kimi kateqoriyalar qanunverici tərəfindən cinayət cəzası vermək məqsədi deyil, cəzanın təşkili və təyin edilməsi prinsipi ilə istifadə edilməlidir.

Beləliklə, dövlət cinayətin qarşısını qabaqcadan almağa cəhd etməlidir. Bu məqsədin yerinə yetirilməsi üçün o müxtəlif forma, metod, vasitə və üsullardan istifadə edir ki, bunlar da cinayət cəzası hesab edilir. Bu hansı formada baş verir? Başqa sözlə desək, dövlət cəza hüququnun subyekti kimi, bu xüsusi vasitədən qarşıda qoyulan məqsədə çatmaq üçün hansı tərzdə istifadə edir?

Bütün bu prosesi bir-biri ilə qarşılıqlı əlaqə və asıllıqda olan üç mərhələyə bölmək mümkündür: 1. ayrı-ayrı cəzaların və cəzalar sisteminin ümumi olaraq qəbul və təmin edilməsi; 2. konkret cinayətlərə görə cəzaların qəbul olunması; 3. cəzanın icrası. Beləliklə, cəza qabaqlayıcı təsir vasitəsi kimi üç mərhələdən ibarət olsa belə, iki istiqamətdə özünü göstərir. O, önləyici və hədələyici tədbir kimi əhalinin şüuruna ümumi təsir etmək üçün istifadə edilir. Bu, o deməkdir ki, cəza vasitəsi ilə cinayətlərin qarşısının alınması, həm cinayətə psixoloji əks təsir formasında, həm də müəyyən zaman kəsiyində cinayətkar fəaliyyətdən fiziki çəkindirmə formasında mümkündür.

Cəzanın qarşısını almaq üçün qabaqlayıcı və təhdidedici

təsirin reallaşması prosesi Qanunun qüvvəyə minmə anından başlanır. Bu proses həmin andan "işlək vəziyyətdə" olur və tələb olunanı yerinə yetirir. Buna görə biz o fikirlə razılaşa bilmərik ki, öz başlanğıcında cəza, daha doğrusu təyin edildikdən sonra simasız təhdid kimi özünü göstərir[269].

Cəzanın qarşısının alınmasında qabaqlayıcı - təhdidedici təsir iki istiqamətdə özünü göstərir. O, profilaktikanın ölçüsü kimi əhalinin şüuruna öz təsirini göstərir. Sanki cəza öz "işi" haqqında öz mövcudluğunu kifayət qədər yumşaq formada insanlara xatırladır. Eyni zamanda, o cinayətlərin törədilməsi və nəticələrin ortaya çıxması və qanunun pozulması ilə bağlı olaraq insanı gözləyən təhlükələr haqqında əhalini xəbərdar edir. Bu da cəzanın təhdidedici təsirinin reallaşmasıdır. O, obyektivdir, dövlətin istəklərindən asılı deyildir. Bu halda təhdidetmə, cinayətkar niyyətdən fiziki çəkindirmə formasında deyil, cinayətə psixoloji əks təsir formasında reallaşır.

Cinayətin qarşısını almaq üçün qabaqlayıcı xüsusiyyətlərin köməyi ilə cəza insanın intellektual dairəsinə, onun şüurunda təsbit edilən assosiasiyalara cinayət və cəza ideyası arasında daimi əlaqə yaradaraq təsir edir. Təhdidlə cəza insanın psixikasına təsir edir, yəni onda öz davranışını qoyulan tələblərə uyğunlaşdırmağı tələb edən qorxu hissini aktivləşdirir. Bu mənada cinayət cəzası əhaliyə psixoloji təsiri nəzərdə tutur. Ancaq əhalinin hansı hissəsinə? Feyerbaxın nəzəriyyəsinə görə bu təsir ümumilikdə cəmiyyətə deyil, ehtimal olunan potensial caniyə yönəlmişdir ki, o, bir təhlükəli fərd kimi ya ehtiyatlı davranmağa vadar edilsin, ya da şüurlu olaraq cinayət əməllərinin törədilməsindən çəkinsin. Ancaq ehtimal olunan canini necə təyin etmək mümkündür? Belə bir imkan olsaydı, onu cəmiyyətdən cinayəti törətməsindən qabaq təcrid etmək mümkün olardı.

---

[269] Вах: *Коробеев А.И., Усс А.В., Голик Ю.В.* Уголовно-правовая политика. С. 157.

Cəzalandırma təhdidi cinayətlərin qarşısının alınması məqsədi ilə ümumiyyətlə bütün cəmiyyətə yönəlmişdir. Belə bir fikir var ki, insanları cəza ilə qorxutmaq onları əxlaqi normalara riayət etməyə məcbur edir. Sanki heyvani qorxu hissi cinayətin qarşısını alan motivlərinin arasında aparıcı rol oynayır. Bütün bunlara baxmayaraq, hələ heç kim daha yaxşı qabaqlayıcı vasitə düşünüb ortaya qoya bilməmişdir.

Cəzalandırılma ilə təhdid edilmənin qorxuducu, repressiv psixoloji təsirin əsasında fiziki və əxlaqi əzab çəkmə qorxusu durur. Buna görə, məntiqlə cəzanın yumşaldılması, yəni cəzaların məzmununda qisasın azaldılması, həmçinin cəzalandırma elementlərinin azaldılması fiziki deyil, əxlaqi əzabların güclənməsinə gətirib çıxarmalıdır. Lakin təcrübə göstərir ki, bu gün əksinə, ictimai qınaq qarşısında utanma hissi ortadan qalxır, yəni insanlar məhkum olmağı özlərinə ar bilmirlər.

Buna görə vicdan əzabı artıq cəza təhlükəsinin qarşısını alan qabaqlayıcı və repressiv əsas ola bilmir. Əlbəttə, cəzalandırma təhdidinin psixoloji təsiri cəmiyyətin əxlaqi təsəvvürləri ilə uzlaşanda daha əhəmiyyətli olur. Millətin, vətəndaş cəmiyyətinin və mədəniyyətin  inkişaf səviyyəsi nə qədər yüksək, insanların özünə hörmət hissi nə qədər cox olarsa, cinayət və cəzanın qabaqlayıcı gücü bir o qədər səmərəli olar. Buna görə millətin inkişaf səviyyəsi yüksələndə, cəzanın psixoloji təsirinin ağırlıq mərkəzi geniş mənada təhdiddən - əxlaqi təzyiq müstəvisinə keçir.

Cəzanın əhaliyə hansı dərəcədə təsir etməsi haqqında məsələ açıq qalır. Ancaq bu təsirin güclü olmasını və ya ola bilməsini şübhə altına qoymaq mümkün deyil. Buna görə də qarşıya qoyulan məqsədə çatmaq üçün cəzadan düzgün və ağıl ilə istifadə etmək məsələsi cəmiyyətin öhdəsində qalır.

Faktiki olaraq təhdidə əsaslanan cəza keyfiyyətə, ehtiyaca, istəyə qarşı durur. Bunlar isə  insanı cinayətin törədilməsinə sürükləyir, həmçinin onun pis nəticələr doğurması haqqında insanı xəbərdar edir. B. S. Volkov qeyd etmişdir ki, c*əza haqqında fikir,*

*cinayətkar niyyəti öldürməsə belə, bütün hallarda əks fəaliyyət kimi stimul verir. Onun fonunda ictimaiyyətə zidd olan yönəlmənin aktivliyi və dayanıqlılığı, üstün gələn motivlərin varlığı daha açıq şəkildə ortaya çıxır*[270].

Qabaqlayıcı və təhdidedici xüsusiyyətləri vasitəsi ilə cəza lazımı davranış tələbini ifadə edir. Buna görə əməlin cəzalandırılması şüuru iradə prosesinin psixoloji məzmununun ən mühüm hissəsidir və ictimaiyyətə qarşı davranışın kontrmotivi kimi çıxış edir. Bundan da belə bir nəticəyə gəlinir ki, cəzanın ciddiliyi, daha doğrusu təhdidin şiddəti haqqında təsəvvürlər cinayətin törədilməsi anında durdurucu effektin yaradılmasında mühüm əhəmiyyətə malikdir, deməli, o amillərin sırasındadır ki, onlar bir çox hallarda davranış variantlarının seçiminə təsir edir.

Qanunverici üçün aşağıdakı çox prinsipial müddəanı yadda saxlamaq çox əhəmiyyətlidir: cəzanın insanı cinayətin törədilməsindən çəkindirən əyləc effektinin yaratması üçün o, bir tərəfdən, çox sərt olmamalı, digər tərəfdən isə əhalinin inkişaf səviyyəsinin yüksəlməsini nəzərə alaraq insanları cinayətdən çəkindirmək üçün bu yolda zəruri olan təhdidedici üsullar vasitəsi ilə təsir gücünə malik olmalıdır.

Məsələn, bəşəriyyətin tarixi təcrübəsi onu göstərir ki, qəsdən törədilmiş qətlə ölüm cəzası və ya ömürlük həbsdə saxlama ilə mübarizə aparmağın mənası yoxdur, bu, heç də o demək deyildir ki, başqa ifratçılığa yol verərək çox yumşaq cəzanın kəsilməsinin tərəfdarı olmaq lazımdır. Öz mahiyyətinə görə cəza ağıla və məqsədəuyğun olmalıdır.

Son vaxtlar cəzalanma ilə təhdid edilmənin mənfi, neqativ xarakterindən bəhs edilən yazılar dərc olunur ki, belə hallar da sivil dövlətlər üçün mənəviyyatsızdır, həm də səmərəsizdir. Buna görə də insanlığı sərt cəzalardan azad etmə vaxtı gəlmiş və

---

[270] *Волков Б.С.* Мотивы преступлений. Казань, 1982. С. 119.

cəmiyyəti “qorxu” altında saxlamağa son qoymaq lazımdır. Qeyd etmək lazımdır ki, bu iddialar yeni deyil, hər zaman səsləndirilmişdir. Məsələn, hələ Q. Aşaffenberq yazmışdır: “*Biz o fikirlə kifayətlənməliyik ki, cəzanın təhdidedici təsiri o qədər də güclü deyil ki, böyüyən sosial təhlükəyə müvəffəqiyyətlə qarşı dursun*”[271].

Bu irada Ç. Bekkariyanın sözləri ilə cavab vermək istərdim: “*Öz şəxsi rifahına yönəlməyə vadar edən ağırlığa bənzər qüvvənin yalnız ona əks olan maneələrlə qarşısını almaq mümkündür. Bu qüvvə özünü insan hərəkətlərinin mürəkkəb sırasında göstərir və siyasi maneələr adlandırdığım cəzalar bu hərəkətlərin qarşılıqlı toqquşmaları nəticəsində yaranan mümkün zərərli nəticələrin qarşısını, insana məxsus olan həssaslığı məhv etmədən alır. Qanunverici memar kimi davranır ki, onun vəzifəsi ağırlıq qüvvəsinin zərərli təsirini yox etsin və binanın möhkəmliyini təmin etməyə çalışsın*”[272].

Cinayət cəzasının rolu və əhəmiyyətini belə başa düşmək doğru deyildir ki, güya cəzanın təhdidedici təsiri ayrı-ayrı fərdlərin maraqlarının hesabına ümumi rifaha qulluq edir. Buna görə cəza cinayətin törədilməsindən çəkindirmə baxımından öz mahiyyətinə görə tamamilə ədalətsizdir. Çünki insan başqaları cinayət törətməsinlər deyə cəzalandırılırsa, o zaman o, özünün etdiyi əmələ görə deyil, başqalarına ibrət olsun deyə əzab çəkir[273].

Cəmiyyət tez-tez insanlarla bu çür davranır ki, cəzanın ümumi mahiyyəti insanlığın ümumi rifahına xidmət etsin. Bu təbii fəlakətlərdə, fövqəladə hallarda və s. situasiyalarda mümkündür. Ancaq cinayətin azaldılması üçün cəmiyyətin cinayəti törətmiş şəxsdən, yalnız dövlətin sərəncamında olduğuna görə istifadə

---

[271] *Ашаффенберг Г.* Преступление и борьба с ним. М., 2010. С. 204.

[272] *Беккариа Ч.* Указ. соч. С. 95.

[273] См.: *Buttur* and *Platt*. The Meaning of Punishment // Issues in Criminology. 1966. N 2. P. 79, 93.

etməsi yolverilməzdir.

Biz od və qılıncla, haçalamaqla və dar ağacından asmaqla Drakon qanunlarının cinayəti məhv edə bilməməsi haqqında iddiasını da şübhə altına qoymuruq. Ancaq biz hesab edirik ki, cinayət törətmək ideyasının ardınca şüurda cəza haqqında düşüncənin yaranması cinayət əməlinin qarşısını ala bilər. Əlbəttə, cəza vasitəsilə cinayətin qarşısının 100% alınmasını iddia etmək də düzgün deyil. Lakin tam aydındır ki, cinayət törədilməsinə qarşı şüurda yaranmış fikir təhdid vasitəsi ilə müəyyən əks təsir yaratmaq iqtidarındadır. İ Andernesin doğru qeyd etdiyi kimi "*Biz bilmirik, cəza olmasaydı, nə qədər insan cinayət törədərdi*"[274].

Əlbəttə, cəza olmayan bir cəmiyyətdə yaşamaq istərdik. Ancaq polşalı ictimai xadim A. F. Modjevskinin dediyinə görə, *"İnsan pozğunluğu o qədər böyük, insanlar o qədər abırsız və cinayətə meyllidirlər ki, ən sərt qanunlara ehtiyac var ki, onlar bəd niyyətlərin qarşısını alsın, özbaşınalığa mane olsun və qəddarlığı cilovlasın. O zaman bundan belə bir nəticə çıxarmaq mümkündür. Çoxsaylı və sərt qanunlar onu sübut edir ki, bu dövlətdə insanlar pis tərbiyə alıblar, pis xarakterə malikdirlər və günü- gündən artan öz naqis xüsusiyyətlərini aşkar edirlər. Əgər hökmdarlar bunların qarşısını almaq istəyirlərsə, onda onlar daha da təkmilləşmiş qanunlar qəbul etməli və daha da sərt cəzalar tətbiq etməlidirlər*"[275].

Feyerbax cəzanın təhdidedici gücünü dəyərləndirərək qeyd etmişdir: "*Mən qanun vasitəsi ilə oğurluğu qeyri-mümükün etmək istəyirəm. Yəni onun əksinin mümkünlüyünə inanıram. Həm də, inanıram ki, oğurluq bir təsadüfdür, oğru isə azad bir insandır. O, bu əməli törətdiyi kimi, etməyə də bilərdi. Məhz buna görə qanun öz düşkün istəyinin hökmranlığına inanc aspektində, oğrudan*

[274] Анденес И. Наказание и предупреждение преступлений. М., 1979. С. 31.
[275] Bax: Правовая мысль: Антология. С. 133.

*oğurluğun qadağan olunması düşüncəsindən və onun asılması təhdidindən başqa heç nəyi tələb etmir"*[276].

Dövlət cəmiyyətə və insanların ümumi maraqlarına zidd olan hərəkətlərin törədilməsinə qadağalar qoymuşdur. Qadağa insanın cəza ilə qarşılıqlı münasibətlərinin başlanğıcıdır. Buna görə də "insanı cəza ilə təhdid" sistemində o qadağanın insan tərəfindən mənimsənilməsi qabiliyyətinin qiymətləndirilməsinə xüsusi yer verilir. Çünki o qadağanın pozulmasına görə məsuliyyəti dərk etməsi üçün aşkar edilməlidir ki, o təməl dəyərlərin və ictimai qaydaların tənzimləyici rolunu bilsin. Bu səbəbdən bütün bunlar haqqında informasiya alınmalıdır, nəyin izazə verilməsini, nəyin isə qadağan olunmasını dərk etməlidirlər. Ancaq bundan sonra insan onların var olmasını nəzərə almalı və müvafiq qərar qəbul etməlidir. Seçim qarşısında onları rəhbər tutmaq və ya inkar etmək mümkündür.

Başqa sözlə, cinayət əməlini törətmək istəyən və ya buna niyyət edən şəxs qadağaları müəyyən etməli, həm də əməli özünü və onun nəticəsini qiymətləndirməlidir. Bunun üçün cinayət-relevant vəziyyətlərdə davranışı tənzimləyən qayda və dəyərlərin mənimsənilməsinin qabiliyyətini qiymətləndirmək lazımdır. Bunlar davranışın seçimində nəzərə alınmalıdır. Buna görə məsuliyyətin daşınması kifayətdir ki, subyekt öz əməlinin zərərini, başqaları üçün doğurduğu nəticələri, cinayət-hüquqi qaydalarının onun tərəfindən pozulmasını dərk etsin[277].

Digər insanların xeyrinə və ya cəmiyyətin maraqlarına qəsd ediləndə, törədilən cinayət əməlinin nəticələrinin yetirdikləri zərərlərin dərk edilməsi insan intellektinin aşağı səviyyəsində olsa da baş verir. Hegelin bu məsələyə yanaşması maraq doğurur. O hesab edirdi ki, cəzalandırmaq üçün davranışın seçmə

---

[276] Bax: Там же. С. 277.

[277] *Ситковская О.Д.* Психология уголовной ответственности. М., 1998. С. 84.

variantlarının zəruri nəticələrini öncədən görmək qabiliyyəti kifayətdir. Burada davranışın "ümumi keyfiyyətini" dərk etmək, yəni onu cəmiyyət tərəfindən verilən səmtlərlə uyğunlaşdırmaq lazımdır[278].

Hüquq elmi ənənəvi olaraq ondan çıxış edir ki, cəza cinayət əməlinin həm faktiki, həm də hüquqi xüsusiyyətlərini nəzərdə tutur. Belə yanaşma insanların iradəsi və şüurundan keçən ictimai münasibətləri tənzimləyən alət kimi hüququn ümumi-nəzəri xarakteristikasına uyğun gəlir. Bu baxımdan V. P. Salnikovun "*hüququn prinsiplərinin əsasında duran əxlaqi qaydalara, xüsusən bu prinsipləri açan, məsələn, "cinayət" kimi hüquqi anlayışlara arxalanmaq kifayətdir*" fikri maraqlı görünür[279].

Bu da konkret hüquqi qayda haqqında məlumatın olmaması şəraitində hüquqa uyğun və uyğun olmayan davranış barədə qərarın qəbul edilməsi imkanı verir. Bu da qanunvericiliyin ümumi istiqamətinin, onun funksiyalarının, onda əxlaqi tələblərin əks olunmasına əsaslanır. *Qadağadan* sonra həmişə *cəza anlayışı* gəlir. Hər bir sağlam düşüncəli insan bunun nə olduğunu bilir. Bu zaman qadağa istəyin oyanmasına yol açdığı kimi cəza da insanda dəhşətli təsəvvürlər oyandırmalıdır.

Dini fəlsəfi dünyagörüşünə görə ictimai asayışın təmin edilməsinin əsasları Tanrıdan gələn müqəddəs qanunlardadır. Onların saxlanılmasında ən əhəmiyyətli amil ya bu dünyada, ya da axirətdə gördüyü bəd əməllərə və günahlara görə cəza qarşısında *qorxu* hissidir. Bu hissiyat ruhun ölməzliyi və tanrılar tərəfindən axirətdə verilən əzablar ideyasına arxalanırdı. B. Malinovski yazırdı: "*Vəhşi insan öz tabularına ictimai cəzadan və qınaqdan çəkindiyinə görə riayət etmir. O qismən ona görə onların pozulmasından çəkinir ki, özü üçün Tanrı və ya müqəddəs*

---

[278] *Пионтковский А.А.* Учение Гегеля о праве и государстве и его уголовно-правовая теория. М., 1993. С. 245–249.

[279] *Сальников В.П.* Социалистическая правовая культура. Саратов, 1989. С. 46–47.

*qüvvələrin iradəsindən birbaşa irəli gələn arzuolunmaz nəticələrdən qorxur. Ancaq ən əsası odur ki, onun şəxsi məsuliyyəti və vicdanı bunu eləməyə ona imkan vermir*”[280].

Elə bu barədə də Z. Freyd xəbərdarlıq edir: “*Yaranmış qorxu qarşısında tabulara riayət edilir. Tabuların varlığı qarşısında cəza təhdidi lazım deyildir. Çünki tabuların aradan qalxması ağır fəlakətə gətirib çıxardacaqdır*”[281].

«*Allah insana əmr edib dedi: “Bağdakı bütün ağacların meyvəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən*”» (Yaradılış 2:16-17). Günahı işlədən zaman Adəm başa düşürdü ki, o qadağanı, yəni Tanrı qanununu pozur və buna görə cəzalandırılacaqdır. Ancaq buna baxmayaraq özünü saxlaya bilməmişdir. Bir tərəfdən qadağan olunmuş meyvə onun istəklərini qacıqlandırır, digər tərəfdən isə qorxudurdu. Çünki qadağa onda azadlıq hissini oyadırdı. Elə buna görə ilk günahın təbiəti qorxu vasitəsi ilə izah edilməlidir, hansı ki, o hər bir cəzanın məzmununu əhatə edir. İnsanlara təsir etmə təhdidi onlarda cəza qarşısında qorxu hissi yaradır və bunun nəticəsində bir çox hallarda cinayətin törədilməsinin qarşısı alınır. Bu qorxu hələ cinayət əməlinin ortaya çıxmasından əvvəl yaranır.

Harvard universitetinin professoru B. Kennon hələ 1927 ildə emosiyaların fiziologiyasını tədqiq edərkən belə bir nəticəyə gəlmişdir: “*Qorxu, ağrı və aclıq əzabı ən sadə hisslərdir ki, onlar insan və heyvanların davranışını təyin edən ən güclü amillərdir*”[282].

Qorxu hissi cinayəti törətmək istəyi anında yaranır, çünki məhz bu andan etibarən özünüqoruma instinkti formalaşır. Yəni,

---

[280] *Малиновский Б.* Магия, наука и религия. URL: http://malinovskii-magia.ofilosofii.ru

[281] *Фрейд З.* Тотем и табу. Психология первобытной культуры.

[282] *Кеннон В.* Физиология эмоций: телесные изменения при боли, голоде, страхе и ярости. Л., 1927. С. 15.

qorxu real və ya ehtimal olunan fəlakət təhdidi ilə şərtlənmiş daxili hissiyatdır. Psixoloqlar demişkən, qorxu- insanın qorxduğu nə varsa onu istəməkdir, eyni zamanda, bu simpatiya doğuran antipatiyadır. İnsan cinayət əməli törətdiyi zaman qanunu pozduğunu bilir, ancaq bununla belə cəzalanacağından gorxur və bunu yaddan çıxarmır.

Qorxu elə bir yad qüvvədir ki, o, insanı öz caynağına alır və insan ondan azad ola bilmir, həm də azad olmaq istəmir, belə ki, qorxur, eyni zamanda qorxduğu şeyi arzulayır. Elə buna görə də bütün potensial canilərə qorxu hissi məxsusdur. Bu həm də dəfələrlə cinayət törətmiş residevist adlanan şəxslərə aiddir.. Buna görə "*resedevist adlanan şəxslərin və peşəkar canilərin psixologiyası hamıya məlumdur: onlara repressiya təhdidinin təsir etməməsi təsdiq edilmiş faktdır*"[283] iddiası dəlilsiz və əsassız görünməkdədir. **B**u yanaşmanı A. F. Zelinski də dəstəkləyirdi. O hesab edirdi ki, cinayətlər residivlərininin ilkin şərti kimi təkcə digər insanlara qarşı deyil, həm də öz taleyinə qarşı emosional çıxış edir ki, bu da residivistlərdə cəza təhdidinə qarşı biganəlik hissi yaradır[284].

Burada söhbət yalnız qorxunun dərəcəsi haqqında gedə bilər. Qorxu hissinin instinktiv və bioloji əsasları vardır və o təkcə insanlara deyil, həm də heyvanlara məxsusdur. Belə bir fikir də vardır ki, bəzi insanlar heç bir qorxu hissinə sahib deyildir. Bunu o mənada başa düşmək lazımdır ki, Adəm də heyvan olsaydı, qadağanı pozaraq bu hissi yaşamazdı. Buna görə qorxmazlıq insanın heyvan və ya mələk olmasının dəlilidir. Onların ikisi də İlahi kitablara görə insan qədər təkmil varlıq deyillər. Deməli, qorxu insan təbiətinin kamilliyinin ifadəsidir.

Retsedivistlərdə gorxu hissi bir qədər keyləşdirilmiş olsa da,

---

[283] *Крыленко Н.В.* Суд и право в СССР. М., 1930. Т. 3. С. 68.

[284] *Зелинский А.Ф.* Рецидив преступлений (структура, связи, прогнозирование). Харьков, 1980. С. 44.

onlarda bu vardır. Buna görə də növbəti cinayəti törətmək onlar üçün böyük problem deyildir, çünki, cəza təhlükəsi residivistlər üçün kifayət qədər qabaqlayıcı tədbir kimi çıxış etmir. Bunun əksi olaraq ilk dəfə cinayəti törədən insan dərin qorxu hissi keçirir ki, bu da onu bəzən cinayət niyyətindən çəkindirə bilər. Belə olan halda hesab etmək mümkündür ki, bu, cinayət cəzasının təsirinin nəticəsidir.

Hamıya məlumdur ki, qadınlar kişilərə nisbətdə daha az cinayət törədirlər. Azərbaycanda bu ümumu cinayətlərin sayının 10%-ni təşkil edir. Bunun başlıca səbəbləri ondan ibarətdir ki, qadınlarda qorxu hissi kişilərdən daha çox olur. Çünki qadın kişiyə nisbətən daha hissiyatlıdır və özündə daha çox cəza alma qorxusunu gəzdirir. Buna görə də, insan nə qədər çox qorxu hissinə sahib olarsa, bir o qədər də daha böyük olur. Lakin bu insanın xaricində baş verən bir şeyə görə qorxunun yaranması demək deyildir. Bu o mənada başa düşülür ki, insan özü-özündə qorxu hissini yaradır və bu hiss onu qanunazidd hərəkətdən çəkindirir.

Qorxunu və onun səbəblərini təhlil edərək psixoloqlar onun dörd növünü aşkar etmişlər: bioloji, sosial, əxlaqi və dezinteqrasion. Bu təsnifat qorxu doğuran vəziyyətin xüsusiyyətlərindən ortaya çıxır. Bilavasitə həyatda olan təhdidlə bağlı olan vəziyyətlər bioloji qorxunu ortaya çıxarır ki, o da qorxunun həyat tələbatlarının deprivasiyası zamanı yaranan ilk formasıdır. Oksigen azlığı (məsələn ürək çatışmazlığı zamanı) kəskin qorxu hissini doğurur. Sosial qorxu ən yaxın sosiumla (yaxınlar tərəfindən rədd edilmə, cəza qarşısında qorxu, imtahan və müəllim qorxusu və s.) qarşılıqlı münasibətlərin kəsilməsi zamanı inkişaf edir.

Psixologiyanın bu müddəasından çıxış edərək demək mümkündür ki, cinayət cəzası qarşısında qorxu insan tərəfindən ümumi yaşayış qaydalarının pozulması zamanı yaranır. Bu halda təbii ki, bu davranışa görə hər hansı bir şəxs müvafiq məsuliyyət

daşımalıdır. Cəza qarşısında qorxu hissi və həyəcan, titrəmə, ürək döyünməsi kimi fizioloji reaktivliyin göstəriciləri tərəfindən aktiv təzahürlərlə müşaiyət olunur.

Qorxu psixi proseslərin gedişinə təsir edir, belə ki, konkret olaraq, insanda nəyin isə pis qavranılması, öz fikirlərini normal toplaya bilməsi ilə müşayət olunur. Qorxu düşüncəyə müxtəlif cür təsir edir. Bəzilərində dərk etmə qabiliyyəti artır və onlar çıxış yollarının nə olması fikrinə diqqəti cəlb edirlər. Bu halda cinayətin törədilməsi fikrinə düşmüş insana bu və ya digər qərara gəlmək, daha doğrusu bütün variantları ölçüb-biçmək, cinayətkar davranışın məqsədəuyğunluğunu təyin etmək daha asan olur. Digərlərində düşünmə zəyifləyir və onlar cinayətin nəticələrini tam olaraq dərk etmirlər. Buna görə də cəza qorxusu onlara zəif təsir edir. A. V. Naumovun -"*Sizcə insanlar nə üçün cinayət törətmirlər" sualına 400 respondentlərdən 17,4% "cəzalandırılacağımızdan qorxduğumuz üçün*"[285] cavabını vermişlər..

Bəzi müəlliflər tam olaraq cəzalandırılma təhlükəsini inkar etməyərək, qorxunun xilasedici təsirinə də ümid bağlamırlar. Məsələn, D. A. Dril qeyd etmişdir: "*Qorxu daim təsir edə bilməz və buna gücü də yoxdur. Axmaq təbiətli insanlarda asanlıqla belə bir məsələlər formalaşır ki, bunlar da onların xüsusiyyətlərindən ortaya çıxır. Həm də insanlarda elə unutqanlıq anları olur ki, o zaman təhlükə və qorxu hissi geriyə çəkilir və onların içində daxili səsləri eşidilmir. Belə halda onlar yeni cinayətlər törədirlər. İnsanın içərisində olan önləyici anlarının mövcud olması lazımlıdır"*[286].

B. M. Bexterev də cəzanın qorxu doğuran təsirini inkar edir. O hesab edir ki, qorxu ona görə cinayətlərin azalmasına təsir edə bilmir ki, öz faydasını güdərək bu əməli edən insan, hər şeydən

---

[285] Вах: *Наумов А.В.* Реализация уголовного права. Волгоград, 1983. С. 28.
[286] *Дриль Д.А.* Göstərilən kitabda. С. 75.

əvvəl, ədalət məhkəməsindən qaçmaq üçün bütün vasitələrdən istifadə edir[287].

Lakin bir şey aydındır ki, cinayət hüququ ictimai inkişaf şəraitinin göstəricisi kimi hələ mövcuddursa, cəza qarşısında qorxu da hələ qalacaqdır. O, əlbəttə cinayətin qarşısının alınmasında yeganə vasitə deyil, ancaq onun var olması lazımdır.

"Mığmığa haqqında" adlanan 44-cü buddist cahakasında bəhs olunur ki, "*Ağılı az olan dostdansa, ağıllı düşmən yaxşıdır. Çünki ağıllı düşmən cəzadan ehtiyatlanaraq insan qətli törətməzdi*". "İnsan-cəza təhdidi" sistemində risk özəl və spesefik rol oynayır. Belə ki, linqvistikada risk "*Xoşbəxt nəticə ümidi ilə uğur əldə etmək üçün hərəkət etmək*" kimi tərif olunur[288].

Psixologiyada risk elə bir şəraitə uyğun xarakteristikadır ki, onun nəticəsi müəyyən deyil və uğursuzluqla bitmə ehtimalı yüksəkdir. Daha doğrusu bu çox geniş yayılmış bir yanaşmadır. Risk - təhlükəsinin səmərəsini qorumaq şərti ilə potensial cani tərəfindən hesablanmış həlledici amildir. Çünki bir çox insanlar ona görə qanunu pozmurlar ki, onları bu əməldən risk haqqında şişirdilmiş təsəvvür çəkindirir. İ. Andenesin qeyd etdiyi kimi, "*Hətta ən sadə sağlam düşüncə deyir ki, ifşa olunma və məhkum edilmə riskinin dərəcəsi cinayətin qarşısını alma tədbiri kimi ən böyük əməmiyyətə malikdir*"[289].

Buna görə cəza ilə təhdid etməklə biz insanları inandırmağı çalışırıq ki, cox böyük risk dərəcəsinə görə cinayətin törədilməsi məqsədəuyğun deyildir. Hüquqi sanksiyalar tərəfindən göndərilən "siqnallar", bir tərəfdən, günahsızlığın nə ilə nəticələnəcəyi haqqında faktiki informasiya verir, digər tərəfdən isə bildirir ki, əslində günahsızlıq şər davranışdır.

Adətən cəza ilə təhdid psixoloji baxımdan sanksiyanın

[287] *Бехтерев Б.М.* Указ. соч. С. 716.
[288] *Ожегов С.И.* Словарь русского языка. М., 1988. С. 848.
[289] *Анденес И.* Наказание и предупреждение преступлений. М., 1979. С. 69.

aydınlaşdırılması, yəni hüquqa zidd davranışda riskin dərəcəsi ilə bağlıdır. Bununla əlaqədar cinayətin qarşısını alan ümumi təsirlərin mexanizminin səmərəliliyi və işlək cinayət-hüquqi sanksiyanın qurulması üçün cəza ilə təhdidə qarşı potensial cinayətkarların psixoloji münasibətlərinin nəzərə alınması mühüm rol oynayır. Potensial cinayətkar bilməlidir ki, cinayəti törədən zaman getdiyi risk çox böyük, cəza isə çox sərtdir. Buna görə də, o qazandıqlarından daha çox itirəcəkdir. Bu, o deməkdir ki, potensial cinayətkar gərək a) risqin böyüklüyünü; b) cəzanın ağırlığını; c) cinayətin törədilməsi zamanı tədiyyəni; в) cinayətin törədilməsində planlaşdırmanı nəzərdə tutmalıdır.

Potensial cinayətkarların psixologiyasının araşdırılması aşağıdakı nəticəyə gətirib çıxarır. Cinayət cəzasının önləyici effektinin yaradılmasında həlledici amillər bunlardır: a) cəzanın labüdlüyü; b) cinayətlərin ayrı-ayrı kateqoriyalarına görə cəza təhdidinin gücləndirilməsi.

Belə olanda, birinci amil bütün cinayətlər üçün eynidirsə, cəza təhdidinin güclənməsi potensial canilər barəsində ümumi profilaktik effekt yarada bilər. Onların cinayətin xarakterinin xüsusiyyətinə görə, cinayətin törədilməsindən əvvəl və ya sonra kifayət qədər vaxt və imkanları olsun ki, birincisi ifşa olunduqdan sonra onu gözləyən nəticələri dərk etsin, ikincisi, cinayətdən gözlədiyi faydanı, cəza ilə təhdid olunmasına qarşı qoysun.

Bu kateqoriyadan olan potensial canilərin cəzalandırmaqla təhdid edilməyə qarşı psixoloji münasibəti onunla fərqlənir ki, cinayətin törədilməsi zamanı ondan qabaq görülən əməlin nəticəsində alına biləcək mənfəəti və ona görə məsuliyyəti müqayisə etsinlər. Nəticədə onlar cinayəti törətmək və ya törətməmək haqqında seçim edirlər.

Bu halda cinayət cəzasının ümumi profilaktik təsirinin səmərəsizliyi haqqında söhbət açmaq mümkündür. Deməli, cinayətə görə məsuliyyəti o hüdudlara qədər gücləndirmək olar ki, onun törədilməsi şəxsə sərf etməsin.

Biz şübhə etmirik ki, cəzanın təsirinin səmərəliliyi onun ağırlığının dərəcəsindən asılıdır. Əgər cəzalar potensial canilərdə qorxu hissi yaratmırsa, onda bu, o deməkdir ki, onlar mənasızdır. İnsanlar qanunları pozmağa qorxmurlarsa, cəzalandırılmadıqlarına əmindirlərsə, onda bu cinayətlə mübarizədə cinayət siyasətinin böhranının və gücsüzlüyünün sübutudur. M. F. Dostoyevski qeyd etmişdir: "*Mən istəməzdim ki, sözlərim qəddarlıq kimi başa düşülsün. Ancaq buna baxmayaraq bunu tam düzlüyü ilə söyləyəcəyəm. Siz onların yarısını şiddətli cəza və sürgünlə bəlkə də xilas edərdiniz, ola bilsin ki, onların cəzalarını yüngülləşdirdiniz. Deyirəm ki, onların özlərini əzabla təmizləməsi sizin onlardan çoxlarına məhkəmələrdə bəraət qazandırmanızdan daha yaxşıdır. Siz onun canına yalnız sinizmi yerləşdirirsiniz, onda siz özünüzə qarşı cəzbedici sual və istehza yaradırsınız. Bu istehza sizin məhkəmənizə, ölkənizin bütün məhkəmələrinə qarşıdır. Siz onların ruhlarında xalq və Tanrı həqiqətinə qarşı inamsızlıq yaradırsınız; onu çaşqınlıqda qoyursunuz... O gedə-gedə fikirləşir: Həə, belədir indi. Deməli, ciddilik yoxdur. Belə çıxır ki, onlar qorxurlar. Onda gələn dəfə də belə etmək olar. Aydın məsələdir ki, mən ehtiyac içində olsam, nə üçün də oğurluq etməyim?*"[290].

Eyni zamanda ifrata da varmaq olmaz. Yadda saxlamaq lazımdır ki, əxlaqi hissləri kütləşdirən, canini, ya da bütün cəmiyyəti korlayan bütün cəzalar rədd edilməlidir. V. Hüqo qeyd etmişdir ki, *amansızlıqla, yəni şüuru kütləşdirən vasitə ilə seçilən bu növ cəzaların, xüsusiyyətləri ondan ibarətdir ki, onlar insanı dəyişir, hansısa mənasız dəyişikliklə onu vəhşi heyvana çevirir*[291].

Birincisi, onu nəzərə almaq lazımdır ki, cəzanın sistemi və xarakteri birbaşa cəmiyyətin özünün vəziyyətindən asılıdır. Cəmiyyət nə qədər az inkişaf edərsə, o qədər hökmranlıq edər və

[290] Вах: Правовая мысль: Антология. С. 428.
[291] *Гюго В*. Собр. соч.: В 15 т. Т. 6. М., 1954. С. 109–112.

mütləq xarakterə malik olar. Eyni zamanda cəzalar daha da əzablı və intensiv olur. Əksinə, nə qədər insanın mədəniyyəti yüksələrsə, bir o qədər də, onun davranışında məqsədli fikirlər əhəmiyyət kəsb edər. Buna görə yüksək mədəniyyətə malik olan cəmiyyətin əhalisinin çox da xüsusi sərt cəzalara ehtiyacı olmur. Təbii ki, bunun əksini də fikirləşmək mümkündür. Üçüncüsü, dövlət hakimiyyəti nə qədər güclüdürsə, cəzalar da bir o qədər sərt və şiddətli olur.

Cəzaların seçimində diqqət yetirməlidir ki, öz keyfiyyətinə görə həm ədalətlilik prinsipinə əsaslansın, həm də, cəzanın tətbiqi səmərəli olsun. Ancaq tərkibində bu keyfiyyətləri daşıyan cəzaları qanunverici müvafiq cəzalandırıcı tədbir saymalı və cəza sisteminə daxil etməlidir[292].

Cinayət cəzasının ən əsas təhdidedici gücü onun cəmiyyət üçün açıq olmasındadır. Yəni o bilavasitə digər vətəndaşlara təsir edir. Deməli, insanlar bu barədə yaxşı məlumatlı olmalıdırlar. Həm də onu nəzərə almaq lazımdır ki, eyni cinayət müxtəlif insanların davranışına fərqli təsir edir. Cinayətin törədlməsi məqamı yaxınlaşdıqca, onun insan davranışına təsiri daha çox artır. Çox yumşaq, lakin yaxın olan bir cəza bəzən başqa bir şiddətli, intensiv cəzaya bərabər ola bilər. Məsələn, axirət cəzası uzaqlarda olan cəzadır. Buna görə onun insana təsir etməsi üçün bütün Müqəddəs Kitablar onu açıq bir şəkildə dəhşətli səhnələrlə təsvir edirlər ki, onun təsiri güclü olsun.

Cinayətlərin elə bir kateqoriyası var ki, orada cinayətin subyektinin qanuna zidd davranışının nəticəsində aldığı fayda ilə cəza arasında hesabat aparmaq mümkün olmur. Məsələn, təsadüfən yaranmış xuliqanlığın törədilməsi zamanı bir insan qanuna zidd hərəkət etdiyini anlayır, lakin o düşünə bilmir ki, onu cəzanın hansı növü və ağırlığı gözləyir. Bu kimi cinayətlərin qarşısının alınması üçün cəzanın gücləndirilməsinə ehtiyac

---

[292] *Бернер А*. О смертной казни. СПб., 1865. С. 59.

yoxdur.

Sanksiyanı, daha doğrusu onun təhdidini əlbəttə “hərəkətə həvəsləndirmə” adlandırmaq mümkündür. Ancaq bu hərəkətin növü başqadır, belə demək olarsa davranışa münasibətdə birbaşa deyil, dolayıdır. O, emosional, psixoloji, dəyərləndirici və s. komplekslərlə vasitələnmişdir.

Təhdidin qabaqlayıcı təsiri çoxlarının zənn etdiyi kimi, belə də sadə hadisə deyildir. Bir çox cinayətkarlar cinayəti törədən anda o qədər gərginlik keçirirlər ki, öz hərəkətlərinin nəticələrini düşünə bilmirlər. Bu ilk dəfə törədilən cinayətlərə daha çox xasdır. Digərləri özlərini inandırırlar ki, onlar cəzadan qaça biləcəklər.

Qanuna zidd hərəkət edərək ən sərt cəza ilə təhdid olunan, xeyri və itkini ölçməyə qabiliyyəti olmayan, lakin cinayəti törətmək niyyəti olan bir şəxsi öz əməlindən çəkindirmək mümkün deyil. Buna görə də cəza ilə təhdid cinayət-hüquqi sanksiyada dəqiq ifadə olunmalıdır ki, potensial cinayətkarın şüurunda cəza qarşısında qorxu hissi, cinayəti törətməsi təqdirində gözlənilən itkilərə nisbətən daha da ağır gəlsin. Hər bir cinayətin törədilməsi nəticəsində insanda yaranan faydalanma, həzz alma hisslərindən ortaya çıxır. Cinayəti törətmək istəyən şəxs, bir qayda olaraq, belə bir müvafiq hesabdan çıxış edir ki, tərəzinin bir gözündə onu gözləyən xeyir, digərində isə əzabla təhdid olunma və s. olmalıdır. Təhdid daha güclü olduqda cinayəti törətmək istəyən şəxsin iradəsi iflic olacaq və o, cinayətkar əməldən imtina edə biləcəkdir.

Qisas cinayətkarların ifşa edilməsi və cəzalandırılması istiqamətində ədalət məhkəməsi orqanlarının səmərəli fəaliyyəti ilə güclənir. Buna görə konkret şəxslərə qarşı cəzanın tətbiqi faktı reallığın dərk edilməsi və cəzanın qaçılmazlığı hissi insanların çox hissəsini cinayətlərin törədilməsindən çəkindirmə yolunda çox faydalı vasitədir. Beləliklə, təhdidin dərəcəsi birbaşa cəzalandırma dərəcəsinin yəqinliyindən asılıdır.

Hələ Ç. Bekkariyanın dövründən hamı tərəfindən qəbul edilib ki, ifşa olunma və cəzalanmanın qaçılmazlığı hissi insanlar tərəfindən cinayətlərin törədilməsinin qarşısının alınmasında sərt cəzaların tətbiq edilməsindən daha böyük əhəmiyyətə malikdir. Sadə sağlam düşüncə onu deyir ki, ifşa olunma və cəzalandırılmanın qaçılmazlığı hissi cinayətə görə cəzanın qarşısının alınması üçün qabaqlayıcı təsir kimi birinci dərəcəlidir. Ç. Bekkaria qeyd etmişdir: *"Yumşaq cəzalandırma daha sərt, eyni zamanda məsuliyyətdən qaçma ehtimalı ilə müşaiyət edilən cəzadan daha böyük təsir göstərir*"[293].

İnqilab öncəsi klassik rus hüquq məktəbinin nümayəndələri də bu önəmli amilə fikir vermişlər. Bununla bağlı xüsusi olaraq qeyd etmək lazımdır ki, "cəzasızlıq" anlayışı özündə cinayətkarın ifşa edilməməsi faktını əhatə etmir, həm də tədqiqat və məhkəmə araşdırması mərhələsində məsuliyyətdən qaçma imkanı, eləcə də əfv etmə və amnistiyaya ümid etmədir.

Prinsipcə onunla razılaşmaq lazımdır ki, müasir şəraitdə əhali arasında törədilmiş cinayətə görə məsiliyyətdən qaçma haqqında fikir çox geniş yayılmışdır. Məhkəmə orqanlarına inamsızlıq, əlbəttə ki, ölkədə cinayətkarlığın səviyyəsinin artmasına təsir edir. Azərbaycanda orta hesabla cinayətlərin 8-10%-i açılmır. Eyni zamanda, ağır və ən ağır cinayətlərin 10-14%-nin, qəsdən edilmiş qətllərin isə 10%-nin üstü açılmamış qalır.

"Cinayətlər və cəzalar haqqında" kitabının "Əfv etmə haqqında" fəslində Ç. Bekkariya qeyd etmişdir ki, i*nsanlar elə düşünməməlidirlər ki, cinayəti bağışlamaq mümkündür və cəza cinayətin məntiqi nəticəsi deyildir. Belə olarsa, o zaman onlar törətdikləri əməlin qarşılığı olaraq cəzanın olmamasına ümid edəcəklər və belə düşünəcəklər ki, əfv hökmü olsa, onda əfv edilməyənlərə qarşı cəzanın tətbiqi daha çox ədalətin işləməsi*

[293] *Беккариа Ч.* Göstərilən kitabda. C. 124.

*yox, gücdən sui istifadə etməsidir*[294].

1996-2010- cu illər arası 53558 insan haqqında əfv və amnistiya aktları qəbul edilmişdir. 1995-2010-cu illər arası isə yəni 15 ilin ərzində əfv haqqında 48 qərar qəbul edilmişdir ki, onların əsasında cəza çəkmə müəssisələrindən 5121 nəfər azadlığı buraxılmışdır. 2623 cinayətkar qəsdən cinayət törətdiklərinə görə məhkum edilmişdir. Onlardan 29 nəfərinə isə ömürlük azadlıqdan məhrum olma hökmü çıxarılmışdır. 1996-2009-cu illər arası amnistiya haqqında 9 aktın əsasında 48437 məhbus azadlığa buraxılmışdır ki, onlardan 3394 nəfəri həbsxanada cəza çəkirdilər. Şübhəsiz ki, humanizmi nümayiş etdirmək zəruridir, ancaq ictimai təhlükəsizliyi hər hansı bir şəxsin və ya şəxslərin maraqlarına qurban vermək olmaz. Çünki insanlarda o zaman cəzasızlıq haqqında təsəvvür yaranar.

Cinayət hüququ elmində cəza ilə təhdid haqqındakı sual mübahisə doğurur. E.Ferri cinayət sosiologiyasında, cinayət cəzasına münasibətdə sosial sinifləri üç kateqoriyaya ayırmışdır.

Birinci qrupa əxlaqi baxımdan yüksək olan siniflər aiddir. Onlar heç vaxt cinayət törətmirlər və cəmiyyətin əksəriyyət hissəsini təşkil edirlər. Bu kateqoriya insanlar üçün cinayət cəzasının tətbiqi mənasızdır.

İkinci qrupa aşağı sinif insanlar daxildir ki, bunlar anadangəlmə cinayətkarların böyük əksəriyyətini əhatə edir. Cəza bir təhdid kimi bu qrup insanlara qarşı gücsüzdür. Yəni, cəza ilə təhdid heç bir ictimai qınaq hissi və reaksiyası olmayan bu cür insanlara təsir etmir, ona görə də onlar cəzaya adi risk kimi baxırlar.

Nəhayət, sonuncu sosial sinfin fərdləri cinayətə anadangəlmə meylli deyillər, ancaq bəzən onların psixoloji durumları zəif olduğundan sınaqlardan uğurla keçə bilmirlər. Onlar üçün cəza psixoloji təsir kimi hansısa əhəmiyyətə malik ola

---

[294] Göstərilən kitabda. C. 155.

bilər[295].

R.Qarofalo, E.Ferminin ideyalarını bölüşərək hesab etmişdir ki, cəzanın qaçılmazlığının təhdidedici gücünü hiss edəcək cinayətkarlar sinfini qorxu hissi daha az təsir edən cinayətkarlardan ayırmaq lazımdır[296].

Cinayətlərin profilaktikası üzrə ümumi nzəriyyənin müasir tərəfdarı İ.Andenesə görə əhalini üç kateqoriyaya bölmək mümkündür: a) qanunun təhdidindən asılı olmayaraq doğru yolla gedən, qanuna təbe olan insanlar; b) cəza təhdidi olmasa qanunu poza biləcək potensial canilər; c) qanundan bəlkə də qorxan, ancaq onların qorxusu bir o qədər güclü deyil ki, onlar qanunu pozmaqdan çəkinsinlər. Cəzanın profilaktik faydası potensial canilər kateqoriyasına qarşı təsir qüvvəsini saxlayır[297].

S. N. Timoşev hələ 1914-cü ildə belə qənaətə gəlmişdir ki, Çar Rusiyasının əhalisinin əksəriyyəti cəza təhdidi səbəbi ilə cinayətlərin törədilməsindən çəkinmişdir[298]. Burada heç bir dəlil olmasa belə, bu kimi iddialar cinayət cəzasının ümumi profilaktik əhəmiyyətinin yüksək olmasından xəbər verir. S. İ. Kurqanova görə heç də bütün subyektlər cəza təhdidinin obyektləri deyil, buna baxmayaraq onlar qorxu amilinə görə cinayətin törədilməsindən çəkinənlərdir[299].

V. M. Koqan hesab etmişdir ki, cəza təhdidinin təsiri baxımından əhalini üç kateqoriyaya bölmək mümkündür. Birinci kateqoriyaya o insanlar daxildirlər ki, onlar üçün təhdid təkanverici əhəmiyyətə malik deyil, çünki onlar əqidələrinə görə və ya cinayət qadağası ilə heç əlaqəsi olmayan digər səbəblər üzündən qanunu pozmurlar. İkinci kateqoriya insanlar üçün isə

---

295 *Ферри Э.* Göstərilən kitabda. С. 258–259.

296 *Garofalo*. Criminologia. 2-ci nəşr. Torino, 1886. С. 217.

297 *Анденес И.* Наказание и предупреждение преступлений. С. 125.

298 *Тимошев С.Н.* Уголовное осуждение. СПб., 1914. С. 304–306.

299 *Курганов С.И.* Наказание: уголовно-правовой, уголовно-исполнительный аспект. М., 2008. С. 172.

cəza təhdidi təkanverici əhəmiyyət kəsb etmir, çünki onlar arzuolunmaz nəticələrin ortaya çıxma ehtimalı yüksək olsa belə cinayətləri törədirlər. Üçüncü kateqoriyaya o insanlar daxildirlər ki, onlar üçün təhdid təkanverici əhəmiyyətə malikdir, çünki onlar arzuolunmaz nəticələrin qorxusundan cinayətləri törətməkdən çəkinirlər. Onlar cinayət təhdidinin əsas obyektini təşkil edirlər[300].

Azadlıqdan məhrum edilmiş məhkumların anket sorğuları aşağıdakı nəticələri göstərir. A.İ.Maltsevaya görə hər 200 nəfərdən 58 % onları gözləyən cəzaya qarşı biganə idilər[301]. İ. S. Noya görə isə hər 245 nəfərdən 65% cinayəti törədən zaman cəza haqqında heç düşünməmişdir[302]. Bu istiqamətdə deyə bilərik ki, "Mümkün olan cəza insanların hansısa hissəsini cinayətdən çəkindirir" iddiasını aksioma hesab etmək mümkündür[303].

Ancaq o hissəni kəmiyyət baxımından təyin etmək mümkün olmur. Burada problem təkcə cinayət cəzasında deyil, daha çox günümüzdə cinayətkarlığın səbəblərinin izah edilməsinin mümkün olmamasındadır.

Cinayət hüququ elmi, ilk növbədə cinayət adlanan patoloji ictimai təzahürün təbii səbəblərini axtarır. Beləliklə, onu müəyyən çərçivələrdə saxlamaq üçün etibarlı vasitə axtarır. Hippokrat demişdir: "*Dərmanların müalicə etmədiyini dəmir müalicə edir. Dəmirin müalicə etmədiyini od müalicə edir. Odun müalicə etmədiyi isə müalicə olunmaz hesab edilməlidir*".

Müasir cəmiyyətdə cinayətkarlıq müalicə olunmaz bir bəladır, çünki insanlıq keçmişdə də, günümüzdə də, vacib olan bütün cinayət cəzalarını və vasitələrini istifadə etmişdir ki, bu

---

[300] *Коган В.М.* Социальный механизм уголовно-правового воздействия. М., 1983. С. 160–161.

[301] *Марцев И.* Общая превенция преступлений // Правоведение. 1970. № 1. С. 73.

[302] *Ной И.С.* Сущность и функции уголовного наказания... С. 153.

[303] *Коробеев А.И., Усс А.В., Голик Ю.В.* Уголовно-правовая политика: тенденции и перспективы. С. 114.

problemin həlli üçün bir yol tapsın. Cəza təhdidi hansısa insan kateqoriyasına deyil, cəmiyyətin bütün üzvlərinə aiddir, çünki qanunverici bu təhdidin konkret istiqamətini təyin etmə iqtidarında deyildir. Ancaq insanlar cinayət cəzasını müxtəlif cür qəbul edirlər. Bəziləri üçün bu xəbərdarlıq, digərləri üçün isə cinayətdən çəkindirmə vasitəsidir. Ancaq cəza təhdidi qarşısındakı qorxu hamıda vardır. Bu nəticə psixologiya elminin o müddəalarından irəli gəlir ki, hər bir insan psixikasında rasional, emosional və iradə ilə bağlı sahələr qarşılıqlı münasibətdədirlər.

İnsanların fərdi əməllərində xarici davranışlara onların daxili psixi fəaliyyəti diktə edir. Bu baxımdan psixikanın iradi aktları bir-birlərinə təsir edən niyyyətdən, həm də duyğulardan irəli gəlir. Kənardan ağıl və hisslərə təsir edərək insanın iradəsini öncədən təyin etmək, onu daxildən formalaşdırmaq və iradə aktı görkəmində təzahür olunmasına təkan vermək mümkündür.

Cəza təhdidi və ya qorxutma elə bu kimi davranış motivinin həyəcanlandırılmasından ibarətdir ki, o digər motivlərlə mübarizədə onları aradan qaldırmalı və subyekti tələb olunan qanunauyğun davranışa çəkməlidir. Bir qayda olaraq bu tabe olmamanın arzu olunmaz nəticələrinin qarşısında ortaya çıxan qorxu hissidir.

Yəqin ki, bu barədə danışmaq ancaq o cinayət haqqında mümkündür ki, onların törənməsinin arxasında müəyyən hesab, "lehinə" və "əleyhinə" ifadəsi, yəni motivlərin mübarizəsi durur. Buna görə də, K. A. Sıç "*Qorxu, insan davranışını dəyişəcək qədər yetərli əhəmiyyətə malik olması və insanı ictimaiyət baxımından təhlükəli davranışdan çəkindirmək üçün insanın düşüncəsinə daim təsir edən real hiss kimi vacib olduğunu* " deyəndə tam haqlı idi[304].

Təhdidedici təsirin dərəcəsi, subyektin sosial-əxlaqi pozulmasının dərəcəsindən asılıdır. Şübhəsiz ki, fərd bu məsələdə

---

304 *Сыч К.А.* Указ. соч. С. 16-17.

nə qədər çox pozularsa, deməli az sosiallaşmışdır, o zaman ona cəza təhdidi ilə təsir etmək mümkün olmayacaqdır. Əksinə, daha savadlı və əxlaqlı vətəndaşlara yumşaq cəzalar, kobudluqları, vəhşilikləri və nadanlıqları ilə seçilən digər cinayətkar vətəndaşlara isə sərt cəzalar tətbiq edilməlidir.

Xüsusi ilə qeyd edilməlidir ki, cəza insanların psixologiyasıına təsir edir. Buna görə də, əgər psixoloqlar insanın islah olunmasında cəza təhdidinin təsiri ilə maraqlansaydılar, əmin olardılar ki, cəza təhdidi psixoloji baxımdan praktiki və nəzəri nəticələrə gətirib çıxarar.

Söhbət "insan-cəza təhdidi" sisteminin psixoloji qanunauyğunluğundan gedir. Bu təhdidə psixoloji münasibəti biz yalnız belə aydınlaşdıra bilərik. Bu məsələyə baxarkən biz heç olmasa qısa da olsa, insanların psixi fəaliyyətinin mexanizmlərini və qanunauyğunluqlarını öyrənən psixologiya elminə müraciət etməliyik. Əvvəlki dövrlərdən başlayaraq psixologiya fəlsəfənin tərkib hissəsi kimi inkişaf etmiş və yalnız XIX əsrin ortalarında müstəqil elm kimi formalaşmışdır.

V. P. Tuqarinov qeyd etmişdir ki, "*Fəlsəfə elm və praktikanın keçmiş inkişafının ümumiləşməsi və yekunudur. Bu da fəlsəfəni bütün sosial elmlərin ideya bünövrəsi və nəzəri əsası edir*"[305]. Fəlsəfə bir çox mühüm problemlərin həlli yolunda məntiqi roll oynayır. Bu problemlərin sırasında insan təbiəti və şəxsiyyətin formalaşmasında psixoloji amillər də yer alır. Təəssüf hissi ilə qeyd etməliyik ki, bu gün hüquqşünaslıq bu tədqiqatların nəticələrini, insanın cinayətkar davranışının səbəblərinin öyrənilməsində fəlsəfədən tam olaraq istifadə etmir.

İnsana cəzanın psixi təsiri ilə bağlı problemlərin araşdırılmasına və şəxsiyyət tərəfindən təhdidin özünün qavranılması mexanizminə, eləcə də cəzanın cinayətdən

---

[305] *Тугаринов В.П.* Законы объективного мира, их познание и применение. Л., 1954. С. 98.

çəkindirici rolu kimi məsələlər heç vaxt elmi araşdırılma obyekti olmamışdır. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, son 30 ildə hüquqi psixologiya sahəsində aparılan araşdırmalar geniş diapazona malikdir.

Məlum olduğu kimi, hal-hazırda məhkəmə psixologiyası, ilkin təhqiqatın psixoloji əsasları, məhkəmə fəaliyyətinin psixologiyası, islah-əmək psixologiyası və s. kimi hüquqi psixologiyanın sahələri kifayət qədər dərin araşdırılmışdır. Hesab edirik ki, ümumi psixologiya ilə ittifaqda cinayət hüququnun elmi meyarları və metodlarının, eləcə də “insan-cəza təhdidi” sisteminin araşdırılması və tərtib edilməsi vaxtı gəlib çatmışdır. Bu da qanunvericiyə cinayət-hüquqi sanksiyasının yaradılmasında elmi cəhətdən əsaslandırılmış töfsiyyələri ifadə etməyə kömək edəcəkdir.

Əlbəttə, cəza bütün cinayətkarları cinayəti törətmək çəkindirmir. Bu ona bənzərdir ki, təbabət bütün xəstələri müalicə edə bilmir. Biz şübhə etmirik ki, insanlar yaranmış hüquqi vəziyyətdə cəzanın mövcudluğundan asılı olmayaraq müstəqil düzgün qərar verməyi bacararlar. Çünki insanlar cinayət qanunu olmadan da doğrunu, qanuna uyğun olanı, qanuna uyğun olmayandan ayıra bilir. Eyni zamanda, şübhə etmirik ki, fərd bir çox hallarda cinayət cəzasının olduğuna görə cinayətlərin törədilməsindən çəkinir.

Cəzanın qorxuducu xüsusiyyətlərinin *səmərəliliyi* hər zaman mütərəqqi insanların - hüquqşünasların, filosofların, psixiatrların və s. mübahisə predmeti olmuşdur. Son illər cinayət cəzasının səmərəliliyinə həsr olunmuş kifayət qədər işlər yazılmışdır. Ona baxmayaraq bu məsələ üzrə müxtəlif müəlliflər fərqli fikirlər ifadə etmişlər. Nəticə olaraq hamı onda birləşmişdir ki, səmərəliliyin tərif edilməsində “məqsəd-nəticə” düsturuna riayət edilməlidir.

Biz həmçinin hesab edirik ki, cəzanın təsirliliyi və həyata keçirililmə dərəcəcini təyin etmək üçün qoyulmuş məqsədin və alınan nəticənin münasibətini ortaya qoymaq məqsədəuyğundur.

Bunu edəndə təbii olaraq nəzərə alınmalıdır ki, cəmiyyət tərəfindən qoyulmuş *məqsədlə* cinayətkarlığın ümumiyyətlə, sistematik azalması, o cümlədən onun ağır formalarının faktiki aradan qalxması üçün ortada olan bütün məsafəni qət etmək lazımdır. Bu yolda nəticənin səmərəliliyinə təsir edən və bir-biri ilə qarşılıqlı əlaqədə olan kompleks şərait yarana bilər. Cəzanın təyin edilməsində çətinlik rəqəm göstəriciləri ilə rahat və dəqiq göstərilə bilən nəticədən fərqli olaraq həm də məqsədin özünün aydın olmaması və qeyri-müəyyən olması ilə bağlıdır.

Başqa sözlə desək, əgər nailiyyətın nəticəsini ona kəmiyyət və keyfiyyət müəyyənliyi verən müvafiq göstəricilərin ortaya çıxması vasitəsi ilə “maddiləşdirmək” və “əşyalaşdırmaq” kimi olarsa, onda bu *məqsədə* münasibətdə bunu etmək mümkün deyildir. Deməli, məqsədin kəmiyyətini ölçmək üçün ölçülən kəmiyyətin ölçü vahidi kimi qəbul edilmiş digər kəmiyyətlə münasibətini tapmaq lazımdır. Yəni dəyişikliklər prosedurunu həyata keçirmək üçün ilk növbədə onların müqayisəli təhlili aparılmalıdır. Bu o deməkdir ki, ilk əvvəl dəyərləndirmə üçün vasitəçi etalon tapılmalıdır. İkincisi isə, həm məqsədi, həm də nəticələri birmənalı ölçü vahidlərində vermək lazımdır. Buna görə də cəzanın səmərəliliyini heç olmasa nisbi ölçmək üçün cəmiyyət tərəfindən qoyulmuş məqsədi və nəticəni uyğun olan ölçü vahidlərində verilməsini qabaqcadan ifadə etmək zəruridir ki, bunun üçün göstəricilər tərtib edilməlidir. Belə ki, məsələn, ölüm cəzasını əvəzləmiş ömürlük azadlıqdan məhrum etmənin səmərəliliyini təyin etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş cəza ilə cinayətlərin göstəriciləri arasında müqayisə aparmaq lazımdır. Əgər bu kateqoriyadan olan cinayətlərin səviyyəsi sistemli olaraq artırsa, onda ehtimal etmək olar ki, ölüm cəzasının tətbiqi, onun əvəzləyəcilərinin tətbiq edilməsinə görə daha səmərəli olmuşdur.

Elə bu metodu azadlıqdan məhrum etmənin səmərəliyinin təyin edilməsində, onun sərhədlərinin dəyişdirilməsi ilə bağlı

istifadə etmək mümkündür. Buna görə cəzanın səmərəliliyinin ölçülməsi rəqəm göstəriciləri ilə mümkün deyildir. Onlar rəqəmin nisbi kəmiyyətlərinə əsaslana bilər: kiçik, orta, maksimal; daha pis, orta yaxşı; kiçik orta, böyük kimi. Biz cinayətkarlığın mövcud nəticəsindən asılı olaraq, cinayət cəzasının səmərəliliyini dörd əsas şərti pilləyə bölünməsini təklif edirik: yüksək səmərəli, az səmərəli və səmərəsiz (sıfır səmərəlilik)[306].

Təəssüf ki, son 20 ildə cinayətkarlığın səviyyəsi, xarakteri və dinamikası cəmiyyətin qarşıya qoyduğu məqsədə çatmasında cinayət cəzasının az səmərəli olduğundan xəbər verir. Aydındır ki, cəzanın səmərəliliyini real arzu olunan nəticələrlə yekunlaşdırmaq olmaz, çünki belə bir vəziyyəti təsəvvür etmək çətindir ki, məqsədlə nəticə tam olaraq üst-üstə düşsün. Ancaq istərdik ki, nəticə arzu olunan məqsədin yüksək səmərəli pilləsinə doğru irəliləsin. Həm də nəzərə alınmalıdır ki, cəzanın nəticələri səmərəsiz olduğuna görə deyil, pis reallaşdırılması səbəbi ilə əldə olunmasın. Məsələn, cəzanın qaçılmaz olması prinsipinə riayət olmasa gözlənilən nəticə özünü təsdiqləyər.

Cinayət cəzasının tətbiq edilməsi məqsədi gələcəyə yönəlmişdir. Buna görə də günümüzdə cəzazının səmərəliliyi onun proqnozlaşdırıcı mahiyyəti ilə bilavasitə əlaqəlidir. Deməli, günümüzdə o fakt heç bir şübhə doğurmur ki, cəzanın gələcəyi cəza haqqında təlimin proqnozlaşdırılmasının nəticələrinin istifadə olunmasına, praktiki tətbiqdə isə qanun yaradıcılığı, məhkəmə fəaliyyəti, eləcə də hökmün icrası prosesinə bağlı olacaqdır.

Cəzanın hədələyici təsirinin səmərəliliyi və ümumiyyətlə, cinayətlərin qarşısının alınması məqsədinə çatması əhəmiyyətli dərəcədə onun gələcək nəticələrinin öncədən görülməsindən asılıdır. Problem də elə bundadır ki, biz qərarın qəbul edilməsi anında cəzanın gələcək nəticələrinin proqnozlaşdırılması, yəni

---

[306] Daha ətraflı bax: *Рагимов И.М.* Преступность и наказание. М., 2012.

öncədən görməsi ilə rastlaşırıq. Cinayət hüquqi sanksiyanın qəbul edilməsindən başlayaraq məhkəmə qərarının icra edilməsinə qədər bu proses davam edir. Buna görə elmi proqnozlaşdırılma olmadan cinayət cəzasının səmərəliliyini artırmağa mane olan maneələri praktiki olaraq ortadan qaldırmaq mümkün olmur. Bu da o deməkdir ki, onun az səmərəliliyi cinayət – hüquq yaradıcılığı prosesində, cəzanın təyin edilməsinə dair məhkəmə fəaliyyətində, eləcə də məhkəmə qərarının icrasında proqnozlaşdırma sahəsində elmi nailiyyətlərdən istifadə edilməməsinin nəticəsidir.

Cəzanın mahiyyəti, məzmunu və xüsusiyyətini nəzərdən keçirdikdən sonra, belə bir fəlsəfi tərif vermək mümkündür.

Cəza insanları cinayət əməlindən çəkindirən xüsusi bir vasitədir. Onun mahiyyəti qisas, məzmunu cəzalandırmaq, xüsusiyyəti xəbərdarlıq və təhdiddir.

## § 3. Cəzalandırma hüququ

Müəyyən tarixi mərhələdə dövlət cəzalandırma haqqını öz üzərinə götürmüşdür. Ancaq dövlət nə vaxtsa icmaya və ayrı-ayrı şəxslərə aid olan vəzifələri, cəzalandırma haqqını necə və nəyin nəticəsində icra edən orqana çevrilmişdir? Kim bu haqqı ona vermişdir? Bu fəlsəfi suallar əsrlər boyu verilsə də, bu günə qədər aktual və mübahisəli olaraq qalmaqdadır.

Y. V. Qolikin haqlı olaraq qeyd etdiyi kimi d*övlətin cəzalandırma haqqının olub-olmaması haqqındakı suala doğru cavabı, dövlətin müasir və dəyişgən dünyada, eləcə də cinayət prevensiyası və ədliyyəsindəki rolunu, əhəmiyyətini anlamağa yardım edəcək amillər verir. O elə bir cəza sistemi yaradacaq ki, hamı tərəfindən qəbul ediləcək və işləyəcəkdir*[307].

Cəzalandırma hüququ o məqsədlərin təyin edilmə haqqını

---

[307] *Голик Ю.В.* Философия уголовного права: современная постановка проблемы // Философия уголовного права. СПб., 2004. С. 21.

verir ki, onlar hüququn subyektinin dərkinə cəzalandırma vasitəsi ilə çatmaq istəyirlər. Bu kimi suallar ancaq fəlsəfi deyil, həm də praktikidir, çünki cinayət siyasətinin tərifi onların həllindən asılıdır.

Nə vaxtsa dövlətin cəzalandırma hüququnun olması barəsində fəlsəfi problem filosofların, dini xadimlərinin, eləcə də bir çox mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Ancaq indi bu mövzu ciddi araşdırma və müzakirə obyekti deyildir. Y.V.Qolik bu vəziyyəti belə izah edir: "*Haqq mükəlləfiyyətə çevirildi. Məhz buna görə də cəzanın hüquq əsaslarının axtarışlarına son qoyulmuşdur*"[308].

Beləliklə, cəzalandırma haqqının kökləri hardadır: dində, əxlaqda və ya ictimai maraqda?

Hüququn ilahi mənşəli olması haqqında nəzəriyyə cəzalandırma haqqının əsaslarını əxlaqda, ictimai maraqda, qisasda və ya ayrıca şəxsin xüsusiyyətində deyil, məhz insan münasibətlərinin yaranması şəraitində, kainat qanunlarında, yəni dində axtarır.

Mühakimənin mahiyyəti ondadır ki, Tanrı dünyanı yaradandan bu yana fiziki, mənəvi, siyasi və dini sahələrdə nə varsa, onları idarə edir. İnsanları indi olduqları kimi, O, yaratmışdır; Tanrı - onların qanunvericisi, müəllimi, ağası və hakimidir.

Cəzalandırma haqqının Tanrı mənşəli olması nəzəriyyəsini iddia edənlər qeyd edirlər ki, Tanrıya məxsus olan qisas haqqı həm də mənəvi və dünyəvi rəhbərlərə həvalə oluna bilər. Beləliklə, belə bir nəticəyə gəlinir ki, cəzalandırma haqqı ancaq Tanrıya məxsusdur və onun səlahiyyəti olmadan heç kim, hətta cəmiyyət insanın həyatına və azadlığına qəsd edə bilməz. Qeyd etmək lazımdır ki, Orta əsrlər dövrünün ehkamçıları Tanrı kitablarına, eləcə də baxılan nəzəriyyəyə istinad edərək

[308] Göstərilən kitabda. C. 50.

cəzalandırma vasitəsi ilə məqsədlərinə nail olmaq üçün dəhşətli qəddarlıq, edamlar və işgəncələr törətmişdirlər.

Məntiqə görə cəza haqqı davranış qaydalarını təsis edən subyektə məxsusdur ki, hansı davranışın doğru, hansının isə qanunazidd, yəni cinayətkar olduğunu təyin etsin. Buna görə də cəza haqqının Tanrıya məxsus olduğunu isbat etmək üçün, birinci növbədə həm də qanunverici aktlar kimi dəyərləndirilən İlahi Kitablara müraciət edilməlidir. Əgər o kitablarda nəyin cinayət hesab olunması və ona görə hansı cəzanın təyin edilməsi nəzərdə tutulmuşdursa, onda əlbəttə, məhz Tanrıya, qanunvericiliyin subyekti kimi, bu Kitablara istinadən cəza haqqının kimə məxsus olduğu bilinir .

İlk əvvəl cinayət və cəza haqqında tədqiqata xristian təlimindən başlamaq lazımdır. Şübhəsiz, bu din, digər dinlər kimi, davranışın müəyyən modelini nəzərdə tutmuşdur. Eyni zamanda, o ictimai xarakter daşımadığı üçün dövlət adından çıxış edə bilməz. Xristianlıq - ehkamlarını mütləq icra olusun deyə, bütün cəmiyyətə ünvanlandıra bilməz. Buna görə də Xristianlığı ictimai münasibətləri tənzimləyən vasitə kimi qiymətləndirmək mümkün deyildir.

Buna görə Xristianlığın davranış qaydaları bu təlimi qəbul edən konkret insana, onun digərlərinə münasibətini əks etdirəcək qədər adidir. Tarixi əhəmiyyətli dini mənbələrin arasında Musanın Qanununu - xüsusi qeyd etmək lazımdır. Bu o qanundur ki, onu Tanrı Musa vasitəsi ilə yəhudu xalqına göndərmişdir.

Musanın qanunverici sistemi bir təlim kimi 10 Tanrı Əmrini əhatə edir. İddia edilir ki, Musa Əhdi-Ətiqın mətnini Tanrıdan Sinay dağında almışdır (Çıx. 20: 1-17) və o qanunları xalqına bəyan etmişdir (Çıx. 21: 1–36; 22: 1–31; 23: 1–33). Həm Əhd, həm də qanunların mahiyyəti müqavilə əsaslı olmuş, demək bu həm də hüquqi cəhətdən əhəmiyyətli akt idi. Buna görə də iki mövqedən çıxış etmək mümkündür: qanunvericiliyin müəllifi təkcə Tanrı deyil, həm də yəhudi xalqıdır və ya birinci aktın

subyekti yalnız Tanrıdır, Musa isə Onunla yəhudi xalqı arasında münasibətlərdə vasitəçi rolunu icra etmişdir. Buna görə də biz o müddəadan çıxış edəcəyik ki, Əhdi-Ətiqdəki hüquq Tanrıdan nazil olmuşdur. Buna görə də Əhdi-Ətiqi Tanrı hüququ kimi adlandırmaq mümkündür. Şübhəsiz, Musanın qanunvericiliyinin cinayət hüququna məxsus olan bir sıra göstəriciləri vardır. Onlardan ən önəmliləri cinayətlərin tərifi, məsuliyyəti tələb etməyən ittihamlara, cəzalara, şəraitlərə aid olan qaydalardır. Belə ki, Qanunda qəsdən insanın öldürülməsinə dair əlamətlərin təfsilat təsviri verilmişdir ki, bu da kriminalistik və sübut əhəmiyyətinə malikdir. Cəza Musa qanununun ayrılmaz tərkib hissəsidir, ona Tanrı xeyir-dua vermişdir və yəhudi xalqı onu qəbul etmişdir. Deməli, cəza ilk olaraq Tanrı tərəfindən yaratdığı insana təsir etmə vasitəsi kimi təyin edilmişdir.

Beləliklə, Musanın qanunu yalnız tək bir yəhudi xalqına aid olmuşdur. Bu hüquq aktının müəllifi Tanrıdır. Deməli, o tarixi zamana qədər ki, bu Qanun öz hüquqi (mənəvi deyil) qüvvəsini itirməmiş, cəzalandırma haqqı Tanrıya məxsus olmuşdur. Aydın məsələdir ki, bu dünyada Tanrı bilavasitə özü cəzalandırmır. Tarixin müəyyən zamanlarında bu işi Tanrının adından Kilsə icra edirdi. Bunu həyata keçirən Kilsə o qaydalara əsaslanırdı ki, onları Yaradıcının Özü və onun birbaşa şagirdləri təsis etmişdilər. Papa üzdə olan Kilsə başçısı və İsanın yerdəki canişini kimi cinayətə görə cəza kəsmişdir. Bu cəza da qisas şəklində olmuş və Tanrı onu belə ifadə etmişdir: "*Qisas Məndəndir və onu verən də Mənəm*!".

Katolik Kilsədən fərqlənən pravoslav (ortodoks) kilsəsinin gözə görünməyən İsadan başqa başçısı yoxdur. Ona görə də, o cinayətə görə cəzanın icrasını hansısa üzdə olan hakimiyyətə ötürə bilmir. Beləliklə, Tanrı ədalətini bərpa etmək üçün ədalət məhkəməsi yalnız Tanrının özünə həvalə edilir.

Musanın Qanunu hüquqi vasitə kimi artıq fəaliyyət göstərmir. Onun hökmləri yalnız mənəviyyatda yer alır. Bundan

fərqli olaraq müsəlmanlara Allah tərəfindən nazil olmuş Quranın hökmləri bəzi xalqların arasında bu günə kimi hüquqi vasitə olaraq istifadə edilir.

Allahın vəhyini alan ərəblər həyatlarını Qurana bağladılar. Bu, o deməkdir ki, Allahın buyurduğu kimi davranmaq və yaşamaq lazımdır. Əks təqdirdə onlara əzablı cəza veriləcəkdir. Ancaq real həyatda insanlar elə hadisələrlə rastlaşırdılar ki, belə hallar onları çətin və hətta çıxılmaz vəziyyətə salırdı. Bu barədə onlar Quranda uyğun məlumat tapmayanda necə davranacaqlarını bilmirdilər. Musaya verilmiş qanundan fərqli olaraq Məhəmməd peyğəmbərə nazil edilmiş Quranda hüquqi münasibətlər daha konkret və ətraflı verilmişdir. Belə hallarda insanların davranışlarının əsasını və onların məsuliyyət dərəcəsini Sünnə təşkil etmişdir. Bu ərəb sözünün ("əs-sünnə") adət, ənənə, həyat tərzi və s. kimi çoxlu mənaları vardır.

Bu sırada Q. Oppenheymerin "*Quranda yer almış müsəlman cinayət hüququnun əsasları həddən artıq darıxdırıcıdır və alimlər öz aralarında bu sahəyə aid bəzi mətnlərin şərhində razılığa gəlməmişlər*" [309] iddiası ilə mübahisə etmək mümkündür. Birincisi, Quran insan fəaliyyətinin məhsulu deyil, Məhəmməd peyğəmbərin vasitəsi ilə bəşəriyyətə nazil edilmiş vəhydir. İkincisi, müasir alimlərin yekdilliklə təsdiq etdiyi kimi Quranda Allahın nəyi cinayət hesab etdiyi və bunun qarşılığında insanın hansı cəzanı alacağı dəqiqliklə göstərilmişdir.

Allahın Məhəmməd peyğəmbərə nazil etdiyi vəhy kitabı olan Qurandan fərqli olaraq, Sünnə Peyğəmbərin özünün gördüyü əməlləri, dediyi kəlamları əks etdirən adətlər, ənənələr toplusudur. Cinayət hüququ sahəsində Sünnə Qurana əlavə kimi hüquqi həyatda baş verən bu və ya digər hadisələrin həll edilməsi üçün xüsusi göstərişlərin olmadığı bir vaxtda meydana gəlmişdir.

---

[309] *Оппенгеймер Г.* Историческое исследование о происхождении наказания. М., 2012. С. 47.

Sünnəyə Peyğəmbərin səhabələri və onların ardıcılları haqqında rəvayətlər də daxil edilmişdir. Sünnənin əhəmiyyəti haqqında məcazi olaraq belə demək mümkündür: "*Sünnəyə riayət etmək Məhəmməd peyğəmbəri təqlid etməkdir*". Məhəmməd peyğəmbər Allahın adı ilə bəzi davranış qaydalarının, normaların və cəzaların əsaslarını inanclı müsəlmanlara ünvanlamışdır. Hüquqi cəhətdən əhəmiyyət kəsb edən qaydaların başqa bir hissəsi Məhəmməd Peyğəmbərin həyatı və fəaliyyəti zamanı təşəkkül tapmışdır. Onun ölümündən sonra qaydaların yaradılması fəaliyyəti ilə ən yaxın səhabələri və ilk xəlifələr olmuş - Əbu Bəkr, Ömər, Osman və Əli davam etdirmişlər. Quran və Sünnəyə əsaslanaraq, davranışın elə bir yeni qaydalarını formalaşdırmışdırlar ki, onların fikrincə bu qaydalar Allahın və Məhəmməd Peyğəmbərin iradəsinə uyğundur. Bəzən belə hallar olurdu ki, cinayət və cəza sahəsində yaranan suallara ilk mənbələrdə birmənalı cavab tapmaq olmurdu. Belə olanda Peyğəmbərin tövsiyyə etdiyi kimi məsələlər ya icmanın, ya da tək bir xəlifənin rəyi ilə həll edilirdi.

Beləliklə, VII–VIII əsrlərdə müsəlman cinayət hüququnun mənbəyi kimi Quran və Sünnə, eləcə də Peygəmbərin səhabələrinin rəvayətləri qəbul olunmuşdur. Bu o deməkdir ki, cəzalandırma haqqı o zaman Quranın müəllifi olan Allaha, cinayət hüququ sahəsində Allah kəlamına, əlavələrin müəllifi olan Məhəmməd peyğəmbərə və onun səhabələrinə məxsus idi. Prinsipcə, o iddia ilə razılaşmaq lazımdır ki, Məhəmməd Peyğəmbər tam mənada hər hansı bir hüquq sistemini yaratmaq fikrində olmamışdır, O yalnız insanları həyatlarında olan müxtəlif vəziyyətlərdə necə davranmağı, eləcə də bu və ya digər hadisəyə, fakta, davranışa və s. hansı reaksiya və münasibəti göstərməyi öyrədirdi.

Qeyd etmək lazımdır ki, yalnız VIII əsrdə müsəlman hüquqçuları cinayət-hüquqi qaydaları dini qaydalardan ayıra bilmişlər. Daha doğrusu, onlar Quran və Sünnədə yer almış hökmləri əsaslandırmaq məqsədi ilə müsəlman hüququnu, o

cümlədən cinayət hüququnu tərtib etmişlər.

Eyni zamanda kifayət qədər misallar vardır ki, bənzər münasibətləri tənzimləmiş dini və onun əsasında formalaşmış cinayət-hüquqi qaydalar mövcuddur. Məzmun baxımından tam olaraq onlar tərəfindən təsbit olunmuş davranış qaydasına uyğun olmayan qaydalar da vardır. Belə ki, qəsdən adam öldürmə və bədən xəsarəti yetirməyə görə Quranda qan qisasına və talion prinsipi ilə cəzaya yol verilir. Müsəlman cinayət hüququ isə cəza barəsində Quran prinsiplərinin icra edilməsini inkar edərək, kəffarənin (əvəzçıxma) ödənilməsində israrlıdır və yalnız ekstremal halda ölüm cəzasına icazə verir. IX–X əsrlərdən başlayaraq müsəlman hüququnun mənbəyi rolu tədricən doktrinaya keçmişdir ki, o da müsəlman hüququnun konkret cinayət-hüquqi qaydalarının əksəriyyətini tərtib etmişdir.

Müsəlman-hüquqi doktrinasının yaranmasında ilk addım kimi rəy yaranmışdır. Bu da Quran və Sünnənin şərhində, eləcə də bu mənbələrdə məsələlərin həlli olmadığı təqdirdə davranışın yeni qaydalarının formalaşdırılmasında nisbətən azad fikrə yol verilməsidir.

Ancaq X əsrin sonlarına yaxın müsəlman hakimləri lazım olan cinayət-hüquqi məsələlərinin həlli yollarının Quran, Sünnə və digər mənbələrdə əks olunmaması təqdirində öz rəylərinə görə hökm vermək hüququndan məhrum edilmişlər. Ancaq müəyyən ölkələrdə rəsmi qəbul edilmiş məzhəbin qanunları ilə hökmlər çıxarılması zəruri idi. XIII əsrdə isə müsəlman cinayət hüququ praktiki olaraq öz ümumiliyini itirmiş və müxtəlif qollara ayrılaraq yarıdoktrinal hüquq halına gəlmişdir.

Beləliklə, XV əsrin sonuna yaxın müsəlman cinayət hüququ doktrina kimi əsas məzhəblərin ən məşhur nümayəndələrinin nəticələri kimi cinayətin törədilməsinə görə cəzalar sistemi təyin edən və onların icra qaydasını tənzimləyən əsas mənbə olmuşdur.

Osmanlı imperiyasının yaranması ilə hüququn bu sahəsinə hökmdarların getdikcə genişlənən qanunvericilik təcrübəsi təsir

göstərməyə başlamışdır. Hökmdarlar Quran və Sünnə əsasında həll edilməyən məsələlər barəsində qanunlar qəbul etmişlər. Cinayət məsələləri üzrə normativ-hüquqi aktların qəbul edilməsi demək olar bütün Osmanlı Sultanlarının dövründə mövcud olmuşdur. Ancaq yalnız Mehmet Fateh onları sistemləşdirmiş və iki qanunlar toplusu şəklində Qanunnamə adı altında təcrübədə istifadə etmişdir. Qanunların ikinci toplusunda cinayət cəzalarına çox böyük yer ayrılmışdır.

XIX əsrin ikinci yarısından başlayaraq, müsəlman cinayət hüququnda çox ciddi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər ilk növbədə onunla əlaqəli idi ki, daha çox inkişaf etmiş müsəlman ölkələrinin hüquq sistemlərində mövcud olan hüquq ənənəsi Qərbi Avropanın hüquq sistemləri əsasında qurulmuş qanunvericiliyə öz yerini verməli olmuşdur. Xüsusən, 1840-cı ildə fransız qanunvericiliyi əsasında tərtib olunmuş Cinayət məcəlləsi dərc olunmuşdur. Bu Cinayət Məcəlləsi demək olar ki, Osmanlı İmperiyası tərkibinə daxil olan bütün ərəb ölkələrində də geniş yayılmışdır. Ancaq birinci dünya müharibəsində Osmanlının İmperiyası dağıldı. Buna görə də o ölkələrdə yenidən Avropa modellərinə əsaslanan yeni cinayət qanunvericiliyi qəbul olunmuşdur.

XX əsrin ortalarında ən inkişaf etmiş ərəb ölkələrində burjua nümunələrinə istiqamətlənmiş cinayət qanunvericiliyi qəbul edilmişdir, əsas mənbə kimi cinayət işlərinin həll olunmasında müsəlman delikt hüququnu əzəz etmişdir. Səudiyyə Ərəbistanında bu günə kimi vahid cinayət məcəlləsi yoxdur. Yəməndə cinayət hüququ kodlaşdırma keçməmişdir. Cinayət hüququnun islamlaşmış versiyasını Pakistan, İran və Sudanda görə bilərik. Mərakeş, İordaniya və Pakistanın qanunvericiliyi bu günə kimi Ramazan ayında orucun tutulmamasına görə insanların məsuliyyətə cəlb edilməsini nəzərdə tutur. İranda, "əxlaq düşgünlüyünə qarşı mübarizə" üçün yaradılan xüsüsi İslam məhkəmələri qadınların geyimi ilə əlaqədar müsəlman adətinə

riayət edilməməsinə və ya şəriətin nəzərdə tutduğu ictimai davranış qaydalarınının pozulmasına görə cəza tətbiq edə bilərlər.

Beləliklə, cəza haqqı məhz dövlətə məxsusdur, çünki o cəmiyyət üzvlərinin davranış qaydalarını təyin edir. Ancaq bu haqq necə dövlətə məxsus olubdur?

Cəzalandırma hüququ zərurətə görə dövlətə məxsusdur. Manuvriye yazmışdır: "*Mən hesab edirəm ki, cəza hüququ cəzanın verilməsindən başqa bir şey deyildir. Cəmiyyət bunu tam məhv etməsə də, bu zərurəti azaltmalıdır. Ancaq hələ ki "cəza" sözü ümumi rifah və sosial tərəqqi üçün zərərli olan aktlara qarşı xeyirli və zəruri reaksiyanın konsepsiyasından başqa bir şey deyildir*"[310]. N. D. Sergiyevskiyə görə "*Dövlətin o əsasla cəzalandırmağa haqqı var ki, o, ədalət məhkəməsindən kənarda mövcud ola bilməz. Cinayət hüquqşünaslığı üçün cəza haqqının hüquqi əsaslandırılması ondan ibarətdir ki, hüquqi qayda-qanun varsa, o zaman gərək ədalət məhkəməsi də mövcud olsun*"[311].

Y. V. Qolik İ. Y. Foynitski kimi hesab edir ki, dövlətə məxsus olan cəzalandırma haqqı onun vəzifəsini təşkil edir ki, onun icra edilməsindən özünü saxlaya bilməz[312]. A. Frank dövlətin yaranmasından əvvəl cəzalandırmanın kimə məxsus olduğunu və bu haqqın dövlətə necə geçdiyi sualına belə cavab vermişdir: "*Məgər biz belə düşünməməliyik ki, şəxsdən alınmış və cəmiyyətin hökmünə verilmiş, eyni zamanda, özü-özündən, öz prinsipindən götürülmüş və bütün tarixi səbəblərdən uzaqlaşdırılmış, qisas hüququndan başqa bir şey deyildirmi?" "Tabecilik anlayışı olan hər bir yerdə cəzalandırma hüququ vardır. Burada isə öz növbəsində, məcbur etmə və cəza hüququ*

---

[310] Manovrier. Göstərilən kitabda. C. 116.

[311] *Сергиевский Н.Д.* Русское уголовное право // Философия уголовного права. СПб., 2004. С. 231.

[312] 2 *Фойницкий И.Я.* Учение о наказании в связи с тюрьмоведением // Там же. С. 305; *Голик Ю.В.* Философия уголовного права: современная постановка проблемы // Там же. С. 50.

*nəzərdə tutulur.*”[313].

Hazırda bütün sivil dövlətlərdə, siyasi təşkilatlanmalarından asılı olmayaraq, cinayət hüququnun konkret ictimai forması ali dövlət hakimiyyətidir. Buna görə də problem ondan ibarət deyil ki, cinayət əməli cəzaya layiqdir? Məsələ ondan ibarətdir ki, cəmiyyətin cəzalandırma haqqı varmı və onun çərçivələri hansıdır, hansı sahədə və nə naminə cəmiyyətə bu haqq verilir?

Qədim dövrlərdə tayfa və ailənin içində törədilən haqsızlığa və cinayətə görə uşaqların, qismən də qadınların cəzalandırması haqqının ailəyə, və ya tayfanın başçısına həvalə edilmişdir. Prinsipcə, elə bir cəmiyyət olmamışdır ki, onun mütləq icra ediləsi qanunları olmasın və o, özünü bu qanunlardan irəli gələn cəzalandırma sistemi ilə qoruyub saxlamasın. Tayfaların, ailələrin, birliklərin başçıları təkcə qanunverici deyil, həm də hakim və hökmlərinin icraçıları olmuşlar. Cəzalandırma haqqı yalnız onlara məxsus idi.

Tarixin inkişafı getdikcə cəmiyyətə qarşı yönəlmiş əməllərin qarşısının alınması vəzifəsi ailə və tayfa başçılarından dövlət hakimiyyətinə keçmişdir. O da öz üzərinə cəmiyyəti bütün pozğunluqlardan qorumaq missiyasını götürmüşdür. O, cəzalandırma ilə hədələyərək müəyyən əməllərin törədilməsini qadağan etdi və eyni zamanda cəzaların təyini və icrası vəzifəsini öz üzərinə götürdü. Beləliklə, cəzalandırma hüququ tayfa, ailə və ittifaq başçılarından dövlətə keçdi, çünki bu vəzifədən cəmiyyətin ümumi xeyrinə görə imtina edilmişdir.

Ancaq bu, heç də o demək deyildir ki, dövlət insanların özbaşınalığı səbəbi ilə yaranıb. Onun köklərində əxlaqi prinsiplər durur. İnsanlar öz təbiətlərinə görə dövlətdə yaşamağa məcburdurlar. Çünki insanın rifahı və mədəniyyətinin inkişafı üçün birğə təşkilatlanmış cəmiyyətə ehtiyac vardır, bu da hüquq

---

[313] *Франк А.* Göstərilən kitabda. С. 116.

və nizamsız düşünülməzdir. Hüquqi nizam isə, ancaq dövlətdə ola bilər, çünki onun qanunları var və onları pozanların qarşısını alır. Yəni, cəmiyyət özünü müəyyən vasitələrlə cinayət əməllərdən qoruma vəzifəsini dövlətə həvalə etmişdir. Söhbət cəmiyyətin stabiliyini qorunması, cinayət cəzası kimi vasitələrindən gedir. Buna görə iddia etmək olar ki, *cəza hüququnun əsas prinsipi həm ictimai orqanizmin özünün, həm də onu təşkil edən ayrıca fərdlərin qorunması zərurətindən doğur.* Dövlətə məxsus olan cəzalandırma haqqı onun öhdəçiliyinin, cəmiyyətin ayrıca üzvləri, eləcə də bütün cəmiyyət qarşısında vəzifəli olmasının göstəricisidir.

Digər tərəfdən, cəmiyyətdə yer almış hüquqi qaydaların pozulması təkcə ictimai rəyi ortaya çıxartmır, həm də dövlət tərəfindən reaksiyanın yaranmasına gətirib çıxarır. Çünki o öz gücünü ictimai hakimiyyətin qoyduğu bu və ya digər qanunların riayət olunub icra edilməsinə sərf edir. Beləliklə, ictimai müqavilə əsasında dövlətə məxsus olan cəzalandırma haqqı ailə başçısının cəzalandırma haqqı kimi danılmazdır. Ancaq fərq ondadır ki, onların məqsədləri ayrıdır[314].

Dövlətin əlində cəza ictimai asayışın qorunması və təhdidlə məcbur etmə yolu ilə cinayətlərin qarşısının alınması vasitəsi olur. Burada xüsusi qeyd edilməlidir ki, söhbət dövlətin qanunu pozulması istiqamətində cəzalandırma haqqından yox, cəzanın elə o dərəcədə əxlaqi zərurət olduğundan gedir.

Məhz ədalətli cəza hissi cinayət hüququnun varlığını və tətbiq olunmasını gərəkdirir ki, onsuz dövlətin özü də mövcud ola bilməz. Buna görə də cəza qanunauyğun və ədalətlidir.

Cəmiyyətdə özbaşınalığın, qisasın yox edilməsi üçün cəmiyyət dövlətin timsalında cinayətkarları cəzalandırmaq vəzivəsini öz boynuna götürür. Çünki bunu zərər çəkmiş, zor işlətmənin obyekti olmuş, təhqirlərə məruz qalmış, əmlakını

---

[314] См.: Göstərilən kitabda.

itirmiş və s. insanlar tələb edirlər. Nəhayət, cəzanın olub-olmaması, müasir cəmiyyətdə səmərəliliyi məsələlərinə əminlik gətirmək üçün təsəvvür etmək kifayətdir ki, cünayət əməlinə görə cəzanın ləğvi elan olunarsa, ertəsi gün nələr baş verə bilər. Beləliklə, İ. Y. Foynitskinin sözlərinə görə, "*Cəza haqqı yalnız və müstəsna olaraq dövlətə məxsusdur*"[315]. O ki qaldı Tanrının cəzalandırma hüququna, o müqəddəs kitablar (Qanunlar) çərçivəsində tətbiq edilə bilər.

Biz qarşımıza dövlətin cəzalandırma haqqına dair ədəbiyyatlarda olan nəzəriyyələri ətraflı nəzərdən keçirmək məqsədini qoymamışdıq. Ancaq qeyd edilməlidir ki, N. D. Sergiyevskinin məlumatlarına görə, bu sahədə Huqo Qrotsiadan başlayaraq bu və ya digər istiqamətlərə aid olan 24 fəlsəfi sistem və 100-ə yaxın müxtəlif hüquqçunun nəzəriyyəsi mövcuddur[316]. Onların arasında elə fəlsəfə və hüquqşünaslıq məktəbləri olmuşdur ki, onlar cəzalandırma haqqını qəti şəkildə rədd etmişdirlər. Çünki onlar bu haqqın obyektinin, yəni əxlaqi şərin mövcud olmasını inkar edirdilər.

Digər cərəyanın nümayəndələri, o cümlədən Spasoviç iradə azadlığının olmamasını cəzalandırmaq haqqının inkar edilməsinin əlaməti kimi görür və bu qrupa bütün ilahiyyatçı və materialist deterministləri daxil edirdi.

Eyni zamanda belə bir məktəb mövcuddur ki, bu məktəb cəzalandırma haqqını inkar etməsə də, cəmiyyətin və ya istənilən insan hakimiyyətinin bu haqdan istifadə etməsinə qarşı çıxır. Bu səbəbdən hakimi həkimlə müalicə edərək belə bir nəticəyə gəlinir ki, cinayətkarları cəzalandırmağa heç bir insanın ixtiyarı çatmır. Onları müxtəlif alətlərin, məşqlərin vasitəsi ilə müalicə etmək lazımdır. Bu yavaş-yavaş xəstə orqana çatışmayan qüvvələri və

---

[315] *Фойницкий И.Я.* Учение о наказании в связи с тюрьмоведением. С. 302.
[316] 3 См.: *Сергиевский Н.Д.* Русское уголовное право. СПб., 1890. С. 77.

gücü qaytaracaq və ya təbiətin hökmü ilə korlanmış tərəflərini düzəldəcəkdir. Bunun üçün dərmanlar mövcuddurmu? Həbsxanaları xüsusiləşmiş xəstəxanalar, ədalət məhkəməsi və cinayət qanunvericiliyini isə yeni terapevtik və gigiyenik sistem əvəz edəcəkdir.

## § 4. Cəzanın gələcəyi

**I. Cəza və zor istifadə etmədən təsir etmə**. Son zamanlar Qərbdə cəzalandırıcı ədliyyədən bərpaedici ədalət məhkəməsinə keçilməsi ideyası geniş yayılmışdır. Vaxtı ilə P. Sorokin qeyd etmişdir: “Bizim peyğəmbərlik etmək istəyimiz yoxdur. Ancaq cəzalandırma aktların tədricən öldüyünü və bu prosesin getdikcə surətlənməsini müşahidə edirik. Hətta insan davranışının və sosial psixikanın inkişafına baxmayaraq bundan sonra da həyata keçirilməyəcəkdir. O zaman aydındır ki, dəyişən cəzanın istiqamətləndiyi təkamül zirvəsi ancaq sıfır, yəni karanın yox olması ola bilər” [317].

Əslində cəzanın tarixi onun tədricən yumşalmağa doğru getdiyini göstərir. Qan qisası talion qanunu ilə əvəzlənir, yəni cinayətlə cəza arasında bərabərlik bərqərar olur. Daha sonra pul kəffarəsi həyata keçirilir. Bu gün proses ölüm cəzasının ləğv edilməsi ilə nəticələnir və s. Bu, normal prosesdir, çünki mədəniyyət inkişaf etdikcə insanların islah edilmələri üçün daha yumşaq vasitələr düşünülməlidir. Ancaq cəzanın ədalətli qisasdan ibarət olan mahiyyəti deyil . Cəzaya əsalanmayan təsir nə deməkdir? Bu cəzanın faktiki olaraq cəzalandırıcı məzmununun məhv edilməsidir, yəni o iztirablardan imtina edilməsidir ki, onlar cinayəti törətmiş insana cəza ilə verilir.

Norveçin Oslo şəhərində eyni tələbə qrupu qarşısında iki məşhur kriminalist alim mühazirə oxumuşdur. Norveç elmlər

---

[317] *Сорокин П.* Göstərilən kitabda. C. 374.

akademiyası və İsveç kral elmlər akademiyasının üzvü N. Kristi dinləyicilərə deyirdi: "*Şəxsən mən belə zamanın gəldiyini zənn edirdim ki, cinayətlərin qarşısının alınmasına dair ümumi nəzəriyyələri dayandırmaq, heç olmasa bizim Skandinaviya ölkələrində neoklassisizm ideyalarının inkişafını saxlamaq lazımdır*"[318].

Tələbənin "Nə üçün siz belə düşünürsüz?" sualına N. Kristi müsbət cavab vermişdir: "*Mən indiki cəzalandırmanı tam ədalətli və təbii hesab etmək üçün ciddi əsaslar görmürəm. Bu məsələnin ciddiliyini nəzərə alaraq seçim etməliyəm. Mən cəzanın yumşadılması uğrunda mübarizədən başqa müdafiə etməli bir mövqe görmürəm*"[319].

Dinləyicilər anlamışlar ki, akademik utopist deyil, çünki cinayət cəzasından imtina etmir. Söhbət imkan çərçivəsində cəzanın yumşadılmasından gedir. Çünki onun irəli sürdüyü ilk şərtlərdən biri ondan ibarətdir ki, cinayət cəzası ilə bağlı insanlara yetirilən ağrı və əzablar uğurunda aparılan mübarizə ədalətli işdir[320].

Kristi nə təklif edir?

Birincisi: Ağrının, iztirabın, məhdudiyyətin, məhrumiyyətin və s. verilməsi kimi tərif etdiyi cəzanın mahiyyətini anlamaq.

İkincisi: Bu ağrının verilməsinin hüdudları haqqında məsələni həll etmək. Bunun üçün cəzanı əvəz edən müstəqil icmalar yaradılmalıdır.

Mühazirəçi açıq şəkildə karasız təsir etmə nəzəriyyəsinə rəğbətini açıq bildirməsə də, tələbələr bunu anlayırlar. N Kristinin dedikləri doğrudan da öz humanizmi ilə çoxlarını cəlb edir, çünki onun fikrincə, təyin və icra edilən cəza düşünülmüş məqsədyönlü ağrının verilməsidir ki, bu da onun qeyd etdiyi kimi "*İnsanın*

---

[318] *Кристи Н.* Причиняя боль. Роль наказания в уголовной политике. СПб., 2011. С. 47.

[319] Göstərilən kitabda. C. 20.

[320] Göstərilən kitabda.

*mənəvi yüksəlməsinin qarşısını alır, onu zülmkar edir*”[321].

Mühazirə bir qayda olaraq gözəl sözlərlə başa çatırdı: *“Riayət edilməyə məsləhət görülən qaydalardan biri odur ki, cinayət əməlinin törədilməsi istiqamətində şübhələr varsa, o zaman cəzanı yerinə yetirmək mümkün deyildir. Başqa bir qayda ondan ibarətdir ki, cinayətkara mümkün qədər az ağrı yetirilsin. Alternativ cəzanı deyil, cəzaya alternativi axtarın*”[322].

Gördüyümüz kimi, Kristi prinsipcə cəzadan imtina edir, çünki törədilən cinayətin ağırlığının onun müqabilində verilən cəzaya uyğun olmasının dəqiq təyin edilməsinin mümkünsüzlüyünə görə, ədalətin qorunub saxlanılmasına şübhə ilə yanaşır. Ona görə də o, cinayətlərin ümumi profilaktikası konsepsiyasına qayıtmağın vacibliyinə ehtiyatla yanaşır. Eyni zamanda, cəzanın əvəzinə o konkret bir şey təklif etmir. Əsas odur ki, mümkün qədər az “ağrı” yetirilsin.

Buradan çox aydın görünür ki, N. Kristi cəzanın mahiyyətini caniyə yetirilən ağrıda, yəni iztirablarda, məhrumuyyətlərdə və s. görür. Bu, o deməkdir ki, ağrının azalması cəzanın mahiyyətinin dəyişkənliyindən xəbər verir, halbuki hadisənin mahiyyəti dəyişkən deyildir. Cəzanın məzmunu isə, yəni onun cəzalandırıcı tərəfi dəyişkəndir. Bu barədə məlumatı cəza haqqında təlimin tarixi xəbər verir. N. Kristi qeyd edirdi: “*Mənim mövqeyim qısa olaraq ondan ibarətdir ki... sosial sistemlər elə qurulmalıdır ki, sosial nəzarətin yaradılması üçün ağrının yetirilməsində olan ehtiyac minimum həddə endirilsin. Məqsəd insanların yaratdığı cəhənnəm deyil, kədərin ortaya gətirilməsidir*”[323]. Ancaq buna necə nail olmaq mümkündür?

Bu ağrının həddi nədir? Cəzalandırılmadan təsir etmə somatik təbabətlə müqayisə edilir və faydalı bir metod kimi qəbul

---

[321] Göstərilən kitabda.
[322] *Кристи Н.* Göstərilən kitabda. С. 21.
[323] Göstərilən kitabda.

edilir. Cinayət ədliyyəsi sistemində müalicə və cəzalandırılmadan təsir etmə insannın sağlamlıq vəziyyətinin yaxşılaşdırılması məqsədini güdür. Burada bir nəcib məqsəd vardır ki, o da insana sosial sağlamlığını qaytarmaq, onu cinayətkar hisslərdən sağaltmaqdan ibarətdir[324]. Cəzalandırılmadan təsir etmə "cinayətdən müalicə olunma kimi" öz etimadını itirmiş, ancaq bu metod insanlara bir yardım etmə kimi öz etibarlılığını qazana bilmişdir. Bunu N. Kristinin özü də etiraf etmişdir. Eyni zamanda, o, əmin idi ki, *gələcəkdə dövlət həbsxanalarından istifadə etmədən, cəmiyyətdə problem və narahatlıq törədən insanlara daha da səmərəli yardım göstərilə bilinəcəkdir*[325].

Cəzalandırılmadan təsir etmə nəzəriyyəsi əslində cəzanın hədələmə kimi mahiyyətinin inkar edilməsidir. Yəni, o potensial canilərin deyil, yalnız caninin şəxsiyyətinə yönəlmişdir. Digər tərəfdən, bu nəzəriyyə təklif olunan müalicə şəklində gizli cəzaya və ağrıya gətirib çıxardır. Ağrının yetirilməsinin cəzalandırılmadan təsir etmə nəzəriyyəsində yeri ola bilər, ancaq o iztirablar içində olanın halını gələcəkdə düzəldə bilən hadisələr silsiləsində yalnız bir halqadır. Bu nəzəriyyəyə praktik olaraq necə keçmək mümkündür? Həbsxanalardan, azadlıqdan məhrum etmə yerlərindən və digər əzablardan imtina etməklə və ya bu iztirabların, məhrumiyyətlərin və s. ağrının minimuma endirilməsi ilə mümkün olacaqmı? Onda insanları cinayətin törədilməsindən çəkindirmək məqsədi ilə hədələməyə necə nail olmaq olar?

N. Kristi qeyd etmişdir ki, c*inayətlərin ümumi profilaktikası barəsində diskussiya ağrının bilavasitə necə təsir etdiyinin mübahisəsi deyil, bir fərdə (A) digər fərdin (B) cəzaya məruz qalmasına necə təsir etməsidir*[326]. Tam aydındır ki, bu cəza əzabların və məhrumiyyətlərin qəsdən yetirilməsidir. Cəza da

---

[324] Göstərilən kitabda. C. 41.

[325] Göstərilən kitabda. C. 130

[326] Göstərilən kitabda. C. 36.

əməlin törədilməsinə görə və insanların maraqlarına uyğun verilən qarşılıqdır. Cəzanın verilməsinin tənzimlənməsi başqa və daha da mühüm məsələdir, ictimaiyyətin və elmin diqqət mərkəzində olmalıdır.

Cinayət təzahürlərinin qarşısının alınmaslnda cəzanın məqsədəuyğunluğu və əhəmiyyətliliyi haqqında hələ Platon özünün "Qanunlar" kitabında qeyd etmişdir: "*Əqər qanunverici burada insanın müalicəsinin nəticə vermədiyini görsə, onda ona cəza verib başqa qanun tətbiq edərdi. Qanunverici anlayır ki, insanlar üçün öz mövcudluqlarını həyatlarına son qoymaqla bitirmək daha yaxşıdır. Bununla onlar digər insanlara ikili xeyir gətirmiş olardılar. Ədalətsiz davranmaqdan çəkinməyin lazımlılığı mənasında başqaları üçün örnək olardı, həm də dövləti şər insanların varlığından qurtarardılar*"[327].

Dharmaşastrada deyilir: "*Axı cəza olmasa heç kəs doğru yolda olmaz*"[328]. Manunun qanunlarında isə cəzaya xüsusi diqqət yetirilmiş və onun müstəsna rolu vurğulanmışdır: "*Cəza bütün insanlar üzərində hökmrandır. Cəza elə qoruyucu vasitədir ki, hamı yatanda, cəza ayıqdır. Müdriklər cəzanı dharmanın elan etmişlər... Əgər kral cəzaya layiq olanları yorulmadan cəzalandırmasaydı, güclülər zəifləri balığı şişdə bişirdiyi kimi odda qızardardılar*"[329].

Burada biz yenidən Norveç Elmlər Akademiyasında dinləyicilərə oxunan mühazirələrə qayıdaq. Günün ikinci yarısında həmən auditoriya qabağında və həmən dinləyicilər qarşısında cinayətlərin ümumi profilaktikası nəzəriyyəsinin fəzilətləri və zərurətləri haqqında mühazirələri N. Kristi kimi

---

[327] Bax: *Платон.* Законы. С. 350.

[328] Bax: Дхармашастра Наряды / Пер. с комм. А.А. Вигасина, А.М. Самозванцева. М., 1998. С. 62.

[329] ЗаконыМану (VII. 18, 20) // Хрестоматия по истории государства и права зарубежных стран: В 2 т. / Отв. ред. Н.А.Крашенинникова. Т. 1. М., 1999. С. 105.

hüquq elminin bu sahəsində böyük alim hesab edilən və Nogvec elmlər akademiyasının prezidenti İ. Andenes oxuyurdu. Mühazirəçi məruzəsini ondan başlayırdı ki, cinayətkara cəza tətbiq etməyin əvəzində cəzalandırılmadan təsir etmə ideyası dünyanın bir çox ölkələrində yaşayan hüquqşünaslara dərin təsir bağışlamış nəcib bir fikir olmuşdur. Mühazirəyə bu haqda demişdir: "*Ancaq cinayət və cəzanın inkişaf tarixi cəzalandırılmadan təsir etmə konsepsiyanın üstünlüyünü yüz ildən az müddət sürən intermediya kimi təqdim edir. Bu o demək deyildir ki, caninin islahedilmə cəhdlərinə son qoyulmalıdır. Ancaq onların törətdikləri əməllər ədalətli cəza cərçivəsində dəyərləndirilir. Cəzanın məqsədi cinayətkarın şəxsiyyətinin dəyişdirilməsi deyil, sosial qaydaların bərqərar edilməsidir. Bu da ümumi xəbərdarlıq xarakteri daşıyır*"[330].

Bir tələbə qızın: «Siz "ümumi xəbərdarlıq" deyəndə, nəyi nəzərdə tutursunuz?» - sualına, İ. Andenes belə cavab vermişdir: "*Cinayət qanunu ilə onun tətbiqinin vətəndaşların qanunatabe olan davranışını təmin etmə qabiliyyətidir*"[331]. Buna görə də insanları qanunatabe etmənin ən sadə yolu cəzanın artırılmasıdır. Qanunvericilərlə məhkəmələr cinayətkarlıq əmsalını müşahidə edilən artımını saxlamağa cəhd edəndə, onlar adətən cəzanın şiddətini artırırlar[332].

Ola bilsin ki, elə o zaman Sankt-Peterburq universitetinin tələbələri professor D. A. Şestakovun həmin problemə həsr olunmuş mühazirəsini dinləyirdilər. Bu mühazirədə o qeyd etmişdir ki, insan davranışının kütləvi tənzimləmə vasitəsi kimi cinayət hüququ institutu XX əsrin sonlarına yaxın tənqidi baxımdan qiymətləndirilməyə başlamışdır. Buna görə də XXI əsrin kriminologiyası gərək onları cinayətlərin fərdi proflaktikası

---

[330] *Анденес И.* Наказание и предупреждение преступлений. С. 18.
[331] Там же. С. 29.
[332] Там же. С. 261.

kontekstinə daxil edərək cəzalandırılmadan təsir etmə sanksiyalarının perspektivlərinə diqqət yetirsinlər[333].

Beləliklə, cəzanın gələcəyi cinayət hüququ elmi və kriminologiya üçün iki istiqamətdə görsənir: Birincisi, cinayət cəzasından cəzalandırılmadan təsir etmə formasına keçilməsi; İkincisi, müasir şəraitdə cinayətin xəbərdarlıq vasitəsi kimi cəzanın özünün təkmilləşdirməsidir.

**Karasız təsir.** Cinayət cəzasının az səmərəliliyi faktı, onun cinayətlə mübarizəsinin gələcəyini Ç. Lambrozodan başlayaraq sual altına qoymuşdur. Ç.Lamrozo antropologiya, cinayət statistikası, cinayət hüququ və həbsxanaşünaslığa əsaslanaraq cəzada faydasız vasitə kimi karadan imtina etməyi və onu başqa vasitələrlə əvəz etməyi təklif etmişdir. Bəs təhdidin, cəzanın əvəzində nə təklif edilir?

Cinayətkarlığın bioloji xüsusiyyətlərini qəbul edən antropoloji məktəb doktrinası cinayət cəzasını "təhlükəsizlik qaydaları" ilə, cinayətin sosioloji istiqaməti isə "sosial müdafiə tədbirləri" ilə əvəz etməyi təklif etmişdir. Bu cür əvəzetmə cinayətkarın şüuruna sosial təsiretmə və tibbi-psixoloji vasitələrlə, sosial-psixoloji hadisə kimi cinayətkarlığın aradan qaldırılmasında universal vasitələrin axtarılmasını ortaya çıxarmışdır. Belə ki, A. Prins nəzəri cəhətdən cinayət cəzasının sosial müdafiə tədbirləri əvəzlənməsinin vacibliyini əsaslandırmağa çalışmışdır. Onun qənaətinə görə bu məsələ prinsipial əhəmiyyətə malikdir.

Bununla əlaqədar hazırda cinayət cəzası nəzəriyyəsində daha tez-tez və inadla sosial müdafiə ideyası yada salınır. Buna görə də cəza institutu ilə sosial müdafiə tədbirləri arasında fərqlənmə xəttinin çəkilməsinə zərurət və praktiki ehtiyac yaranmışdır. Məlum olduğu kimi, sosial müdafiə tədbirləri anlayışının qədim mənşəyi vardır. Ancaq bu günə kimi son olaraq nə onların cəzaya olan münasibətlərinin mahiyyəti, nə də həcmi

---

[333] Вах: Криминология XX век. СПб., 2000. С. 5, 12.

müəyyən edilməmişdir. Ədəbiyyatda sosial müdafiə tədbirlərinin təbiəti haqqındakı baxışları iki istiqamətə ayırmaq mümkündür: cəza ilə sosial müdafiə tədbirləri arasında prinsipial fərqin etiraf edilməsi və ya bunun inkar edilməsi. Onun zahiri təzahürünə baxsaq və daxili məzmununu aşkara çıxartsaq görərik ki, sosial müdafiə tədbirləri cinayətkarlığın digər formaları arasında xüsusi yeri olan tam müstəqil qurumdur. Cəzadan fərqli olaraq sosial müdafiə tədbirlərinin həyata keçirilməsində məqsəd artıq törədilmiş cinayətə qiymət vermək deyil, o, şəxsin cinayət törətməsinin qarşısının alınmasına xidmət edir. Bundan belə bir nəticə çıxır ki, bu quruma müstəsna olaraq preventiv xarakter məxsusdur. Buna görə iddia etmək olar ki, cəza anlayışı dar anlam daşıyır, sosial müdafiə tədbirləri qarşıya qoyulmuş məqsədə çatmaq üçün daha geniş imkanlara malikdir.

S. K. Hogel cəzanı mənşəyi qisasdan gələn repressiya ilə eyniləşdirmişdir. O qeyd etmişdir: "*Müasir mənada dövlətin yaranması və inkişafı boyu qisasın alınması, repressiya şəklində ölkə güclərinin əlinə keçmişdir. İcra edilməsi dövlətə həvalə edilən repressiya cinayətlə mübarizədə davam gətirməmiş və yavaş-yavaş cinayətlə mübarizədə əlverişsiz olduğu etiraf edilmişdir*"[334].

Həm hüquqi, həm də sosial-siyasi baxımdan repressiya ilə cəza arasında bərabərlik işarəsinin qoyulması səhv addım kimi görünür. Repressiya - dövlət tərəfindən son dərəcə siyasi tədbirdir və onun ədalət məhkəməsinə birbaşa aidiyyatı yoxdur. Eyni zamanda, cinayətkarlıqla mübarizədə, hətta ən sərt cinayət cəzaları əgər siyasi məqsəd yoxdursa repressiv adlandırıla bilməz.

Beləliklə, cəzanı inkar edərək Hegel repressiyadan prevensiyaya keçidi təklif edir: "*Bu kimi repressiyadan prevensiyaya keçidin, özüdə tam keçidin mümkünlüyünün xeyrinə*

[334] *Гогель С.К.* Курс уголовной политики в связи с уголовной социологией. М., 2010. С. 142.

*səsləndirilən fikirlərdir. Bir çox hallarda cinayətin törədilməsi hansısa insanın həyatında təsadüf deyil, iqtisadi, fiziki və əxlaqi zəifliyin yavaş və davamlı prosesinin tamamlanması və nəticəsidir*"[335].

Vaxtilə D. Dril göstərmişdir: "*Həqiqi hadisələrin araşdırılmasının nəticələri, cinayətkarlarla mübarizədə keçmişin adəti ilə ağrı və iztirabların yetirilməsinə yönəlmiş repressiya tədbirlərinə qarşı etiraz edir*"[336].

Göründüyü kimi, sosial müdafiə konsepsiyası ilə prevensiyanın arasında o qədər də böyük fərq yoxdur. Çünki hər iki halda söhbət cinayətkarlığın qarşısının alınmasında cəza ilə deyil, cinayətkarlığın səbəblərinə və mənbəyinə cəzasız təsir etməkdən gedir. İtalyan vəkili F. Qrammatikanın təşəbbüsü ilə sosial müdafiə konsepsiyasının ardıcılları 1945 ildə Genuya şəhərində Sosial Müdafiə Mərkəzi, fransız M. Ansel isə, "yeni sosial müdafiə" cərəyanını təsis etmişdir. F. Qrammatikanın ideyaları R. Qarofalo və E. Ferrinin əsərlərində inkişaf etdirilmiş İtalyan pozitiv məktəbinin yeni və müasir variantıdır. F. Qrammatika dövlətin cinayətkarları cəzalandırmaq haqqını inkar edirdi, M. Ansel isə ondan çıxış etmişdir ki, cinayətkarları islah edib yenidən tərbiyələndirmək məqsədilə, onlara qarşı ancaq hümanist təsir tədbirləri həyata keçirilməlidir.

Beləliklə, yeni sosial müdafiə hərəkatının tərəfdarları sosioloqların sosial müdafiə konsepsiyasını qəbul edirlər və onların "cəza- günaha görə məsuliyyət daşımaqdır" klassik anlayışından imtina etməsi ilə razılaşırlar. Bu arada sosioloji məktəbin tərəfdarlarından fərqli olaraq, yeni istiqamətin tərəfdarları cəzanı dövlət tərəfindən verilən yeganə mümkün və ədalətli reaksiya hesab etdiklərinə görə, klassikləri və

---

[335] Göstərilən kitabda. C. 139.

[336] *Дриль Д.* Преступность и преступники. Учение о преступности и мерах борьбы с нею. С. 158.

neoklassikləri günahlandıraraq cəmiyyətlə şəxsiyyət arasında müvazinəti tapmağa cəhd edirdilər. A. A. Piontkovski qəti olaraq "yeni sosial müdafiə" nəzəriyyəsini rədd edirdi və onda cəza institutunun ifrat subyektivləşməsini görürdü[337].

Bu gün bəzi müəlliflər hesab edirlər ki, "XXI əsrin kriminologiyası karasız sanksiyaların perspektivliyinə diqqət yetirərək onları cinayətlərin fərdi profilaktikasına daxil etməlidirlər"[338]. Son vaxtlar cinayət hüququ və kriminologiya elmində istinad edilməsi dəbdə olan cəzalandırılmadan təsir etmə nə deməkdir?

Bəziləri üçün bu qanunu pozanın şəxsiyyətinin bərpası üçün cəzalandırıcı metodların əvəzində psixiatorların, təbiblərin və başqa mütəxəssislərin cəlb edilməsidir. Başqaları isə bunun üçün həm də azadlıqdan məhrumetmə yerlərində cəzaların icra edilməsi prosesində işlənən digər metodları da daxil etmək istəyirlər. Ən radikal reformatorlar ondan çıxış edir ki, cəzalandırmadan təsir etmə sistemi əgər bu mümkün olarsa, şəxsiyyətin bərpa olunma prinsiplərinə əsaslanmışdır. Əks təqdirdə, şəxsiyyəti bərpa olunduğu ana qədər onu təcrid etmək lazımdır ki, o yeni cinayəti törətməsin. Bu o deməkdir ki, eyni cinayətlərdə təqsirli bilinən insanları, onların reabilitasiyası naminə müxtəlif təsir vasitələrinə məhkum etmək lazımdır, onlara əmələ görə deyil, cəzanın tötədilməsi şəraitinə görə cəza verilməlidir.

Yəni, əmələ görə deyil, onun tötədilməsi şəraitinə görə cəza vermək ideyası, ehtimal olunan cinayətkar şəxsiyyətin təhlükəli xüsusiyyətlərinə uyğun cəza vasitələrinin dəyişməsi ilə, son nəticədə, cəzalandırılmadan təsir etmə ideyası və praktikasını ortaya çıxarmışdır. Bu sistem yalnız caninin şəxsiyyətinin bərpa edilməsi prinsiplərinin əsasında qurulmuşdur və ya bu mümkün

---

337 *Пионтковский А.А.* О теории «новой социальной защиты» в уголовном праве // Советское государство и право. 1968. № 4. С. 14.
338 Криминология XX век. С. 12.

olmasa o zərurət çərçivəsində təcrid edilməlidir ki, onun tərəfindən yeni cinayətin törədilməsinin qarşısı alınsın. Bunun üçün bu nəzəriyyənin bəzi nümayəndələri tərəfindən psixioatrları və psixoloqları cəlb etmək təklif olunur ki, onlar cinayəti törətmiş şəxsin psixikasını bərpa etsinlər.

Əslində cinayətkara cəzalandırılmadan təsir etmək və onun şəxsiyyətinin bərpası tədbiri uzun və “qaranlıq” tarixə malik olan cinayət cəzası ilə müqayisədə maarifləndirici, humanist və müasir görünür. Məhz buna görə gələcəyin vəzifəsini bəzi alim və mütəxəssislər cəzanın cəzalandırma vasitələri olmayan tədbirlərlə əvəz olunmasında görürlər.

Buna görə cəza verilmədən təsir etmə humanist, nəcib addım kimi qəbul olunmuşdur, bu da insana sosial sağlamlığı qaytarmaq, onu cinayətdən müalicə etməkdir. Ancaq müalicə etmək üçün xəstəliyin səbəbini bilmək lazımdır.

Məlum olduğu kimi, bu günə kimi cinayətkar davranışın səbəbi hələ ki dəqiq təyin edilməmişdir. Bundan başqa əgər, bu səbəb ətraf mehitdən əlavə insanın özündə gizlənirsə, onda mürəkkəb bioloji orqanizmdə gizlənən konkret mənbəni dəqiqləşdirmək lazımdır. Bu mümkündürmü? Bu gün elm bu suala müsbət cavab verə bilmir.

Cəzalandırılmadan təsir etmə ideyasının daha bir üstünlüyü də var. Məsələ burasındadır ki, cinayət cəzası vasitəsi ilə cinayətin təkcə nəzəri deyil, həm də praktiki cəhətdən qarşısının alınması, onun səmərəliyinin müəyyən edilməsi nöqteyi nəzərindən daha mürəkkəbdir. Bu baxımından ənənəvi cəzalandırma, cəzalandırılmadan təsir etmədən daha çətin prosesdir. Çünki, bu halda söhbət dəqiq təyin edilmiş obyektdən gedir.

Cəzalandırılmadan təsir etmənin tərəfdarları adətən qeyd edirlər ki: təcrübə bizi öyrədir ki, cəza cinayətkarda ona əks təsir yaradır, çünki məhkumun demoralizasiya yönümü ona məxsusdur və bu yönüm onu sosial hüquqsuzlar sinfinə keçirir. Ola bilsin ki, cəzanın icrası prosesi əslində məhkum olunmuşların bir qisminə

mənfi təsir edir, bu da residivə gətirib çıxarır. Ancaq cəzanın müsbət rolu xəbərdaredici – qorxuducu təsir vasitəsilə cinayətin qarşısının alınmasında və başqalarının cinayət törətməməsində özünü göstərir.

Görünür ki, cəzanın cəzalandırılma olmadan təsir etmə vasitələrlə əvəz etmə yolunda yaxşı niyyətlərlə görülən cəhdlər qeyri-müəyyənlik və özbaşınalıq yarada bilər. Eyni zamanda, yadda saxlamaq lazımdır ki, etik baxımdan da cəzalandırmadan təsir etmə minilliklər boyu formalaşan ədalət, xeyir və şər, təqsir nə məsuliyyətin tarazlığı və s. haqqında təsəvvürləri aradan qaldırır[339].

Bu nəzəriyyənin müasir nümayəndələrindən hesab edilən N. Kristi qeyd etmişdir ki, *"Cəzalandırılmadan təsir etmə nəzəriyyəsi dəyər xarakterli məsələləri uğurla ortalıqdan qaldırır. Somatik təbabətin əsasında analogiyasına əsaslanan cəzalandırılmadan təsir etmə, birmənalı rifah kimi qəbul olunmuşdur. Müalicənin, yəni cəzalandırılmadan təsir etmənin cinayət ədliyyəsində məqsədi müştərinin sağlamlığının qorunması idi. Buna görə "cəzalandırılmadan təsir etmə iztirab verə bilərmi?" - sualını vermək yersiz olardı"*[340].

K. A. Sıç tam ədalətli olaraq qeyd etmişdir ki, "*zənnimizcə, cəzalandırılmadan təsir etmə konsepsiyası "təhlükəli vəziyyət" və müalicə olunmalı "cani - xəstə insan" (E. Ferri, R. Qarofalo) konsepsiyasının "anadangəlmə cani tipi" (Ç. Lambrozo) təliminin timsalında pozitiv ideyaların inkişafının davam etməsidir*"[341].

Beləliklə, gördüyümüz kimi sosial müdafiə nəzəriyyəsinin prevensiya konsepsiyasının və cəzalandırılmadan təsir etmə ideyasının mahiyyəti cinayətlə mübarizə vasitəsi kimi cəzaya etibar etməməkdən və ya onlardan imtina etməkdən ibarətdir.

---

[339] *Никифоров Б.С.* Вступительная статья к книге И. Анденеса «Наказание и предупреждение преступлений». С. 9.
[340] *Кристи Н.* Пределы наказания. М., 1985. С. 45.
[341] *Сыч К.А.* Göstərilən kitabda. C. 60.

Təsəvvür edilir ki, burada söhbət cəzanın başqa vasitələrlə əvəz edilməsindən deyil, onun səmərəliliyinin təkmilləşdirilməsindən, eləcə də müxtəlif cinayətlərlə mübarizə formalarının parallel mövcudluğundan gedir. Şübhəsiz, nəzəri cəhətdən onu istisna etmək olmaz ki, "*zaman gələcək, cəza öz intensivliyini o gədər itirəcək ki, yeni terminologiyanın tətbiq edilməsi tələb olunacaqdır*"[342].

Lakin təhdid və iztirab verməkdən imtina edərkən, məntiqlə cəzanın özündən də imtina edilməlidir. Bu məsələ günümüzdə ləyaqət məsələsi deyil, qaçınıllmaz və müəyyən peşənin zəruri nəticəsi kimi dəyərləndirilməlidir.

Cəza haqqında danışılanda tez-tez normal və təbii arqumentlər irəli sürülür: bəşəriyyət dəhşətli işgəncələr və edamın ixtisaslaşmış növləri ağır işgəncələr və.s daxil olmaqla, repressiyanın bütün vasitələrini bir daha sınaqdan keçirmişdir. Lakin nə cinayətkarlıq, nə də ənənəvi davranışa əks (deviant) davranışın formaları nədənsə yox olmamışdır. Axı biz cəza haqqında cinayətkarlıqla mübarizə tədbirləri kimi danışanda, söhbət hansısa bir möcüzədən, cinayətin ortadan qaldırılmasından yox, əsasən onun gələcək yüksəlişindən gedir. Eynu zamanda, hesaba alınmalıdır ki, bəzən qoyulan məqsədə çatmaq məsələnin düzgün qoyuluşundan asılı olmur, həm də bir çox hallarda bizim əlimizdə olan vasitələrdən səmərəli istifadə edilməsindən asılıdır. Ola bilsin ki, əslində öz imkanlarına görə cəza çox faydalı vasitədir, amma biz hələ maksimal dərəcədə, ondan yararlana bilməmişik. Biz burada S. K. Hogelin fikri ilə razılaşmalıyıq. O vaxtı ilə qeyd etmişdir: "*Qanunverici tərəfindən cəzalar cəza pilləkənindən o zaman ləğv edilir ki, onlar cəmiyyətin baxışlarına və əxlaqına, bu əxlaqın yumşalmasına və artıq qəddarlıqla zorakılığa nə şəxsi, nə də ictimai həyatda yol vermədiyinə uyğun*

[342] Криминология XX век. С. 225.

*gəlmir*”[343].

İndi isə belə bir sual vermək istərdik: Ümumi inkişafımız və əxlaqi normalarımız bizə imkan verirmi ki, biz zorakılığa yol vermədən cəzanı, cəzalandırılmadan təsir etmə vasitəsi ilə əvəz edək? Bir vaxtlar sovet dövrü cinayət hüququnda cinayət cəzasının istifadə olunma hüdudlarının ictimai təsir və tərbiyə vasitəsi ilə əhatə dairəsini daraltmağa çalışan cərəyan olmuşdur. Belə ki, İ. İ. Karpets qeyd edirdi, i*ctimai münasibətlərin təkmilləşməsi və insanların idrakının inkişafına uyğun olaraq, dövlət tərəfindən həyata keçirilən müxtəlif cəza formalarına ehtiyac qalmayacaqdır. Cəzanın cəzalandırıcı mahiyyəti, tərbiyəedici ölçülər ilə əvəz olunacaqdır*[344].

Bəzi müəlliflər qeyd etmişlər ki, cəzanın ictimai təsir vasitələri ilə əvəz edilməsi prosesinin inkişafı, onların yumşalmasının ilk şərti kimi nəzərdə tutulur. Eyni zamanda, vətəndaşların mədəni səviyyələrinin yüksəlməsi təkcə, cinayətkarlığın azalmasına və cəzanın tərbiyə metodları ilə əvəz edilməsində deyil, bu tərbiyəedici metodların özlərinin yumşalmasına gətirib çıxarır. Çünki belə hallarda ciddi cəza tədbirlərinə artıq ehtiyac qalmır[345]. N. A. Belyayevə görə: “*Cəzanın ictimai təsir və tərbiyə metodları ilə dəyişməsinin əsas istiqaməti cinayətin azalması və cəzalandırılmağa məruz qalan əməllərin əhatəsinin azalmasıdır*”[346].

“İctimai təsir və tərbiyəedici tədbirlər” anlayışı öz mahiyyətinə görə “sosial müdafiə tədbirləri”, “cəzasız təsir” anlayışları ilə eyniləşir. Məlum olduğu kimi, əvvəlcə “sosial müdafiə” ifadəsi yaranmış, sonra isə “cəzasız təsir” anlayışdan

---

[343] *Гогель С.К.* Указ. соч. С. 129.

[344] *Карпец И.И.* Социальные и правовые аспекты учения о наказании // Советское государство и право. 1968. № 5. С. 68.

[345] Bax: *Ной И.* Вопросы теории наказания в советском уголовном праве. Саратов, 1962.

[346] *Беляев Н.А.* Избранные труды. СПб., 2003. С. 76.

istifadə edilməyə başlanılmışdır. O ki qaldı ictimai təsir və tərbiyəedici tədbirlərə, bu ifadə sovet dövründə dəbdə olmuş və bir qayda olaraq, ideoloji və siyasi məqsədlərlə istifadə edilmişdir.

Cinayət cəzasının ictimai təsir və tərbiyəedici tədbirlər ilə tədricən dəyişdirilməsinin tərəfdarları səhv olaraq cəzalandırıcı elementləri olmayan cəza formaları düşünürdülər. Prinsipcə, bu, mümkün deyil, çünki, cəza ilk növbədə öz tərkibində cəzalandırma elementlərini gəzdirir. Buna görə də cəzanın fiziki zorakılıq və alçaldıcı elementlərdən azad olmasının mümkünlüyü fikri cəfəngiyyatdır. S. P. Mokrinski yazmışdır: "*Duyğu dolu həyatın reallığı kimi qeyd etmək lazımdır ki, cinayət hüququ iztiraba əsaslanan cəza aktıdır. Dövlət iztirab dolu cəzanın yerinə yetirilməsinin vasitəsi kimi müəyyən faktlara o zaman reaksiya göstərməyəcəkdir ki,həmin vaxt bu tarixi təşəkkül tapmış anlayış da hüquqi leksikondan yox olacaqdır*"[347].

Belə görünür ki, cəzaların məzmununun bütün cəzalandırıcı mexanizmlərinin tədricən dəyişməsi praktiki olaraq imkansız və müasir şəraitdə zərərli bir tədbir olardı, bu da cinayətin dinamikası, strukturu, eləcə də durumu ilə təsdiqlənir. Söhbət tədricən cinayət cəzasının ictimai təsir və tərbiyə vasitələri ilə dəyişməsindən yox, cinayət cəzası tərkibli cəzalandırılmanı nəzərdə tutmayan tədbirlərin paralel mövcud olmasından gedir. Bu da dövlətin tarixi reallığa və hüquqa, məcbur etmənin və inandırmanın cəmiyyətdə yeri və roluna prinsipial baxışdan irəli gəlir. Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, bu gün cəza əvəzində ictimai təsir tədbirlərinin geniş istifadə edilməsidir. Bunun üçün qabaqcadan hərtərəfli və dərin hazırlıq görülməsə, arzuolunmaz nəticələrə gətirib çıxaracaqdır.

Bu istiqamətdə elmi düşüncənin inkişafında əhəmiyyətli rolu uzun müddətə azadlıqdan məhrum etmə cəzasına yenidən baxılması, eləcə də cəza icrasının məzmununun köklü dəyişməsi

---

[347] *Мокринский С.П.* Наказание, его цели и предложения. С. 3.

oynayır. Buna görə də biz "*Sosial sistemlər elə qurulmalıdır ki, sosial nəzarət məqsədi ilə cinayət cəzasının yerinə yetirilməsinə duyulan ehtiyacı minimuma endirsin"*[348] iddiası ilə razılaşa bilmərik.

Belə yanaşma cinayətin qarşısının alınmasında əhəmiyyətli rol oynayan cinayət cəzasının ümumi profilaktik təsirinin inkarıdır. Cəzanın elementləri olan iztirab, ağrı, məhrumiyyət olmadan çətin ki, insan danranışına sosial baxımdan faydalı planda təsir etmək mümkün olsun. Ancaq yaxın perspektivdə cinayətin qarşısının alınmasında başqa təsir vasitələrinə diqqətin artırılmasında və ilk növbədə şəxsiyyətə bilavasitə deyil, onun yaşadığı və formalaşdığı mədəni və sosio-iqtisadi şəraitin dəyişməsi ilə cəzanın rolunun məhdudlaşdırılması imkanlarını istisna edir.

Beləliklə, "təhdid nəzəriyyəsinin təsir dairəsinin qarşısının alınmasının zamanı gəlib çatmışdır" fikrini iddia edənlərə xatırlatmaq lazımdır ki, cinayətin törədilməsindən söhbət "hər şey və ya heç nə" qütblüyü arasında seçim haqqından gedirsə, bu tam məqbul ola bilər. Cinayət pozuntularına qarşı heç bir tədbir görülməsə, o zaman bu cinayətkarlığın ümumi səviyyəsinin artmasına gətirib çıxaracaqdır.

Yaddan çıxarmaq olmaz ki, hazırda cinayətkarlığa qarşı səmərəli müqavimət göstərmək artıq şəxsi problem deyildir, bütövlükdə bu cəmiyyətin yaşaması məsələsidir. Bu gün sübut etməyə ehtiyac yoxdur ki, cinayətin qarşısının alınmasında müsbət nəticələri təkcə rasional sosial siyasətin köməyi ilə deyil, cinayətkarın şəxsiyyətinə təsir etməklə nail olmaq mümkündür.

Buna görə də cinayətlkarlıq üzərində sosial nəzarətə cəza vasitəsi ilə mübarizə və profilaktika da daxildir. Bununla əlaqəli vacib bir dəqiqləşdirmə etmək lazımdır. Biz təhdiddən danışanda söhbət qəddarlıq tədbirlərinin tətbiq edilməsindən getmir,

---

[348] *Кристи Н.* Указ. соч. С. 12.

cəmiyyətdə həyat şəraitinə uyğunlaşmağa kömək etmək məqsədilə və məqsədəuyğun cəza vasitəsi ilə, əhalinin müəyyən qədər dözümlü olmayan hissəsinə təsir etmə imkanlarından gedir. Bununla belə, əgər cəzasız tədbirlərin tətbiq edilməsi və cəzanın ləğv edilməsindən sonra cinayətkarlığın tədricən azalmasında heç olmasa hansısa əminlik olsaydı, onda onu böyük sevinc hissi ilə qəbul etmək olardı. Əgər bu əminlik yoxdursa, o zaman cinayət cəzası yaxın gələcəkdə cinayətlərin qarşısının alınmasında etibarlı vasitə kimi əhəmiyyətini qoruyub saxlayacaqdır. Həqiqət ondan ibarətdir ki, cinayətkarlığın faktiki göstəriciləri cəzanın profilaktik təsirinin az səmərəliliyi haqqında xəbər verir. Ancaq bununla belə, onlar məhz bu təhdidin olmasına görə cinayətlərdən çəkinən insanların sayı haqqında suala cavab vermirlər.

Buna əsaslanaraq qanunverici cəzanın tətbiq edilməsi haqqında düşünürmü? Halbuki, o cəza təhdidinin heç də hamıya təsir etmədiyini bilir. Buna görə də insanın cinayətin törətməsindən imtina etməsi hallarında, cəza təhdidi hansı yer tutduğunu bilmək mümkün deyildir.

Cinayət cəzasının təsiri kəmiyyət baxımından təyin oluna bilmir, o gizli fəaliyyət kimi qalmaqdadır. Reallıq ondan ibarətdır ki, müasir qanunvericilik üçün profilaktiv tədbirlər cinayət cəzasının təyinində əsas rol oynayır. Deməli, müəyyən kateqoriya cinatətlər üçün cəzanın təhdidedici-profilaktik təsiri artır. Sovet İttifaqında cinayətkarlıqla mübarizə təcrübəsindən müəyyən faktları göstərmək mümkündür, konkret cinayətlərə görə (xuliqanlıq, rüşvətxorluq, dövlət və ictimai əmlakın mənimsənilməsi və s.) cəzaların sərtləşməsi nəticəsində onların səviyyəsinin kəskin azalması müşahidə edilmişdir. Ancaq məhkumluğun dinamikası və repressiyanın sərtliyini nəzərə almaqla cəzanın cinayətkarlığa təsiri haqqında hansısa nəticə çıxartmaq yolverilməzdir. Təcrübədə elə bir vəziyyət ola bilməz ki, cinayətkarlığın səviyyəsi yalnız cəzanın sərtliyinin təsiri altında dəyişsin. Konkret şəraitdə cinayət hallarına təsir edən çox

amilli təhlil mütləq tələb olunur.

Beləliklə, cinayət cəzasının gələcəyi və onun cəzasız təsiretmə tədbirləri ilə əvəz edilməsi haqqındakı mülahizələr "*Mən açıq bir şəkildə şəxsiyyətin islah və bərpa olunması ritorikasının arxasında gizlənməyə cəhd etməyən cəza vermə xarakterli olan cinayət hüququnu seçirəm; yəni, əsasən cinayətdən çəkindirmə və ədalət prinsipləri üzərində qurulmuş cinayət hüququnun və gələcəyin də onunla bağlı olmasını əvvəlcədən deyirəm*"[349] – ifadələrini səsləndirmiş İ.Andenesin mövqeyini dəstəkləyirik.

Elə ona görə də biz "cəza böhranı" haqqında danışıb, o barədə mübahisə etməməliyik. Bu istiqamətdə cəza təhdidinin insana təsir mexanizmini anlayıb tədqiq etməliyik. Əvvəlcə ədaləti bərpa etmək və ya məlum olmayan şeyi açmaq və onu yeni dəlillərlə gücləndirmək olarmı?

Amerikan kriminoloqları iddia edirlər ki, s*on nəticədə istifadədən çıxdığı üçün cəzanın təsiri məsələsi, bir o qədər də əhəmiyyətli deyildir...*[350]. Nə üçün? Çünki onların fikrinə görə, cəza hakim əxlaq prinsipləri ilə az uyğunlaşır və "*cinayət cəzası intensivliyini o qədər itirəcək ki, gələcəkdə yeni terminologiyanı buraya daxil etməyə ehtiyac yaranacaqdır*"[351].

Rusiyada cəzanın bir zamanlar sosial müdafiə tədbirləri kimi adlandırıldığı dövrlər olmuşdur. Lakin dövlətin cinayətə reaksiyası dəyişməmş, cəza qisas mahiyyətində qalmışdır. 1954-cü ildə Danimarkanın cinayət məcəlləsi Qrenlandiya üçün "cəza" terminindən imtina edərək, onu "tədbir" sözü ilə əvəz etdi. İkinci dünya müharibəsindən sonra İsveçdə "cəza" terminindən imtina etmək barəsində müzakirələr aparılmışdır. Ancaq 1962-ci ildə yeni qəbul edilən qanun bu sözü saxladı. Təsəvvür edilir ki, Qərbdə cəza haqqında bu kimi fikirlər əxlaq dəyərlərinin ciddi

---

[349] *Анденес И.* Наказание и предупреждение преступлений. С. 261.

[350] 2 *Bittner and Platt.* The meaning of Punishment // Issues in Criminology. 1966. Vol. 2. P. 79.

[351] 3 Криминология XX век. С. 225.

surətdə dəyişikliklərə məruz qalmasından xəbər verir. Postsovet məkanı ölkələrində isə bu proses demokratik dəyişikliklərlə əlaqəlidir.

Şübhəsiz, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində geçirilən islahatlar kimi cinayətə qarşı reaksiyanı əks etdirən milli qanunvericiliklərin, bəşəriyyətin ölüm cəzasının xüsusi növlərindən və bədənə xəsarət yetirən cəzalardan azad olunmasına gətirib çıxaran dərin islahatlara ehtiyacı vardır[352].

Ancaq "cəzanın" əvəzinə yeni terminin işə salınması cəhdi heç nəyi dəyişməyəcək və bu cəhdlər ciddi hesab edilə bilməz. Bununla bağlı İ. Andenes demişdir: "*Mən belə düşünmürəm ki, tərəqqipərvər əvval-ruhiyəli qanunverici hakimiyyət "cəza" terminini, məsələn "sanksiya" və ya "sosial tədbir" kimi daha da neytral səslənən başqa terminlə əvəz edərsə nə isə dəyişə bilər*"[353].

Biz indi N. Kristi ilə razılaşıb, CM-də "cəza" əvəzinə "ağrı vermə" yazsaq nə dəyişəcəkdir? Təbii ki, heç bir şey dəyişməyəcək, çünki cinayətə cəmiyyətin reaksiyası dəyişməz olaraq qalacaqdır. Bu başqa məsələdir ki, biz cəzanın faydalılığını dərin araşdırmaya məruz qoysaq və yeni cəza konsepsiyasını bu və ya digər xalqın milli, dini-etik, sosial-siyasi xüsusiyyətlərinin əsasında qurmuş olarıq. Bir şey aydındır ki, cinayətlərlə mübarizədə cinayət cəzasının az səmərə verməsi faktı daha da açıq görünür.

Beləliklə, "cəza" terminindən imtina edilməsi və onun başqa, daha da humanist, demokratik, müasir terminlə əvəzlənməsi, mahiyyətcə heç nəyi dəyişmir. Biz bunun sübutunu tarixdə görə bilirik. Buna görə cəzanın gələcəyi onun adının dəyişməsi ilə deyil, subyektiv və obyektiv xarakterli bir çox amillərlə əlaqəlidir. Ondan çıxış etmək lazımdır ki, cəzanın gələcəyini cinayətin səbəbləri kontekstindən kənarda təyin etmək

---

[352] *Шестаков Д.А.* Введение // Криминология XX век. С. 12.

[353] *Анденес И.* Указ. соч. С. 260

olmaz. O vaxta qədər ki, biz insanın cinayətkar davranışının səbəbləri haqqında suala cavab verə bilməmişik, bu halda cəzanın cəzalandırıcı mahiyyətində köklü dəyişikliklər haqqında çətin ki, söhbət aparmaq mümkün olsun.

Cinayətkarlara qarşı cəzasız təsir, ancaq o halda cinayət cəzasının yerini tuta bilər ki, insanın cinayəti öz iradəsi ilə deyil, ondan asılı olmayan səbəblər üzündən törətməsi sübut olunsun və bu səbəblər yalnız cəza tədbirləri yerinə yetirilmədən ortadan qaldırılsın. Cəzanın gələcəyi cəzalandırıcı mahiyyətinin dərəcəsi baxımından birbaşa ölkə üzrə cinayətkarlığın səviyyəsindən, dinamikasından, xarakterindən asılı olacaqdır. Bu, indi bizə məlum olmayan cinayət əməllərinin yaranması səbəbi ilə cəzanın yeni alternativ növlərinin yaranmasına gətirəcəkdir. Cinayətkarlığın xarakteri və səviyyəsinə istinad edərək demək mümkündür ki, azadlıqdan məhrum edilənlərin böyük əksəriyyəti bu günün tələbləri ilə islah edilirlər.

Cəzanın gələcəyi məhkəmə qərarlarının genişlənməsi ilə əlaqəlidir. Çünki cəzanın aşağı və yuxarı hədlərin sərhədləri genişləndiriləcək, eləcə də, yeni alternativ cəzalar ortaya çıxacaqdır. Cəzanın qısa müddətli növləri zaman keçdikdən sonra "dəbdən" düşəcək və böyük cərimə sanksiyaları ilə əvəz olunacaqdır. Bəzi ölkələr, ağır və ən ağır cinayətlərin çoxalmasına görə yenə də, ölüm cəzasına qayıdacaqlar.

Cəzanın gələcəyi bilavasitə onun səmərəliliyinin təyin edilməsi ilə əlaqəlidir. Əgər cəzanın cəmiyyətin ondan gözlədiyi praktiki nəticənin olmadığı sübut edilərsə, o zaman ondan imtina etmək və cinayət davranışlarına qarşı başqa təsirlər, o cümlədən cəzasız təsirlər axtarmaq üçün yetərli əsas olacaqdır. Ancaq biz əmin olsaq ki, cəzanın hər hansl bir faydası vardır, o zaman onun təkmilləşdirilməsinin yollarını axralmalıyıq. Prinsipcə, cəzanın gələcəyi müəyyən kateqoriyalı cinayətlər və cinayətkarlar üçün cəzanın verilməsi ilə birlikdə cəzasız təsiretmə metodlarının iştifadə olunmasını istisna etmir.

**II. Ölüm cəzasının gələcəyi.** Bu gün demək olar ki, ölüm cəzasını öz qanunvericiliklərində saxlamış və ondan imtina etmiş ölkələrdə ara-sıra kəskin polemikalar aparılır. Bu, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, postsovet məkanı ölkələrinə aiddir. Belə ki, 1969-cu ildə ölüm cəzazı ləğv olunandan sonra ingilis parlamentinə onun bərpa olunması üçün təkliflər verilmişdir. Vaxtı ilə A. Berner yazmışdır: "*Son on il ərzində ölüm cəzasının təxirə salındığı ölkələrdə təntənəli olaraq onun tam ləğv olunması vaxtının gələcəyi haqqında bəyanatlar verilmişdir*"[354].

Ölüm cəzasının dünyada əleyhdarlarının çox olduğuna və onların kifayət qədər güclü dəlillərinin olmasına baxmayaraq, bu cəza tədbiri günümüzdə də mövcuddur və bir çox ölkələrdə icra edilir. Ölüm cəzasına qarşı çıxış edən Bekkaria kimi alimlər öz mövqelərini əsaslandırmaq üçün həyatdan, bu və ya digər xalqların tarixindən misallar gətirirlər. Belə ki, ölüm cəzasının qeyri-hümanistliyinin sübutu kimi onlar ölüm cəzasının varlığına baxmayaraq cinayətkarlığın azalmadığını vurğulayırlar. Bundan başqa bu cəzanın varlığı insanları heç də islah etmir və qorxutmur. A. Berner qeyd etmişdir: "*Xüsusi edamların qanlı səhnələri xalqın mənəviyyatını korlayır və onların pisixologiyasında mənfi dəyişikliklərə səbəb olur, insana qarşı mərhəmət hissinin qarşısını alır, ona qəddarlıq və qanahərislik hissləri aşılayır*"[355]. Hətta insan qəddarlığının əsl təcəssümü olan Neron bir cinayətkarın ölüm cəzasını təsdiqləyən sənədi imzalayarkən: "*Mən savadsız olmaq, yazının nə olduğunu bilməmək istərdim*" deyərək bağırmışdır. O, insanı ölümə məhkum etmə fikrindən sıxılmışdır. Bəzən ölüm cəzasının əleyhdarları T. Morun - *İnsan həyatı dünyanın bütün nemətləri ilə müqayisə olunmazdır* - deyiminə istinad edirlər. Ancaq T. Mor iqtisadi cinayətlərər sahəsində ölüm

---

[354] *Бернер А*. О смертной казни. С. 90–91.
[355] Göstərilən kitabda. C. 30.

cəzasına qarşı çıxırdı. O qeyd edirdi: "*Fikrimcə, pulun alınmasına görə insanı həyatdan məhrum etmək olmaz. Hesab edirəm ki, insan həyatını öz dəyərinə görə dünyanın bütün nümətləri ilə bərabərləşdirmək olmaz. Əgər mənə deyirlərsə, bu cəza pula görə deyil, ədalətin pozulmasına görə verilir, o zaman bütün əsaslarla nə üçün bu yüksək hüququ ali ədalətsizlik adlandırmayaq? Tanrı kimisə öldürməyi qadağan etdi, biz isə bir miqdar pulun yeyintisinə görə, necə də asanlıqla insanları öldürürük*"[356].

Ölüm cəzasının ləğvinin tərəfdarları onun qan qisasından əmələ gəlməsi dəlilini irəli sürürlər. Belə ki, S. V. Jiltsov hesab etmişdir: "*Ölüm cəzasının obyektiv əsası qətlə görə qisasın alınmasıdır, talion prinsipidir: Obyektiv olaraq heç bir digər cinayətə görə ölüm cəzası verilə bilməz*"[357].

Bu yanaşmanın səhv olmasına baxmayaraq, elmdə ölüm cəzasının qan qisası adəti ilə genetik bağlantısı vardır. O, ölüm cəzasına xarakterik ola bilməyən əlamətlərlə səciyyələnir. Qan qisası belə bir əxlaqi borc hesab edilirdi ki, onun icra edilməməsi ar və şərəf məsələsi hesab edilirdi. Buna görə qisas qismində ölüm cəzasından fərqli olaraq qan qisası tayfanın, cinsin, ailənin şərəfini qorumaq məqsədini güdür.

V. V. Yesipov çox doğru hesab etmişdir ki, ö*lüm cəzasını qan qisasından ayırmaq olmaz, çünki "qan qisası" belə bir kompozisiya sistemi görkəmini almışdır ki, o, ölüm cəzasının tətbiq edilməsinə qədər uzun müddət mövcud olmuşdur.* "[358].

Qisasın ölüm cəzasından fərqi təkcə ondan ibarət deyil ki, biri şəxsin iradəsi, digəri isə dövlətin iradəsi ilə həyata keçirilir. Məsələ bundadır ki, qan qisasını yerinə yetirən insan etdiyi əməldən həzz alır və bu əməli elə özünün, qohumlarının,

---

[356] *Мор Т.* Утопия. М.; Л., 1958. С. 68.
[357] *Жильцов С.В.* Göstərilən kitabda. C. 7.
[358] 2 *Есипов В.В.* Преступление и наказание в древнем праве. Варшава, 1903.С. 42.

tayfasının, cinsinin və s. həzz və ədalət hisslərinin ödənməsi üçün törədir. Ancaq söhbət cəmiyyətin, o cümlədən zərərçəkənin yaxınlarının ədalət hissinin ödənməsindən gedə bilər.

Bundan başqa qan qisası zərərlə qisas arasında mütləq tarazlığı nəzərdə tutmuşdur. Zərər vuran kəffarının ödənməsi ilə canını qurtara bilərdi. Əgər caninin özü ölüm cəzasının obyekti kimi çıxış edirdisə, onda qisas obyekti təkcə zərər yetirən deyil, həmçinin bu ailənin, tayfanın və s. hər bir üzvü çıxış edə bilərdi. Beləliklə, qan qisasının mənbəyi bu və ya digər xalqın adət-ənənələri olmaqla, bu fəaliyyətin məqsədi ictimai və şəxsi maraqların qorunmasıdır.

Ölüm cəzasının ləğv edilməsi tərəfdarlarının əsas arqumenti ondan ibarət olmuşdur ki, bu cəza cinayətin qarşısını almaq üçün heç bir əhəmiyyətə malik deyildir. Q.D. Tardın fikrinə görə, bu cəzaya qarşı ən yaxşı dəlil Q.D. Tardın fikrinə görə, onun cəmiyyət üçün faydasız olması deyil, onun doğurduğu əxlaqi və estetik ikrahdır. "*Mən uzum müddət ölüm cəzası qarşısında özümdə dəhşət hissini öldürmək istəmişdim, ancaq bunu edə bilmədim*"[359].

İnsanların ölümdən qorxmamasını iddia etmək - deməli yalanı iddia etmək, təbiətə qarşı çıxmaq və yüksək mənasızlığı bəyan etməkdir. A. F. Kistyakovski tamamilə doğru olaraq qeyd etmişdir ki, "*Ölüm cəzası qorxusundan daha aşikar, sadə və aydın bir şey yoxdur. İnsan bu cəzanın ağılda təsəvvür edilməsindən belə, dəhşət hissi keçirir*"[360].

Ölüm qorxusu cani üçün ciddi maneədir. Hətta adi sağlam düşüncədən çıxış edərək insanlar başqa işgəncə növlərindən daha çox ölümdən qorxurlar. Deməli, ölüm cəzası cinayətkarlara digər cəzalardan daha çox çəkindirici təsir göstərir. V. A. Jukovski yazırdı: "*Edam reallıqdan başqa bir şey deyildir. O, şəri təqib*

---

[359] *Тард Г.Д.* Göstərilən kitabda.
[360] *Кистяковский А.Ф.* Göstərilən kitabda. C. 55.

*edir və Tanrı tərəfindən qoyulan ictimai qaydaları qoruyur. Ölüm cəzası uzaqda öz qılıncı ilə təhdid edən Nemezida kimidir. O, canini izləyən kabus, öz görsənməyən varlığı ilə dəhşətlidir və onun haqqında fikir çoxlarını şər əməl törətməkdən çəkindirir*”[361].

Belə fikirlər vardır ki, ölüm cəzası qorxulu deyil, çünki hamının qismətində ola bilər. Eyni zamanda, bir çox müdriklər onu təsəlli kimi dəyərləndirirdilər. Onun ağrısız olması, hətta ondan dar ağacında və ya hilotinada müəyyən həzz alınmanın mümkünlüyü haqqında deyənlər də olmuuşdur. Bu fikirlər elmi cəhətdən ədalətli səslənsədə, ümumi əhval-ruhiyyəyə zidd düşüncələrdir[362].

Ölüm cəzasının ləğv olunmasının daha bir dəlili ondan ibarətdir ki, o həqiqətə, humanizmə deyil, gücə arxalanır. Sözsüz ki, humanizmə qarşı çıxış etmək cəfəngiyyatdır. Buna görə də, iki əhəmiyyətli məqam olmasaydı, bu iki əhəmiyyətli müddəaya dəstək verərdik.

Birincisi, əgər biz ölüm cəzasını humanizmə zidd cəza növü hesab edib, cinayətkarlara qarşı hümanist münasibət tələb ediriksə, onda cinayətdən zərər çəkənlər haqqında da düşünməliyik. Məgər cinayətkarın amansızlıqla öldürdüyü insanın iki, üç və daha çox uşağı ilə qalan arvadına etinasız münasibət humanizmdirmi? Nədənsə, o anda biz ancaq caniyə qarşı humanizm haqqında düşünürük. Humanizm və ədalət o zaman zəfər çalacaqdır, dövlət qətlə yetirilmiş şəxsin ailəsinin öz öhdəsinə götürmüş olsun.

İkincisi, əgər ölüm cəzası humanizmə ziddirsə, onda onu əvəz edən ömürlük azadlıqdan məhrumetmənin humanistliyi şübhəli və sual altındadır. Buna görə ölüm cəzasından onda imtina edərik ki, onun ən anti-humanist olmasına əmin olardıq. Ancaq

---

[361] *Жуковский В.А.* О смертной казни // Соч. Т. XI. СПб., 1857. С. 186.

[362] *Кистяковский А.Ф.* Göstərilən kitabda. C. 57.

heç də onun alternativinin, ondan yaxşı profilaktik effekti yoxdur. Təəssüf ki, bu gün biz buna əmin deyilik. Şübhəsiz, ölüm cəzası ilə müqayisədə ömürlük həbs cəzası daha da humanist cəzadır.

Ancaq etiraf edilməlidir ki, ölüm cəzasından qorxu, ömürlük həbs cəzasında olan qorxudan güclüdür. Bəziləri bununla razı olmasalar belə, bu reallıqdır. Ölüm cəzasına məhkum olunmuş şəxs onun əvəzində ən sərt və uzun müddətli cəzanın çəkilməsinə, ağır işlərə və digər cəzaçəkmə şəraitinə razı olarlar. Buna görə də, ömürlük azadlıqdan məhrum etmə cəzası ölüm cəzası kimi cinayətlərin qarşısının alınması gücünə malik deyildir.

Ölüm cəzasının ədalətliliyi ancaq onda qəbul oluna bilər ki, həmin vaxt onun zəruriliyi və əvəzolunmazlığı sübuta yetirilsin. Eləcə də, əksinə; ölüm cəzasının əsdalətliliyi ancaq onda şübhə altına alınır ki, onun zəruriliyi və əvəzolunmazlığı sübuta yetirilsin. Humanizm baxımından ölüm cəzasını inkar etsək də, biz iddia edirik ki, bu cəza ən yüksək təhdidedici keyfiyyətə malikdir.

Ölüm cəzasının gələcəyi necə olacaqdır? Bu cəzadan imtina etmiş cəmiyyətlər onun bərpası məsələsinə yenidən qayıdacaqlar, onu qanunvericiliklərində saxlayanlar isə öz mövqelərinin doğruluğunda daha əmin olacaqlar. Belə nəticənin çıxarılması üçün hüquqi, fəlsəfi və dini əsaslar vardır.

**1. Ölüm cəzasının dini əsasları.** Hüquq, o cümlədən cinayət hüququnun məsələlərini İlahi kitabların və dini təmayüllərin əsasında həll etmək mümkün deyildir. Buna baxmayaraq ölüm cəzasının saxlanması və ya aradan qaldırılması probleminə, eləcə də cəzanın, o cümlədən cinayət cəzasının xarakterinə baxanda o hüququn əhəmiyyətinə diqqətsiz qalmaq olmaz. Teoloji dünyagörüşə müraciət etdikdə anlaya bilmirik ki, necə sivil, savadlı insan ölüm cəzasının müdafiəsini "*qan tökənin qanı tökülməlidir*" kimi köhnəlmiş prinsip üzərində qura bilər.

Hamıya məlumdur ki, "*qana qan, dişə diş*" tələb edən xalqın səsi onun rəyidir və onu inkar etmək olmaz. Bu xalqın səsi

haradan gəlir? Təbii ki, bu dini hissdən irəli gəlir. “Qana qan, dişə diş” prinsipi, Tanrıdan gələn ədalət və ədalət məhkəməsinin rəmzi kimi xalq düşüncəsində yaşayır. Bir çox tarixi faktlar təsdiq edir ki, “*İnsanlar patoloji olaraq özlərinə bənzər insanların edamına baxmağı sevirlər*”[363]. Əgər elan etsəydilər ki, gündüz kimisə edam edəcəklər, onda erkən saatlarından insanlar orada yığışmağa başlayacaqlar. Niyə?

Müqəddəs Kitablardan çıxış edərək qisas nəzəriyyəsinin insanın onu başa düşdüyü kimi, ölüm hökmünün oradan şərtsiz çıxarılması zərurəti ola bilsin səhv və tətbiq üçün yararsızdır, lakin o mövcuddur və onun təkcə dini deyil, həm də fəlsəfi və hüquqi əsası vardır. Eyni zamanda, ədalət naminə qeyd etmək lazımdır ki, ölüm cəzasının əleyhinə nüfuzlu səslər ilk olaraq xristian aləmində səslənirdi. Yeri gəlmişkən, Adəmi ölümə məhkum edərkən Tanrı ona dərhal ölüm cəzazı tətbiq etmədi, qeyri-müəyyən müddətə azadlıqdan məhrum edərək onu cənnətdən yerə, yəni əbədi həyatdan – ölümlü həyata qovaraq, yeri onun üçün cəza məkanına çevirdi. Beləliklə, cəza “*canlı təbiəti dağıtmağa can atan təbiət güclərinə tam azad fəaliyyətin verilməsidir*”[364]. Adəm günah işlətdiyi andan Tanrı üçün fiziki deyil, ruhu baxımdan ölü hesab edilirdi, çünki insanın Onunla əlaqəsinin kəsilməsi baş vermişdir.

Quran insanı öldürməkdən çəkinməyə çağırır: “*Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin*” (17-ci surə, “Əl-İsra”, ayə 33). Qurana görə ən ağır cəza ölüm cəzasıdır. Onun əsasını *“can əvəzində can”* ideyası təşkil edir: “*Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin. (Onu yalnız və yalnız böyük bir günah işlətdikdə, məsələn, iman gətirdikdən sonra küfrə düşdükdə və yaxud zinakarlıq etdikdə öldürmək olar). Haqsız yerə*

---

[363] *Голик Ю.В.* Философские проблемы наказания… С. 37.

[364] *Гольбити Э., Пьяцца А.* Трудные страницы Библии (Ветхий завет) // Христианская Россия. Милан; М., 1992. С. 97.

*öldürülən məzlum bir şəxsin sahibinə (və ya varisinə qatil barəsində) bir ixtiyar verdik (istəsə, qatildən qisas alar, istəsə, bağışlayar və ya qanbahası tələb edər). Lakin o da qətl etməkdə ifrata varmasın (qisas almalı olsa, yalnız qatili öldürməklə kifayətlənsin)! Çünki (şəriətin bu hökmləri ilə) ona artıq kömək olunmuşdur*"(17-ci surə, "Əl-İsra", ayə 33).

Allahın müqəddəs kitabında tez-tez "əzablı cəza" ifadəsinə rast gəlinir. Çox güman ki, söhbət ölüm cəzasından gedir. Quranda ölüm hökmü insanı birmənalı olaraq həyatdan faktiki məhrum etmə ölüm cəzası kimi başa düşülür. Eyni zamanda, Qurana görə "qətl" cinayət kimi, "ölüm cəzası" isə cəza kimi eyni mənada işlədilmir.

Qətldə həmişə özbaşınalıq, bir adamın iradəsi hökm sürür, ölümlə cəzalandırma isə Allahın iradəsi, ali ədalətin təmin edilməsidir. Qətlə görə qisas kimi ölüm cəzasını nəzərdə tutan Quran eyni zamanda zərərçəkənin tərəfinə seçim hüququ verir: "*Əgər sizdən kiminsə qohumunu öldürsələr, onda o iki haqdan birini seçə bilərsiniz: ya onun kəffarəsi (əvəzi) olaraq qan pulu ödənilir, ya da onun qisası alınır*" ("Səhih əl-Buxari". – Peyğəmbar Məhəmmədin hədis toplusu (92). İman kitabı).

Möminlərin öldürülməsinə görə cəza Quranda ayrıca nəzərdə tutulmuşdur: "*Heç bir möminə başqa bir mömini öldürmək yaraşmaz. Bu səhvən (xəta üzündən) olduqda müstəsnadır... Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük əzab hazırlar!"* (Quran, 4 surə "Ən-Nisa", 92-93 ayələr).

Təkcə İslam deyil, həm də başqa dinlər İlahi vəhylərdən çıxış edərək, ölüm cəzasını ədalətli hesab edirlər.

**2. Ölüm cəzasının fəlsəfi əsası.** Ölüm cəzasının tələbi təkcə dinin "qana qan" tələbində deyil, həm də Kant və Hegelin fəlsəfəsinin ideya və prinsiplərinə əsaslanır. Beləliklə, ölüm cəzasının saxlanması təkcə dinin *qisas* prinsipi deyil, həm də

fəlsəfənin tələbidir. Kantla Hegeli onların “bərabəri - bərabərin əvəzində”, “həyatı - həyatın əvəzində” kimi ifadə edilən fəlsəfi müddəalarına görə ölüm cəzasının müdafiəçiləri hesab edə bilərikmi? Bildiyimiz kimi, bu nəzəriyyə bir neçə minilliklər boyu, hələ ibtidai icma quruluşu zamanlarından vardır. Kant cəzanın ölçüsü kimi törədilən cinayətin cəza ilə bərabərliyi prinsipini rəhbər tutmuşdur. Bundan da, qətlə görə mütləq ölüm cəzasının kəsilməsinin vacibliyi nəticəsi çıxır.

Hegel də cinayətlə cəzanın arasanda müvazinətin yaradılmasının tərəfdarı idi. Lakin bu müvazinət xüsusi bərabərlik yox, təxmini qiymətləndirmə ilə müəyyən olunan cinayətin keyfiyyəti ilə uzlaşan bərabərlik olmalıdır.

B. N. Çiçerin qeyd edirdi: “*Ədalətli cəza bərabər dəyərli olandır. Ölüm cəzası digər cəzalarla əvəz edilirsə, bu ədalət məhkəməsinin tələbləri ilə deyil, başqa amillər üzündən baş verir*”[365].

O da maraqlıdır ki, ölüm cəzasının həm tərəfdarları, həm də əleyhdarları *ədalət* anlayışına istinad edirlər. A. F. Kistyakovski bununla əlaqədar qeyd etmişdir: “*Bu iki əks nəticəyə gətirən ədalət anlayışı nə olan şeydir: bəziləri deyirlər ki, ölüm cəzası müqəddəs təsisatdır və o mənim tələblərimə uyğundur, digərləri isə deyir ki, ölüm cəzası məndə ikrah hissi yaradır, çünki o həqiqətə deyil, gücə arxalanır*”[366].

**3. Ölüm cəzasının saxlanılmasının hüquqi əsasları.** Cinayətkarlığın artması və xarakteri, kütləviləşən yeni müasir üsullar bütün bunlar ölüm cəzasının təhdidedici vasitə kimi saxlanılmasının məqsədəuyğun olub-olmaması haqqında getdikcə hüquqşünasları düşünməyə vadar edir.

B. N. Çiçerin qeyd edirdi ki, ə*gər cəmiyyətin müdafiəsi üçün canilərin qorxudulması tələb olunursa, onda bu yöndə ən yaxşı*

---

[365] Чичерин Б.Н. Göstərilən kitabda. C. 156.

[366] Кистяковский А.Ф. Исследования о смертной казни. Тула, 2000. С. 13.

*vasitə ölüm cəzasıdır. Bu ömürlük azadlıqdan məhrum edilməyə biganə baxan ən qatı canilərin çəkindiyi yeganə vasitədir. Cəmiyyət üçün xəstə üzvün kəsilib atılması faydalıdır. Əgər islah olunmaz canilər vardırsa, onda onlardan birdəfəlik azad olmaq lazımdır*”[367].

Ç. Lambrozo “Cinayət: səbəblər və müalicə vasitələri” adlı kitabının son nəşrində (1907) ölüm cəzasının probleminə qayıtmış və hesab etmişdir ki, *ölüm cəzasının perspektivi Demokl qılıncı kimi ən təhlükəli canilərin baş üzərində asılmalıdır. O canilərin ki, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmələrinə baxmayaraq bir neçə dəfə başqalarının həyatına qəsd etmişlər*. Bu hallarda təyin edilməsi “bu ağır seçimi etməkdən başqa yol qalmır. Bu hallarda ölüm cəzasının təyin edilməsi digər cəzalar kimi nisbətən ədalətlidir. Ç. Lambrozo hesab edirdi ki, *“Ölüm cəzası təbiət və tarix kitablarına parlaq hərflərlə yazılmışdır və hətta üzvi proses bütövlükdə yaşamaq uğrunda mübarizə aparır*”.

Bəs cinayətkarların özlərinin ölüm cəzasına münasibətləri necədir? Onlar ölüm cəzasının əvəzində ömürlük azadlıqdan məhrum edilmələrinə razıdırlarmı?

Bu suallara hələ heç kim cavab verə bilməyib və çətin ki bunu kimsə edə bilsin, çünki söhbət müxtəlif psixologiyaya, xarakterə və iradəyə malik olan insanlardan gedir. Bizim tərəfimizdən aparılan tədqiqatlar göstərir ki, bəzi hallarda cinayətkarlar ölüm cəzasını ömürlük azadlıqdan məhrum etmədən üstün hesab edirlər, ona baxmayaraq ki, məhz ölüm cəzası insan ruhuna ən güclü təsir edir. Əbədiyyətə qovuşma hissi qarşısında özünə qapanmağa və öz cinayətləri qarşısında üzülmə hissi keçirməyə vadar edir. Ancaq onu da müşahidə etmək olar ki, bir çox cinayətkar ölümə biganəlik hissi ilə gedir. Biz ölümdən

---

[367] Чичерин Б.Н. Göstərilən kitabda. C. 156.

qorxuruq deyəndə hər şeydən əvvəl onun önündə duran ağrını dərk edirik. Ölüm ya olub, ya da olacaq, o hazırki zamana aid deyil və əslində üzücü olan ölümün özü deyil, onun intizarıdır. M. de Monten demişdir: "*Elə bil ağaclar onlara xəsarət yetirəndə inildəyirlər. Ölümə qalanda isə, biz onu hiss edə bilmirik, onu ancaq ağlımızla dərk edirik, çünki ölümü həyatdan ayıran ancaq bir andır*"[368]. F. de Laroşfuko eyni fikiri səsləndirmişdir: "*Bəzən müşahidə etdiyimiz ölümə məhkum olunmuşların soyuqqanlılığı və ölümə nifrət hissi o deməkdir ki, onlar onun gözünə düz baxmağa qorxurlar. Demək olar ki, bu da onların ağlı üçün göz sarğısı kimi bir şeydir"*[369].

Yüksək inkişaf səviyyəsinə malik olan vətəndaşlara verilən yumşaq cəza, aşağı səviyyəli insanlara və ya savadsızlara ağır cəzanın tətbiqi kimi güclü təsir vasitəsi ola bilər. Buradan məntiqi cəhətdən aşağıdakı müddəa ortaya çıxır: əgər biz cəza sisteminin yumşaq olmasını istəyiriksə, o zaman vətəndaşların təhsil və əxlaq səviyyəsiinin yüksəldilməsi haqqında düşünməliyik. Buradan da bu nəticəyə gəlmək mümkündür ki, ölüm cəzasının ləğv edilməsi və ya saxlanılması məhz bu əsasdan asılıdır. Buna görə də bu cəza növünün olduğu ölkələrə anlaşıqlı yanaşmalıyıq. Əslində intellektual, əxlaqi, hüquqi səviyyələri yüksək olan insanlara ölüm cəzasının təyin edilməsi çox ağır təsir bağışlayır. Savadsız və az savadlı kütləyə isə o başqa cür təsir edir. Onlar üçün bu adi hadisə və əyləncə mənzərəsindən başqa bir şey deyildir.

Fikrimizcə, qəsdən törədilmiş qətllərə, azyaşlıların zorakılıqla müşaiyət edilən zorlanmasına görə qanunvericikik iki cəza növü tətbiq etməlidir: ölüm cəzası və ya ömürlük azadlıqdan məhrum etmə. Yuxarıda göstərilən ölüm cəzası və ömürlük azadlıqdan məhrumetmə kimi cəzaların seçim hüququ günahı

---

368 Вах: О природе человека. Монтень. Ларошфуко. Паскаль. М., 2009. С. 32.

369 Вах: Там же. С. 201.

sübut edilmiş təqsirkarın özünə verilməlidir.

**III. Azadlıqdan məhrum etmə cəzası və onun gələcəyi.** Dünyada elə bir cinayət məcəlləsi yoxdur ki, orada cəza növü kimi azadlıqdan məhrum etmə nəzərdə tutulmasın. Eyni zamanda bu cəza növü təcrübədə digərlərindən daha çox istifadə olunur.

Hər bir ölkə azadlıqdan məhrum etmənin çərçivələrini müxtəlif cür təyin edir. Belə ki, məsələn, Belçikada azadlıqdan məhrum etmənin minimal həddi 5, maksimal həddi 30 ildir. Üstəlik orada ömürlük azadlıqdan məhrum etmə cəzası da vardır. Hollandiyada azadlıqdan məhrumetmə cəzasının müddəti birinci gündən başlayır və 15 ildən çox ola bilməz (müstəsna hallarda 20 il ola bilər). İsveçrə qanunvericiliyində cinayət törətmiş şəxslər 1 ildən 20 ilə kimi dövlətin xeyrinə ağır əməklə müşayiət edilən həbsxana həyatına məhkum edilirlər. Bundan başqa 3 gündən 3 ilə qədər həbsxanada adi cəza cəkmə də vardır. Çində müddətli (6 aydan 15 ilə gədər) cəza çəkmədən başqa, qanunvericilikdə müddətsiz, yəni ömürlük azadlıqdan məhrum cəzası da nəzərdə tutulmuşdur. Eyni zamanda, ölkənin qanunvericiliyində ölüm cəzası da nəzərdə tutulur. Yeri gəlmişkən, Gürcüstan qanunvericiliyində də ömürlük azadlıqdan məhrumetmə termininin əvəzində "müddətsiz cəza çəkmə" termini işlənilir. San-Marinoda həbsxanada minimal cəza çəkmə müddəti 3 ay, maksimal isə 35 ildir.

Onu da qeyd etmək lazımdır ki, bəzi ölkələrdə "azadlıqdan məhrum etmə" anlayışının əvəzində "həbsxana müddəti" anlayışını işlədirlər, bu da əslində eyni şeydir.

XVIII və XIX əsrlərin qovşağında müasir həbsxana sisteminin "təntənəli yayılması" başlamışdır. Məlum olduğu kimi, bu zamana qədər ölüm ilə bağlı dəhşətli cəzalar (dar ağacından asma, baş kəsmə, bədən üzvlərinin parçalanması və s.) həyata keçirilirdi. Əmək düşərgələrində müxtəlif dərəcəli cinayətlər törətmiş canilər (quldurlar, oğrular, fahişələr, avaralar və s.) yerləşdirilirdi: Başqa sözlə desək, XVIII əsrin ikinci yarısına

qədər həbsxanalarda dəhşətli şərait hökm sürürdü. Cəmiyyətin əsas məqsədi insanlar arasında qorxu hissini aşılamaq və bununla bağlı onları xəbərdar etməkdən ibarət idi. Uzun müddətə azadlıqdan məhrum etmə və məcburi əmək fəaliyyəti kimi cəza növləri o zaman hələ düşünülməmişdir.

İngiltərə və digər ölkələrdə cəzalandırılmanı araşdıran və o zamankı həbsxana şəraitini və qaydalarını tənqid edən ilk adam Con Hovard olmuşdur. Paralel olaraq bir çox alimlər o faktı etifar etməyə başladılar ki, cani həm də, cəmiyyətin qurbanıdır. Buna görə də onu məhv etmək yox, xilas etməyə cəhd etmək lazımdır. Daha sonra Filadelfiyada tək kameralı həbsxanalar qurulmuşdur. İndiki dövrdə olduğu kimi, o dövrün həbsxanalarındakı məhbusların sayı mövcud olan yerlərdən çox olmuşdur. Həbsxanaların formalaşmasına səbəb cinayətkarlığın kəskin artması olmuşdur ki, o dövrdə təkcə bədən xəsarətləri yetirməklə cinayətkarlıqla mübarizə aparmaq mümkün olmurdu. Eyni zamanda, ucuz fəhlə qüvvəsinə ehtiyac yaranmışdır. Buna görə də uzun illər boyu məcburi əməklə müşayiət edilən cəza çəkmə müddəti cəmiyyətin qorunması yolunda yeni cəzalandırıcı vasitəyə çevirilmişdir. Cəzanın bu növü XIX əsrdə cəzalandırma sistemində əsas duruma gətirilmiş və kütləvi şüurda o qədər kök salmışdır ki, artıq onun faydalılığı şübhə doğururdu. Fikir müxtəlifliliyi ən çox azadlıqdan mərhumetmənin daha yaxşı sisteminin təyin edilməsindən gedə bilərdi. Elm adamları, eləcə də praktiki fəaliyyətlə məşğul olan insanlar həbsxanaların səmərəliliyinin və təkmilləşdirilməsinin yollarının axtarışına başlamışdılar ki, bu da bu günə kimi davam edir və məhkum olunmuşların ağrı və iztirablarının azaldılması, cəza çəkmə prosesinin insanpərvərliyinə yönəlmişdir. Ancaq bütün bunlar hansı həddə qədər davam etdirilməlidir? Axı cinayətkarlara ağrı və iztirablar yetirilməsə azadlıqdan məhrum etmə məzmunlu cəzanın icrası mümkün olmur və etiraf edilməlidir ki, bu tipli müasir müəssisələr məhbusların islah olunması üçün deyil,

iztirabların verilməsi və qisasın zəruriliyi prinsipləri üzərində qurulmuşdur. Buna görə də həbsxana ancaq canilərin təcrid olunması üçün lazımdır.

Məhkumlara iztirab və ağrıların verilməsi heç də, onların aşağılanması və ya alçaldılması demək deyildir. Eyni zamanda, azadlıqan məhrumetmə sisteminin təşkilində əhalinin ümumi həyat səviyyəsi ilə hesablaşmaq lazımdır. Məhkumlar bu fərqi hiss etməli, yoxsa cəza həm caniyə, həm də ümumiyyətlə cəmiyyətə təhdidedici təsir bağışlamayacaqdır.

Azadlıqdan məhrum etmə cəzası əzabvermə mahiyyətini itirməmək şərti ilə normal dərəcədə ilk olaraq müxtəlif islahatlar vasitəsi ilə insanın islahat, tərbiyyə və bərpa sisteminə çevirilməlidir. Təəssüf ki, müasir cəza çəkmə yerləri bu məsələni həll etmək iqtidarında deyildir. Onlar nəinki resediv cinayətkarlığı azalda bilmir, əksinə, hər dəfə yeni cinayətkarlar yaradırlar. Bu gün o müəssisələr cəmiyyəti yeni cinayətlərdən qoruya bilmirlər, çünki nə vaxtlarsa onlarda olan təhdidedici təsir bu gün itirilmişdir. Cəzanın humanist icrası ilə müşayiət edilən, praktiki cəhətdən islahedici təsiri olan düşünülmüş cəza sisteminə ehtiyac vardır. Çünki müasir müəssisələrdə məhkumlar əmək prosesinə tam olaraq cəlb edilməmişdirlər, baxmayaraq ki, kifayət qədər abadlaşdırılmışlar. Əgər cəzaçəkmə müəssisələrində şərait yoxdursa, nə üçün müəyyən kateqoriya məhkumlar özəl şirkətlərdə işlərə cəlb olunmasınlar? Bu halda unutmamalıyıq ki, ancaq o iş islah yolunda fayda gətirəcək ki, onu məhbusun özü seçsin. Həbsxanalarda məhkumlar üçün təşkil edilmiş işlər onların ürəyincə olmalı və ona sevinc hissi bəxş etməlidir. Biz indi problemi həll etmək iqtidarındayıqmı? Bu barədə düşünməliyik.

Sovet Azərbaycanında olan həbsxanalardan fərqli olaraq, müasir penitensiar müəssisələrinin xarici görkəmi daha yaxşıdır. Bu müəssisələrin daxili vəziyyəti də dəyişikliklərə məruz qalmışdır. Ancaq mahiyətinə və sosial əhəmiyyətinə görə onları heç də müsbət qiymətləndirə bilmərik. Bu da o deməkdir ki, cəza-

islah prosesi praktik olaraq qarşıya qoyduğu öz məqsələrinə çatmır.

Faktlar göstərir ki, azadlıqdan məhrum edilənlərin sayı ildən ilə azalmır, əksinə, artır. 1960-cı illərdə azadlıqdan məhrum edilənlərin orta göstəricisi 28-32% idisə, 1970-ci ildən başlayaraq bu rəqəm surətlə artmış və 1983-cü ildə artıq 55% təşkil etmişdir. Məhkəmələrin cəza praktikası onu göstərir ki, 1971-1977-ci illərdə bu cəzaya məhkum olanların faizi 41-45% olmuşdur. 1980-1997-ci illər ərzində bu göstərici 50-54%-ə qədər artmışdır.

Bu cəza tədbirindən keniş istifadə etmək cəhdi cinayətkarlığın azaldılması ilə bağlı olmuşdur. Ancaq nəticələr mənfi yöndə inkişaf etmiş və bu da cinayətkarlığın səviyyəsinin artmasına səbəb olmuşdur. Belə ki, 1961-1970-ci illər arası cinayətkarlığın ümumi illik səviyyəsi 13600 cinayət hadisələrdən ibarət idisə, 1971-1980-ci illərdə bu rəqəm 14650-ə, 1981-1990-cı illərdə isə 15850-ə yüksəlmişdir.

1976-cı ildən başlayaraq ağır, eləcə də başqa zorakılıqla müşayiət edilən cinayətlərin artımı müşahidə edilmişdir. Belə ki, 1980-ci ildə ağır cinayətlərin törədilməsinə görə azadlıqdan məhrum edilənlərin göstəricisi 25%-dən çox idi. Sovetlər dövründə aparılan cinayət siyasətinin səmərəsizliyi təkcə cinayətlərin profilaktikasında azadlıqdan məhrumetmə tətbiri haqqında səhv təsəvvürdən ibarət deyildir. Eyni zamanda, bu cəzanın cəmiyyət üçün çox da təhlukəli olmayan az əhəmiyyətli əməllərin törədilməsinə görə geniş istifadə edilməsində özünü göstərirdi. Bu da azadlıqdan məhrum edilmiş insanların göstəricilərinin süni surətdə çoxalmasına gətirib çıxardı.

Azərbaycanda kommunist rejiminin dağılmasına qədər bütün məhkumların ümumi faiz göstəricilərinin ildə 6-10% kənd təsərüfatı mallarının alverinə və müştərilərin aldadılmasına görə məhkum olunmuşlar təşkil edirdi. Xüsusi ilə 1982-ci ildə azadlıqdan məhrum edilənlərin ümumi göstəricilərindən 54,2% ağır cinayət törətməyənlər, 58,4% isə resedivist olmayanlar təşkil

etmişdir.

Müstəqil Azərbaycanın cinayətkarlarına qarşı azadlıqdam məhrum etmə cəzasının tətbiq edilməsi ilə bağlı cinayət siyasəti dəyişməz olaraq qalmışdır. Belə ki, son 13 il ərzində (2000-2013) alver və ya müştərilərin aldadılması kimi cinayətlərin olmamasına baxmayaraq, müəyyən müddətə azadlıqdam məhrum etmə 42-49% arasında olmuşdur.

Bu kimi statistik rəqəmlərə müraciət edilməsinin zərurəti belə bir nəticənin əsaslandırılması ilə bağlıdır ki, azadlıqdan məhrumetmə hər zaman məşhur və təcrübədə tətbiq edilən ən çox cinayət cəzası olmuşdur. Elə buna görə də cəzalandırmanın gələcəyi bilavasitə azadlıqdan məhrumetmə ilə bağlıdır. Cəzanın cəzasız təsir etmə vasitələri ilə əvəz edilməsindən söhbət gedirsə, bu yalnız azadlıqdan məhrum etmənin azaldılması yolu ilə, onun cinayətkar davranışa təsir tədbiri kimi tam ortadan qaldırılmasına qədər mümkündür. Ancaq bunu etmək nə dərəcədə reallığa uyğundur?

Təəssüf ki, Azərbaycanda son 10 ildə cinayətkarlığın aparılan statistikası bu suala müsbət cavabı imkansız edir, çünki onun artımı göz qabağındadır. Belə ki, 2000-ci ildə respublikada 13958 cinayətlər qeydə alınmışdırsa, 2010-cu ildə bu rəqəm 23000-ə, 2011 ildə isə 24000-ə yüksəlmişdir.

Bu faktı da qeyd etmək lazımdır ki, göstərilən zaman ərzində ağır və ən ağır cinayətlərin, qəsdən edilən qətllərin, zorlamaların, yəni şəxsiyyətə qarşı bütün cinayət növlərinin sayı nəinki azalmış, əksinə, onların artımı müşahidə edilməkdədir. Hazırda törədilən cinayətlərin 50%-i şəxsiyyətə qarşı yönəlibsə, biz azadlıqdan məhrum etmə cəzasından imtina edə bilərikmi?

Resedivistlər və zorakılıqla müşaiyət edilən ağır cinayətləri törədənlər üçün azadlıqdan məhrumetmə gələcəkdə də ən əsas cəza tədbiri kimi qalacaqdır. Eyni zamanda, perspektivdə iqtisadi və ehtiyatsızlıq üzündən, eləcə də narkotiklərlə bağlı törədilmiş və zorakılıqla müşaiyət olunmayan əməllər etmiş canilərin ayrı-ayrı

kateqoriyalarının cəzaçəkmə müəssisələrində təcrid edilməsi zərurəti aradan qaldırılacaqdır. Bu da azadlıqdan məhrum edilənlərin faizinin azalmasına və cərimə, islah işləri, azadlığın çərçivələnməsi kimi cəzaların payının artmasına gətirib çıxaracaqdır. Belə görünür ki, cəzanın gələcəyi qısa müddətli azadlıqdan məhrum etmədən imtina edilməsi ilə müşaiyət ediləcəkdir. Çünki onun müsbət nəticələri müşahidə edilmir. Azadlıqdan məhrumetmənin praktiki tətbiqinin bu forması yuxarıda deyilənləri sübut edir.

Əgər müasir şəraitdə azadlıqdan məhrum edilmə deyəndə, özümüzün hüquqlarımızın və özümüz özümüzlə azad rəftar etməmizin məhdudlaşdırılması kimi (onun tam alınması deyil) başa düşürüksə, onda bu cəzanın gələcəyi onun cəzaverici məzmununun məhdudulaşdırılması ilə bağlı olacaqdır. Lakin cəzaçəkmə müəssisələri vergi verənlərin hesabına tikilmiş motellər, istirahət evləri kimi görsənəcəksə, belə hal bu cəza növünün məzmunca tam yox olmasına, deməli ən mühüm və demək olar ki, yeganə təhdidedici təsirin ortadan qaldırılmasına gətirib çıxaracaqdır.

Beləliklə, o yerlər - azadlıqdan məhrum etmə yerləri, cəza çəkmə yerləri, həbsxanalar, penitensiar müəssisələr və ya digər adlarla adlandırmağın heç bir fərqi yoxdur, 1780-ci ildə Filadelfiyada cinayətkarların tam təcrid olunmaları məqsədi ilə yaradılmışdır. Onlardan bu günə qədər heç bir ölkə imtina etməmişdir, baxmayaraq ki, onların səmərəliliyi hamı tərəfindən şübhə altına qoyulur.

# NƏTİCƏ

Cəza və cinayət təliminin tarixi bəşəriyyətin cinayət hüququ sahəsindəki problemlərin həllində böyük uğurlar əldə etməsinin şahididir. Buna görə 2012-ci ilin dekabrında Pekin şəhərində cəza problemləri üzrə elmi-praktiki konfransda N. Havronyukun dediyi aşağıdakı fikirlər təəccüb doğurur: "*Beləliklə əsrdən əsrə, minillikdən -minilliyə bəşəriyyətin ən parlaq zəkaları və hüquqşünas alimləri cinayət cəzası məsələsində çox da uzaqlara gedə bilməmişlər. Əslində onlar cəzanın ədalətli və mərhəmətli olmasının vacibliyini təsdiq etmişlər... Ancaq cəzanın həqiqətən də belə olması üçün çox iş görülməmişdir. Biz indiyə qədər cinayətkara hansı cəzanın təyin edilməsinin lazım olduğunu bilmirik, cəza həm öz məqsədinə çatsın, həm də cinayətkar islah edilib, bir daha cinayət törətməsin*"[370].

Kitabda qeyd edildiyi kimi, cəzanın proqnostik mahiyyətinə görə biz cəzanın gələcək nəticəsini onun təyin edilib, icra edilməsi mərhələsində əvvəlcədən görə bilmirik. Bu səbəbdən həm cəzanın ayrıca növlərinin, həm də ümumiyyətlə, cəza sisteminin səmərəliliyinin təyin edilməsi imkansız görünür.

Deməli, belə bir nəticəyə gəlmək olar ki, hüquqşünaslar cinayət hüququnun səmərəliliyinin təkmilləşdirilməsi məqsədi ilə digər elmlərin nailiyyətlərini tam həcmdə istifadə etmirlər. Yeri gəlmişkən məsələni N. Havronyuk özü yada salaraq belə bir sual vermişdir: "*Nə üçün kriminalistika elminin nailiyyətləri bu qədər əhəmiyyətsizdir? Hüquq elmlərinin, o cümlədən cinayət hüququnun geridə qalmasının səbəbi nədədir?*" O, buna belə cavab vermişdir: *"..Məsələ ondadır ki, cinayət-hüququ digər hüquqi elmlər kimi insan və cəmiyyətin təbii inkişaf*

---

[370] Вах: *Хавронюк Н.* Каким должно быть уголовное наказание, или Почемуюриспруденция отстает от физики? // Материалы Научно-практической конференции по проблемам наказания в Пекине, 2012 г., 1–3 дек. С. 13.

*qanunauyğunluqlarının hesabının aparılması zəruriliyini unudur və digər elmlərin, ilk növbədə sosiologiyanın, kriminologiyanın, psixologiyanın, psixiatriyanın, təbabətin nailiyyətlərinin qanun normativlərində maksimal dərəcədə dəqiq əks olunmasını nəzərə almır*”[371].

Bilindiyi kimi, dəqiq elmlər sahəsində aparılan tədqiqatlardan fərqli olaraq humanitar elmlərin nəticələri və əhəmiyyəti həmin dəqiqə təyin edilə bilməz. Bunun üçün kifayət qədər uzun müddət tələb olunur, çünki onlar bilavasitə ictimai-siyasi proseslərlə, tarixi şəraitlə, insan şüuru ilə, o cümlədən hüquqi şüurla əlaqəlidir.

Şübhəsiz, N. Kopernikin dünyanın günəş mərkəzçiliyi (heliosentrik) sistemi nəzəriyyəsi (1543); Q. N. Mendelin irsiyyət qanunları (1865); R. Huk tərəfindən açılmış bitkilərin hüceyrəli quruluşu (1665); K. E. Ton Ber tərəfindən tərtib edilmiş embriologiyanın əsasları (1828); kosmik ixtiralar və s. – bütün bunlar bəşəriyyətin ən böyük nailiyyətidir. Onlar görünən və duyula bilən nailiyyətlərdir. Məgər, Ç.Bekkariyanın “Cinayətlər və cəzalar” əsərində ifadə olunan ideyaları insan cəmiyyətinin inkişafı üçün nisbilik nəzəriyyəsi və ya Ç.Darvinin təlimi kimi əhəmiyyətli deyilmi? Məgər müasir cinayət qanunvericiliyi onun ideyaları və prinsipləri üzərində qurulmayıbmı?

Cinayət hüququnda klassik cərəyan İntibah dövrünün təbii nəticəsi olmuş və dünyaya Russo, Volter, Monteskye kimi mütəfəkkirlər vermişdir. Cinayət hüququ sahəsində qeyd edilən istiqamət aşağıdakı əsas tələblərdən irəli gəlirdi. İnsanların davranışına təsir ölçüsünü mümkün qədər minimuma endirmək, yəni cəza ədalətin tələblərini üstələməməlidir; cinayət və cəza əvvəlcədən dəqiq təyin edilməlidir; cəza cinayətin ağırlığına tam uyğun olmalıdır. Bu baxımdan insan sivilizasiyası və mədəniyyətinin inkişafı üçün bu ideyalar yuxarıda qeyd edilən

[371] Göstərilən kitabda. C. 2.

alimlərin ixtiralarından heç də geri qalmır və onlar kimi yüksəkdir.

N. Havronyuk təcrübədə nisbilik nəzəriyyəsindən istifadə etməsində haqlıdır. Biz isə indiyə qədər ictimai təhlükəlilik göstəricisinə görə cinayətlərin fərqləndirilmə meyarlarını tapıb, bunun üzərində cəzanın cinayətin ağırlığına uyğunluq meyarını və sistemini qura bilmirik.

Müəllifin o iddiası ilə də razılaşmaq olar ki, bu günə qədər kifayət qədər səmərəli və ədalətli "meyar" yarada bilməmişik ki, o hakimə "havadan" deyil, elmi əsaslarla hökm çıxarmağa imkan versin. Bununla belə, biz ən yaxşı mütəfəkkirlərin və hüquqşünas alimlərin nailiyyətlərinin sırasına, cinayət cəzasının təyinedilmə sisteminin tətbiq edilməsinin və icrasının humanistləşdirilməsi istiqamətində əhəmiyyətli dəyişiklikləri yazmalıyıq. Bu baxımdan, dünya ölkələrinin əksəriyyətində ölüm cəzasının ləğv edilməsi faktını qeyd etmək kifayətdir. Məgər bu fiziklərin, bioloqların, təbiblərin, astronomların nailiyyətidirmi?

Bu gün biz cəzanın gələcəyi haqqında düşünməli və o cümlədən cəmiyyətin inkişafının mərhələlərini nəzərə alaraq yeni və daha səmərəli, ancaq daha az əzablı cəza növlərini tapmağın yolları haqqında fikirləşməliyik.

# ƏLAVƏLƏR

## QANUN HAQQINDA AFORİZMLƏR

Qanunlar – dövlətin şahıdır.

*Alkidamant*

Qanun – hörümçək torudur; kiçik həşəratlar onda məhv olur, böyüklər isə ondan qurtula bilir.

*Anaxarsis*

Heç bir qanunu pozmadan, axmaq olmanın min bir üsulu vardır.

*Anna Stal*

Qanun sərtdir, ancaq o qanundur.

*Antik müdrikliyi*

Cəsarət elə bir fəzilətdir ki, insan qanunu rəhbər tutub ona tabe olaraq, təhlükə qarşısında xeyir əməllər törədərlər.

*Aristotel*

Zülm və qorxu qardaşdılar.

*O. de Balzak*

Pis qanunlar istibdadın ən pis növüdür.

*E. Berk*

İnsanlar qarşısında qorxu – qanunlara sevgi mənbəyidir.

*L. Vovenarq*

Azadlıq o deməkdir ki, qanunlardan asılı olasan.

Dövlətdə qanunların çoxluğu, çoxlu sayda dərmanların

yazılması kimi bir şeydir, bu da xəstəliyin və gücsüzlüyün əlamətidir.

Qanunlar təkcə vətəndaşların təhdid edilməsi üçün deyil, eyni zamanda onlara yardım etmək üçündür.

*Volter*

Qanunlar krallığı, mövcud olan dünyanın və təzahür aləminin donmuş təsviridir.

*Hegel*

Heç bir qanuna tabe olmamaq – deməli, onların qoruyucu müdafiəsindən məhrum olmaq deməkdir, çünki qanunlar bizi təkcə başqalarından deyil, eyni zamanda bizim özümüzdən qorumalıdır.

*H. Heyne*

Qanun güclüdür, ehtiyac isə ondan daha güclüdür.

*Y. Höte*

Kişilər qanunları yaradırlar, qadınlar isə mənəviyyatı yaradırlar.

*F. Gilbel*

Qanunvericilik varlılar tərəfindən hərəkətə gətirilən dəyirmandaşı kimi, yoxsulları üyüdür.

Qanunların tam əhatəli olması üçün həm cəzalandırıcı, həm də mükafatlandırıcı olmalıdır.

*O. Qoldsmit*

Əxlaq olmayan yerdə, boş qanunların nə faydası vardır?

*Horatsiy*

Qanunlar axmaq cəfəngiyatdan başqa bir şey deyildir.

Qanunlar insanlar tərəfindən, atomlar və boşluq isə təbiət təfərindən yaradılmışdır.

Qanunlar həm yaxşı, həm də axmaq insanlar üçün faydasızdır. Birincilərin qanunlara heç bir ehtiyacı yoxdur. İkincilər isə, onların varlığından heç də yaxşı olmurlar.

*Demokrit*

Kim başqaları üçün qanunlar tərtib edirsə, qoy o zaman ilk olaraq onların özləri riayət etsinlər.

*Ç. Cefri*

Qanunlar adi insanlar üçün yazılır, ona görə də onlar sağlam düşüncənin adi qaydalarına əsaslanmalıdırlar.

*T. Cefferson*

Qanun insan müdrikliyinin ən ali təzahürüdür, hansı ki orada cəmiyyətin rifahı üçün insan təcrübəsindən istifadə edilir.

*S. Conson*

Özün yaratdığın qanuna döz.

*Dümulen*

Yaxşı qanunlar adətlərdən doğur.

*J. Juber*

Qanunsuz xalq, prinsiplərsiz insana bənzər.

*Zəkəriyyə*

Bizim içimizdə yaşayan qanun vicdan adlanır. Vicdan da bizim davranışımızın bu qanuna tətbiq edilməsidir.

*İ. Kant*

Qanun və ədalət iki şeydir ki, Tanrı onları birləşdirmiş,

insan isə, onları ayırmışdır.

*K. Kolton*

İnsanlar qanunu hüquqla qarışdırırlar.

*E. Lents*

Qanun həyəcanla dolu sözlərlə ifadə edilməlidir.

*Tim Liviy*

Az qanun təsis edin ki, sonra onların işləməsinə nəzarət edəsiniz.

*D. Lokk*

Qanunlar – hökmdarlar üzərində hökmdardır.

*XII Ludovik*

Qanun qısa olmalıdır ki, onu savadsız insanlar rahat yadda saxlaya bilsinlər.

Qanunlar o insanlar üçündür ki, özlərini müdafiə etməyə kifayət qədər gücləri və vasitələri yoxdur.

*T. Makoley*

Qanun (hüquqi) – zəif insanların dostudur.

Qanun (hüquqi) – dövlət və hüquq arasındakı anlaşmadır.

*T. Mann*

Heç bir şeyi olmayan insanı, hər bir şeyi olan digər insana hörmətlə yanaşmağa məcbur edən qanun, ədalətli ola bilməz.

*Markiz de Sad*

Qəddarlıq o qanunlar üçündür ki, onlar qorxaqlıqla diktə edilmişdir, çünki qorxaqlıq ancaq sərt olduqda enerjili ola bilər.

*K. Marks*

Ancaq ağıl, mütləq və möhkəm qanunlar yarada bilər.

*O. Mirabo*

Qanunların sərtliyi onların riayət edilməsinə mane olur.

Qanunlar hamı üçün eyni məna kəsb etməlidir.

Məhz qanunların köməyi ilə elə etmək lazımdır ki, zənginlik yoxsulluq qədər üzücü olsun.

Ş. Monteskye

Qanunların tərtib edilməsi, onların icrasından daha rahatdır.

*Napoleon Bonapart*

Məcburi dəstəklənməmiş ədalət gücsüzdür; ədalətlə dəstəklənməmiş güc isə istibdaddır.

Ədalətsiz qanunlar, ədalətlə dəstəklənməmiş güc olan istibdad kimi gücsüzdürlər.

*B. Paskal*

Axmaq üçün qanun yazılmamışdır.

*Rus atalar sözü*

Müdrik qanunverici qanunların yazılması ilə deyil, onların cəmiyyətə yararlığını öyrənməklə işə başlayır.

*J. J. Russo*

Qanunlar hörümçək toru kimidir, hansı ki, onlara kiçik həşərat düşür, oradan isə ancaq, iri çöl arıları xilas ola bilirlər.

*C. Svift*

Bəzi yazılmamış qanunlar, bütün yazılmış qanunlardan daha möhkəm ola bilər.

*Seneka (kiçik)*

Qanunun qadağan etmədiyini qınaq qadağan edir.

*Seneka*

Zamanın hökmü elə bir qanundur ki, onunla hesablaşmaq lazımdır. Hansı ki, zamanın amansız hakimliyi öz qanunlarını diktə edir.

*P. Sir*

Kim qanunu eşitməkdən qulağını qaçırırsa, onun üçün duanı eşitmək də iyrəncdir.

*Süleyman*

Dövlət nə qədər süquta yaxınlaşırsa, o qədər də onun qanunları çoxalır.

Yaxşı əxlaq, yaxşı qanunlardan daha böyük əhəmiyyətə malikdir.

*Tasit*

Qanun nəhəng bir heykələ bənzəyir, hansı ki onun qarşısında insanlar papaqlarını çıxarır, ancaq ondan yan keçirlər, bu baxımdan hüquqi qanunlar hər iyirmi ildən bir dəyişir.

*İ. Ten.*

Qanunvericilikdəki boşluqları doldurmaq üçün dövlət qanunları ilə birlikdə, vicdan qanunları da vardır.

*Q. Fildinq*

Yumşaq qanunlara nadir hallarda tabe olunur, sərt qanunlar isə nadir hallarda icra edilir.

*B. Frankllin*

Qanunlara tabe ol.

*Eforlu Hilon*

Qanunun həddən artıq sərt olması – ədalətsizliyin zirvəsidir.

Ondan azad olmaq üçün biz qanunların kölələri olmalıyıq.

Qanunların öyrənilməsi, ayrı-ayrı sözlərin yadda saxlanılması deyil, onların mənalarının başa düşülməsidir.

Silahlar meydan oxuyanda qanunlar susur.

Xalqın rifahı ən ali qanundur.

Qanun ağılın həqiqi hökmü, ilahi mahiyyətin razılığıdır, hansı ki o, doğru əməli dəstəkləyir, pis əməli isə qadağan edir.

*Siseron*

Qorxu üzərində qurulmuş qanunlar qanunsuzluqdur.

*N. Şamfor*

Tanrı qanunu – dəyişikliklər qanunudur.

*B. Şou*

Xətalar gizlədilirsə, deməli xalq qanuna qalib gəlib; cinayətlər cəzalandırılırsa, deməli qanun xalqa qalib gəlibdir.

*Şan Tsün Şu*

İnsanların ən axmaq qanunlara belə ehtiyacları vardır. Çünki onlar olmasa insanlar bir-birlərini yeyərdilər.

*Epikur*

## CİNAYƏT HAQQINDA AFORİZMLƏR

Qanun olmayan yerdə, cinayət də yoxdur.

*Həvari Pavel*

Cinayəti törətmək üçün yalnız bir bəhanə lazımdır.

*Aristotel*

Fəlakətə bir uçuruma düşən kimi düşürlər, ancaq cinayətə isə pillə-pillə sürüklənirlər.

İradə əmələ çevirilən düşüncə deyilsə, o zaman nədir?

*A. A. Bestujev-Marlinski*

Cəmiyyət cinayəti hazırlayır, cani isə onu törədir.

*Q. Bokl*

Oğruluq imkanı oğrunu ortaya çıxarır.

*F. Bekon*

Kim cinayəti bağışlayırsa, onu törədənlərdən birinə çevrilir.

Ən mövhumatçı dövrlər, həmişə ən dəhşətli cinayətlərin törədildiyi dövrlər olmuşdur.

Cinayətləri zəiflər törədirlər, güclü və xoşbəxt insanların isə buna ehtiyacı yoxdur.

Cinayət və fəlakətlərin olması labüddür, çünki o zaman yaxşı insanların yaxşı əməlləri üzə çıxar.

*Volter*

Cinayət – ruhun sərhədlərini aşmış bir şərdir.

*V. Qavrilov*

Hər bir dini ehkam – cinayətlərin və insanlar arasındakı nifaqın rüşeymidir.

*K. Helvetsi*

Dəhşətli cinayətlər dəhşətli nəticələr ortaya çıxarır.

*A. İ. Gertsen*

Tarix bəşəriyyətin cinayətlərini, axmaqlığını və bədbəxtliyini qeyd edən bir jurnaldır.

*E. Hibbon*

Törədilən əməllər fikirlərin bəhrəsidir. Ağıllı fikirlər olsa, o zaman yaxşı əməllər də olacaqdır.

*B. Qrasian*

Əgər xeyir və şər haqqında deyilənlərin hamısı doğrudursa, o zaman mənim bütün həyatım ardı kəsilməz bir cinayətdir.

*D. Cebran*

Yer kürəsində bütün dünya xalqlarının tarixini vərəqələdikdə görürük ki, din hər yerdə günahsızlığı cinayətə çevirir, cinayəti isə günahsız elan edir.

*D. Didro*

Müasir insanın ən ciddi problemləri ondan irəli gəlir ki, o Tanrı ilə, Onun bəşəriyyətlə əlaqəli niyyətində əməkdaşlıq etmək hissini itirmiş olsun.

Elə bir anlar olur ki, insanlar cinayəti sevirlər.

*F. M. Dostoyevski*

Əgər qorxu hissini keçirmək istəmirsənsə, şər əməllər törətmə.

*Qabus*

Hər bir cinayət əməlinin ikili mənası vardır: biri müttəhimin

şəxsiyyətinə, digəri isə cəmiyyətə olan münasibətə aiddir.

*A. F. Koni*

Allah – həddi aşanları sevməz!

*Quran. Surə 5 "Maidə", ayə 87*

Əgər, yoxsulluq – cinayətlərin anasıdırsa, ağılın kasadlığı onların atasıdır.

*J. de La Bruyere*

Bir tərəfdən dahilərlə canilərin, digər tərəfdən isə ağılsızların dahilər, canilər və normal tipli sağlam insanlar arasındakı oxşarlıqlarından daha çoxdur.

*Ç. Lombrozo*

Geniş kütləni ancaq üç şey maraqlandırır: pul, məhəbbət və cinayət.

*M. Larni*

Böyük cinayəti törətməyə qadir olmayan insan, digərlərinin ona qadir olduğuna çox çətinliklə inanır.

*F. de Laroşfuko*

Şər şəri doğurur.

*M. Y. Lermontov*

Mötədillik olan yerdə səhv, biganəlik olan yerdə isə cinayət ortaya çıxır.

*Q. Lixtenberq.*

İnsanlar şərə meyllidirlər.

*N. Makiavelli*

Nə vaxtsa anatomiyanın tədqiqi inkişaf edərsə, insan davranışlarını onun ehtirasları ilə əlaqələndirmək imkanı olacaqdır.

*Markiz de Sad*

Nə desələr də, insanda qeyri-adi bir şey vardır ki, onu alimlər heç cür izah edə bilmirlər.

*J.-B. Molyer*

Cinayət xarici vasitə ilə daxili məhv etməkdir.

Cinayətkarlıq ədalətsiz cəmiyyətin cinayətidir.

*T. Mor*

Biz caninin cinayətinə görə deyil, onun qorxaqlığı və törətdiyi cinayət qarşısında biganəliyinə görə, ona nifrət hissi bəsləməyə məcbur oluruq.

Statistikaya görə, qadınlar kişilərdən on dəfə az cinayət törədirlər, deməli onlar kişilərdən əxlaqi baxımdan on dəfə yüksəkdirlər.

*F. Nitsşe*

Biz həmişə qadağan olana yönəlir və icazəsi olmayan şeyi istəyirik.

*Ovidius*

Cinayət faydasız və üzücü movcudluğun ikrah edici boşluğundan daha yaxşıdır.

*P. Rollan*

Törədilməmiş, ancaq düşünülmüş cinayət də cinayətdir.

Ağır səhvlər, bir çox hallarda cinayət məzmunlu olur.

Bir cinayət digərlərinə yol açır.

Kim cinayətin qarşısını ala bilər, lakin bunu etmirsə, onu

dəstəkləmiş olur.

*Seneka*

Hərtərəfli xarakter alan cinayət artıq cinayət yox, həyat normasına çevrilir.

*E. Sinequt.*

Cinayətlərin axmaq fəsadları onların özlərindən çox yaşayırlar.

*V. Skott*

"İnsanlar arasında cinayətin kökünü necə kəsməli?" sualına Solon belə cavab vermişdir: "Zərər çəkmiş və çəkməmişlərin vəziyyəti eyni dərəcədə ağır olmalıdır".

*Afinalı Solon*

İstəkdə insan mahiyyəti ifadə olunur.

*Spinoza*

Kim iki dəfə cinayət törədirsə, o ona icazə verilmiş kimi görünür.

*Talmud*

İnsanlığa ləkə gətirən cinayətlərin əksəriyyəti, şərabın təsiri altında törədilmişdir.

Ən adi və ən böyük fəlakətlərə yol açan isə tamahdır, hansı ki "hamı belə edir" ifadələri ilə özünü təsdiqləyir .

*L. N. Tolstoy*

Cinayət bahasına əldə edilən mənfəət, mənəvi aləmin itirilməsini əvəz edə bilməz.

*Q. Fildinq*

Çoxlu sayda iştirakçıların olması, cinayətə bəraət qazandırmır.

*T. Fuller*

Cinayətkar istəklər bədbəxtçiliyin zirvəsidir. İstədiyinin alınmaması, cinayətkar istəyə nail olmaqdan daha yaxşıdır.

*Siseron*

## CƏZA HAQQINDA AFORİZMLƏR

Cəzalandırılmamış qalmaq, ən böyük əzablı cəzadır.

*R. Akuqava*

Ədalət hamıya əməllərinə görə qarşılığının verilməsinin daimi və dəyişməz təzahürüdür.

*Antik aforizm*

Mən cəzadan qorxmuram, mən cəzanı qazanmaqdan qorxuram.

*L. Berne*

Təmiz ürəklə edilən tövbə, hər hansı yaxşı əməldən fərqlənmir, o da mükafat gətirir.

*P. O. Bomarşe*

Qanunu bilməmək cəzadan, onu bilmək isə özbaşınalıqdan xilas etmir.

*Nikolay Borski (Rus şairi N. Pudyakovun ləqəbi)*

Bir ədalətsiz hökm ayrı-ayrı insanların törətdiyi bir çox cinayətlərdən daha böyük bədbəxtçiliyə gətirir. Sonuncular ancaq kiçik çayları və suyun ayrı-ayrı axarlarını, ədalətsiz hakim isə su mənbəyinin özünü xarab edir.

*F. Bekon*

Canilərin cəzalandırılması xeyir gətirməlidir, çünki insan dar ağacından asıldıqda, o heç nəyə qadir deyildir.

*Volter*

Qəddarlıq həmişə qorxu, zəyiflik və qorxaqlığın əlamətidir.

*K. Helvetsi*

Cəzalandırma insanın qəlbində cinayəti törətdiyi andan yer alır.

*Qesiod*

Ədalət məhkəməsi bütün ictimai fəzilətlərin əsasıdır.

Axirətdə verilən cəza kabusdan başqa bir şey deyil və o insan ağılının dumandırılması üçün uydurulmuşdur. Onun uydurulmasında məqsəd insanları çaşdırmaq, həmişəlik rahat həyatdan məhrum etmək və ruhaniyyata tabe olan qula çevirmək idi.

Tanrı qarşısında qorxu yalnız o insanları günahdan çəkindirir ki, onun günah işlətməyə gücü yoxdur və ya bunu arzulamaq iktidarında deyildir.

*P . Holbax*

Şallağa layiq olanı qamçılama.

*Horatsiy*

Tələsik məhkum edilmişi, çox zaman haqsız olaraq məhkum edirlər.

*F. Qrilpartser*

Əgər qanun sizi günahsız məhkum edirsə, onda siz özünüz hökm verin.

*Bolqar arxiyepiskopu möhtərəm Feofilaktın təfsirində müqəddəs İncildən (Müqəddəs-Uspen Poçay lavrası, 2008)*

Cinayətləri cəzalandırmaqdansa, onların qarşısını almaq daha yaxşıdır.

Bir günahsızın ittiham olunmasındansa, on günahkarı azad etmək daha yaxşıdır.

*II Ekaterina*

Cəza deyil, cinayət ayıblıdır.

*Q. Johann*

Müxtəlif ölçü və çəki – Hər ikisi Tanrıda ikrah yaradar.

*Süleymanın məsəlləri kitabı*

Yalnız günahına görə deyil, həm də onun niyyətinə görə cəzalandır.

*Korinfoslu Periandr*

Əhilləşdirmə, təzyiq və zorla əldə olunan hər şey, əsassız, yanlış və xətalıdır.

*Y. Korçak*

Cəzalandırılmış cani - bütün alçaqlar üçün nümunə, təqsirsiz məhkum edilən insan isə - bütün namuslu insanların vicdan məsələsidir.

*J. Labrüyer*

Xeyri sevən mömin insanlar günahkar olmaq istəmirlər, cəzadan qorxan pis adamlar isə, qünah işlətmək istəmirlər.

Zərərçəkmişin hərəkətinə qəzəblənərək cinayəti törətmiş insan, daha yüngül cəzaya layiqdir.

Sərxoş halında cinayət törətmiş insan isə ayılanda cəzalandırılır.

*Latın hüquq kəlamları*

Səni nifrətimdən deyil, sevdiyimdən cəzalandırıram.

*Latın atalar sözü*

Cəzanın məqsədi - şərin qarşısını almaqdır: O heç zaman

xeyrə təkan verə bilməz.

*H. Mann*

Dünyanı cəzalarla nə islah və də hədələmək mümkün olmuşdur.

Cəza əməldən çox, nifrət doğurmamalıdır.

*K. Marks*

Cinayətlərin qarşısını almaq üçün bir vasitə cəzadır; Əxlaqı dəyişmək vasitəsi - xeyirli nümunələrdir.

Ədalət ondan ibarətdir ki, hər kəsə layiq olduğunu verəsən.

Cinayətlərlə mübarizə etməyin vasitələri cəzalardır, adətlərin dəyişdirilməsi vasitələri isə nümunələrdir.

*Ş. Monteskye*

Cinayət yox, axmaqlıq cəzalandırılır.

*Navarralı Marqarita*

Hamının gözü qabağında verilən bütün cəzaların əskikliyi ondan ibarətdir ki, onlar cinayətləri zahiri cəzalandırmanın olmasına görə, törətmədiklərini öyrədirlər.

Caninin cəzasına bəraət qazandırıcı motivlərlə, onun cinayətinə də bəraət qazandırmaq mümkündür.

*F. Nitsşe*

Elə edin ki, xətalara görə cəza, cinayətkarın xaricində deyil, daxilində olsun. Bununla da siz əxlaqi tərbiyənin idealına çatmış olacaqsınız.

*N. M. Piroqov*

Ağıllı insan xətalı davranışa görə deyil, o davranışın yenidən təkrar olunmaması üçün cəza verir.

*Platon*

Bəraət qazandırarkən səhv etmək, cəza vermə zamanı səhv etməkdən daha yaxşıdır.

*İ. Rəhimov*

Cani bəzən cəzadan qaça bilər, ancaq ondan qorxmasına görə deyil.

*Seneka*

Yumşaq xarakterli insanın verdiyi cəza daha ağırdır.

*Seneka(kiçik)*

Baş haqqında fikirləşmədən gözün və ya bütün orqanizm haqqında düşünmədən başın müalicəsinə başlamağın mənasız olduğu kimi, eləcə də ruhu düşünmədən bədəni müəlicə etmək mümkün deyildir.

*Sokrat*

Bəzən verilən cəza, cinayət doğurur.

*S. Lem*

Hər bir cinayətin əvəzi, onun doğurduğu iztirablarla verilir.

*A. İ. Urusov*

Şübhəli hallarda həddi (cəzanı) ləğv etmək, onu tətbiq etməkdən daha yaxşıdır.

*Xəlifə Ömər ibn Xəttab*

Edam etməkdənsə cəzanı seç, çünki cəza insanı bir dəfə, edam isə əbədi olaraq kədərləndirir.

*Hilon*

Cəzasızlıq cinayətə çox güclü həvəsləndirmədir.

Hökmün çıxarılması üçün rüşvət almaq cinayətdir. Ancaq bəraət vermək məqsədi ilə pul aldığın insanı məhkum etmək daha böyük cinayətdir.

*Siseron*

Cəza hakimiyyətin əsasıdır.

*Çjuan-Tzı*

Həddən çox verilən dərman xəstəni müalicə etmədiyi kimi, qınaq və tənqid də ədalət həddini aşanda məqsədinə çatmır.

*A. Şopenhauer*

Öz mənəvi məhkəməsi qarşısında bəraət qazana bilməməsi cinayətkar üçün ilk cəzadır.

Kimi isə cinayətlərinə görə, çarmıxa çəkmiçlər, kimə isə krallıq tacı vermişlər.

*Yuvenal Detsim Yuniy*

# RƏYLƏR

**Hüquq elmləri doktoru, professor İ.M.Rəhimovun "Cinayət və cəzanın fəlsəfəsi" kitabına**

**R Ə Y**

Prof. İ.M.Rəhimovun bu kitabı bəşər tarixində həmişə diqqəti cəlb edən mühüm bir problemə - cinayət və cəzanın fəlsəfəsinə həsr edilmişdir.

Strukturuna görə kitab giriş, nəticə, 3 fəsil və 9 paraqrafdan ibarətdir.

Kitabın 1-ci fəslində müəllif tərəfindən cinayət anlayışının fəlsəfi və hüquqi mahiyyəti şərh edilmiş, cinayətin baş vermə səbəbləri təhlil edilmiş, cinayətkarın şəxsiyyətinin cəza təyin edilərkən nəzərə alınmasına diqqət yetirilmişdir.

Kitabın 2-ci fəsli cəza anlayışının mahiyyətinin tədqiqinə həsr edilmişdir. Müəllif burada cəza anlayışının məzmun və xüsusiyyətlərini geniş şəkildə təhlil edərək bu sahədə tanınmış alimlərin fikirlərinə istinad etmişdir. Prof. İ.M.Rəhimov kitabda cinayət və cəzanın hüquqi tərəfləri ilə yanaşı, bu anlayışların sosioloji və psixoloji məsələlərini də təhlil etmiş, irəli sürdüyü elmi müddəaları tanınmış filosof və sosioloqların (məsələn, Hegel, Dürkheym və s.) fikirləri ilə əsaslandıra bilmişdir. Müəllif kitabda cinayət və cəzanın fəlsəfəsini araşdırarkən etikanın xeyir və şər kimi kateqoriyalarını da şərh etmişdir.

Kitabda elmi cəhətdən diqqəti cəlb edən bir çox maraqlı məqamlar vardır. Belə məqamlardan biri cinayətin səbəblərinin müəyyən edilməsində cinayətin fəlsəfəsinin öyrənilməsinin vurğulanmasıdır. Bu baxımdan İ.M.Rəhimov cinayətin səbəblərini müəyyənləşdirərkən insanın davranışının mahiyyətinin dərk edilməsini vacib hesab edir. İnsanın öz həyat və fəaliyyəti prosesində, davranış və hərəkətlərində özü-özünü dərk etməsinin vacib şərt olduğunu qeyd edən müəllif hətta Felbaxda Appolon məbədinin girişində yazılmış "Özü-özünü dərk et" – məşhur ifadəsini də kitabda oxuculara xatırladır.

Kitabda digər maraqlı cəhətlərdən bir cinayətin səbəblərinin dini izahının verilməsidir. Müəllifin burada cinayət və cəza ilə əlaqədar Qurani-Kərim və Bibliyaya dəfələrlə müraciət etməsi diqqəti cəlb edir, müəyyən maraq doğur. Məsələn, qədim dini inanclara diqqət yetirən İ.M.Rəhimov öz kitabında müxtəlif mifoloji mənbələrə əsaslanaraq qeyd edir ki, hələ qədim dövrdə insanın həyatdakı sərt, kobud hərəkətləri "şər" qüvvələrin insana təsirinin nəticəsi kimi izah olunurdu.

Kitabda cinayət və cəzanın formalaşmasında adət və ənənələrin roluna da diqqət yetirilmişdir. Bu baxımdan monoqrafiyada müəllif tərəfindən tarixən cəmiyyətdə "faydalı", yaxud "zərərli" hesab edilən və uzun illər insanların

şüurunda kök salmış adət və ənənələr sosial-fəlsəfi və hüquqi cəhətdən təhlil edilmişdir. Məsələn, bəzi regionlarda qız qaçırılması (oğurlanması), qan intiqamı və s. hadisələrin cinayətkarlıqdan çox, adət və ənənə, milli mentalitetlə bağlı olması müəllif tərəfindən kitabda fəlsəfi və sosial-psixoloji baxımdan sadə şəkildə şərh edilmişdir.

İ.M.Rəhimov kitabda cinayət və cəzanın məkan və zaman baxımından müxtəlif xarakter daşıdığını vurğulayaraq göstərir ki, müxtəlif tarixi dövrlərdə cinayət və cəza öz tipinə və xarakterinə görə fərqlənir. Bu fikri əsaslandırmaq üçün müəllifin aşağıdakı tarixi faktlara müraciət etməsi ciddi maraq doğurur. Bu baxımdan müəllif tarixi mənbələrə əsaslanaraq göstərir ki, məsələn, Qədim Misirdə Fironun kölgəsini tapdalamaq ağır cinayət hesab olunurdu və bu hadisə (Fironun kölgəsini tapdalamaq) ən ağır cəza ilə cəzalandırılırdı. Yaxud SSRİ-də XX əsrin 60-cı illərində xaricə gedən Sovet vətəndaşı geriyə, yəni öz ölkəsinə qayıtmaqdan imtina edirdisə, bu hal vətənə xəyanət adı ilə ciddi cəzalandırılırdı. Lakin bu tip cinayətlər indiki dövrdə çox ciddi sayılmır. Buradan aydın olur ki, əvvəlki dövrlərdə qeyd edilən cinayət halları və tətbiq edilən qəzalar, indiki dövrdə baş verən cinayət və cəza tiplərinin norma və prinsiplərinə uyğun gəlmir. Bəs indiki qanunvericilik cinayət və cəzanı təyin edərkən hansı sosial meyarlara, hansı fəlsəfi prinsiplərə və mənəvi dəyərlərə əsaslanır? Məhz bu suallara cavab tapmaq üçün cinayət və cəzanın sosial-fəlsəfi mahiyyətini öyrənmək zəruridir. Məhz kitab bu baxımdan hazırkı şəraitdə mühüm aktuallıq kəsb edir.

Bütövlükdə, tanınmış hüquqşünas, professor İlham Rəhimovun "Cinayət və cəzanın fəlsəfəsi" adlı monoqrafiyasını bu sahədə azərbaycan dilində hazırlanmış ilk əsər hesab etmək olar.

Bu baxımdan inanıram ki, İ.M.Rəhimovun kitabı nəinki cinayət hüquqi sahəsində, eyni zamanda fəlsəfə, sosiologiya və insan psixologiyası sahəsində çalışan mütəxəssislər, həm də bütövlükdə ən geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaqdır.

***Hüseynov Sakit Yəhya oğlu***
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun şöbə müdiri, RF Avrasiya İnzibati ElmlərAkademiyasının müxbir üzvü, fəlsəfə elmləri doktoru***

**Hüquq elmləri doktoru, professor İ.M.Rəhimovun**
**"Cinayət və cəzanın fəlsəfəsi" monoqrafiyasına dair**

**R Ə Y**

Məlum olduğu kimi, dissertasiya və monoqrafiya səviyyəsində cinayət və cinayətkarlıq haqqında elmi-nəzəri baxışların, konsepsiyaların, mövqelərin sistemləşdirilməsi, analizi və ümumiləşdirilməsi əvvəllər də həyata keçirilmişdir. Belə ki, E.Pozdnyakov "Cinayətkarlığın fəlsəfəsi" adlı monoqrafiya hazırlamış, D.Babiçev "Cinayətkarlığın fəlsəfəsinin siyasi-hüquqi tədqiqi" mövzusunda dissertasiya müdafiə etmişdir. Bu yaxınlarda isə A.Aleksandrovun "Şərin fəlsəfəsi və cinayətkarlığın fəlsəfəsi" monoqrafiyası işıq üzü görmüşdür.

İ.Rəhimovla tam əsasla razılaşmaq olar ki, fəlsəfə, "digər elmlərin, o cümlədən hüquq elmlərinin konkret problemlərinin tədqiqi üçün əsas, elmi baza qismində çıxış edir".

Monoqrafiyada fəlsəfə elminin görkəmli nümayəndələrinin təlimlərində əks olunmuş fəlsəfi baxışlar və konsepsiyalar nöqteyi-nəzərindən "cinayət" və "cəza" institutları öyrənilmiş və sistemli şəkildə təhlil edilmiş, cinayət və cəza kimi mürəkkəb və çoxaspektli anlayışların tədqiqində yeni üfiqlər açılmışdır.

Müəllif düzgün olaraq qeyd edir ki, "cinayət və cəza anlayışlarının mürəkkəbliyi, izah və şərhinin çətinliyi onların fəlsəfi mahiyyəti ilə bağlıdır. Məhz buna görə də onların fəlsəfi mahiyyət və məzmununun açılması üçün bu fenomenlərin inteqrativ və eyni zamanda dərin fəlsəfi yanaşma əsasında tədqiqinə böyük zərurət və tələbat vardır".

İ.Rəhimov yazır: "Əminəm ki, müstəsna çətinliyi, mürəkkəbliyi və çoxaspektliyi ilə səciyyələnən cinayət və cəza problemlərinin tədqiqinə cəsarət etmiş hər kəs təkcə tanınmış hüquqşünasların deyil, həm də cinayət hüququnun bu institutlarına aidiyyətdə filosofların, psixoloqların, sosioloqların, yazıçıların əsərlərini mükəmməl və əsaslı şəkildə, diqqətlə öyrənməlidir". Bu zaman keçmişin, qədim dövrlərin tanınmış hüquqşünas, filosof, sosioloq, psixoloq və digər mütəfəkkirlərinin müxtəlif mövqe və baxışlarını təhlil edərək, cinayət və cəza haqqında fəlsəfə, din, hüquq və digər elmlərin tarixini öyrənərək, müəllif, "hər bir yeniliyin – yaxşı yaddan çıxmış köhnəlik" olduğu mövqeyindən çıxış edir.

Bu doğrudan da belədir. A.İ.Dolqova, N.F.Kuznetsova, Q.M.Minkovski, A.M.Yakovlev, N.V.Kudryavtsev, İ.İ.Karpets, Q.F.Xoxryakov, S.M.İnşakov və digər tanınmış hüquqşünas-alimlər düzgün olaraq qeyd edirdilər ki, tarixi gerçəkliklər bizi müasirliyə yeni nəzərlə baxmağa vadar edir, elmin keçdiyi inkişaf mərhələlərinin öyrənilməsi isə onun gələcəyini görməyə kömək olur. Cinayət və cəza haqqında təlimin inkişafında mürəkkəb vəziyyətlər, böhranlı dövrlər olmuşdur və bunların öyrənilməsi gələcəkdə baş verə biləcək

səhvlərdən qaçmağa imkan verir. Əksinə, əvvəllər yaddan çıxarılmış və ya rədd edilmiş bütün mütərəqqi olmaqla yanaşı, həm də yalnız indi öz hüquqlarını əldə edənlər elmi fikrin sonrakı inkişafını zənginləşdirmək iqtidarındadır. Bu mövqelərdən tarixin öyrənilməsi hər bir yeni nəsildə gələcək qarşısında məsuliyyətin formalaşması üçün olduqca mühümdür. Hazırda, elmin yüksək inkişafının getdiyi, elmə daha ciddi tələblər irəli sürüldüyü dövrdə hər bir elmin tarixinin öyrənilməsi zəruridir.

Cinayət və cəza haqqında elmin tarixi inkişafının öyrənilməsi zəruriliyini və əhəmiyyətini, cinayətkar, cinayət və cinayətkarlıq haqqında antik, orta əsrlər və müasir təsəvvürlərin vahid bir zəncirin bir-biri ilə sıx bağlı olan ayrı-ayrı halqalarını təşkil etdiyini qeyd edərək L.P.İvanov və L.V.İlyina yazırdılar ki, bu və ya digər qərinənin məhsulu olan hər bir elm özündə həmin dövrün yanlışlıqlarını, məhdudiyyətlərini, izlərini daşıyır. Lakin bir elm kimi, o, tədqiqatçının təsəvvürlərində idrak predmeti haqqında nə isə bir yenilik, həqiqət anını canlandırır. Həqiqət isə zamana, hətta inqilabi dövrə belə tabe deyildir. Ona görə də bu yenilik qaçılmaz surətdə keçmiş dövrü əvəzləyən növbəti tarixi mərhələyə daxil ediləcəkdir. Bu prosesi Hegel keçmişin "götürülməsi" adlandırırdı. Bu o deməkdir ki, inkar ilə yanaşı, əvvəlki tarixi pillələrin doğurduğu müsbət, mütərəqqi, rasional olanlar da saxlanılır.

Müəllifin özünün qeyd etdiyi kimi, monoqrafiyada fəlsəfi mahiyyət daşıyan bir sıra məsələlərə cavab verilməyə cəhd edilmişdir. O cümlədən: Cinayətin mahiyyəti nədədir? İnsanın cinayətkar davranışının səbəblərini və köklərini harada və nədə axtarmaq lazımdır? Cinayətin və cəzanın mahiyyəti nədən ibarətdir? Cəzanın mənşəyi və kökləri nədir? Niyə və nəyə görə cəzalandırmaq lazımdır? Kimi və necə cəzalandırmaq lazımdır? Cəzalandırmaq hüququ kimə məxsusdur və bu hüququ kim vermişdir? Ümumiyyətlə, cəmiyyətə cəza lazımdırmı və cəzanın gələcəyi nədən ibarətdir?

Monoqrafiyada formulə edilmiş müddəaların elmi mötəbərliyini və əsaslılığını fəlsəfə, elmşünaslıq, idrak nəzəriyyəsi, cinayət hüququ, kriminologiya, cinayət siyasəti, sosiologiya, psixologiya və digər elmlərin müddəaları və əsas prinsipləri təmin etmişdir. Sistemli-struktur yanaşmadan, tarixi-hüquqi, məntiqi-hüquqi, müqayisəli-hüquqi analiz metodlarından, alimlərin – filosofların, sosioloqların, psixoloqların, kriminoloqların və digərlərinin fundamental nəzəri işlərindən kompleks şəkildə istifadə edilməsi monoqrafiyanın strukturunu, tədqiqatın ilkin müddəalarını düzgün müəyyən etməyə, ümumnəzəri materialın toplanması, sistemləşdirilməsi və analizi üzrə ən effektiv metodları seçməyə imkan verməklə tədqiqat nəticələrinin yüksək etibarlılığını, mötəbərliliyini və elmi əsaslılığını təmin etmişdir. Bütün bunlar müəllifə, cinayət və cəzanın fəlsəfəsinin tədqiqinə həsr olunmuş ilk böyük həcmli, məntiqi cəhətdən bitkin olmaqla yanaşı, həm də fundamental mahiyyət

daşıyan monoqrafiyanı hazırlamağa imkan vermişdir.

Monoqrafik tədqiqatda şərh olunan və əsaslandırılan, geniş və əhatəli elmi-nəzəri bazaya söykənən bir çox konseptual yanaşmalar, baxışlar, mülahizələr, irəli sürülən müddəalar böyük maraq kəsb etməklə elmi-nəzəri və təcrübi əhəmiyyət daşıyır.

Hüquq elmləri doktoru, professor İ.Rəhimov tərəfindən "cinayət və cəzanın fəlsəfəsi" problemi üzrə həyata keçirilmiş fəlsəfi-hüquqi tədqiqat, həm də ona görə əhəmiyyətli və dəyərlidir ki, monoqrafiyada bir sıra məsələlər üzrə diskussiyaların və elmi müzakirələrin davam etdirilməsi üçün yer qoyulmuşdur. Təbii ki, müəllifin cinayət və cəza ilə bağlı toxunduğu bir çox problemlər üzrə elmi polemika, müzakirələr və diskussiyalar davam edəcəkdir. Monoqrafiya isə hüquq elmində layiqli yer tutacaq, cinayət və cəza məsələləri ilə maraqlanan geniş oxucu kütləsi, həmçinin alimlər, aspirantlar, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən həmişə tələb olunan əsərlərdən biri olacaqdır.

***F.M.Cavadov***
***Hüquq elmləri doktoru, professor***

**Hüquq elmləri doktoru, professor İ. M. Rəhimovun “Cinayət və cəzanın fəlsəfəsi” monoqrafiyasına**

**RƏY**

Rəy verdiyim əsər professor İ. M. Rəhimovun cinayət və cəza ilə bağlı cinayət hüququnun başlıca məsələlərinə həsr olunmuş “Cinayət və cəza” (Moskva, 2012) əsərinin davamıdır.

“Cinayət və cəzanın fəlsəfəsi” adlanan hazırki monoqrafiyanın adı belə, müəllifin qarşıya qoyduğu problemlərin araşdırılmasının mürəkkəbliyindən xəbər verir. Onun cavab axtaddığı suallar bunlardır: “Cinayət hüququndan kənarda baxılan cinayət nədir? İnsan davranışının, xüsusi ilə də cinayətkar davranışın mənşəyi haradadır? Cəzanın mahiyyəti nədədir? Onun məhşəyi haradır? Nə üçün cəzalandırmaq lazımdır? Cəza hüququ kimə məxsusdur və onu kim ona verib? Cəmiyyətə cəzalandirma lazimdirmi və onun gələcəyi necə olacaq?”.

Cinayətin və cəzanın fəlsəfəsi mövzusuna geçmişin və zamanımizin bir çox mütəfəkkirləri müraciət etmişdirlər. Bunu, təkcə hüquq və fəlsəfə üzrə elm xadimləri deyil, həm də müəyyən qədər psixoloqlar, təbiblər, sosioloqlar, din xadimləri, yazıçılar, siyasətçilər və s. etmişdirlər. Bu da o deməkdir ki, cinayətin və cəzanın fəlsəfəsinə aid suallara cavablar bir tərəfdən, təkcə, hüquqşünasların maraq dairəsində deyil, başqa tərəfdən isə, onlar cinayət hüququ ilə bağlı tədqiqatlar çərçivəsində həll oluna bilməz. Bunu müəllif öz əsərində dəfələrlə vurğulamış və bu məsələlərə xüsusi diqqət yetirmişdir.

Bununla əlaqədar monoqrafiyada biliyin başqa sahələrində də müvafiq sualların baxılmasına böyük diqqət yetirilmişdir. Xüsusi ilə bu kitabda dini təlimlərdə cinayət və cəzanın aydınlaşdırılması ayrıca təhlil edilir. Eləcə də, filosofların, sosioloqların, psixoloqların bu kimi problemlərin mahiyyətinə və təhlilinə yer verilmişdir. Bununla yanaşı, kitabda cinayət hüququ elminin nümayəndələrinin nəzəriyyələri də təhlil edilmişdir. Bu da, belə demək olarsa, müəllifə problemlərə daha geniş baxmaq və elmi cəhətdən maraqlı nəticələrə gəlmək imkanı yaratmışdır.

İki fəsildən ibarət ola bu kitab məntiqi və ardıcıllıqla planauyğun şəkildə yazılmışdır. Birinci fəsildə cinayətin, ikincisində isə, cəzanın fəlsəfəsi verilmişdir və cəzanın gələcəyinin təyin edilməsinə cəhd edilmişdir.

Cinayətin mahiyyəti barəsində düşünərək, müəllif belə bir nəticəyə gəlir ki, “caninin və cinayətin zaman və məkan xaricində sıx əlaqədə olduqları və varlığını təmin etdikləri mövcud sosial mühitdən süni ayırılaraq öyrənilməsini imkansız edir. Təbii ki, bunun heç bir mənası yoxdur” (s. 42). Belə hesab edirəm ki, bu nəticə ilə razılaşmaq olar. cinayətin fəlsəfi mahiyyəti haqqında əsas nəticə də diqqətə layiqdir. Bu nəticəyə görə, “Cinayətin fəlsəfi mahiyyəti

insan davranışının azad iradəsindən irəli gəlir. Onun mənşəyi mənfi xarici sosial-iqtisadi şəraitin və vəziyyətin təsirinin nəticəsində yaranan şəxsiyyətin psixofizioloji xüsusiyyətlərindəndir" (s.120).

Sözsüz ki, müəllifin diqqətəlayiq məzmunlu nəticələrə gəlmək imkanını yaradan cinayət fəlsəfəsi haqqında düşüncələri maraq doğurur. Belə ki, cəzanın mümkün alternativi olan cəzasız təsirin tətbiq edilməsi problemini təhlil edərək, müəllif əsaslı olaraq iddia edir ki, "ancaq o halda cəzasız təsir cinayət cəzasının yerini tutar ki, insanın cinayəti öz iradəsi ilə deyil, ondan asılı olmayan səbəblər üzündən törətməsi sübut olunsun və bu səbəblər yalnız cəza tədbirləri yerinə yetirilmədən ortadan qaldırılsın" (s. 240). Eyni zamanda monoqrafiyada qeyd edilir ki, "cəzanın gələcəyi müəyyən kateqoriyalı cinayətlər və canilər üçün cəzanın verilməsi ilə birlikdə cəzasız təsiretmə metodlarının iştifadə olunmasını istisna etmir" (s. 241).

Kitabda İ.Rəhimovun cəzanın gələcəyi haqqındakı müddəaları da diqqətəlayiqdir. Müəllif hesab edir ki, "cəzanın gələcəyi, cəzalandırıcı mahiyyətinin dərəcəsi baxımından birbaşa ölkə üzrə cinayətkarlığın səviyyəsindən, dinamikasından, xarakterindən asılı olacaqdır. Bu isə indi bizə məlum olmayan cinayət əməllərinin yaranması səbəbi ilə cəzanın yeni alternativ növlərinin yaranmasına gətirəcəkdir" (s.241).

Əlbəttə, hər bir ciddi elmi əsərdə olduğu kimi, İ. M. Rəhimovun da kitabında elə mülahizələr vardır ki, onların daha da dərin tədqiq edilməsinə ehtiyac vardır və onlar hətta geniş elmi diskussiyalar doğurur. Hesab edirəm ki, onların sırasında cəzanın gələcəyi və onun ayrıca növlərinin proqnozları vardır ki, bu proqnozları müəllif aşağıdakı kimi göstərmişdir: "Cəzanın gələcəyi, məhkəmə nəzərinin genişlənməsi ilə əlaqəlidir. Çünki aşağı və yuxarı hədlərin sərhədləri genişləndiriləcək, eləcə də yeni alternativ cəzalar ortaya çıxacaqdır. Cəzanın qısa müddətli növləri zaman keçdikdən sonra "dəbdən" düşəcək və böyük cərimə sanksiyaları ilə əvəz olunacaqdır. Bəzi ölkələr, ağır və ən ağır cinayətlərin çoxalmasına görə yenə də ölüm cəzasına qayıdacaqlar" (s. 241).

Bu proqnozlar cəza institutunun inkişafı tarixinin təhlilinə, onun hüquqi və sosial tənzimləyici rolunun təyin edilməsinə, statistik göstəricilərin tədqiqinə əsaslanır. Bu kimi proqnozların elmi cəhətdən əsaslandırılması üçün tədqiqatlar davam etdirilməlidir. Bu mülahizələr də kitabda İ. M. Rəhimovun özü tərəfindən etiraf edilir.

Qanunvericiliyin dəyişdirilməsinə dair müəllifin bu təklifi haqqında düşünülməlidir. Onun fikrincə, ağırlaşdırıcı hallarla müşaiyət edilən qəsdən törədilmiş qətllərə, eləcə də ağırlaşdırıcı hallarla müşaiyət edilən azyaşlıların zorlanmasına görə qanunvericikik iki cəza növü tətbiq etməlidir: ölüm cəzası və ömürlük azadlıqdan məhrumetmə. Bunların arasında seçim hüquqi cəhətdən əməli sübuta yetirilən caniyə verilməlidir.

Ümumiyyətlə, rəy verdiyim kitabı dəyərləndirərək belə bir nəticəyə gəlmək olar ki, orada müəllifin cinayətin və cəzanın fəlsəfəsinin əsas məsələlərinə dair fikirləri əks olunmuşdur, onlar da məntiqi cəhətdən bir-birinə bağlı və asılı olan müddəaların vahid düzənli sistemini təşkil edir.

Kitabın sonunda qanun, cinayət və cəza haqqında aforizmlər şəklində verilmiş müddəalar da xüsusi maraq doğurur. Burada oxucu filosofların, hüquqşünasların, yazıçıların, şairlərin, kralların, hakimiyyət nümayəndələrinin, tanınmış həkimlərin kəlamlarına, hüquqi deyimlərə, dini kitablardakı müdrikliklərə; qanun, cinayət və cəza haqqında atalar sözünə rast gələcək.

Kitab yaxşı ədəbi dildə yazılmışdır, bu da onu geniş oxucu kütləsi üçün anlaşıqlı edir.

Bütün yuxarıda deyilənlər onu iddia etməyə imkan verir ki, İ. M. Rəhimovun kitabı çap olunmağa layiqdir və bu əsər işıq üzü görməsi məqsədəuyğundur. O, müxtəlif sahələri əhatə edən mütəxəssislər üçün, eləcə də hüquqi fakültələrin tələbələri, məhkəmə və s. hüquq-mühafizə orqanlarının nümayəndələri, bütün cinayət və cəza problemləri ilə məşğul olan mütəxəssislər üçün maraqlı və faydalı olacaqdır.

**A. V. Salnikov.**
**Rusiya Federasiyası Baş Prokurorluq Akademiyasının**
**Sankt-Reterburq Hüquq İnstitutunun (filialının) direktor müavini,**
**RF prokurorluğunun əməkdar işçisi, hüquq elmləri namizədi**

**İ. M. Rəhimovun “Cinayət və cəzanın fəlsəfəsi” kitabına**

**R Ə Y**

Son illərdə hüququn, o cümlədən cinayət hüququnun fəlsəfi problemlərinin müxtəlif sahələrinə həsr olunmuş çox saylı maraqlı və məzmunlu kitablar dərc edilmişdir. Şübhəsiz, onların arasında mühüm yeri tanınmış alim, hüquq elmləri doktoru, professor İlham Məmmədhəsən oğlu Rəhimovun “Cinayət və cəzanın fəlsəfəsi” monoqrafiyası tutur. Kitabın adı kifayət qədər nadir və geniş əhatəlidir. Müəllif təhlil üçün ona ən aktual görsənən mürəkkəb problemləri seçmişdir. Kitab məzmunu onun struktur elementlərinin adını dəqiq ifadə edən məzmuna malikdir, məntiqi ardıcıllıqla verilmişdir.

Oxucular müəllifi öz mövqeyini dəqiq formalaşdıran cinayət hüququ və kriminologiya sahələrində adlı-sanlı alim kimi tanıyır. Bu ciddi əsər özündə orqanik olaraq problemlərin müxtəlif tərəflərini geniş və kompleksli əhatəliliyi, dərinliyi və funksionallığı ilə vəhdətdə baxır.

İ. M. Rəhimovun yeni kitabının işıq üzü görməsi bir sıra səbəblər üzündən əlamətdardır.

Birincisi, çox gərgin və məhsuldar işləyən tanınmış alimin istənilən əsəri cinayət hüququ elminin inkişafına nəsə yeni və özüməməxsus yeniliklər gətirir. Onun monoqrafiyaları konseptual bağlılığı və gərgin axtarış vektorunu daha da parlaq şəkildə açır.

İkincisi, İ. Rəhimov uzun müddət Azərbaycan Respublikasının Ədliyyə nazirliyinin Məhkəmə e Ekspertizası, Kriminalistika və Kriminologiya elmi tədqiqat institutunun direktoru vəzifəsində (1992-1996) işləmiş praktik kimi çıxış edir. Odur ki, kitabda bütün qoyulan problemlər nəzəriyyə və təcrübənin vəhdətində baxılır.

Üçüncüsü, İ. M. Rəhimovun əsərlərini oxuyan oxucuda belə bir fikir yaranır ki, müasir hüquq, o cümlədən cinayət hüququ doktrinasının inkişafı prinsipcə yalnız fəlsəfi xətlə mümkündür.

İ. Rəhimovun əsərinin fərqləndirici cəhətləri, xüsusiyyəti onun cinayətin və cəzanın fəlsəfi mahiyyətinə varmaq, oxucuya təkcə dərin fəlsəfi hüquqi material deyil, həm də praktiki tövsiyyələrin verilmək cəhdindən ibarətdir.

Kitabın əsas üstünlüklərindən biri də ondadır ki, müəllif yüksək elmi səviyyədə peşəkar və eyni zamanda oxuculara çatacaq dildə cinayətin və cəzanın praktik olaraq bütün aktual problemlərini fəlsəfi aspektdə açıqlamışdır.

Müəllif ədalətli olaraq qeyd edir ki, “Mən cəza probleminin mahiyyətinə dərindən nüfuz etdikcə, bu mürəkkəb fenomenin dərk edilməsində ancaq hüquqi yanaşmanın məhdud olduğu qənaətinə gəldim, bu da araşdırma prosesində cinayət hüququ və kriminoloji çərçivədən kənara çıxmağın

zəruriliyini ortaya çıxardı”. O yazır: “Bu prinsipial müddəalardan çıxış edərək, mən cəza anlayışını cinayət və onun səbəbləri ilə birlikdə nəzərdən keçirməyə çalışdım. Bu istiqamətdə problemə yalnız hüquqi deyil, həm də fəlsəfi mövqeydən yanaşdım” (s. 5).

Cinayətkarın şəxsiyyətinin təhlili kitabın özəyini təşkil edir. Məlumdur ki, insan bu dünyaya bərabər hüquqlu, azad və məsum doğulur. Xarici şərait və mühit insanı qəhrəman ya da cinayətkar edir. Müəllifin bu barədə nəzəri mülahizələri çox dəyərlidir. Müəllifin qeyd etdiyi kimi, “Cinayətkar heç də spesifik xarici əalmaətləri olan özəl tip deyil. Bu, fiziki baxımdan tam normal insandır. Cinayətkar, bütün insanlar kimi, fərdi xüsusiyyətlərə malikdir. Bütün cinayətkarları hansısa bir qrupda birləşdirə və xüsusi “Şəxsiyyət tipi” yarada bilən elə keyfiyyətlər yoxdur. Buna görə, ədalətli olaraq müəllif qeyd edir ki, ədəbiyyatda istifadə olunan “cinayətkar şəxsiyyət” anlayışdan imtina edilməli və “cinayəti törədən şəxs” anlayışından istifadə etmək lazımdır.

Cinayət və cəza kimi fəlsəfi və hüquqi fenomenlərə sistemli yanaşma, fikrimizcə əsərin ən qiymətli cəhətlərindən biridir. Məlumdur ki, sistem elementlərinin qarşılıqlı əlaqəsi və təsiri olub onun bütövlüyünün qorunub saxlanılmasına yönəldilir. Qədim yunan filosofu Sokrat sistemin mahiyyətini insan orqanizmi timsalında dəqiq göstərmişdir. O deyirdi: “Baş haqqında fikirləşmədən gözün, ya da bütün orqanizm haqqında düşünmədən başın müalicəsinə başlamağın mənasız olduğu kimi, ruhu müalicə etmədən bədəni sağaltmaq olmaz”. Müəllifin Hegel, Kant, T. Hobbs kimi klassiklərin, D. A. Kərimov, Q. V. Maltsev, Y. V. Qolik, E. Pozdnyakov, V. N. Çiçerin və başqalarının, o cümlədən yerli və xarici hüquqşünas alimlərə müraciət etməsi monoqrafiyanın sanballılığını göstərir. Kitabın üstün cəhətlərindən biri kitabın faktiki əsası kimi son 50 il ərzində Azərbaycan respublikasında cinayətkarlığın statistik göstəriciləri və onun dinamikası kitaba əlavə edilməsidir.

Müəllifin yazdıqları onun daimi zəhmətinin və istisna yaradıcılıq işinin, elmdə daim yenilik axtarışlarının məhsuludur. Burada qədim yunan filosofu Aristotelin kəlamı yerinə düşər. O deyirdi: “Yaxşı kitab odur ki, müəllif onun səhifələrində ancaq lazım olanları deyir və necə lazımdır deyir”. Qeyd etmək lazımdır ki, bir qayda olaraq, tanınmış hüquqşünas alimlər fəaliyyətinin müəyyən dövründə öz tədqiqat obyektinin fəlsəfi mahiyyətinə müraciət edirlər. Bu bir qanunauyğunluqdur. Mən Sov. İKP MK nəzdində İEA aspiranturasını bitirmişəm və Rusiya EA müxbir üzvü D.A. Kərimovun kafedrasında təhsil almış və dissertasiya müdafiə etmişəm. O deyirdi: “Mən eyni zamanda iki problemlə məşğul oluram: biri mürəkkəb, digəri sadə. Mürəkkəbdən başlayıram. Yorulanda daha sadəyə keçirəm. Fəlsəfi məsələlərlə məşğul olanda isə fikirimi heç nəyə yönəltmirəm”.

Qeyd etmək lazımdır ki, D. A. Kərimov tərəfindən yazılmış kitabların

arasında: "Hüququn fəlsəfi problemləri" (1972), "Siyasi-hüquqi tədqiqatların fəlsəfi əsasları" (1986), "Hüququn metodologiyaları: predmet, funksiyalar və fəlsəfi hüququn problemləri" (2001). İ.Rəhimovun monoqrafiyasında D. A. Kərimovun sonuncu kitabına ("Hüququn metodologiyaları: predmet, funksiyalar və fəlsəfi hüququn problemləri") çoxlu istinadlar verilir.

Belə bir dini kəlam var: "Hər bir canlı varlıq öz köklərinə qayıdır". Bunu həmdə cansız əşyalara aid etmək mümkündür. Qeyd etmək lazımdır ki, hüquq müstəqil elm sahəsi olana qədər fəlsəfənin tərkibində olmuşdur. Buna görə də fəlsəfəyə qayıdışda hüquq əsl mənasını və sakitliyini tapır. Monoqrafiyanın əhəmiyyəti həmdə onun Quran və Bibliyadan kəlamlarla başlaması, müqəddəs kitablardan gətirilən sitatlarla davam etməsi, sonra da filosof və mütəfəkkirlərin aforizmləri ilə bitirilməsindədir. Bu isə kitabı maraqlı və oxunaqlı edir.

Ədəbiyyatda kitablar haqqında çoxlu aforizmlər vardır. Onlardan bu monoqrafiyanın mahiyyətini əks etdirən və ona aid edilə bilən bir neçə misal gətirmək olar: "Kitab ecazkar bir çıraqdır ki, o insan həyatın ən üzaq və qaranlıq yollarını işıqlandırır". (A. Upit). "Elə kitablar var ki, onları yalnız dadmaq lazımdır. Eləlxəri də var ki, onları udmaq və yalnız bir azı var ki, çeynəyib həzm etmək lazımdır" (F. Bekon). "Yaxşı kitab ağılılı adamla söhbət kimidir. Oxucu ondan bilikləri və gerçəkliyə münasinəti, eləcə də həyatı anlamaq qabiliyyətini alır" (A. Tolstoy). "Kitab gözəl həmsöhbət, möhtəşəm alətdir, o möcüzələrlə dolu dərman və parlaq əyləncədir. Həmdə o sadiq dost və ürəyəyatan qonaqdır. O ən yaxşı məsləhətçi və ev əhlidir" (Əl-Cahiz VIII əsr ərab alimi).

Beləliklə, İ. Rəhimov monoqrafiya da qoyduğu problemi dərindən araşdırılmışdır. Kitab çox maraqlı və peşəkar dildə yazılmış və şübhəsiz, cinayət və cəzanın müasir fəlsəfi və hüquqi problemləri ilə maraqlanan mütəxəssislər üçün faydalı olacaq və hüquqi mənbələr sırasında öz layiqli yerini tutacaqdır.

***Rzayev Əli Heydər oğlu***
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun***
***aparıcı elmi işçisi,hüquq elmləri doktoru***

## РЕЦЕНЗИЯ
## на монографию доктора юридических наук, заслуженного юриста АР, профессора И.М.Рагимова «Философия преступления и наказания»

В 2012 году в г. Москве вышла в свет монография доктора юридических наук, заслуженного юриста АР, профессора И.М.Рагимова «Преступность и наказание». Монография, в хорошем смысле слова, вызвала большой интерес среди ученых России и Азербайджана. На презентации монографии, прошедшей в Бакинском Государственном Университете, приняли участие многочисленные известные ученые, депутаты, государственные деятели, руководители правоохранительных органов, представители общественности АР, РФ и других государств СНГ.

Прошло небольшое время, буквально через год, т.е. в 2013 году проф. И.М.Рагимов вновь обрадовал своих почитателей новой монографией «Философия преступления и наказания», изданная в Санкт – Петербурге (изд. дом Р.Асланова «Юридический центр», 2013 – 288 с.). Как и ожидалось, на презентации второй его монографии, прошедшей также в БГУ собралась весьма солидная публика из числа известных ученых и государственно – общественных представителей из стран СНГ.

Масштабное обсуждение, как первой, так и второй монографии проф. И.М.Рагимова, несомненно, вызвало чувство гордости у ученых АР, особенно у молодежи, студентов, аспирантов и докторантов, обучающихся на юридическом факультете за своего земляка, отечественного ученого правоведа И.М.Рагимова. Присоединяясь к этим высказываниям, мы также решили вкратце изложить свое мнение в рецензии на вторую монографию И.М.Рагимова.

Каждый новый век, становясь на плечи накопленного опыта прошлых веков по своему «переваривает» (переосмысливает) проблемы и просчеты века нового. Монография И.М.Рагимова «Философия преступления и наказания» (2013 г.) посвящена одной из самых древних, но не потерявших и в современном обществе узловых проблем в философско-правовой науке.

Ведущий российский психолог Б.Г.Ананьев в 70 –е годы XX века неслучайно заметил, что «выдвижение проблемы человека в центр всей современной науки связано с принципиально новыми взаимоотношениями между науками о природе и об обществе, так как именно в человеке объединены природа и история бесчисленным рядом связей и зависимостей» (Ананьев Б.Г. «О проблемах современного

человекознания» М., 1977).

Прослеживая динамику эволюции социализации человеческой жизни, И.М.Рагимов метко выводил некоторые взаимопересекающиеся точки соприкосновения неписаных религиозных и моральных законов с правовыми законами.

Рассматривая глубину и философский аспект проблемы преступления и наказания, автор отмечает, что «суть преступления не может быть выведена посредством одних лишь теоретических и прикладных криминальных исследований юридического характера без привлечения социологических, психологических, статистических, философских средств познания». В монографии акцентируется внимание на современном методологическом подходе и, в частности, на междисциплинарном, синтетическом подходе в понимании феномена преступления.

Анализируя природу преступности, автор исследует объективные свойства преступности. Так, отталкиваясь от идей известного социолога XX в. П.Сорокина, И.М.Рагимов выдвигает свою точку зрения в понимании объективных свойств преступления и считает, что «преступление выступает как посягательство конкретного человека на установившийся в обществе порядок отношений между людьми, коллективами и личностью».

Научный интерес, на наш взгляд, представляет анализ ситуации противостояния между группой, личностью преступника и нормами общественного поведения. Здесь автор выстраивает понятийную структуру философии преступления и, что наиболее значимо, проводит смысловой водораздел между понятиями «философия преступления» и «философия преступности». Отталкиваясь от гегелевской идеи «бессвязной связи», автор приходит к выводу, что «преступность как сумма разных преступлений не имеет связи между разными преступлениями… и выступает как социальное философско-правовое явление».

Далее уточняя смысловую нагрузку данного понятия, автор считает, что «особенность преступности состоит в том, что каждое отдельное преступление есть результат сознательной деятельности человека, а цифры по преступности складываются стихийно, статистика может не соответствовать реальности». Преступность как явление социальное относится к категории социального, а преступление – разновидность поведения.

В монографии заслуживает специального внимания анализ данный автором структура социального явления, в процессе которого

используется весьма продуктивный синтетический метод, который позволяет одновременно выделить основные социологические и психологические стороны преступности. Логика рассуждений автора, в данном случае, не упустило психологического фактора: психологические переживания служат причиной спонтанного взрыва преступления.

В монографии дана широкая панорама исторического видения и осмысления преступного поведения: античный (Софокл, Пифагор, Платон, Аристотель); классическая школа уголовного права, нового реформационного периода. Новое реформационное время и ее представители Гоббс, Спиноза, Локк, Фихте, Гегель, Фейербах – внесшие новое дополнение в понятие преступления и его причины. В целом можно констатировать, что автор достаточно скрупулезно описал анатомию развития основных теоретических направлений, связанных с понятиями «преступность» и «преступления» (Ч.Беккариа, Ф.Каррана, С.Таганцев, Э.Ферри).

Исследуя точку зрения противников и сторонников классической школы уголовного права, автор отходит от крайних трактовок классической школы и считает, что «классическая школа подходила к преступнику лишь с одной стороны – со стороны учиненного преступления, хотя и признавала, что исследование преступления без совершаемого его субъекта невозможно» (46). Заслуживает внимания точка зрения автора о роли статистики и статистических обобщений, связанных с вопросами преступности, что фактически послужило в дальнейшем важным подспорьем в формировании антропологического и социологического подходов в рассмотрении проблемы преступности.

Анализируя основные положения позитивной школы и классической школы с точки зрения их идейных постулатов, он в доступной форме выводит водораздел между принципами классической и позитивной школы, объясняющих причины преступления.

Рассматривая истоки зарождения и совершенствования идей антропологической школы (Ч.Ламброзо), автор акцентирует внимание на идее, которую выдвигает (Р.Гарофало). Он считал, что антропологическая доктрина преступления отталкивается от биологической науки и, в частности от наследственного инстинкта к каннибализму.

Прослеживая динамику развития идей, связанных с философией преступления, И.М.Рагимов акцентирует внимание, также и на идеях Э.Ферри (1882 г), как основоположника школы по уголовной социологии, ставшей толчком к таким специальным научным ответвлениям как антропология, физиопсихология, психопатология и уголовная статистика. Фактически, И.М.Рагимов совершенно прав в том, что цель школы

Э.Ферри в конечном итоге заключалась в «изучении естественного генезиса преступления, как в самом преступнике, так и в той среде, в которой он живет».

Для социологической науки представляет значительный интерес авторское исследование уголовной социологии и степени ее разработанности в зарубежной правовой науке. Вместе с тем, это позволило автору придти к заключению, что «факторы преступности разделены на две группы – социальные и индивидуальные»… В определении причин преступления, автор приходит к выводу, что социологическая школа отводит место социальным факторам как категории первичных факторов преступности. Отсутствие первичного фактора, т.е. социального, не может привести к жизни и к возникновению причин индивидуального (производного) порядка, т.е. психофизических свойств. Здесь автором метко замечена логическая цепочка: «если причины преступления в самом человеке, то причины самого человека – в среде. Преступник, т.е. «микроб», есть элемент, который приобретает значение лишь тогда, когда он находит себе питательную среду». В монографии отведено значительное место также и экономическому направлению, имеющему богатую теоретическую и практическую базу.

Обобщая анализ теоретических школ по преступности на протяжении развития человеческой жизни и преступности как неотъемлемой части социальной жизни, автор считает, что история развития учений о природе преступного есть история борьбы социальных и биологических направлений. Скрупулезно анализируя характер синтетичности исследуемой проблемы, в монографическом исследовании автор, на наш взгляд, приходит к целостному выводу, о том, что важно понимать и говорить ***не о приоритете того или иного фактора, а о взаимодействии биологического и социального, т.е. человека и среды***.

И.М.Рагимов также считает, что философское (целостное) осмысление понятия преступления, предполагает и систему неписаных законов и заповедей, которые посланы человеку Богом посредством священных книг. Вдумчивый анализ аятов и сур священного Корана, Евангелия еще раз подтверждает и убеждает нас, что автору удалось проникнуть в лабиринты сложной и противоречивой природы преступления, глубоко проникся в сущность (созидательно – разрушительной) природы человека.

Немаловажным аспектом исследования И.М.Рагимова является также и анализ психологических истоков и мотивов преступного поведения. Он задается вопросом, который волновал мыслителей тысячелетиями: «что толкает человека на преступление, какие его

биологические свойства являются источниками его поведения, в том числе и преступного?». В этой связи сопоставляя идущие в разрез точки зрения Руссо и Шопенгауэра, автор приходит к выводу о том, что «зло которое наряду с добром составляет сущность человека, обладает мощной способностью искушать и заманивать человека в свои сети, и если тот, кто поддается темному влечению, его покидает способность к свободному волеизъявлению. Он становится заложником своей страсти, рабом обстоятельств, игрушкой роковых сил». В этой связи автор тонко замечает, что поражение генетической программы, способна вызывать резкое противоречие между социальными и биологическими потребностями, но генетическая программа неспособна играть фатальную роль.

И.М.Рагимов задается глубоко философским вопросом: что же собой представляет этот добрый – злой человек? Его дальнейшие рассуждения, связанные с ответом на данный непростой вопрос, показали, что он придерживается междисциплинарного (целостного) подхода в объяснении сложной природы человеческой психики, его мышления и его деятельности.

В анализируемой нами монографии невольно высвечивается скромность ее автора, который подчеркивает, что самые широкие знания, которые приближают к той или иной истине, всегда носят относительный характер, так как ни одну из реалий природного, социального или духовного мира исследователь не в состоянии изучить до конца. «Искатель» истины всегда в пути и дорогу осилит идущий.

Автор убедительно показывает, что вникая все глубже в суть проблемы наказания, он убеждается в односторонности только юридического подхода к познанию этого сложного феномена и считает необходимым выйти за рамки уголовно – правового и криминологического рассмотрения.

И.М.Рагимов весьма четко и коротко дает ответ и на такой вопрос – почему в заголовок монографии выведена именно «Философия преступления и наказания». Ответ звучит следующим образом: «… без философского осмысления понятия преступления и его причины мы не в состоянии постичь философский смысл понятия и сущность наказания, ибо, только понимая, что такое преступление, возможен тот, или иной акт поведения человека отнести к этому понятию, а потому и реакцию, вызванную им, назвать наказанием». Исходя из этих принципиальных соображений, наш почитаемый соотечественник решил рассмотреть наказание во взаимосвязи с понятием преступления и его причины не только с юридических, но и с философских позиций.

Внимательно прочитав монографию И.М.Рагимова «Философия преступления и наказания» независимо от себя проникаешься необъяснимым странным ощущением, что все те вопросы, которые ставил перед собой автор и давал на них вразумительные ответы преследует и самого читателя, заставляют его также задумываться над этими вопросами, искать на них ответ исходя из своей позиции и сопоставить их с ответами автора. В конце концов, ловим себя на мысли, что И.М.Рагимов достаточно убедительно аргументировал свои ответы на многосложные вопросы и с ними невозможно не согласиться.

Актуальность проблем, которые поднимаются в монографии, представляет огромный интерес, как в теоретическом, так и в прикладном аспекте. Он, безусловно, прав в том, что «человек есть совокупность естественных и социальных качеств, т.е. человек способный ориентироваться в мире знаков, символов и смыслов – от наиболее простых до самых сложных».

Думаем, что монография известного ученого правоведа И.М.Рагимова представляет научно – практический интерес для специалистов широкого профиля и послужит для юристов, философов, социологов, психологов, педагогов, врачей и преподавателей высших учебных заведений, существенным подспорьем на путях приобретения мировоззренческой культуры в своей профессиональной деятельности.

***Азимова Рафига Джалиловна***
***Зав. отделом «Социологии и социальной психологии» Института Философии, Социологии и Права НАНА, доктор философских наук, заслуженный деятель науки***

***Джафаркулиев Мирага Ашраф оглы***
***Заместитель зав. отдела «Уголовного права и уголовного процесса» Института Философии, Социологии и Права НАНА, доктор юридических наук, профессор***

## О постижимости сущности преступления средствами научного познания
### *(Размышления о монографии И.М. Рагимова)*

26 ноября 2013 года в Бакинском Государственном Университете состоялась презентация монографии заслуженного юриста Азербайджанской Республики, доктора юридических наук, профессора И. Рагимова «Философия преступления и наказания».

В этом мероприятии, которое прошло в обстановке плодотворной научной дискуссии, приняли участие сотни специалистов в сферах философии и права, политологии и социологии, теологии и психологии, депутаты Милли Меджлиса и судьи Конституционного суда, сотрудники правоохранительных органов и представители средств массовой информации. Среди участников презентации были и известные ученые-юристы из России, Грузии и других стран, а также главы ряда зарубежных дипломатических миссий, аккредитованных в Азербайджане.

Творческую атмосферу презентации создали содержательные доклады ряда отечественных и зарубежных ученых-юристов, философов и теологов, политологов и психологов. Высказанные ими неординарные мысли и подходы к проблемам преступления и наказания стали важным подспорьем для последующих обсуждений широкого круга вопросов, затронутых в монографии.

Весьма запоминающимся стало и выступление самого автора монографии, профессора И. Рагимова, которое отличалось интересными мыслями, строгой аргументацией выстроенных им концепций о сущности преступления, преступного поведения и наказания.

Естественно, столь яркое и содержательное выступление не могло остаться без внимания: по окончании презентации в кулуарах возник бурный обмен мнениями между участниками, как по докладу автора, так и по самой монографии.

И это закономерно, так как новое исследование И. Рагимова является знаковым событием в теории уголовного права и криминологии, представляет собой своего рода мини-энциклопедию корневых проблем учений о преступлении и наказании.

В нем подвергнут системному исследованию широкий круг фундаментальных проблем учений о преступлении, преступном поведении и наказании. Учитывая это, крайне сложно в рамках одной публикации проанализировать все те ценные выводы и идеи, которые содержатся в монографии профессора И. Рагимова.

Поэтому в предложенной вниманию читателей статье автор

остановился лишь на анализе общей характеристики книги и вопросов, касающихся сущности преступления.

Что же касается оставшегося за рамками этой статьи анализа воззрений профессора И.Рагимова на сущность преступного поведения и наказания, являющихся также предметов исследования его книги, то я постараюсь данным вопросам посвятить отдельную публикацию.

Общая характеристика книги

Выступая на церемонии презентации, известный азербайджанский теолог Э. Кулиев подчеркнул, что данная монография имеет неоценимое достоинство, она заставляет читателя думать. И с этим выводом трудно не согласиться.

Со своей стороны отмечу, что эта работа профессора И. Рагимова, написана в гуманистической тональности, *sine ira et studio.* В процессе ее чтения как-то незаметно, исподволь читатель настраивается думать масштабно, вникать в суть анализируемых в ней проблем, по-новому взглянуть на сложившиеся стереотипы по вопросам преступления и наказания.

Другая особенность – это положительная энергия, исходящая от монографии: буквально с первых страниц знакомства с ней у читателя на интуитивном уровне возникает чувство ожидания нового слова, новой мысли, новой гипотезы о сущности преступления и природе наказании.

Это интригующее чувство стремительно усиливается, когда начинаешь постепенно вникать в суть авторского видения причин преступления и преступного поведения. При этом чем больше углубляешься в суть неординарных суждений автора, тем чаще приходится прибегать к помощи различных литературных источников, так как испытываешь недостаток в собственных познаниях для проникновения в глубинные пласты авторской мысли, открывающие для читателя новые грани онтологии преступления, преступного поведения и наказания.

Книга написана с новаторских позиций, направлена на познание преступления, такого, каким оно является само по себе, независимо от того, какое приложение оно получило в позитивном праве.

Исследование осуществлено не только сквозь призму философии и права, как это следует из названия монографии. Наряду с этим, в ней автор затронул и широкий пласт биологических и социологических, теологических и психологических, этнопсихологических и психофизиологических проблем, что весьма важно для дальнейшего приращения учений о преступлении и наказании.

Необходимо выделить последовательную и стройную концепцию исследования. Она свободна от силлогистики и линейных суждений,

избитых формулировок и пространных рассуждений по мелким вопросам. В ней удачно сочетается глубокий анализ сложного теоретического материала с высокой юридической культурой, строгий подход к изложению авторской позиции с корректным тоном полемики с другими исследователями.

Такое уважительное отношение к позиции других авторов показывает не только высокую научную этику И.Рагимова, но и свидетельствует о его бережном отношении к авторским правам ученых, к трудам которых он обращается в своей книге.

В монографии критически осмыслены многие существующие подходы к генезису преступления, преступного поведения и наказания, подвергнуты анализу принципиальные пробелы уголовного права и криминологии в рассматриваемой сфере, показаны пути их решения.

Книга отличается высокой читабельностью, солидной фактологической и эмпирической базой исследования. В ней представлены труды философов и теологов, правоведов и социологов, психологов и генетиков, достаточно адекватно, а главное, ясно изложены их взгляды по обсуждаемым проблемам.

Работа насыщена историко-правовой информацией, которая не только позволяет читателю приобщаться к знаниям, дошедшими до нас из прошлого, но и во многом обогащает его познания об основных вехах развития уголовно-правовой мысли о преступлении, преступном поведении и наказании.

В познавательном плане монография И. Рагимова интересна и содержащейся в ней обширной информацией религиозного характера. При этом автор демонстрирует глубокие знания не только правовых воззрений иудаизма, христианства и ислама, но и морально-нравственных ценностей Корана, Ветхого и Нового Завета, которые гармонично вплетены в ткань его исследования.

Книга отличается комплексным подходом к избранной теме. Системность, масштабность и глубокий подход к избранной теме дали возможность И.Рагимову, с одной стороны, актуализировать разработанные ранее вопросы с точки зрения современных подходов к проблемам преступления и наказания в философии и социологии, теории уголовного права и криминологии, а с другой – выявить комплекс новых проблем и предложить пути их решения.

Что же касается актуальности нового монографии И.М. Рагимова и ее значимости для практики борьбы с преступностью, то мне представляется, что они несомненны, если учесть те негативные процессы, которые происходят в структуре и динамике

регистрируемых как в Азербайджане, так и в других странах СНГ преступлений, о чем достаточно убедительно говорится в книге (с 132-136).

Должное внимание уделено и анализу причинного комплекса осложнения криминальной обстановки в стране. Здесь хотел бы к высказанным И.Рагимовым аргументам добавить еще один немаловажный фактор, отрицательно влияющий на динамику и структуру совершаемых в Азербайджане преступлений.

Речь идет о систематической интервенции отечественных и зарубежных СМИ (в особенности телевидения) в сознание людей, внедрении ими ущербных поведенческих программ в психику социума, контроль над которыми им недоступен, циничном воспевании культа насилия и бездуховности, криминальной субкультуры и «героического» образа преступника, их целенаправленной игре на самых темных инстинктах людей, что подсознательно пробуждает низменные наклонности у неустойчивых лиц.

Длительное и систематическое манипулирование СМИ массовым сознанием, насаждение ими среди социума управляемого восприятия действительности, раскачивание морально-нравственных устоев общества и т.д. стали сегодня в стране одной из главных причин инверсии базовых ценностей, углубления в ней кризиса морали и атрофии нравственности.

Все это не только попирает первоосновы человеческого бытия и всего миропорядка, беспощадно растаптывает моральные устои общества, но и непосредственно отражается на состоянии преступности. Отсюда одна из причин того, что за последние десять лет в Азербайджане преступность возросла более чем на 50%, а количество тяжких преступлений - более чем на 80%.

В то же время по данным Госкомстата прирост населения страны за этот период составляет менее 10%.

В свете сказанного монографию И.Рагимова следует рассматривать как принципиально новое, фундаментальное и актуальное научное исследование, в котором подвергнуты комплексному анализу многие нерешенные или же спорные вопросы о преступлении, преступном поведении и наказании, выдвинут ряд принципиально новых идей, существенно обогащающих наше представление о сущности преступления и природе наказания.

В новой книге И. Рагимова есть много и других положительных моментов, достойных публичного внимания. Однако тесные рамки статьи не позволяют остановиться на них даже тезисно. Поэтому ограничусь лишь указанием еще на одно из ее достоинств: книга гармонично совмещает в

себе анализ как сложных теоретических, так и актуальные прикладных проблем, в силу чего отвечает как на насущные потребности теории уголовного права и криминологии, так и на многие сложные вопросы правоприменительной практики.

Завершая краткий обзор общей характеристики работы, хочу сослаться на великого русского философа Н.Бердяева, который в начале XX века, анализируя состояние отечественной науки, писал: «Мы стыдливо прячемся за исторические исследования *о чем-то...* Нужен огромный творческий дар, чтобы сказать *что-то,* сказать же *о чем-то* можно и при гораздо более скромных дарованиях» (Н. Бердяев. Философия свободы. М., 2007. С. 7-8).

Полагаю, что вынесенная на суд читателей новая фундаментальная работа профессора И. Рагимова «Философия преступления и наказания» относится к числу тех редких исследований, в которых говорится *что-то.*

Философия преступления

Несмотря на наличие обширной литературы и на большой объем журнальных публикаций по проблемам преступления и наказания, сегодня все чаще и чаще у исследователей возникают вопросы:

а) где начало начал преступления и преступного поведения?

б) что есть причина причин преступления и преступного поведения?

в) в чем ценность бытия наказания за конкретное преступление?

г) почему одни люди совершают преступления, а другие нет?

Причем, эти вопросы не носят дефиниционный характер, так как ответов на них с позиции позитивного права достаточно много в современной литературе.

Пытливый ум современного исследователя стремится выйти за узкие рамки нормативного подхода к этим явлениям. Его более не устраивают существующие воззрения ни теологической, ни классической, ни социологической, ни антропологической и т.д. школ в уголовном праве на преступление и наказание, так как считает, что «нет и не может быть истин на все времена и на все случаи жизни»[i]. Поэтому для него эти воззрения служат лишь «сырым необработанным материалом, в котором действительность и ценность хаотически переплетены и между ними нет упорядоченной взаимосвязи» (Голик Ю.В. Истина в уголовном праве. 2013. С.7).

Отталкиваясь от этой объективно существующей данности и накопленных предыдущими поколениями знаний о преступлении ( Чичерин Б.Н. Философия права. М., 1904. С. 38), он идет дальше, стремиться

поместить это социальное явление в единую теоретическую конструкцию действительности (бытие, ценность, смысл и суть) и таким путем постичь его внутреннюю связь, проникнуть в природу преступления и тайну его бытия, лежащие пока - что за пределами науки и «фокуса зрения софии» исследователя.

Такой методологический подход к исследованию сущностных проблем преступления и наказания оправдан, так как «ни одна научная дисциплина не существует в готовой, замкнутой и неизменной форме, …но всегда является изменяющейся системой взглядов, теорий, гипотез и утверждений, проблем и вопросов, на которые ученые ищут ответы, нередко опровергая то, что еще недавно признавалось безусловным» (Щепаньский Ян. Элементарные понятия социологии. М.,1969).

Избрав эту непроторенную дорогу науки, И.Рагимов отказывается рассматривать преступление как эмпирический факт. Он предпринимает попытку познать его сущностную характеристику и внутреннюю природу вне рамок уголовного закона.

Этим самым автор пытается получить вразумительные ответы на такие сложные вопросы, как:

а) что такое преступление вне уголовного закона;

б) где причины и в чем истоки преступного поведения человека;

в) в чем заключается сущность наказания и откуда оно взялось;

г) за что и зачем наказывать, кого и как наказывать;

е) кому принадлежит право наказания, кто это право дал и т.д.

Этот далеко неполный перечень исследовательских задач составляет основу архитектоники анализируемой монографии (с. 12).

Углубляясь в сущее (первопричину) и бытие (природу существования) анализируемого негативного социального явления, И.Рагимов стремится найти ответы на поставленные выше вопросы преимущественно посредством познавательных инструментариев философии и онтологии, теологии и психологии (порой видны и следы метафизики) и на основе полученных данных привнести в уголовное право новое видение преступления.

Так, ставя цель рассмотреть преступление вне уголовного закона, И. Рагимов тем самым отказывается слепо руководствоваться древнеримским постулатом *«Nullum crmen, nulla poena sine lege»* (кстати, заимствованного римскими юристами у Люцифера ( Об этом подробно см.: Гилинский Я. Конструирование преступности //Уголовно-политические, уголовно-правовые и криминологические проблемы борьбы с современной преступностью и коррупцией. Саратов, 2009), возведенным в настоящее время адептами римского права в ранг парадигмы.

Взвесив все *pro и contra*, автор не воспринимает его как *«satis constat»*.

Мне представляется, что автор в этом прав. Преступление, как индивидуальный поведенческий акт, в истории человечества возникло гораздо раньше, чем это было зафиксировано в позитивном праве, порожденном человеком в рамках созданного им государства.

Примером этому могут служить многочисленные исторические факты, фиксированные в древних и современных носителях информации. Например, когда Каин из корыстных побуждений совершил умышленное убийство Авеля, не существовали не только светские позитивные законы, но и религиозные. Однако, невзирая на это, Каин был признан Всевышним виновным в умышленном убийстве и понес за это суровое наказание (И сказал (Господь): что ты сделал? Голос крови брата твоего вопиет ко Мне от земли;  и ныне проклят ты от земли, которая отвергла уста свои принять кровь брата твоего от руки твоей; когда ты будешь возделывать землю, она не станет более давать силы своей для тебя; ты будешь изгнанником и скитальцем на земле» //Ветхий Завет. Бытие. 4. 8,9,10,11,12).

Этот частный пример позволяет предположить, что:

1) человек с момента рождения внутренне запрограммирован как законами добра и зла, так и склонностью совершать преступления;

2) социальная среда не является определяющей причиной преступного поведения. Как справедливо отмечает И.Рагимов, ее «следует, скорее, рассматривать не как причину преступного поведения, а как условие, при котором психофизиологические особенности человека себя проявляют» (с. 116);

3) возможность существования преступления вне рамок уголовного закона ставит под сомнение истинность отдельных положений концепции социального конструкта.

Как известно, сторонники этой концепции считают, что «в реальной действительности нет объекта, который был бы «преступностью» (или «преступлением») по своим внутренним, имманентным свойствам, *«sui generis, per se»*, так как «преступление не является чем-то естественным по своей природе, а суть социальный конструкт» (Видимо, не случаен в этой связи и тот факт, что эти, как и некоторые иные деяния, не являются исключительным достоянием какого-либо одного национального уголовного законодательства, а присутствуют в УК всех стран мира).

Иными словами, по мнению сторонников социального конструкта, все виды преступления, которые включены в национальные уголовные

кодексы, являются не чем иным, как продуктом человеческого представления о добре и зле. А коль так, то человек (общество, государство) может в любой момент пересмотреть установленные им же самим критерии понятия «добра и зла», в результате чего отдельные деяния, еще вчера не считавшиеся преступлением, сегодня могут быть им криминализированы и наоборот.

Не отрицая наличия рационального зерна в учении о социальном конструкте и соглашаясь, что большинство ныне криминализированных деяний есть не что иное, как социальный конструкт (например, преступления в сфере экономической деятельности, должностные преступления, преступления против интересов службы в коммерческих иных организациях т.д.), вместе с тем надо признать, что есть и преступления *malum in se*, которые появились одновременно с порождением человека и являются одной из ветвей генеалогического древа *Homo sapiens*.

Многие виды этих естественных преступлений *(crime naturale)* посягают на сущностную природу человека и на абсолютную, вневременную ценность его бытия, которые дарованы человеку с момента его рождения. В силу этого они вечны, неприкосновенны и неотчуждаемы, не могут быть замещены, пересмотрены или сужены кем-то ни было ни во времени, ни в пространстве. Поэтому посягательство на них всегда считался, считается и будет далее считаться преступлением.

Наконец, эти преступления не могли быть сконструированы государством по той простой причине, что они возникли намного раньше, чем государство (к примеру, умышленное убийство, кража, умышленное причинение тяжкого вреда здоровью человека, изнасилование и т.д.

Таким образом, история свидетельствует, что ни в одном обществе, начиная с архаического земного первообщества Адама и Евы с его обычным правом, и заканчивая современными обществами (в том числе и тоталитарными) с их позитивным правом, не ставилось под сомнение, что умышленное убийство, кража, умышленное причинение тяжкого вреда здоровью человека и т.д. являются злом (первобытное общество), тяжким грехом (теологическое общество), преступлением (светское общество), совершение которого влечет для виновного воздаяние.

Поэтому хотим мы того или нет, но должны признать, что не все виды преступления сконструированы обществом, властью, режимом. Наряду с преступлениями, порожденными цивилизацией (*crime publicum*), есть и естественные преступления (*crime naturale*), возможность совершения которых, как это было отмечено выше, изначально заложена в генах человека, в силу чего является его имманентной свойством.

Этот вывод находит свое подтверждение и наличием у человека особого гена, заставляющего его вести себя агрессивно.

Принимая во внимание, что он (ген агрессии) имеет власть над сознанием человека, существенно ограничивает его свободу выбора, сегодня в ряде индустриально развитых стран наличие у подсудимого гена агрессивности расценивается судами как смягчающее обстоятельство.

В качестве примера можно сослаться на дело А. Бейаута, осужденного в 2007 г. на девять лет лишения свободы за умышленное убийство.

В 2009 г., рассматривая апелляционную жалобу осужденного и его адвоката, судья апелляционного суда города Триеста (Италия) Рейнотти сократил ему срок первоначального приговора на один год, так как было установлено, что у осужденного есть ген, отвечающий за повышенную агрессию.

В свете сказанного считаю, что профессор И. Рагимов прав, когда пишет, что «причинами преступлений могут быть как социальные условия, так и психофизиологические особенности человека» (с. 129-130).

**Аликперов Ханлар,**
**Доктор юридических наук, профессор**